Aynur Bəşirli

Aynur Kərimova

Dilarə Vəkilova

XƏBƏRÇİLİK

XƏBƏRİN TOPLANMASI VƏ YAZILMASI

Azərbaycan Respublikası təhsil nazirinin
28 fevral 2007-ci il tarixli 176 saylı
əmri ilə dərslik kimi təsdiq edilmişdir

DƏRSLİK

Bakı-2007

Elmi redaktor: Zeynal Məmmədli, Bakı Dövlət Universiteti

Məsləhətçi: Duqlas Kosper, Kolorado Universiteti, ABŞ

Rəyçilər: Qulu Məhərrəmli, BDU, professor

Elçin Şıxlı, Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna" – "Zerkalo" qəzetlərinin baş redaktoru

Arif Əliyev, "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri

Rəssam: Leyla Salamova

Səhifələmə: Rəşad Məmmədli

Korrektor: Şəhla Tahirqızı

Dərslik ACİYF-nun vəsaiti ilə maliyyələşdirilib.

Pulsuzdur.

DÜŞÜNƏRƏK DƏYİŞƏN,

DÜŞÜNDÜRƏRƏK DƏYİŞDİRƏNLƏRƏ ...

İÇİNDƏKİLƏR

Tələbələrə CİVƏ 1, ALOV 1

I BÖLÜM. XƏBƏR VƏ XƏBƏRÇİLƏR

Fəsil 1. Xəbər axtarışında

Olayı Xəbər edən nədir?

Üçölçülü Xəbər

Xəbərin digər elementləri CİVƏ 2

Qaynar, İsti və Soyuq xəbərlər

Kimin üçün yazırıq?

Təcrübəni bölüşənlər: Robert Slaqt

Çalışmalar

Ədəbiyyat

Xəbər tarixinin bələdçisi

Fəsil 2. Xəbər tapanlar

Reportyor kimdir? CİVƏ 3

Bir medalın iki üzü, yaxud 2 “F”-dən biri: fakt ya fikir jurnalistikası?

Dəyişən və dəyişməyən xəbərçilik. İlk peşəkarlar

XX əsr jurnalistikasında meyllər: Subyektiv və Obyektiv xəbərçilik

Təcrübəni bölüşənlər: Elçin Şıxlı

Xəbər standartları

Azərbaycan jurnalistlərinin peşə etikası kodeksi

Çalışmalar

Ədəbiyyat

II BÖLÜM. XƏBƏRİN TOPLANMASI

Fəsil 3. Çap mediasında qaynaqlar

Qaynaqların özəllikləri

Təcrübəni bölüşənlər: Qulu Məhərrəmli

İnformasiya qaynaqlarınız CİVƏ 4

Çalışmalar

Ədəbiyyat

Fəsil 4. Müsahibə

Uğur kvadratı

Müsahibə aparma texnikaları

Müsahibəyə hazırlıq

Müsahibəyə razılıq

Müsahibənin başlanğıcı

Qeydgötürmə və diktofon

“Nə üçün ?” və “Necə ?” sualları

Qulaq as, ayıq ol, qayğıkeş görün

Müsahibənin sonu

Çalışmalar

Ədəbiyyat

Fəsil 5. Müşahidə metodu və sənədlər

Müşahidə

Bələdçi

Sənədlər ALOV 7

Jurnalistləri məlumatlandırmanın digər üsulları
Mətbuat konfransları
Alışdığımız - analitik informasiya qaynaqları
Kompüterləşdirilmiş informasiya qaynaqları və daçıyıcıları
Anonim qaynaqlar
Qaynaqlarla işin etik aspektləri
Hüquq bələdçisi
Çalışmalar
Ədəbiyyat

III BÖLÜM. NECƏ YAZMALI
Fəsil 6. Piramidalar çevriləndə
Piramidaların sirri CİVƏ 5
Təcrübəni bölüşənlər:Sevinc Abdullayeva
Lid – xəbər piramidasının dayaq nöqtəsi
Təcrübəni bölüşənlər: Sevinc Abdullayeva
Birbaşa və dolayı lidlər
Nədən başlamalı? Lidi necə tapmalı?
Lidi necə yazmalı?
Lid bütün suallara cavab verməlidirmi?
İsti xəbərin strukturu
“Background”-olayın tarixçəsi
Birlikdə çalışaq
Çalışmalar
Ədəbiyyat

Fəsil 7. Xəbər soyuyanda

Odla kül arasında CİVƏ 6
“Soyuq xəbər”, “Feature” ya “Очерк” ? Necə adlandıraq?
Təcrübəni bölüşənlər: Azad Şərif
Soyuq xəbərin ölçüləri
Soyuq xəbərin növləri
Soyuq xəbərin strukturu
Soyuq xəbərin həndəsəsi: Qum saatı və Paxlava
Çalışmalar
Ədəbiyyat

IV BÖLÜM. İXTİSASLAŞMIŞ JURNALİSTİKA
Fəsil 8. Zər qədrini bilənlər
Kimdir onlar?
Beynəlxalq həyat
İqtisadiyyat
Səhiyyə
Kriminal
Mədəniyyət
İdman

V BÖLÜM. ARAŞDIRMA JURNALİSTİKASI
Fəsil 9. Gerçək axtarışında
“Vundsteyn” əhvalatı
Təcrübəni bölüşənlər: Hans Smit
Jurnalist araşdırmasında qaynaqlar
Araşdırma öncəsi
Araşdırmada müsahibələr

Yazını necə yazmalı

Araşdırma jurnalistikasında çətinliklər

Çalışmalar

Ədəbiyyat

İZAHLI SÖZLÜK

TƏLƏBƏLƏRƏ

Yəqin, çoxunuzun uşaq vaxtı xoşlamadığı qınaqlardan biri yaşıdlarınızın sizə məzəmmətlə, təkrar-təkrar “xəbərçi, xəbərçi” deməsi olub. Xəbərçi, yəni ondan-buna, bundan-ona söz aparıb-gətirən. Bir sözlə, etibarsız.

Və yəqin ki, özünüzə sənət seçmək məqamı gələndə, jurnalist olacağınıza qərar verəndə çox yaxşı anlayırdınız ki, bununla peşəkar xəbərçiliyi seçirsiniz. Daha doğrusu, bu işin peşəkarı olmaq istəyirsiniz. Peşəkar xəbərçilik isə dəqiqlik, dolğunluq, bitkinlik, bir sözlə, etibarlılıq deməkdir...

Bəs xəbərçi etibarsızlıqdan etibarlılığa qədər yolu necə qət etdi?

Düz 16 il əvvəl Azərbaycan teleməkanında ilk dəfə ANS-in “Xəbərçi”si efirə çıxanda bu, birmənalı qarşılanmadı. Səbəb dilimizdəki “xəbərçi” sözünün neqativ məna yükü idi. Heç kəsin xəbərlə işi yox idi, amma xəbərçi ilə vardı. Kökü ərəb dilindən gələn “xəbər”in milli jurnalistika tarixində öz tarixçəsi var idi: “Tatar xəbərləri”ni (1832), “Qafqazın bu tərəfinin əxbarı”nı (1845), Həsən bəyin “Əkinçi”sinin “Təzə xəbərləri”ni və “Elmi xəbərləri”ni (1875-77), “Təzə xəbər”i (1912), “Son xəbər”i (1915), hətta bolşevik inqilabı illərində müxtəlif konfrans, komissarlıq və revkomların əxbarlarını, bir də Sovet dönəminin “Müxbir” jurnalını xatırlayaq.

“Xəbərçi” isə təzə versiya idi. Onun qaynağı ərəbdən deyil, jurnalistika fakültəsində hələ 1987-ci ildə başlanmış bir ideyadan doğmuşdu. O zaman tələbə-aparıcılar özlərini məhz “çuğulçu-xəbərçi” kimi təqdim etmiş, bununla da xəbərlərə gəncliyin gətirə biləcəyi bir ruhu, təravəti gətirmək istəmişdilər. “Xəbərçi”nin də amacı aydın idi: XƏBƏR vermək.

FƏRQLİ bir xəbər. Məhz FƏRQLİ XƏBƏR konsepsiyası az keçmiş xəbərçiliyin neqativ məna yükünün itməsinə, əksinə, yeni məna qazanmasına gətirib çıxardı.

Demək, məsələ sözdə deyilmiş. Məsələ bizim sözü necə qəbul etməyimizdə, ona hansı mənanı vermək istəyimizdə imiş. Beləliklə, xəbərçilik yeni məna kəsb etdi.

Və siz məhz buna görə uşaqlıq assosiasiyalarına məhəl qoymadan, tərəddüd etmədən xəbərçiliyi seçdiniz.

Biz də bu kitabın adını tərəddüdsüz “Xəbərçilik” qoyduq. Bu kitab peşəkar xəbərçilik barəsindədir.

Bu kitab peşəkar xəbərçilik barəsindədir.

Xəbər tarixinin bələdçisi [1]

Antropoloqlar dünyanın bizim dövrümüzə gəlib çatmış ibtidai mədəniyyətlərini müqayisə edərkən gözlənilməz bir hadisə ilə rastlaşıblar. Afrikanın ən ucqar, təcrid olunmuş tayfalarından Sakit okeanın ən uzaq adalarına qədər insanlar üçün xəbər anlayışı eyni olub. Onlar hamısı eyni qeybətləri ediblər. Hətta xəbəri yığmaq və ötürmək üçün də tapdıqları ismarışçılar – messencerlər də eyni olub. Tarix və müxtəlif mədəniyyətlər boyu insanlar hər zaman eyni xəbərləri bölüşüblər.

M. Stefens

≈ b.e.ə. 100 000	**≈ b.e.ə. 8000**	**≈ b.e.ə.3500**	**≈ b.e.ə.3100**
Homo sapienslə birlikdə nitq yaranır.	Kənd təsərrüfatı və daha sabit cəmiyyətlər yaranır. Yığıncaqlar, səyahətlər, qasidlər, carçılar, tüstü siqnalları və təbil səsləri xəbərin ötürülməsində yardımçı olur.	Çinlilərin atı əhliləşdirməsi xəbərin yayılma sürətini artırır.	Dünyada ən qədim yazı sistemləri – Mesopotamiyada lövhələr, Misirdə heroqliflər yaranır. Söz simvolla çatdırılır.
≈ b.e.ə.1500	**≈ b.e.ə. 750**	**≈ b.e.ə. 450**	**≈ b.e.ə. 443**
Hanaanda (Fələstin, Suriya və Finikiyanın qədim adı) ilk əlifba yaradılır.	Yunanlar Hanaanların əlifbasına saitlər əlavə edərək yeni əlifba yaradırlar. Yunan əlifbasının müxtəlif versiyaları bütün Avropada işlənir.	Afinalılar İranın Yunanıstana ilk hücumunu dəf edirlər. Deyilənlərə görə, Feydippides adlı yunan qasidi Marafondan Afinaya qaçaraq qələbə xəbərini gətirmiş və ölmüşdür.	Herodot Yunan-İran müharibələrini qələmə almaqla Qərb tarixşünaslığının ilk əsərini yaradır.

[1] Xronologiyanın tərtibində M. Stefensin "A History of News", S. Tohidinin "Azərbaycan dövri mətbuatı: 1875-1990" kitablarından istifadə edilmişdir.

b.e.ə. 334	b.e.ə.323	b.e.ə. 145	b.e.ə.59
Makedoniyalı İsgəndər İran üzərində qələbəsindən sonra təzə evlənmiş əsgərlərə qışda evə qayıtmağa icazə verir və onlarla Afinaya 300 düşmən dəbilqəsi göndərir. Bu addım qələbə xəbərini yaymaq məqsədi güdə bilərdi.	Makedoniyalı İsgəndərin ölümündən sonra imperiya yalnız 13 il əmin-amanlıq şəraitində yaşayır. Xəbər sisteminin işləməməsi imperiyanın çökməsinə səbəb amillərdən biri kimi qiymətləndirilə bilər.	Roma imperiyasında Forumun ətrafındakı açıq havadakı görüş yerində romalılar hər gün son xəbərləri eşitmək üçün toplaşırdılar.	Yuli Sezar Senatda gündəlik baş verən hadisələrin yazıldığı Aktanın Roma Respublikasının hər bir yerinə çatdırılması barədə əmr verir.
105	**445**	**618**	**911**
Çində kağız ixtira olunur. Bu ixtiranın Avropaya çatması 1000 il çəkir.	Vandallar Romanı qəsb edirlər. Roma imperiyasının süqutu Avropada ticarət və ədəbiyyatın tənəzzülünə gətirib çıxarır. Uzaqdan xəbərlər kəsilir.	Tanq sülaləsi Çin imperiyasını yenidən bərpa edir. Tipao – rəsmi xəbər bülletenləri imperiya daxilində elita qrupları arasında mühüm xəbər mənbəyinə çevrilir. Bu dövrdə Çində ixtira edilmiş daş çapından "tipao"nun nüsxələrini çoxaltmaqda istifadə edilirdi.	Çində "Kinq Pao" ("Paytaxt xəbərləri") qəzeti çıxır.
960	**1160**	**≈1250**	**1275**
Sanq sülaləsi həm rəsmilərin, həm də savadlıların oxuduğu yeni xəbər bülletenləri buraxır. 1279-cu ildə süqutundan bir az əvvəl Sanq sülaləsi qeyri-hökumət qəzetlərinə senzura tətbiq edir.	Tudelalı Ravvin Bencamin İspaniyadan Çinin sərhədlərinə kimi səyahət edir. Onun səyahət hesabatları ilk səyahət xəbərləri kimi qiymətləndirilə bilər.	Şifahi xəbərlər orta əsrlər Avropasında xəbərin ən geniş yayılmış növü idi. Ölüm xəbərləri, fərmanlar, yeni şərabın gətirilməsi xəbərini parislilərə carçılar çatdırırdılar.	Venesiyalı Marko Polo Çin hakimi Kubliya Xanın məhkəməsindən sonra məhbəsdə bir yazıçı ilə eyni kameraya düşür. Marko Polo həmin yazıçıya öz səyahətini diktə edir.

≈ 1450	1467	1470	1481
İohan Quttenberq çap maşınını ixtira edir.	İlk dəfə olaraq Berndə çapla məşğul olmaq üçün rəsmi razılıq – imtiyazlar verilir. Naşirlərə imtiyaz verib-verməmək hökumətin çap üzərində nəzarətini təmin edirdi.	Bizə məlum olan ən qədim çap edilmiş xəbər İtaliyadakı turnir barədədir. Bu, idman xəbərlərinin ən erkən variantı sayıla bilər.	Osmanlı imperiyasının yaranmasında böyük rol oynamış II Sultan Məhəmməd vəfat edir. Uels şahzadəsi Edvard sultanın ölümündən iki il sonra xəbər tutur. Bir italiyalının Konstantinopoldan bu xəbəri yazdığı məktub ona yalnız bu zaman yetişir.
1493	**1502**	**1509**	**1538**
Kolumb səyahətindən qayıdır, onun səyahət xəbərləri çap olunaraq yayılır.	İspaniya hökmdarları Ferdinand və İzabella bütün çap məhsullarının çapı üçün hökumətdən və ya kilsədən lisenziya alınmasını tələb edirlər.	Çap edilmiş xəbər kitabında İngiltərə kralı VII Henrinin qızı 12 yaşlı Merinin Müqəddəs Roma imperiyasının varisi Avstriya şahzadəsi 7 yaşlı Karlla nikahından xəbər verilir. Çap edilmiş dedi-qodu və ya məşhurlar barədə ilk xəbər nümunəsi.	Fransada dərc edilmiş xəbər kitabında Vezuvi vulkanının püskürməsini öz gözləri ilə görən bir nəfərin söhbəti dərc edilir.
1566	**1609**	**1615**	**1618**
Qazetta və ya avisi kimi tanınan əllə yazılmış xəbər vərəqləri Venesiyada yayılmağa başlayır. Bu müasir qəzetin əcdadı sayıla bilər.	Avropanın bizim günlərə gəlib çatan ən qədim qəzeti Almaniyanın Strasburq şəhərində həftəlik çıxarılır.	Yaponiyada “kavaraban” adlanan xəbər bülletenləri çap edilir. Kavarabanlar dedi-qodu, qalmaqal və sensasiya ilə dolu olur.	Ticarət və biznes mərkəzi olan Amsterdamda ilk qəzet çap olunur.

1618	1620	1624	1634
Avropada otuzillik müharibə başlanır. İlk çap qəzetləri katoliklərlə protestantların döyüşləri barədə xəbərlərlə dolur.	İngiltərənin ilk qəzeti Amsterdamda dekabrın 2-də çıxır. Həmin ilin əvvəllərində Amsterdamda ilk fransız qəzeti çıxır.	Otuzillik müharibədə protestantların tərəfində vuruşan alman muzdlusu Ernst Mansfeld İngiltərə qəzetlərində "mediaulduza" çevrilir. O, 1624-cü ildə İngiltərədə olarkən insanlar küçələrdə onun arxasınca düşürdülər.	*"Qəzet de Frans"* Qalileyin "Günəş kainatın mərkəzidir" ideyasına qarşı başlanmış məhkəmə işindən hesabat verir. Müxbirlərin rəğbəti Qalileyin "absurd və səhv" ideyalarının deyil, inkvizisiyanın tərəfində olur.
1644	**1645**	**1649**	**1650**
Con Milton İngiltərədə vətəndaş müharibəsi zamanı mətbuat azadlığını müdafiə edən "Areopagitika" pamfletini dərc edir.	Amsterdamda 8 həftəlik və bir neçə iki həftədən bir çıxan qəzet dərc edilirdi.	I Karl edam edilir. Qəzetlər bu hadisəni xəbərləyir.	İngiltərədə Oksfordda ilk qəhvəxana açılır. Burada insanlar xəbərləri bölüşürlər.
1650	**1655**	**1655**	**1670**
Bizə məlum olan ilk həftəlik qəzet Leypsiqdə çıxır.	Oliver Kromvel İngiltərədə qəzetlər üzərində nəzarəti bərpa edir.	Fransada həftəlik ilk elmi dövri mətbu orqan çıxmağa başlayır.	İlk dəfə İngiltərədə məktubda "newspaper" termini işlədilir.
1690	**1702**	**1702**	**1704**
Bencamin Harris ilk Amerika qəzetini nəşr edir. Massaçusets koloniyasının qubernatoru ilk saydan sonra qəzeti bağlayır.	İngiltərədə ilk gündəlik qəzet çıxmağa başlayır.	III Vilyam 1702-ci il martın 8-də vəfat edir. Onun ölüm xəbəri Londona 8 saata yayılır. Kralın ölümü onun amerikalı təbəələrinə mayın 17-də çatır.	İkinci Amerika qəzeti Bostonda nəşr olunur.

1712	1729	1735	1765
İngiltərədə qəzetlərə möhür vergisi tətbiq edilir. Bununla qəzetin qiyməti bahalanır. Məqsəd qəzeti kasıb siniflərdən uzaq saxlamaq idi.	Bencamin Franklin Pensilvaniya qəzetinə rəhbərlik edir, onu gözəl tərtibatlı, məzmunlu, canlı, gəlirli bir qəzetə çevirir.	Məhkəmə qiyama çağırışda təqsirləndirilən "*Nyu York Viikli Cornel"in* redaktoru Con Peter Zingerin günahsız olması barədə qərar qəbul edir. Bu mətbuat azadlığı üçün qələbə idi.	Amerika mətbuatı Möhür Aktına qarşı çıxır. Bu akt qəzetin dərc edildiyi hər səhifə üçün vergi nəzərdə tuturdu. Britaniya parlamenti geri çəkilir və aktı ləğv edir.
1773	**1777**	**1783**	**1783**
Boston çay dəsgahı Boston qəzetinin baş redaktorunun evində planlaşdırılır.	Fransada ilk gündəlik qəzet çıxır.	Reportyorlara Britaniya parlamentindən qeydlər götürməyə icazə verilir.	Amerikada ilk gündəlik qəzet çıxır.
1788	**1789**	**1789**	**1790**
Mətbuata ciddi nəzarət üzündən Parisdə yalnız 4 qəzet çıxır.	ABŞ Konstitusiyasına ilk 10 düzəlişdən birincisində deyilir ki, "Konqres söz və mətbuat azadlığını azaldan heç bir qanun qəbul edə bilməz".	Fransada İnsan Hüquqları Bəyannaməsi "düşüncələrin və fikirlərin çatdırılması" azadlığını insan hüquqları içərisində ən qiymətlisi kimi səciyyələndirir.	Köhnə rejimin məhvi Fransada qəzetlərin artmasına gətirib çıxarır. Onların sayı 335-ə çatır.
1792	**1799**	**1814**	**1825**
Fransa inqilabı ölkənin yeni azad və tərəfli mətbuatı ilə birlikdə çökür. Paris Kommunası Royalist jurnalların redaktorlarının həbsi barədə fərman verir.	Fransada Napoleonun yeni konstitusiyasından sonra Parisdə ciddi nəzarət altında saxlanılan 4 qəzet çıxır.	Buxar mühərrikindən ilk dəfə Londonda "*Tayms"ın* nəşrində istifadə olunur. Bununla da bir saatda 250 vərəq deyil, 1100 vərəq çap edilir.	Birləşmiş Ştatlar dünyada adambaşına düşən qəzetlərin sayına görə birinci yeri tutur.

1830	1832	1836	1844
Filadelfiyada ilk qadın jurnalı çıxır.	Parisdə ilk özəl xəbər agentliyi açılır.	İngiltərədə və Amerikada penni qəzetlər əsri başlayır.	Samuel Morze Vaşinqtonda dəmiryol stansiyasında toplaşan insanlara teleqrafın gücünü nümayiş etdirir.
1848	**1848**	**1850**	**1851**
Nyu Yorkun bir çox böyük qəzetləri "Assoşieyted Press" adı altında Bostondan Avropaya, Avropadan Bostona gələn xəbərləri ötürmək üçün paroxodu maliyyələşdirirlər.	İnqilabi qəzetlərin nəşrinə başlanılır. Onlardan birini Karl Marks çıxarır. Həmin qəzetin son nömrəsi qırmızı rəngdə buraxılır.	Aprelin 17-də Qrey Svisshelm Konqresdən xəbər verən ilk qadın reportyor olur.	Henry J. Raymond iki partnyoru ilə birlikdə *"Nyu York Tayms"ı* penni qəzet kimi yaradırlar.
1854	**1855**	**1857**	**1858**
Bir nəfərin qəzeti günləri arxada qalır. *"Nyu York Tribün"* 14 reportyor və 10 redaktorla işləyir.	Britaniyada möhür vergisi ləğv edilir. *"Tayms"ın* gündəlik tirajı 60 000 nüsxəyə qalxır.	Jon Grey Svishlem Minnesotada qəzetində quldarlığa qarşı və qadın hüquqları uğrunda mübarizə aparır. Qaragüruh onun şriftlərini çaya atır.	İlk transatlantik kabelin çəkilişi 1858-ci ilin yayında başa çatır. Bu kabel qırılır, yenisi 1966-da çəkilir.
1858	**1867**	**1868**	**1870**
Londonda Paul Culius *"Röyter"* teleqraf vasitəsilə xəbərləri London qəzetlərinə ötürməyə başlayır. *"Röyter"* agentliyi yaranır.	Kağız parçadan deyil, ağacdan istehsal edilir. Nəticədə onun qiyməti xeyli aşağı düşür.	Yazı makinası ixtira edilir.	Teleqraf və transatlanik kabel sayəsində sentyabrın 4-də III Napoleonun devrilməsi və respublika qurulması xəbəri *"Nyu York Tribün"da* sentyabrın 6-da dərc olunur.

1875	1879	1876	1886
Həsən bəy Zərdabi İyul ayının 22-də Azərbaycanda, Bakıda türk dilində ilk qəzeti çıxarır. *"Əkinçi"* 1877-ci ilə kimi nəşr olunur.	Səid və Calal Ünsizadələr Tiflisdə həftəlik "Ziya" qəzetinin nəşrinə başlayırlar.	Telefon ixtira olunur.	Prezident Qrover Klivlend ictimaiyyətlə əlaqələr qurmaq üçün ekspertdən istifadə edən ilk prezident olur.
1892	**1895**	**1903**	**1906**
"Kim, nə, harada, nə vaxt, necə?" suallarına cavab verən lidlə başlayan xəbərlər yaranmağa başlayır.	Markony İtaliyada simsiz teleqraf – radionu yaradır. Ona 1896-ci ildə İngiltərədə patent verilir.	Məhəmməd Ağa Şahtaxtinski Tiflisdə həftədə 3 dəfə çıxan "Şərqi-Rus" qəzetinin nəşrinə başlayır.	Aprelin 6-da Tiflisdə Cəlil Məmmədquluzadənin satirik "Molla Nəsrəddin" jurnalının ilk sayı çıxır.
1908	**1910**	**1913**	**1919**
Missuri Universitetində ilk dəfə müstəqil jurnalistika fakültəsi açılır.	ABŞ-da gündəlik qəzetlərin sayı 2600-ü keçir.	ABŞ-da sosialist qəzetlərinin sayı 323-ə, onların ümumi tirajı iki milyona çatır.	ABŞ-da ilk uğurlu tabloid qəzet çıxır.
1926	**1927**	**1933**	**1947**
Dünyadakı radio qurğularının yarısı Amerikanın payına düşür.	*"Nyu York Tayms"da* Nikolo Sakko və Bartolemeo Vanzettinin mübahisəli ölüm hökmü barəsində xəbər ilk dəfə Çevrilmiş Piramida formasında yazılır.	Franklin Ruzvelt prezident seçilir və ilk dəfə elektron media - radiodan kommunikasiya üçün istifadə edir.	Çikaqo Universitetinin rektoru Robert M. Hatçinsin rəhbərlik etdiyi komissiya "Azad və məsuliyyətli mətbuat" hesabatını hazırlayır. Hesabatda bildirilir ki, mətbuat azad olmaqdan da çox, məsuliyyətli olmalıdır.

1960	1963	1968	1973
İlk dəfə olaraq prezidentliyə namizədlər: R. Nikson və C. Kennedi televiziyada debat keçirirlər.	Prezident Kennedinin qətlindən amerikalıların 68 faizi yarım saata xəbər tutur.	Bakı Dövlət Universitetində müstəqil Jurnalistika fakültəsi açılır.	*"Vashinqton Post"* Voterqeyt qalmaqalını açır.
1974	**1980**	**1982**	**1990**
Barbara Valters TV xəbərlərində ilk ulduz qadına çevrilərək *ABC* telekanalına bir milyon dollar maaşla axşam xəbərlərini aparmağa dəvət edilir.	R.E. Törner 24 saatlıq CNN kanalını yaradır.	*"USA Tudey"* qəzeti çıxır. Peyk ötürməsi vasitəsilə bu qəzet eyni zamanda ölkənin 32 şəhərində çap edilir.	20 yanvar faciəsi baş verir. Hadisədən əvvəl Dövlət Televiziya və radio Komitəsinin enerji bloku partladılır. Respublika televiziyasız qalır.
1992	**1993**	**1995**	**2005**
26 fevral Xocalı soyqırımı baş verir. Faciə barədə hadisə yerindən reportyor Çingiz Mustafayevin hazırladığı reportaj Bakıda kütləvi etiraza, prezident Ayaz Mütəllibovun istefasına səbəb olur.	Kabel televiziya xətləri telefon zənglərinə cavab verə bilir. Telefon xətləri televiziya siqnallarını qəbul edə bilir. Kompyuter müxtəlif xətlərlə kommunikasiyanın bütün növlərinə qoşula bilir. Konvergensiya başlayır.	*"Gunay"* qəzeti respublikada ilk dəfə "Röyter" agentliyinə abunə yazılır və peyk rabitəsi vasitəsilə xəbərləri alır.	Azərbaycanda İctimai TV açılır.

FƏSİL 1. XƏBƏR AXTARIŞINDA

Mən əvvəlcə tapıram, sonra axtarıram.

P. Pikasso

Bu fəsildə açıqlanacaq suallar:

- *Xəbər nədir?*
- *Xəbərin elementləri hansılardır?*
- *Xəbəri necə dəyərləndirməli?*
- *Auditoriya nə üçün önəmlidir?*

100 il əvvəl redaktorlar Xəbər barədə belə deyirdilər...

"İt insanı qaparsa, bu, xəbər deyil. İnsan iti qaparsa, bu, xəbərdir. Əlbəttə, qələmə alınanda".

Con B. Boqart,
"Nyu York San"qəzetinin şəhər redaktoru

"Mənə orijinal, fərqli, dramatik, romantik, sarsıdıcı, unikal, maraqlı, qeyri-adi, duzlu, dildən-dilə gəzə biləcək xəbərlər gətirin".

Cozef Pulitzer,
"Nyu York Völd" qəzetinin naşıri

Olayı xəbər edən nədir?

Bir-birimizlə görüşərkən salamdan sonra ən çox soruşduğumuz sual "Nə var, nə yox ?"dur. Cavabdan razı qalmayanda qayıdıb təkrar soruşuruq:

“**Təzə** nə var, nə yox ?” Bir sözlə, biz olay axtarışındayıq. Olay “ol” sözündəndir, yəni yoxdan var olan.

Elə olayın məkanı da var ilə yoxun arasındadır, daha doğrusu, yox ilə varın arasında. Olay məhz bu məkanda meydana çıxan yenilikdir. Sadəcə, “Biri var idi, biri yox idi” deyəndə bu yeni bilgi nağıla, “Sabah respublikamızın əksər bölgələrində havanın yağmurlu olacağı gözlənilir” deyəndə bu, hava haqqında təxminə, “Bu gün Bakıda yerli vaxtla saat 12:00-da metronun “Bakı Soveti” stansiyasında qəza baş vermişdir” deyəndə isə bu olay Xəbərə çevrilir.

Xəbər olaydır. Amma hər olay xəbər deyil. Elə buna görə də istənilən olayın xəbərə yararlığını aydınlaşdırana qədər redaktorlardan tez-tez bu sözləri eşitməli oluruq: “Mənə nağıl söyləmə”, “Bunu balaca uşaq da bilir, hətta “Hə, nə olsun ki?”

Elə isə olayı Xəbər edən nədir? İnformasiya nə zaman Xəbərə çevrilir?

Üçölçülü Xəbər

İstənilən olayın Xəbər ola biləcəyini yoxlamaq üçün üç əsas parametr mövcuddur.

1. **Aidlik və ünvanlılıq.** İnformasiyanı alarkən özünüzdən soruşun: “Bu informasiyanın əhəmiyyəti nədir? O, oxucuya aiddirmi, oxucuya ünvanlanıbmı? Bu xəbəri mənim oxucuma çatdırmaq lazımdırmı ?” Məşhur jurnalist Nəriman Zeynalov deyirdi ki, xəbər auditoriyaya hesablanmalıdır. Həqiqətən də, Argentinada prezident seçkisinin nəticələri öz-özlüyündə mühüm xəbər olsa da, Azərbaycan oxucusu üçün yerli bələdiyyələrə seçkilərin nəticələri barədə xəbər bundan daha önəmli

ola bilər. Çünki Azərbaycanda baş verən hadisələr Azərbaycan oxucusunu daha çox maraqlandırır. Beləliklə, Argentinada prezident seçkisi xəbərini argentinalılara, Azərbaycanda bələdiyyə seçkilərinin nəticələri xəbərini isə azərbaycanlılara ünvanlamaq daha düzgündür.

2. **Lazımlılıq.** Bu informasiya lüzumludurmu, yaxud o, oxucuya nə verir? Oxucu informasiyadan yararlana bilirmi? Bu xəbər ona qərar verməkdə yardımçı ola bilirmi? Argentinada kimin prezident seçilməsi Azərbaycan oxucusunun qərarlarına təsir etmir, amma Ceyranbatan bələdiyyəsinə kimlərin seçilməsi bu rayonun sakinlərinin qəbul edəcəyi qərarlar üçün önəmlidir.
3. **Maraqlılıq.** Xəbərin maraqlı olması yuxarıdakı iki parametrin varlığından doğur. Əgər hadisə oxucuya hesablanmış və lazımlıdırsa, onda o, maraq doğurmalıdır.

Aşağıdakı xəbərin bu parametrlərə nə dərəcədə cavab verdiyini birlikdə aydınlaşdıraq.

Örnək 1. Qəbul imtahanlarının vaxtı açıqlandı. Bu il imtahanlarda 105537 abituriyent iştirak edəcək. R. Manaflı, "*EXO*", 14 iyul 2006.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Azərbaycanın ali məktəblərinə qəbul imtahanlarının vaxtını açıqlayıb. Dövlət Komissiyasının ictimaiyyətlə əlaqələr sektorunun yaydığı press-relizə əsasən, imtahanlar I ixtisas qrupuna iyulun 29-da, III ixtisas qrupuna avqustun 3-də, II və V ixtisas qruplarına avqustun 8-də, IV ixtisas qrupuna isə avqustun 12-də Bakı və Naxçıvanda keçiriləcək.

Ali hərbi məktəblərə və liseylərə qəbul imtahanı iyulun 29-da keçiriləcək. İmtahanda iştirak etmək üçün abituriyentin iki sənədi – İmtahana buraxılış vərəqəsi və Abituriyent vəsiqəsi olmalıdır. TQDK-nın

press-relizində bildirilir ki, bu sənədləri sənəd qəbulu komissiyalarından (SQK) I qrup iyulun 26-dan 28-dək, III qrup iyulun 31-dən avqustun 2-dək, II və V qruplar avqustun 5-dən 7-dək, IV ixtisas qrupu isə avqustun 9-dan 11-dək saat 9.00-dan 18.00-a kimi ala bilər.

Sənədləri almaq üçün abituriyentlər şəxsiyyət vəsiqəsini və sənədləri verdiklərini təsdiqləyən arayışı təqdim etməlidirlər. TQDK bildirir ki, Abituriyent vəsiqəsi xüsusi holoqramla qorunur. Press-relizdə xəbərdarlıq edilir: "Bu sənədləri itirmək və ya korlamaq olmaz. Onların əsli əvəzinə dublikatları verilmir". İmtahana buraxılış vərəqəsində abituriyentlərə imtahan verəcəkləri yerin ünvanı və saatı göstəriləcəkdir.

Cavab kartını necə doldurmaq və sınaq zamanı özünü necə aparmaq barədə suallara ətraflı cavabları abituriyentlər İmtahana buraxılış vərəqəsi və Abituriyent vəsiqəsi ilə birlikdə pulsuz alacaqları "Abituriyentin yaddaş kitabçası"ndan tapa bilərlər.

İndi isə görək bu xəbər yuxarıdakı üç ölçüyə uyğun gəlir, ya yox.

1. **"Bu informasiyanın əhəmiyyəti nədədir? O, kimə ünvanlanıb ?"** Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının açıqlamasından göründüyü kimi, bu il abituriyentlərin sayı 105537-dir. Bu rəqəmə onların ailə üzvlərini, müəllimləri əlavə etsək, xəbəri gözləyənlərin sayı bir neçə dəfə artar. Minlərlə insan bu xəbəri oxuyub işlərini planlayır. Demək, informasiyanın cəmiyyətə ünvanlanması şübhə doğurmur.
2. **"Bu informasiya oxucuya nə verir? Oxucu ondan yararlana bilirmi ?"** İnformasiyanın yararlılıq dərəcəsini hesablayaq: 1. Qruplar üzrə imtahanların keçiriləcəyi vaxt və şəhərlər dəqiq açıqlanır. 2. Ali hərbi məktəblərə qəbul imtahanlarının vaxtı bildirilir. 3. İmtahana

buraxılış vərəqəsi və Abituriyent vəsiqəsini necə, harada və nə zaman almaq açıqlanır. 4. İmtahana buraxılış vərəqəsi, Abituriyent vəsiqəsi, "Abituriyentin yaddaş kitabçası" barədə yararlı informasiya verilir. Sənəd qəbulu ilə bağlı bir sıra vacib suallar cavablanır. Demək, informasiyanın yararlılıq dərəcəsi yüksəkdir.

3. **"İnformasiya maraqlıdırmı ?"** Bu xəbəri gözləyənlər üçün birmənalı olaraq maraqlıdır. Hətta xəbəri gözləməyənlər üçün belə maraqlı məqamlar var: abituriyent vəsiqəsi xüsusi holoqramla qorunur, o və İmtahana buraxılış vərəqəsi itsə, yaxud korlansa, onların dublikatları verilmir.

Araşdırdığımız informasiya xəbərin dəyərlərinə cavab verir. Demək, qəzetdə ona yer ayırmaq olar.

Bəzən qəzetdə oxucunun yararlanmadığı, amma ona maraqlı gələ biləcək xəbərlər də dərc olunur. Aşağıdakı misalda olduğu kimi.

Örnək 2. Əkiz bacılar – biri ağ, biri qara, "*GÜN səhər*", 20-28 aprel 2006, (ixtisarla).

İngiltərənin Notingem şəhərində 19 yaşlı Kayli və onun 17 yaşlı əri Reminin əkiz qızları doğulub. Təbii ki, əkizlərin anadan olmasında qəribə heç nə yoxdu. Maraqlısı odur ki, uşaqların dərilərinin rəngi müxtəlifdir: qızlardan biri ağ bənizli, göy gözlü olduğu halda, onun əkiz bacısı qara qaşlı, qara gözlü əsl zənci balasıdır. Həkimlərin dediyinə görə, bu hadisə gənc valideynlərin qarışıq genlərin daşıyıcıları olması ucbatından baş verib. Belə ki onların hər ikisinin anaları ağ dərili, ataları isə zəncidir. Əkizlərdən birinə ağ dərili nənələrinin genləri qismət olub, digəri isə babalarının rəngini götürüb.

Uşaqları ilk dəfə analarına göstərəndə Kayli gözlərinə inanmayıb. O

indiyə kimi belə maraqlı hadisə ilə üzləşmədiyini deyib.

Bu da xəbərdir. Düzdür, o, insanların həyatına, qəbul edəcəkləri qərarlara birbaşa təsir etmir. İnsanlar ondan yararlanmırlar da. Amma qeyri-adi olduğu üçün onların diqqətini çəkir. Bu informasiyanın seçilərək xəbərə çevrilməsini şərtləndirən cəhət insanın təbiətidir, onun qeyri-adi hadisələrə əbədi marağıdır.

Yuxarıdakı misalları ümumiləşdirərək xəbər barədə iki əsas nəticəyə gəlmək olar:

- Xəbər hadisələrin normal axınını pozan, fərqli bir informasiyadır.
- Xəbər insanlara öz həyatları barədə sağlam qərarlar çıxarmağa imkan verən informasiyadır.[2]

Xəbərin digər elementləri

Sadalanan üç təməl parametrlə yanaşı, xəbərə verilən digər tələblər aşağıdakılardır:

- **Təsirli** – Xəbərin təsir dairəsi nə qədərdir? Yəni xəbər nə qədər insana təsir göstərə bilər? "ANS"-in "Xəbərçi"sinin hər buraxılışının ilk xəbərinin davamlı olaraq cəbhə xəttindən verilməsini şərtləndirən cəhət bu xəbərin təsir dairəsidir.
- **Zamanlı** – Xəbər təzə olmalıdır. O, köhnəlibsə, demək, xəbərlikdən çıxıb. *"Nyu York Tayms"ın* sabiq redaktoru Törner Katlecin təbirincə desək, "Xəbər dünən bilmədiyin, bu günsə bildiyin hər şeydir".
- **Münaqişəli** – Münaqişə təkcə xəbərə deyil, istənilən ədəbi nümunəyə, istər nağıl olsun, istər dram əsəri, irəli sürülən vacib

[2] Mencher M. News Reporting and Writing. USA, Brown & Benchmark, 1997. p. 58.

tələblərdən biridir. Qruplar və insanlar arasında narazılıqdan, toqquşmadan bəhs edən xəbər daha çox maraq doğurur.

- **Yenilik** – Xəbərdə mütləq təzə nəsə olmalıdır. Xəbər təkrar ola bilməz. “Azadlıq” qəzetinin əməkdaşı Mirzə Sakit Bayıl həbsxanasına köçürülüb” xəbərində yeni olan Mirzə Sakitin həbsi deyil, onun Bayıl həbsxanasına köçürülməsidir.
- **Qeyri-adilik** – Gündəlik yaşam tərzini, cəmiyyətin qəbul etdiyi normaları, yazılmış və yazılmamış qanunları pozan bir hadisə. Məsələn, paytaxtın mərkəzində göydələn ucaltmaq üçün qədim yaşayış binalarından biri sökülür. Bu binadan köçürülən sakinlərdən biri kompensasiyanın az olması barədə məhkəməyə iddia ərizəsi verir və onun iddiası təmin edilir.
- **Sanballı** – Xəbəri xəbər edən insanlar, özü də məşhur insanlardır. Adi insanlar deyil, məhz məşhurlar xəbərin çəkisini artırır. Bir sözlə, xəbərin çəkisi insanların çəkisi ilə düz mütənasibdir. Məsələn, paytaxt küçələrində natəmizlik, polietilen torbaların uçuşması adi sakinlər üçün adi hadisəyə çevrildiyi halda, Prezident İlham Əliyev: “Özüm gedirəm, vəziyyətlə tanış oluram və bəzi hallarda görürəm ki, ora zibilxana, bura zibilxana, magistral yolların sağında, solunda polietilen torbalar. Bu, dəhşətli bir mənzərədir”, - deyəndə bu, xəbərə çevrilir. [3]
- **Dövrilik** – Barəsində zaman-zaman danışılan, xəbər dövriyyəsindən çıxmayan xəbərlər. Onlar haqqında hər gün danışılmasa da, mövzu vaxtaşırı yada salınır. Məsələn, ermənilərin işğal olunmuş ərazilərdə törətdikləri cinayətlər. Atəşkəsdən sonrakı dövrdə tarixi abidələrin məhvi, bu ərazinin narkotiklərin yetişdirildiyi zonaya və mütəşəkkil

[3] Gün (səhər) , 8-14 iyul, 2006-cı il. M. Qasxanlı. Konsul olayı niyə indi?

cinayətkarlıq yuvasına çevrilməsi, beynəlxalq terrorizmə dayaq durması barədə xəbərlərə 2006-cı ilin yayında meşələrin yandırılması xəbəri də əlavə edildi.

- **Yaxınlıq** – Söhbət coğrafi yaxınlıqdan gedir. İnsanları daha çox onların evlərinə yaxın yerdə baş verən hadisələr maraqlandırır. Məsələn, azərbaycanlılar üçün, ilk növbədə, respublikada, sonra Qafqazda və MDB-də, daha sonra Qərbdə baş verən hadisələr önəmli olduğu halda, sıravi amerikalı üçün öz ştatında, sonra qonşu ştatda və ölkədə, daha sonra Avropada baş verən hadisələr maraqlıdır. İndoneziyada quş qripindən ölüm halının qeydə alınması Azərbaycan mətbuatında gündəmə çıxarılan bir nömrəli xəbər olmadığı halda, Türkiyədə və Gürcüstanda eyni hadisədən insanlar həyatlarını dəyişəndə bu, Azərbaycan mətbuatında bir nömrəli xəbərə çevrildi.

Sorğu 1. Azərbaycan milli mətbuatının xəbər prioritetləri[4].

Ayna-Zerkalo	***Exo***	***GÜN səhər***	***525-ci qəzet***	***Yeni Azərbaycan***	***Azadlıq***
Zamanlı	*Yenilik*	*Yenilik*	*Təsirli*	*Yenilik*	*Təsirli*
Yenilik	*Təsirli*	*Sanballı*	*Zamanlı*	*Zamanlı*	*Münaqişəli*
Təsirli	*Zamanlı*	*Təsirli*	*Münaqişəli*	*Sanballı*	*Sanballı*
Sanballı	*Sanballı*	*Zamanlı*	*Yenilik*	*Yaxınlıq*	*Yenilik*
Münaqişəli	*Münaqişəli*	*Münaqişəli*	*Sanballı*	*Təsirli*	*Zamanlı*
Yaxınlıq	*Yaxınlıq*	*Yaxınlıq*	*Yaxınlıq*	*Münaqişəli*	*Yaxınlıq*

Qaynar, İsti və Soyuq xəbərlər

Xəbərləri yuxarıdakı dəyərlərlə qiymətləndirəndə, yəni universal xəbər arşınının universal parametrləri ilə ölçəndə məlum olur ki, Xəbərdən Xəbərə fərq var. Bu fərqi emosional səviyyədə duymaq çətin deyil.

[4] Sorğu 2006-cı ilin avqust-sentyabr aylarında keçirilib.

“Exo” qəzetinin eyni sayında dərc edilmiş xəbərləri emosional çalarlarına görə müqayisə edək.

Bakı – Tbilisi – Ceyhan neft kəmərinin rəsmi açılışı olub.

Gürcüstan-Azərbaycan sərhədində zəlzələ baş verib.

Tərəvəzin qiyməti 50 % qalxıb.

Hansı xəbər daha çox narahatlıq doğurur, yaxud daha artıq emosional gərginlik yaradır?

1-ci xəbər təntənəli rəsmi törəndir. O, xeyli vaxt idi ki, planlaşdırılırdı. Törən zamanı qeyri-adi bir hadisə baş verməyib. Bizi törənlə bağlı ilgiləndirən əsas sual budur: Necə?

2-ci xəbər gözlənilməzdir. Zəlzələnin baş verdiyi ərazi bizə coğrafi cəhətdən yaxın olmaqla yanaşı, hadisə Bakı – Tbilisi – Ceyhan neft kəmərinin rəsmi açılışı gününə təsadüf edir. Bizi maraqlandıran sualların sayı artır: Nə zaman? Harada? Necə?

3-cü xəbər planlanmasa da, iqtisadiyyatdakı tendensiyalar bahalaşmanın davamlı olacağından xəbər verir. Burada maraq doğuran iki sual var “Niyə ?” və “Bunun sonu necə görünür ?”

Əgər xəbərlərin hisslərimizə təsirini hərarətölçənlə ölçsə idik, görəsən, nə alınardı? Hərarətölçənin civəsi necə dəyişərdi? Hərarət məsələsini ortaya atmağımız təsadüfi deyil. Çünki peşəkar xəbərçilikdə xəbərləri çeşidləyəndə, onları rənginə, xoş ya bəd olmasına görə deyil, məhz “hərarətinə” görə iki qismə ayırırlar: İsti xəbərlərə və Soyuq xəbərlərə. Qərb jurnalistikasında terminologiya uyğun olaraq belə səslənir – “hard news”, “soft news” . Hərfi tərcümədə “ağır xəbər” (“hard rok” – “ağır rok” ifadəsini xatırlayın) kimi səslənsə də, daha çox isti xəbər anlamına gələn “hard news” gözlənilməz və önəmli hadisələr barəsindədir: yanğın, sel, görkəmli şəxsiyyətin ölümü, yaxud prezidentin xalqa müraciəti. Qərb

jurnalistikasında "breaking news" (hərfi tərcümədə - "qıran, sındıran xəbər" anlamına gələn, azərbaycancaya tərcümədə daha çox "qaynar xəbər" mənasını verən) təsnifatına da üstünlük verilir. "Breaking news" da gözlənilməz, planlaşdırılmayan olay haqqındadır. Bəzən bu olay planlaşdırılmış başqa bir hadisənin içində baş verir. Məsələn, Prezident Kennedinin qətli. ABŞ Prezidenti səfər zamanı öldürülmüşdü. Və yaxud Azərbaycan Prezidenti Heydər Əliyevin 1994-cü ilin sentyabrında ABŞ-a səfəri zamanı Azərbaycan Ali Soveti sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetirilmişdi. Bu hadisə və Prezidentin terrorla bağlı səfər zamanı verdiyi bəyanat qaynar xəbər idi.

Qərb jurnalistika məktəbi Qaynar və İsti xəbərləri bir-birindən fərqləndirən dəqiq sərhədi müəyyən etməkdə çətinlik çəkir. Daha ümumi səslənən "hard news" – isti xəbər termininə üstünlük verir. İstər "qaynar" adlansın, istər "isti", bu xəbər önəmli, gözlənilməz, son hadisə barəsindədir. Və o, altı əsas suala cavab verir. **Kim? , Nə? , Harada? , Nə zaman? , Niyə? , Necə?**

Yuxarıdakı misallarda "***Bakı – Tbilisi – Ceyhan neft kəmərinin rəsmi açılışı olub" və "Gürcüstan-Azərbaycan sərhədində zəlzələ baş verib"*** xəbərləri isti xəbərlərdir. Gürcüstan-Azərbaycan sərhədində zəlzələ xəbərinə gəldikdə isə onun gözlənilmədən baş verməsi bu hadisənin "hərarətini" yüksəltsə də, təkanların gücünün zəif olması, bir sözlə, zəlzələnin heç bir fəlakətə gətirib çıxarmaması bu xəbərin qaynar yox, isti xəbər kimi çeşidlənməsini şərtləndirir. Bu xəbər o zaman qaynar xəbərə çevrilə bilərdi ki, zəlzələ zamanı Bakı – Tbilisi – Ceyhan neft kəmərinə hər hansı bir ziyan dəyə, ya da kəmərdə nasazlıq yarana idi. Həmin halda xəbər qaynar xəbərə

çevrilməklə qəzetin xəbər lentinin ardıcıllığını kəsər və ingiliscə səslənən adını doğruldardı: “breaking”, yəni kəsən.

Hərfi tərcümədə “sakit, mülayim xəbər” kimi səslənən, daha çox “soyuq xəbər” mənasına uyğun gələn “soft news” artıq baş vermiş olay haqqında yeni bilgilərin açıqlandığı, daha çox mənbəyə əsaslanan, olay haqqında əvvəlki informasiyaları xatırladaraq, əsasən, “Necə ?” sualına cavab axtaran, hisslər soyuduqdan sonra yazılmış daha geniş xəbərdir. ***Tərəvəzin qiyməti 50 % qalxıb”*** xəbəri soyuq xəbərdir.

Aşağıdakı isti və soyuq xəbər nümunələrinə göz yetirək.

Örnək 3. Gediş haqları donduruldu. Cəsur, “*Ayna*”, 6 may 2006.

Dünəndən etibarən şəhərdaxili nəqliyyatda gediş haqlarının süni şəkildə artırılması dayandırılıb. Marşrutların hərəkət etdiyi xətt "sahib"ləri ilə Nəqliyyat Nazirliyinin nümayəndələri arasında keçirilən görüşdə bu istiqamətdə razılıq əldə edilib.

"Ayna"ya daxil olan məlumatlara görə, bundan sonra Nəqliyyat Nazirliyinin nümayəndələri hazırda marşrutlarda mövcud olan qanuni gediş haqlarının gerçəkliyə cavab verib-verməməsi ilə bağlı araşdırmalar aparacaqlar. Məhz bundan sonra qiymətin rəsmən artırılıb-artırılmaması barədə yekun qərara gəlinəcək.

Qeyd edək ki, son vaxtlar şəhərdaxili nəqliyyatda gediş haqları qanunsuz olaraq 500 manatdan 1000 manata, 1000 manatdan isə 1500 manata qədər artırılıb.

Örnək 4. Bir günlük bayram, yaxud “Sumqayıt blüzü”. A.Bəşirli, “Günay”, 13 yanvar 1998.

“Əgər imkanınız olsa idi, hara səyahət edərdiniz ?” Bu sualı ingilis dili

müəllimimiz verirdi. Təxəyyülümüz coşurdu: Çin, İtaliya, Amerika... Arzuların bu şirin yerində ömrünün dördüncü ilini Bakıda yaşayan və bizə yaxından bələd olan əcnəbi yarızarafat-yarıciddi soruşurdu: “Bəs Sumqayıta necə ?” “Pis dostlarla Amerikaya getməkdənsə, yaxşı dostlarla Sumqayıta getmək yaxşıdır”, - cavabını verəndə ağlıma da gəlməzdi ki...

Yanvarın 9-da Sumqayıta gedəsi olduq. Özü də amerikalılarla. Bu, pianoçu Con Fergüsonun və saksafonçu Pol Viheycin Bakıya ikinci gəlişi idi. Onlar həyatlarında ilk dəfə qaçqınlar üçün konsert verməyi qərara almışdılar.

Musiqiçiləri Amerikanın Azərbaycandakı səfirliyi, Danimarkanın qaçqınlar üzrə şurası və BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı dəstəkləyirdi.

Nərimanov adına mədəniyyət evinin soyuq zalı... Narahat baxışlı, bir yerdə qərar tuta bilməyən məktəbli qaçqınlar, şən və gülərüz Con ilə Pol... Onlar üzlərini uşaqlara tutub iddia edirdilər ki, saksafon insana ən yaxın olan musiqi alətidir. Çünki onun səsi insanın səsinə bənzəyir. Elə bu vaxt işıqlar sönür və Polun əlacı bircə ona qalır ki, bir melodiya çalıb dediklərini sübut etsin. Zal canlanır. İndi Polun saksafonu insan kimi gülür. O, uşaqlardan xahiş edir ki, ingiliscə dördə qədər sayıb, dörd dəfə saksafonu güldürsünlər. Uşaqlar 10 dəfə sayırlar. Həyat bu balacaların sevinc və gülüş payını əllərindən alsa da, onlar saksafonu güldürməkdə xəsislik etmirlər.

İşıqlar yanır. Pol təzə dostlarını səhnəyə çağırır. Onlar konsertdən əvvəl tanış olublar. Tar çalınır. Gerşvini Azərbaycan xalq mahnıları əvəz edir. Con uşaqları bir-bir piano arxasına dəvət edir, indi isə hamı birlikdə çalır. Pol bu qəribə musiqi nömrəsinin adını elan edir: “Sumqayıt blüzü”.

“Sumqayıt blüzü”. Bu blüzü ancaq Pol, Con, bir də qaçqın uşaqlar

çala bilərdilər. Yer üzündə bundan kədərli melodiya ola bilməzdi. Böyüklər göz yaşlarını gizlətmirdilər. Kiçik ömürlərinin çoxunu qaçqınlıqda keçirən, göz yaşına öyrəncəli bu uşaqlarsa daha çox şey görmək, daha çox şey eşitmək arzusunda idilər. Bu, onların xoşbəxt günü idi. Bundan sevincli, bundan kədərli blüz ola bilərdimi? Ömrünün 45 ilini müəllimlik etmiş, indi də qaçqın məktəbində dərs deyən Cəmil müəllim Horadizdə yanıb külə dönmüş evini bu blüzün sədaları altında bir daha xatırlayırdı. Məktəbin soyuğundan, işıqların tez-tez keçməsindən, dörd aydan bəri pensiya almamasından gileylənirdi. Sonra da bir bayatı çağırıb "dünyanın malı gəldi-gedərdi", - deyib təsəlli axtarırdı Cəmil müəllim.

Mən də təsəlli axtarıram. Salona baxıram. Füzuli, Şuşa, Qubadlı, Zəngilan qaçqınları. "Şuşa getdi", "Füzuli getdi" dediyimiz günləri xatırlayıram. Azərbaycanı qarış-qarış itirirdik, amma Azərbaycan əldən getdi demirdik. Dörd ildir ki, nə Zəngilan var, nə Füzuli, nə Şuşa, nə Qubadlı, nə Laçın. Dörd ildir ki, qaçqınlıq var. Özü də təkcə bu salondakılar üçün yox, hamımız üçün.

Uzaq Amerikadan Pol ilə Con gəlmişdilər. Onlar özləri ilə nə çörək, nə dərman gətirmişdilər. Onlar buraya dünyanın ən kədərli mahnısını çalmağa gəlmişdilər. Sən demə, ən kədərli mahnı ilə də xoşbəxt olmaq olarmış. Sən demə, xoşbəxtlik yer üzünə amerikalı, ya azərbaycanlı, varlı, ya kasıb, qaçqın, ya qeyri-qaçqın kimi gəlməkdə deyilmiş. Xoşbəxtlik bir-birini anlamaqda imiş. "Sumqayıt blüzü" anlaşma idi. Onu ayrılıqda nə Pol, nə Con, nə uşaqlar, nə də qeyri-qaçqınlar yaza bilərdilər. Bu blüzün müəllifi biz hamımız idik. Və bu blüz bir həqiqəti pıçıldayır: "Əgər məni qələbə marşına dəyişmək istəyirsinizsə, onun da müəllifi siz hamınız olmalısınız", - deyirdi.

Kimin üçün yazırıq?

Xəbərin parametrləri oxucuların tələbi ilə müəyyənləşdiyi kimi, bu tələblə də dəyişə bilər. Başqa sözlə deyilərsə, hər bir qəzet öz oxucusunu düşünərək prioritetlərini sıralayır. Sorğu 1-ə göz yetirək.

Bəs mövzu seçimində auditoriyanın istəyi nə dərəcədə önəmlidir?

Araşdırmalar göstərir ki, jurnalistlər bəzən oxucuların nə istədiklərindən xəbərsiz olurlar. Əgər oxucuların istəklərini bilmək istəyirsinizsə, Riçard Vurmanın "İnformasiya həyəcanı" kitabını təkrar-təkrar oxuyun. R. Vurman xəbərləri üç kateqoriyaya bölür: ümid, absurd və fəlakət xəbərləri. Onun fikrincə, oxucular ümid sorağındadırlar, nicat axtarırlar. Yeni qəzetlər ənənəvi qəzetlər və televiziya ilə müqayisədə daha çox ümid dolu yazılar dərc edirlər. Ümid jurnalistikasının başqa bir adı "həll jurnalistikası"dır. Yəni jurnalist insanların qanını qaraldan problemləri sadəcə xatırlatmaq əvəzinə, problemin mümkün həllini araşdırır, eyni situ-asiyadan uğurla çıxan insanlar barədə yazılar yazır və oxucunun "Daha nə etməli? Hara müraciət etməli ?" suallarını cavablayır.[5]

ABŞ-da oxucu auditoriyasını öyrənən araşdırmalara görə, gənclər əsasən, musiqi və əyləncə ilə maraqlanırlar. Onlar yalnız ev, uşaq sahibi olduqdan sonra yerli xəbərlər: vergilər, təhsil və siyasət barədə oxumaq istəyirlər. Qida, sağlamlıq və təbabət mövzuları isə yaşlıların maraq dairəsinə daxildir. [6]

Təcrübəni bölüşənlər

Robert Slaqt (1964) Amsterdam Universitetinin Avropaşünaslıq

[5] Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002. p. 8.
[6] Mencher M. News Reporting and Writing. USA, Brown & Benchmark, 1997. p. 66.

fakültəsini bitirdikdən sonra 1991-ci ildə London Siti Universitetində Beynəlxalq jurnalistika magistri dərəcəsi alıb. O, "Assoşieyted Press"də, "RTL Nieuws" telekanalında və "Metro" qəzetində xəbər redaktoru işləyib. 2003-cü ildən müstəqil jurnalist və təlimçidir. Niderlandda, Balkanlarda və Azərbaycanda jurnalistikanı tədris edir.

"Metro" qəzetindəki təcrübəsini bölüşən R. Slaqtın fikrincə, auditoriyanın seçimi qəzet biznesində inqilaba səbəb ola bilər:

Son 7 ildə Niderland qəzet biznesində inqilab baş verməkdədir. Milli, regional və yerli qəzetlərin bir çoxu ənənəvi formatdan tabloid[7] formatına keçib. Bu necə baş verdi?

1999-cu ilə qədər holland qəzet bazarı qapalı idi. Qərbi Avropanın digər ölkələrindən fərqli olaraq, oxucuların əksəriyyəti qəzetlərə abunə yazılırdılar. Onlar bu ənənəyə o qədər sadiq idilər ki, 1990-cı illərdə yeni qəzet açmaq təşəbbüsləri heç bir nəticə vermədi.

1999-cu il *"Metro"nun* gəlişi ilə yadda qaldı. Bu yığcam isveç qəzeti ictimai nəqliyyatda paylanırdı. *"Metro"* Stokholmda şəhər qəzeti kimi çıxmağa başlasa da, Niderlandda daha çox uğur qazandı. Niderlandın gözəl və modern dəmiryolları, metro və tramvay xətləri şəbəkəsi holland *"Metro"sunu* ümummilli qəzetə çevirdi. *"Metro"nu* digər holland qəzetlərindən fərqləndirən bunlar idi: qəzetin pulsuz paylanması, tabloid formatı və qısa xəbərlər.

Əvvəlcə Niderland qəzet bazarında *"Metro"ya* münasibət skeptik idi. Tabloid formatı insanlara Britaniyanın sensasiyapərəst *"San"* qəzetini xatırladırdı. *"Metro"* səthi olsa idi, yaşaya bilməzdi.

Niderlandın ən böyük qəzeti *"Teleqraf" "Metro"nun* Niderlandda nəşr ediləcəyini əvvəlcədən bilirdi və bu yeni konsepsiyadan qorxuya düşmüşdü.

---

[7] Mətnin yığcam verildiyi kiçik formatlı qəzet.

“Metro” ilə mübarizə aparmaq üçün *“Teleqraf” “Spits”* adlı (qaynar saat) pulsuz tabloid buraxmaq qərarına gəldi. Məqsəd *“Metro”nu* bacardıqca tez sıxışdırıb aradan çıxarmaq, qəzet bazarını əvvəlki durumuna qaytarmaq idi.

Həm *“Metro”*, həm də *“Spits”* eyni ildə, eyni gündə – 1999-cu il iyun ayının 21-də çıxdılar. Onlar hər ikisi aşağı gəlirli insanlar, xüsusilə gənclər və mühacirlər arasında böyük uğur qazandı. Hətta evə abunə yazılmağa imkanı olanlar belə pulsuz tabloidləri oxumağa başladılar. Gənclər qısa xəbərlərin formatını, rəngarəng şəkilləri, infoqrafikləri, əyləncəni, lətifələri və krossvordları sevdi. Araşdırmalar göstərir ki, müasir oxucu hər gün səhər yalnız 20 dəqiqə qəzet oxumağa vaxt sərf edir. İnsanlar xəbərləri TV, radio və internetdən alırlar. *“Metro”* təzə xəbərlərin qısa icmalını verdiyindən oxucular onun səhifələrinə sürətlə göz gəzdirib, asanlıqla şəkillərdən xəbərə, oradansa rəylərə keçə bilirdilər. Bu xəbərlərin ön tarixçələri az, özləri isə yüngül idilər. Qəzetdə qısa və şəxsi müsahibələr, oxucu məktubları bol idi.

Gündəlik tirajı 350 min - 400 min olan *“Metro”* və *“Spits”* indi ölkənin ikinci və üçüncü qəzetləridir. Milli və regional qəzetlər oxucularının üçdə ikisini itirib. Onlardan bəzisi tabloid formatına keçib, bəzisi hələ də mübarizə aparır. Oxuculara ünvanlanan *“Metro”* və *“Spits”* isə gəlirlərini artırır.

Azərbaycanda oxucu auditoriyasına nə dərəcədə önəm verilir?

Oxucu marağından danışarkən *“Günay”* qəzetinin təcrübəsindən söz açmaq yerinə düşərdi. 1993-cü ildə təsis olunan, iki dildə çıxan “Günay” qısa bir müddətdə respublikada kifayət qədər populyar qəzetlərdən birinə çevrildi. Uğurun səbəbləri sırasında *“Günay”ın* respublikanın bir sıra agentliklərinin abunəçisi kimi aldığı xəbərləri oxuculara zamanında çatdırması idi. Bundan ruhlanan *“Günay”* 1995-ci ildə respublikada ilk dəfə olaraq *“Röyter”* agentliyinin xəbərlərinə abunə yazıldı. Məqsəd oxucuları daha keyfiyyətli və bol informasiya ilə təmin etmək idi. Qəzetin peyk

rabitəsi vasitəsilə aldığı xəbərləri ingilis dilindən tərcümə etmək üçün xüsusi tərcüməçilər qrupu da yaradıldı. Qəzetin ingilis versiyası *"Röyter"in* materiallarının orijinal versiyasını dərc etməyə başladı. *"Günay"ın* naşirləri respublikada analoqu olmayan bu yeniliyin böyük uğur gətirəcəyinə inanırdılar. Gözləmək olardı ki, oxucu dünya xəbərləri ilə zəngin olan qəzeti köşkdə qoymayacaq. Amma ümidlər özünü doğrultmadı. Səbəb qəzetin beynəlxalq xəbərlərə daha çox yer ayırması idi. Oxucuları şahzadə Diananın ölümünün detalları, Paris modelyerlərinin yeni kolleksiyaları daha az maraqlandırırdı. *"Günay"* bu addımı atanda Azərbaycan auditoriyasının hazırlığını, bir də coğrafi amili nəzərdən qaçırmışdı.

100 il əvvəl redaktorlar Qəzet və Auditoriya barədə belə deyirdilər...

"Həqiqət, qəzet camaat üçündür, camaat qəzet üçün deyildir..."

Həsən bəy Zərdabi,
"Əkinçi" qəzetinin redaktoru

Çalışmalar:

1. Qəzetlərdən xəbərləri seçin, onları xəbər dəyərlərinə görə qiymətləndirin.
2. Qeyri-adi xəbər tapın, onun oxucu üçün nəyə görə maraqlı olduğunu araşdırın. Siz redaktor olsa idiniz, bu xəbərə qəzetdə yer ayırardınızmı?

3. Oxucunun yararlana biləcəyi xəbərləri tapın. Bu xəbərlər oxucuya qərar qəbul etməkdə yardımçı ola bilirmi? Bu baxımdan xəbərdə çatışmayan informasiya varmı?
4. Qəzetin bir sayında dərc edilmiş xəbərləri İsti və Soyuq xəbərlərə çeşidləyin. Seçiminizi əsaslandırın.
5. *"Ayna", "Exo", "525", "Yeni Azərbaycan"* və *"Azadlıq"* qəzetlərində eyni gündə dərc edilmiş eyni informasiyanın müxtəlif versiyalarını tapın. Bu xəbərlərin versiyaları arasında fərqləri araşdırın. Sizcə, qəzetin auditoriyası fərqli xəbərlərin yazılmasına səbəb olurmu? Fikrinizi əsaslandırın.

Ədəbiyyat:

1. Adee K.W., Ault H. Phillip, Emery E. Reporting and Writing News. NY, Harper & Row, 1983, p. 23-34.
2. Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing. NY, Bedford/St.Martin's, 2002, p. 4-9.
3. Mencher M. News Reporting and Writing. USA, Brown & Benchmark, 1997, p. 67-68.
4. Рендалл Д., Универсальный журналист. М., ProMedia, 1996. с.12-16.
5. Fichtelius E. Jurnalistikanın on qızıl qaydası. Bakı, Adiloğlu, 2002, s. 16-20.

FƏSİL 2. XƏBƏR TAPANLAR

Hamı cənab Fakt qarşısında papağını çıxarır.

A.M.B. Stendal

Bu fəsildə açıqlanacaq suallar:

- *Peşəkar reportyor hansı keyfiyyətlərə sahib olmalıdır?*
- *Xəbər və rəy jurnalistikası niyə bir-birindən ayrılmalıdır?*
- *Qəzetin strukturu necə olmalıdır?*
- *Xəbər standartlarının önəmi nədir?*
- *Universal xəbər standartları hansılardır?*

Reportyor kimdir?

"Sizcə, peşəkar reportyor kimdir, o, necə olmalıdır ?" ABŞ-ın Kolorado Universitetinin jurnalistika fakültəsinin müəllimi Daq Kosper BDU-nun jurnalistika fakültəsində növbəti dərsə bu sualla başladı...

Arxa partadan kimsə: – Peşəkar reportyor insanlara yol göstərməlidir! – dedi.

Daq: – Niyə? O, oxucusundan daha ağıllıdır?

Yaraşıqlı bir qız: – Gözəl olmalıdır, zövqlə geyinməlidir ki, müsahibinin könlünü oxşasın.

Daq: – Yəni kifirlər informasiya ala bilmirlər?

İdmançı tələbə: – Cəld və arıq olmalıdır.

Daq: – Heç vaxt kök reportyora rast gəlməmisiniz?

Daqın düzgün cavab axtarışında göstərdiyi inadkarlıq tələbələrdən birini elə bil yuxudan ayıltdı: “Reportyor inadkar olmalıdır”. Bu cavabı Daq geniş təbəssüm, ucadan və ürəkdən “Thanks!!!” – deməklə mükafatlandırdı.

Yalnız indi tələbələr anladılar ki, söhbət reportyorun görkəmindən deyil, onun bir peşəkar kimi özəlliklərindən, təbiətindən gedir. İnadkarlıq bu keyfiyyətlərdən birincisi olsa da, yalnız biridir.

- **İnadkarlıq. Yəni davamlı və ardıcıl olmaq.**

“İnadkar olun! Sualınıza cavab vermirlərsə, abrınıza bükülüb kiminsə xətrinə dəyəcəyinizi fikirləşməyin. Axı siz oxucu üçün işləyirsiniz”.

Deyəsən, tələbələr Daqın sözlərini qulaqlarına necə lazımdırsa sırğa etmişdilər. Bir neçə aydan sonra onlara mikrorayonda yerləşən bərbad bir parkın nə vaxt abadlaşdırılacağını öyrənmək tapşırığını verdim. Səhəri qulaqlarıma inanmadım. “Biz dünən İcra hakimiyyətinə və MKİS-ə 25 dəfə zəng etdik. Əlimizdən cana doymuşdular. Amma dəqiq heç nə öyrənə bilmədik”.

Sonucda tələbələrin yazdıqları xəbər bu oldu:

Parka sahib çıxan olmadı

Aygün Mustafayeva, 11.07.06

Cavadxan küçəsi 11-də yerləşən park istirahət üçün yararsızdır. Parkda olan qırıq oturacaqlar, natəmizlik, yandırılmış otlar buna sübutdur. Sakinlərin şikayəti isə natəmizliklə bağlıdır.

Nəsimi Rayon İcra Hakimiyyətinin ümumi şöbəsinin müdiri Nazim Quliyevin sözlərinə görə, həmin sahəyə 33 saylı MKİS cavabdehdir. Lakin parkın sahəsi çox böyük olduğundan buraya 31 və 23 saylı MKİS-lər də cəlb

olunur. Bu MKİS-lər parka cavabdehliyi bir-birinin boynuna atdılar və dəqiq cavab verən olmadı.

Bakı Səhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyindən aldığımız məlumata görə, həmin ərazi Nəsimi Rayon İcra Hakimiyyətinin səlahiyyətindədir.

Bu xəbəri oxuyandan sonra hər şey bəlli oldu. Tələbələr inadkarlıq etsələr də, tapşırığı yerinə yetirib nə parkın nə vaxt abadlaşdırılacağını öyrənmişdilər, nə də onun nəzarətsiz olduğunu sübut etmişdilər. Nəticədə, oxucu xəbərsiz qalmışdı. Amma tələbələr işləmişdilər, inadkarlıq göstərmişdilər. Elə isə uğursuzluğun səbəbi nədir? **İnadkarlığı tərslik, başı divara döymək, iki ayağı bir başmağa soxmaq kimi anlamaq olmaz. Reportyorun inadkarlığı onun davamlı, ardıcıl olması, yəni bir məsələni öyrənib sona çatdırması deməkdir. Bunun üçünsə düşünərək işləmək lazımdır.** Elə buna görə də inadkarlıq çox vacib başqa bir keyfiyyətlə müşayiət olunmalıdır. Bu, **hər şeyi bilmək** və ya **hərtərəfli** olmaqdır.

- **Hərtərəflilik. Öyrənməkdən usanmamaq.**

Parkın nə vaxt abadlaşdırılacağını öyrənməli olan tələbələri yoran icra hakimiyyəti (İH) ilə MKİS arasında telefon tələsinə düşmək idi. Onlar üstəlik MKİS-lərin hansı qurumun tabeliyində olduqlarını dəqiq bilmədikləri üçün İH-dən aldıqları informasiyanı analiz edərək düzgün nəticəyə gəlib, MKİS-ə ünvanlayacaqları sualları müəyyən edə bilməmişdilər. Hətta parkın ərazisinin icra hakimiyyətinin səlahiyyətində olduğunu müəyyənləşdirmək üçün Yaşıllaşdırma Təsərrüfatı Birliyinə də üz tutmuşdular. Dövlət orqanlarının işi barədə dumanlı təsəvvür belə bir dumanlı xəbərin yazılmasına gətirib çıxarmışdı. Demək, peşəkar reportyor daim öz üzərində çalışmalıdır. Xü-

susilə hüquqi biliklərini zənginləşdirməlidir. Çətinə düşəndə peşəkarlarla məsləhətləşməlidir.

Dünyagörüşünün geniş olması sizə rəngləri fərqləndirməyə, hamının duymadıqlarını sezməyə, hadisələrə daha dərindən varmağa kömək edəcək. Bax onda yeni mövzuların **təşəbbüskarı** ola bilərsiniz.

- **Təşəbbüskarlıq. Buna görə jurnalistikada cəza yoxdur.**

Belə bir deyim var: "Təşəbbüs cəzalandırılır". Bu, bir çox idarələrdə yazılmamış qanundur. Yaxşısı budur, hamı necə, sən də elə olasan. Jurnalistikada isə əksinə, təşəbbüs yox, məhz təşəbbüssüzlük cəzalandırıla bilər. Bizim təşəbbüslərimiz müxtəlif ola bilər: məsələn, bir reportyoru quş qripi xəbərinin gündəmdə yer aldığı zaman "gözlənilmədən" şəhərdə "Amerika toyuğu sağlamlıdır" kimi reklamın niyə peyda olması maraqlandırdığı halda, başqa birisini rəsmi məlumatlarda sətəlcəmdən öldüyü xəbər verilən xəstələrin H1N5 virusuna tutulub-tutulmadığı sualı rahat buraxmaya bilər.

Təşəbbüskarlıq azdır. Təşəbbüslərin arxasında dayanmağı bacarmaq lazımdır. Bunu yalnız **qorxmaz, cəsarətli** insanlar edə bilər.

- **Cəsarət. Cəzalandırıla bilər.**

1989-cu ildə Salatın Əsgərova körpə oğlu Ceyhunu evdə – nənə-babanın yanında qoyub növbəti dəfə Qarabağa yollananda bilirdi ki, odun-alovun içərisinə gedir, qayıtmaya bilər.

1990-cı ildə Elmira Əmrah qızı telefon danışığının xərcini ödəmək üçün nişan üzüyünü lombarda qoyub "Azadlıq" radiostansiyasına məlumat verəndə bilirdi ki, onu tuta bilərlər.

Çingiz Mustafayev öz ölümünü kamerası ilə çəkdi.

Elmar Hüseynov bilirdi ki, hər yazısı son yazı ola bilər. Elmar yazırdı: “Qorxu istənilən normal insana uşaqlıqdan məlum olan adi bir hiss deyil. Qorxu böyük bir fəlsəfədir”.

Cəsurluq candan gəlməlidir. Reportyora inadkarlığı, hərtərəfli və təşəbbüskar olmağı aşılamaq, bunları vərdişə çevirmək olar. Cəsarətə gələndə isə… Burada yeganə çıxış yolu faktlı olmağı öyrətməkdir. Çünki peşəkar jurnalistikanın qorxuya qarşı ən güclü silahı **faktdır.**

- **Faktlılıq. Ən güclü silah.**

Reportyorun işinin canı xəbəri toplamaqdır. Xəbərin canı faktdır. Demək, reportyor faktlı olmalıdır. T. Repkova faktlılığı belə izah edir: “Faktlı olmaq xəbərləri yazarkən fikirlərə deyil, faktlara üstünlük vermək deməkdir. Bu həm də jurnalistikanın dəqiq, səliqəli və auentik olmaq, faktları öz qaydasında almaqla yanaşı, məhz gərəkli faktları əldə etmək məcburiyyətidir”.[8] Məs. “Axşam olanda parkda göz-gözü görmür” əvəzinə, “Parkın 5 fənərindən biri də yanmır” yazmaq daha təsirlidir. Belədə oxucuda hisslərə deyil, faktlara əsaslanan daha dolğun təəssürat yaranır. Faktlı olmaq asan deyil. Bunun üçün ən azı parkı dolaşıb, fənərləri saymaq lazımdır. Faktlı olmaq daha səbirli olmaq, nəticə çıxarmağı oxucunun öhdəsinə buraxmaqdır. Faktlı olmaq oxucuya hörmətin ən bariz göstəricisidir. Bu, XX əsr jurnalistikasının fakta münasibət fəlsəfəsidir.

---

8 Repkova T. Yeni Dönəm: Demokratik cəmiyyətdə peşəkar qəzet buraxmaq yolları, Bakı, Qanun, 2006, s. 21.

100 il əvvəl Fakt, Fikir və onların yeri barədə...

"Bizlərdə ibarət ilə danışmaq adət olduğuna məktubat göndərənlərimizin çoxu səy edir ki, kamallı söz yazsın və əxbarat yazmağı eyib bilir. Məsələn, Zəkərtala şəhərində olan yanğı, İrəvanda və Cavadda olan sel və qeyri barəsində yazmırlar, amma yazırlar ki, imam Cəfər vaxtında teleqraf var idi. Dustan, ibarət ilə yazılan tulani mətləb jurnalda çap olunur, qəzetdə ona yer olmur".

Həsən bəy Zərdabi,

"Əkinçi" qəzetinin oxucularına, 9 avqust 1876-cı il

Bir medalın iki üzü, yaxud 2 "F"-dən biri:

Fakt ya Fikir jurnalistikası?

İstənilən işin uğuru məqsədin dəqiqliyindən xeyli dərəcədə asılıdır. Jurnalistika da istisna deyil. Jurnalistikaya qədəm qoyanda nə ilə məşğul olacağımızı biləriksə, bu, gələcək işimizi yarıbayarı asanlaşdırar. "Nə ilə" deyəndə 2 "F"-dən birini – "Fakt ya Fikir jurnalistikası?" dilemmasını nəzərdə tuturam. Əgər biz xəbərçiliyi seçiriksə, bizim işimiz fakt jurnalistikasında, iş yerimiz qəzetin Xəbər otağında, xəbərlərimizin yeri isə qəzetin Xəbər səhifəsindədir. Yox, məqsədimiz köşə yazıları yazmaq, hadisələrə öz münasibətimizi bildirməkdirsə, bu zaman işimiz fikir jurnalistikası, yerimiz fikir otağı, məqalələrimizin yeri isə qəzetin Rəy səhifələrində olmalıdır.

Fikir ya Rəy jurnalistikası? Hansı termini işlətməli?

Fikir azaddır. Hamının öz fikri ola bilər. Heç kim bizim fikirlərimizə nəzarət edə bilməz. Heç kim hələ dilə gətirməmişiksə nə fikirləşdiyimizi deyə bilməz. Elə ki fikir dilə gətirilir və ya qələmə alınır o, fikirlikdən çıxır, rəyə çevrilir. Ona görə də qəzetin fikir yox, rəy səhifələri olur. Yəni fikirlərin maddiləşdiyi səhifə. Fikir otağında çox şey fikirləşilə, saysız rəylər səslənə bilər. Amma onların hamısı qəzet səhifəsinə çıxarılıb oxucu mühakiməsinə verilmir. Oxucuya nəyi verməli məsələsini redaksiya siyasəti müəyyən edir.

Elə buna görə də qəzetin münasibətini bildirən yazılara (editorial) baş məqalə və ya redaksiya yazıları deyilir.

Qəzetin Xəbər və Rəy səhifələrinə bölünməsi Qərb jurnalistikası üçün norma olduğu halda, keçid demokratiyası ölkələrinin jurnalistikası üçün adətən istisnadır. Bu ölkələr üçün xarakterik olan ümumi cəhət məhz fakt və rəy jurnalistikasının bir-birindən dəqiq ayrılmaması, nəticədə qəzetin 2 “F”-in həftəbecərinə çevrilməsidir. Azərbaycan mətbuatında səhifələr adətən mövzulara görə bölünür: Siyasət, İqtisadiyyat, Sosium, Mədəniyyət, Gündəm və s. “Exo” qəzetinin eyni səhifəsi “Faktlar və rəylər” adlandırılır. Oxucu bu səhifədə həm xəbər oxuyur, həm rəy, bəzənsə bunların hər ikisinin qarışığını.

Bu qarışıqlığı aradan götürmək yollarından biri qəzetin strukturunda faktla rəy jurnalistikası arasında dəqiq sərhəd qoymaqdır. Yəni qəzetin Xəbər otağı Redaksiya otağından ayrılmalı, hər otağın öz redaktorları və buraxıcı redaktorları olmalıdır. Redaksiya səhifəsinin redaktoru xəbərləri redaktə

etməməlidir. Heç olmasa, ona görə ki o, kiminsə şəxsi mülahizələrindən təsirlənərək bunu xəbərin redaktəsi zamanı ixtiyarsız biruzə verə bilər.

İndi isə Qərb və Azərbaycan təcrübəsində qəzetin strukturunu müqayisə edək.

Sxem 1. Amerikada qəzetin strukturu:[9] (Əlavə 1)

Sxem 2. Azərbaycanda qəzetin strukturu: ("Ayna" – "Zerkalo" qəzetinin əsasında)

[9] Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002. p. 32.

Yaddaş: Faktları rəydən necə ayırmalı?

Balanslı, neytral ton seçin:

- Oxucularınızın rəydən azad faktlar əsasında hadisə barədə öz fikirlərini formalaşdırmaq hüququna hörmət edin.
- Hadisənin bütün tərəfləri ilə bağlı araşdırma aparın, nəticələrin hamısını əks etdirin.
- Bütün tərəflərin mənbələri ilə bərabər işləyin.
- Məqalədə bütün tərəflərin bərabər təmsil olunmasına çalışın. Rəğbət bəslədiyiniz tərəfə daha çox istinad edib, digər tərəfin mövqeyini danmayın.
- İstinadlardan kontekstə görə istifadə edin.
- Mənbələrdən dəqiq və dolğun istifadə edin. İstinadları göstərin.
- Fikirləri Rəy, xəbərləri Xəbər səhifələrində yazın.

Münasibət bildirən ifadələrdən qaçın:

- Neytral ifadələr işlədin: “iddia edir” əvəzinə “deyir”, “israr edir” əvəzinə “qeyd edir”, “Hökumət verginin qaldırılmasından **imtina etdi**” əvəzinə, “Verginin qaldırılmasının əleyhinə səs verdilər” yazın. Nəyinsə baş verməsini “gözlənilməz” hadisə kimi qiymətləndirməkdənsə “hadisənin gündəliyi dəyişdi” yazın.

Maraqlar münaqişəsindən qaçın:

- Hər hansı bir təşkilatla əlaqədə olub onun maraqlarının müvəkkili kimi çıxış etməyin.
- Maliyyə maraqlarınız olan məsələ barədə yazmayın.

- Ailə üzvlərinizin işlədiyi şirkət və təşkilatlar barədə yazmayın.[10]

Yaddaş: Reportyor daha nələri bilməlidir?

- **Sərlövhələr.** Sizin sərlövhədə xəbərdən nəyi seçərək vurğulamağınız qəzetinizin mövqeyinin göstəricisi ola bilər.
- **Yaxşı maneralar.** Jurnalistin özünü necə aparması, tövrü və ədaları onun təmsil etdiyi qəzet haqqında rəy yaradır.
- **Həssaslıq.** Yazıların sonucları barədə düşünün. Əgər yazdıqlarınız adi insanların şəxsi həyatına toxuna, təsir edə bilərsə, onda yaxşısı budur ki, onu dərc etməyin. Həmişə bu tipli yazılar yazanda özünüz-özünüzdən soruşun: bu hadisənin qəhrəmanı mən, yaxud mənim ailə üzvlərim olsa idi, onun dərcinə çalışardımmı?
- **Əlçatanlıq.** Siz oxucularınız üçün əlçatan olmalısınız. Redaktor və jurnalist öz imtiyazlarından istifadə edərək oxucudan gizlənməməli, əksinə, oxucunun mövqeyi redaksiyanın mövqeyi ilə düz gəlməyəndə oxucunun fikrinin dərc edilməsinə imkan yaratmalıdır.
- **Gözətçi it funksiyası.** Bilin ki, oxucular öz qəzetlərini ümumi rifahın ayıq-sayıq gözətçi iti kimi görmək arzusundadırlar. Onlar ümid edirlər ki, qəzet əzilənləri müdafiə edəcək, rəsmilərin səhvlərini yazacaq, bir sözlə, adi insanların xidmətində duracaqdır.
- **Etika.** Xəbərçilər ən yüksək peşə və etika standartlarına malik olmalıdırlar. Bu isə o deməkdir ki, onlar vicdanlı, tərəfsiz, dəqiq, bitkin, faktlı, peşəkar və həssas olmalıdırlar[11]

[10] Yaddaş vərəqinin müəllifi Mişel Fulçerdir.
[11] Yaddaş vərəqinin müəllifi Lawrence K. Beaupredir.

Reportyora sonuncu öyüd: fikrini dolğun və çatımlı ifadə et.

Reportyorun işinin son məhsulu xəbərdir. Özünü dağa-daşa vurub bir yerə 25 yox, lap 100 dəfə zəng etmək olar. Amma fikrinizi dolaşıq ifadə etmisinizsə, özünüz öz zəhmətinizi yerə vura bilərsiniz. Həsən bəy Zərdabi "Müəllim üçün qaranlıq olan şagird üçün zülmətə çevrilir", - deyirdi. Bu deyimi jurnalistikaya aid etsək: "Reportyor üçün qaranlıq olan oxucu üçün zülmətə çevrilir", - demək olar. Yazını redaktə edəndə tez-tez özünüzdən soruşun: "Bunu daha sadə yazmaq olarmı? Yazdığım azərbaycanca səslənirmi ?"

Mənasını bilmədiyiniz sözlər üçün lüğətə baxın. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Azərbaycan dilinin izahlı lüğəti, xarici sözlərin izahlı lüğəti, müxtəlif sorğu kitabçaları sizin iş yerinizdə, əlinizin altında olmalıdır. Bəzən jurnalistlər bu kimi dəqiqləşdirmələr aparmağa tənbəllik edir, köhnə biliklərinə arxalanırlar. Yaddan çıxarmayın ki, dil də canlı orqanizmdir, onun normaları da zaman-zaman dəyişir.

Elə isə dəyişən dünyada dəyişməyən nədir?

Dəyişən və dəyişməyən xəbərçilik

Cavab üçün gəlin birlikdə "Xəbər bələdçisi"nə (səh.X) nəzər salaq və xəbərçiliyin keçdiyi yol barədə düşünək. Bu bələdçidə xəbərin və reportyorların yerini tapmağa çalışaq. Bələdçidə Azərbaycan necə görünür? Siz özünüz bələdçiyə nələri əlavə edərdiniz? Xəbərçilik tarixində dəyişən və dəyişməyən nədir? Sizcə, bu tarix hara doğru gedir?

İlk peşəkarlar

İnsanın xəbərə ehtiyacının tarixi az qala insanlığın yaşı ilə üst-üstə düşsə də, reportyorluğun fəaliyyət növü kimi yaşı çox azdır. Cəmisi iki əsr.

Jurnalistika tarixinə məlum ilk reportyor Londonun *"Morninq Herald"* qəzetinin əməkdaşı Con Uaytdır. O, 1823-cü ildə məhkəmədən yazdığı adi insanlar barədə adi reportajlarla uğur qazanır. Bir neçə ildən sonra qəzetin tirajı 1200-dən 8000-ə qalxır, *"Morninq Herald" "Tayms"dan* sonra oxunan ikinci qəzet olur. İlk reportyor Con Uayt yaxşı pul qazanaraq qəzetin sahiblərindən birinə çevrilir.

1830-cu illərdə ABŞ qəzetlərində reportyor, 50-ci illərdə baş reportyor vəzifəsi yaranır. 1854-cü ildə *"Nyu York Tribun"* qəzetinin 14 reportyoru və 10 redaktoru vardı.

Amerika – Azərbaycan: təcrübələrin müqayisəsi, XIX əsr

1870-ci ildən etibarən ABŞ qəzetlərində ixtisaslaşma başladı. İcraçı redaktor, şəhər redaktoru, teleqraf xəbərləri redaktoru, biznes redaktorları, dram tənqidçiləri, ədəbi redaktorlar və köşə yazarları qəzetin ştatında yer aldılar... Bir qədər sonra reportyorlar arasında qadınlar da göründü. Ceyn Qrey Svishelm Senatdan yazan ilk qadın jurnalist idi.[12]

1875-ci ildə Həsən bəy Zərdabi *"Əkinçi"ni* təkbaşına çıxarırdı. Qəzetin mürəttibi Minasov ömründə qəzet işi görmədiyindən Həsən bəy özü yazır, ona hərfləri düzməyə kömək edir, səhvləri düzəldirdi. Onun əvvəlinci köməkçiləri şagirdləri idi. Onlar yazmaqdan savayı, qəzeti müftə paylamağa, poçta verməyə də kömək edirdilər[13].

Amerika – Azərbaycan: təcrübələrin müqayisəsi, XIX əsr

12 Adee K.W., Ault H. Phillip, Emery E. Reporting and Writing News, NY, Harper & Row, 1983. p.15

13 Zərdabi H. Rusiyada əvvəlinci türk qəzeti / Hənifə xanım Məlikova-Abayevanın xatirələri. Bakı, Adiloğlu, 2005. s.15.

1848-ci ildə ilk dəfə *"Assoşieyted Press"* Avropadan xəbərləri müxtəlif limanlardan əvvəl paroxodla, daha sonra teleqraf vasitəsilə toplayanda xəbərə verilən tələb dəqiqləşdi: yığcamlıq və faktlılıq. Səbəblərdən biri, bəlkə də, birincisi məsələnin iqtisadi cəhəti idi. Çünki teleqrafla göndərilən hər söz pul idi.[14]

İlk reportyorların hətta maliyyə uğurlarına baxmayaraq, XIX əsr Amerikasında jurnalistika aşağı təbəqənin sənəti kimi qiymətləndirilirdi.

XX əsr jurnalistikasında meyllər: Subyektiv və Obyektiv xəbərçilik

Jurnalistika XX əsrə qədəm qoyanda faktlılıq peşəkar xəbərçiliyin göstəricisi kimi heç kimdə şübhə doğurmurdu. Reportyorlar hadisələrin şahidlərindən faktları toplayır və mənbələrə istinad edir, bir sözlə, gerçəkliyi qələmə alırdılar.

XX əsrin əvvəllərinə təsadüf edən iki hadisə jurnalistikanı çalxaladı. Bunlardan birincisi ötən əsrin əvvəllərində yaranan ictimaiyyətlə əlaqələr (public relations – PR) sahəsi, digəri isə Birinci Dünya müharibəsi idi. Hər iki hadisənin sonucu olaraq jurnalistlər eyni sualla rastlaşdılar: faktlar həmişəmi həqiqəti əks etdirir?

İctimaiyyətlə əlaqələrin bir sahə kimi inkişafı jurnalistlərin PR-ın əlində alətə çevrilmək təhlükəsini yaratdı. Belə ki, PR öz sahibinin maraqlarından çıxış edərək onu jurnalistlərlə birbaşa təmasdan qoruyur, xəbəri idarə edirdi. Birinci Dünya müharibəsinin təbliğat maşını da jurnalistikanı siyasətin alətinə çevirmişdi. Təsadüfi deyil ki, müharibədən sonra jurnalistlərə hər şey şüurlu şəkildə yaradılmış illüziya kimi gəlirdi.[15]

---

[14] Adee K.W., Ault H. Phillip, Emery E. Reporting and Writing News, NY, Harper & Row, 1983. p.18.
[15] Schudson M. Discovering the News. A Social History of American Newspapers. US, Basic Books, 1978. p. 142.

Məhz belə bir şəraitdə 1930-cu illərdə jurnalistikada faktlara münasibət geniş diskussiyalara səbəb oldu. Nəticədə fakta ikili münasibət yarandı: subyektiv və obyektiv.

İnterpretiv – izahlı jurnalistika

Bir qrup reportyor oxucuya yalnız faktların verilməsinin çaşdırıcı olduğunu deyirdi. Onların fikrincə, oxucular hadisələrin interpretasiyasına, yəni izahına ehtiyac duyurlar. Elə buna görə də İnterpretiv jurnalistlər "Kim? Harada? Nə vaxt ?" suallarına "Niyə?" sualını əlavə edərək oxucularına hadisələri izah etməyə çalışırdılar. Qəzetlər interpretiv – izahlı xəbərçilikdən həm isti xəbərlərin, həm də background – qaynaq informasiyanın, ön tarixçənin verilməsində yararlanırdılar. Bu dövrdə qəzetlərdə həftə sonu xəbərlərin icmalları geniş yer almağa, onlar, hətta redaksiya yazılarını sıxışdırmağa başladı.

İnterpretiv – izahlı xəbərçilik nə qədər geniş vüsət alsa da, o, subyektiv idi və jurnalistlərdən faktları yorumlamağı tələb edirdi. Bunu hamı bacarmırdı. İnterpretiv xəbərçilərdən fərqli olaraq, ənənəvi reportyorlar hələ də inanırdılar ki, onların işinin qiyməti yalnız faktları toplayıb çatdırmaqdadır. Onlar həm oxucuları, həm tənqidçiləri öz işlərinin vacibliyinə inandırmaq zərurəti duyur, bunu sübut etmək üçün elmi zəmin axtarırdılar. Belə bir elmi çərçivə tapıldı. O, obyektivlik idi.

Obyektiv – elmi jurnalistika

Mişel Şudson məşhur "Xəbərin kəşfi" kitabında obyektivliyin qalxanışını addım-addım izləyərək maraqlı nəticələrə gəlir. XX əsrin 30-cu illərində jurnalistikanın obyektivliyə üz tutmasının səbəblərindən biri də jurnalistlərin öz sənətlərinin nüfuzunu artırmaq istəkləri idi. Bu cəhdlər hələ 1903-cü ildə Cozef Pulitzer Kolumbiya Universitetinin nəzdində jurnalistika

fakültəsini açmaq üçün vəsait ayıranda başlanmışdı. C. Pulitzer jurnalistlərin də həkimlər və hüquqşünaslar kimi maddi maraqlardan asılı olmayan peşə həmrəyliyi yaratmalarını arzulayaraq yazırdı: "mənim konsepsiyama görə, bu jurnalistika məktəbi nəinki kommersial olmamalıdır, o hətta antikommersial olmalıdır".[16]

Jurnalistikanın digər elm sahələri ilə bir sırada durması üçün o, subyektiv yox, elmi, yəni obyektiv kateqoriyalara əsaslanmalı idi. Məşhur kommunikativist U. Lipman jurnalistikanın bütün bəlalarına bir əlac irəli sürürdü. Bu, elm idi. O inanırdı ki, jurnalistikanın elmi metodlardan bəhrələnməsi mətbuatı daha peşəkar və daha liberal edəcəkdir. Beləliklə, Lipman obyektivliyi jurnalistikanın idealı kimi irəli sürürdü.

Obyektivlik həqiqətdir, yaxud həqiqəti deməkdir. Sözün mənşəyi latıncadan gəlir, mənası bizim şüurumuzdan asılı olmayaraq mövcud olan deməkdir.[17] Obyektivlik deyəndə müşahidə olunan faktlara istinad etməklə yanaşı, həm də metodoloji cəhətdən hadisənin nəqlində faktın fikir və rəydən ayrılması nəzərdə tutulur.

Şudson yazır: "Jurnalistlər obyektivliyə inandılar. Çünki onlar inanmaq istəyirdilər, bunun ehtiyacında idilər və onlar ən adi insan kimi öz fərdi inanclarının və şübhələrinin əsarətindən qurtarmaq üçün obyektivliyə təşnə idilər".[18]

Beləcə obyektivlik dəyərə, həqiqətin meyarına çevrildi.

---

[16] Schudson M. Discovering the News. A Social History of American Newspapers. US, Basic Books, 1978. p. 155.
[17] Словарь иностранных слов. М., Русский язык. 1981, с. 350.

[18] Schudson M. Discovering the News. A Social History of American Newspapers. US, Basic Books, 1978. p. 159.

Bəs bu həqiqətin özünə necə çatmalı? Obyektivliyə necə nail olmalı? Resept çox sadədir: faktı rəydən ayırmalı. Nə qədər asan görünsə də, ona əməl etmək, son nəticədə obyektiv olmaq bir o qədər çətindir.

Elə buna görə də jurnalistikada obyektivlik həqiqətin özü qədər əzəli, əbədi, əlçatmaz, hər zaman dildədir.

Yeni jurnalistika

Ötən əsrin 60-cı illərində obyektivlik yenidən mübahisə mövzusuna çevrildi. Səbəb medianın Vyetnam müharibəsinin sonlarında Amerika ictimai rəyinə təsiri idi. Bu illərdə jurnalistikanın cəmiyyətdə hansı rolu oynaması elmi mübahisələrin mərkəzində durur. Nəticədə "Yeni jurnalistika" anlayışı yaranır. Yeni jurnalistikanın tərəfdarları ənənəvi jurnalistikadan imtina edərək belə bir iddiada bulunurdular ki, jurnalistlər rəsmi informasiya kanalı rolunu oynadıqları üçün söz azadlığını həyata keçirə bilməzlər. Yeni jurnalistikanın hadisələrə yanaşma tərzini **müvəkkil** və **müxalif** jurnalistika bölüşürdü.

- **Müvəkkil jurnalistika**nın tərəfdarları obyektivliyin əlçatmaz olduğunu söyləyir, həmkarlarını obyektivliyə cəhd göstərməkdən belə çəkindirirlər. CNN reportyoru Kristin Amanpur müvəkkil jurnalistikanı belə izah edir: "Obyektivliyin klassik təyinatı neytrallıq deməkdir. Bir sıra hallarda neytrallıq göstərmək şərə müttəfiqlik etməyə bərabər tutula bilər".[19]
- **Müxalif jurnalistika** siyasi lider və institutlar, xüsusilə də prezidentliklə daim müxalifətdədir. Müxalif jurnalistika mətbuatın muxtariyyəti məsələsini gündəmə çıxardığı üçün Amerika jurnalistikasında özünə xeyli ardıcıl tapsa da, bir müddətdən sonra o, elə jurnalistlərin özləri-

19 Ricchairdi S. "Over the Line?" // American Journalism Review, 1996, V.18, p. 28..

nin tənqidinə məruz qaldı. Amerika Qəzet Redaktorları Cəmiyyətinin sədri M.O'Nil 1982-ci ildə bu cərəyana münasibətini bildirərək yazırdı: "Biz hökumətlə sülh bağlamalıyıq. Biz düşmən olmamalıyıq... Biz iştirakçı və əbədi müxalifət deyil, müşahidəçi olmalıyıq".[20]

Ötən əsrin sonlarında jurnalistikaya baxışlar yenidən dəyişməyə başladı. Bu dəfə mübahisələrin mərkəzində bir məsələ dururdu: jurnalistika sağlam demokratiyanın varlığı üçün nə dərəcədə önəmlidir. "İctimai" və ya "Sivil jurnalistika" adlanan bu ən yeni jurnalistika iki ideya üzərində qurulub. Birincisi, cəmiyyətdə demokratiya lazım olduğu səviyyədə deyil. İkincisi, jurnalistika bu məsələnin həllində məsuldur, o, nəsə etməlidir.

- **İctimai və ya sivil jurnalistikanı** ənənəvi jurnalistikadan fərqləndirən iki əsas cəhət var. Sivil jurnalistikaya görə, ictimai həyat öz sözünü deməlidir. Onun varlığında, yaşayıb işləməsində jurnalistikanın öz rolu var. Ənənəvi jurnalistikanın fikrincə, ictimai həyatın mövcudluğu gözəl olsa da, onun yaşaması üçün jurnalistlərin cəhd göstərmələrini düşünmək belə təhlükəlidir. Sivil jurnalistika düşünür ki, cəmiyyətdə nəsə mühüm bir dəyişiklik baş verməlidir, çünki jurnalistika hal-hazırda işləmir. Ənənəvi jurnalistika fərqli düşünür: jurnalistikanın ənənələri gözəldir. Yalnız təcrübənin bir qədər təkmilləşməyə ehtiyacı var.[21]

Bəs müasir Azərbaycan jurnalistikasının inkişaf meylləri hansılardır?

---

20 Davis R. The Press and American Politics: the New Mediator. New Jersey: Prentice Hall, 1998, 358 p. 79.

[21] Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002. p. 11.

Təcrübəni bölüşənlər

Elçin Şıxlı (1957) Dillər Universitetini bitirib. Peşəkar jurnalist fəaliyyətinə 1989-cu ildən başlayıb. "Ayna"–"Zerkalo" qəzetinin yaradıcılarındandır. 2001-ci ildən bu qəzetin baş redaktoru, 2006-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin sədridir. E. Şıxlı müasir Azərbaycan mətbuatının inkişaf meylləri barədə mülahizələrini bölüşür:

Müasir Azərbaycan mətbuatının inkişaf meylləri haqqında söz açmaq üçün ilk növbədə onun kəmiyyət göstəricilərinə nəzər salmaq lazımdır. Hal-hazırda Azərbaycanda 3 mindən artıq KİV qeydə alınmışdır. 8 milyonluq Azərbaycan üçün bu rəqəmin çox olduğunu söyləsək, zənnimcə, yanılmarıq. Bununla yanaşı, onu da söyləmək olar ki, bu qədər çap məhsulunun varlığı ölkədə fikir rəngarəngliyi və plüralizminə dəlalət edir. Bu fikrin nə qədər doğru olub-olmamasını qəbul etmək üçün müəyyən araşdırmalar və müqayi-sələrə müraciət etmək lazım gələcək.

Gəlin "Azərbaycan mətbuatı nədir ?" sualına cavab vermək üçün onun təqribi təsnifatını aparmağa cəhd edək. Zənnimcə, müasir mətbuatımızı bir neçə qrupa ayırmaq mümkündür. Əvvəlcə mətbu orqanları **müstəqil** və **qeyri-müstəqil** qruplara bölək. Müstəqil deyəndə heç kimdən iqtisadi və ide-oloji cəhətdən asılı olmayan nəşrlər nəzərdə tutulur. Belələri barmaqla sayıla-caq dərəcədə az olsa da, xoşbəxtlikdən hələ tam məhv olub getməyiblər. Bu nəşrlərin əsas prinsipi söz azadlığını söz sərbəstliyinə qurban verməmək şərtilə fikir plüralizmini qoruyub saxlamaqdır. Onların qəzet işinə yanaşma tərzinin bir özəlliyi də gördükləri işin, sözün əsil mənasında, bir biznes növü olduğuna əminlikdir. Bu, bütün mədəni ölkələrdə mövcud olan jurnalistika-nın təməl prinsipidir: söz azadlığı və fikir plüralizmi.

Nə qədər qəribə görünsə də, qeyri-müstəqil mətbuat daha rəngarəng və çoxşaxəlidir. Təbii ki, belə mətbu orqanlar həm iqtisadi, həm də ideoloji cəhətdən asılı vəziyyətdədir və elə bu baxımdan da onları adətən, bir tərəfdən **müxalifət** və **müxalifətyönlü**, digər tərəfdən **iqtidar** və **iqtidaryönlü** mətbuat adlandırırlar. Beləliklə, qeyri-müstəqil mətbu orqanların özü də iki qrupa ayrılır. Ən maraqlısı isə odur ki, iş bununla bitmir: həmin qruplar da alt-qruplara bölünür. Məsələn, həm müxalifət, həm də iqtidar mətbuatının içində **partiyalı** mətbu orqanlar var. Sırf hüquqi, yəni təsisçilik baxımından bunu iddia etmək bir sıra hallarda çətin olsa da, əslində, belə qəzetlərin partiya orqanı olmasına heç bir şəkk-şübhə yoxdur (*"Azadlıq", "Yeni müsavat", "Səs", "Yeni Azərbaycan"* və digərləri). Azərbaycanda hələ ki büdcədən maliyyələşən qəzetlər də az deyil (Milli Məclisin orqanı olan *"Azərbaycan"* qəzeti, bir sıra nazirlik və sahə qəzetləri). Təəssüf ki, bu cür mətbu orqanlarda söz azadlığından çox, söz sərbəstliyinə yol verilir, siyasi plüralizmin heç izi-tozu da görünmür. Bu yerdə Vladimir Ulyanov-Leninin məşhur deyimi yada düşür: "Qəzet təbliğatçı, təşviqatçı və təşkilatçıdır". Müstəqilliyimizin ilk illərində bu tərifin sonuncu "təşkilatçılıq" amili əhəmiyyətini demək olar ki, itirmişdisə də, son üç-dörd ildə partiyalı qəzetlər qara işlərini görüb. İndi əminlik, eyni zamanda təəssüf hissilə demək olar ki, Lenini sözdə inkar etsək də, əslində, onun bu prinsiplərini əldə bayraq tutan mətbu orqanların çəkisi əhəmiyyətli dərəcədə artaraq milli mətbuatın demokratik inkişafına əngəl törədir.

Qəzet bolluğunun törətdiyi fəsadlardan biri də qəzet işini – biznesini və ümumiyyətlə, qəzetçiliyi möhtəkirliyə çevirənlərin sayının təhlükəli miqyas almasıdır. Belələrini xalq arasında "reket-jurnalist", "reket-qəzet" adlandırırlar. Təcrübə və müəyyən araşdırmalar onların rüşvət almağa və verməyə ha-

zır olan insan və məmurlar durduqca ölməyəcəklərini əminliklə söyləməyə imkan verir. Bir məqamı da qeyd etmək lazımdır ki, bu qəbildən olan mətbu orqanların başında duran daha "peşəkar və istedadlıları" artıq inkişaflarının daha yüksək pilləsinə qalxmaqla "sarı mətbuat" janrına yiyələnməkdədirlər. Hər halda, Qərb ölkələrindəki "sarı mətbuat" nümayəndələri heç olmasa, peşəkarlığın nə olduğundan bixəbər deyillər. Daha doğrusu, Qərbin sarı mətbuatında diletant və möhtəkirlərə yer yoxdur, sadəcə olaraq janrın tələbləri başqadır. Ən əsası isə odur ki, orada heç kim bilərəkdən qanunu pul xatirinə pozmağa can atmır.

Yazının sonunda yenə də marksizm - leninizm klassiklərinə müraciət etməkdən başqa əlac qalmır. Söhbət kəmiyyətin keyfiyyətə çevrilməsinin labüdlüyündən gedir. Ümid etmək istərdik ki, tezliklə Azərbaycan media məkanındakı bolluq keyfiyyətə baş əyəcəkdir.

Dəyişməyən xəbərçilik

Dünya və Azərbaycan təcrübəsi ilə tanış olduq: o, daim dəyişir. Dəyişən jurnalistikada dəyişməyən nədir? Bu sual nə qədər fəlsəfi səslənsə də, Qərb jurnalistika məktəblərinin cavabı bir o qədər dəqiq və praktikdir: dəyişməyən izahı çətin Obyektivlik və hər bir jurnalistdən Dəqiq və Vicdanlı olmağı tələb edən Peşə etikasıdır. [22]

Amma bu birmənalı cavabı vermək üçün Qərb jurnalistikası əvvəlcə daha vacib bir sualı cavablandırır: jurnalistika kimə xidmət edir? Çünki biz yalnız kimə xidmət etdiyimizi bildikdən sonra peşə prinsiplərimizi müəyyən edə bilərik. Bu sualın cavabını tapmaq isə o qədər də asan deyil. Kimə xidmət edirik: hökumətə, elit qruplara, partiyalara, sahibkara, yoxsa oxuculara?

[22] Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002. p. 12.

Qərb jurnalistikasında belə bir inam var ki, media hər hansı bir partiyaya, sahibkara məxsus olsa belə, o, oxuculara xidmət etməlidir. Oxucuya xidmət oxucunu aldatmamaq, çaşdırmamaq, ona fikirdən azad, dəqiq xəbərlər çatdırmaqdır. Çünki yalnız belədə oxucu özü müstəqil qərar verə bilər. Jurnalistlər bu addımla, ilk növbədə, oxucunun bir vətəndaş kimi hüquqlarına hörmət edir. Demək, oxucu ilə qəzetin münasibətlərinin fəlsəfəsi qarşılıqlı inama hesablanıb. Əgər inam varsa, qəzet oxucusunu, oxucu qəzetini itirməyəcək.

Auditoriyalar və zövqlər dəyişə, rejimlər belə bir-birini əvəz edə bilər. Jurnalistika bu gün müvəkkil və müxalif, sabahsa sivil, yaxud qlobal ola bilər. Amma jurnalistikanın oxuculara xidmət etdiyi cəmiyyətlərdə jurnalistlər ilə oxucular arasında inamın yaranmasına və qalmasına xidmət edən standartlar – universal xəbər standartları dəyişməz olaraq qalır. Niyə? Bu sualın cavabını xəbər standartlarının özündə axtaraq.

Xəbər standartları

1. Faktlılıq

Fakta təməllilik təsdiqlənmiş məlumata dayanmaq deməkdir. Təsdiqlənmə formaları 3 cür ola bilər:

1. Nüfuzlu KİV-də məlumatın getməsi;
2. Ən azı iki müstəqil, bir-birindən asılı olmayan qaynağın məlumatı təsdiqləməsi;
3. Jurnalistin şəxsən şahidliyi, olayı öz gözü ilə görməsi, izləməsi.

2. Dəqiqlik

Fakta təməllilik bizdən dəqiq olmağı tələb edir. Dəqiqlik deyəndə bir tərəfdən fakt materialının (şəxs adları, xüsusi adlar, rəqəmlər, informasiya

mənbələri) dəqiq verilməsi anlanılırsa, digər tərəfdən press-relizlərə və mənbələrə düzgün istinad etmək, insanların baxışlarını dəqiq əks etdirmək nəzərdə tutulur.

Qeyri-dəqiqlik oxucunun gözündə qəzetin çəkisini salır, onun səriştəsizliyinin göstəricisinə çevrilir. Başlıcası isə, oxucularla jurnalistlər arasında inamın qırılmasına gətirib çıxarır. Elə buna görə də dəqiqlik bizim öz əməyimizə və oxucuya verdiyimiz qiymətin ən vacib göstəricilərindən biri olaraq jurnalistin peşə etikasında mühüm yerlərdən birini, bəlkə də, birincisini tutmalıdır.

İlk baxışda dəqiqlik xəbərə verilən, yerinə yetirilməsi ən asan başa gələn tələblərdən sayılsa da, əslində, dəqiqliyə heç də həmişə rahatlıqla nail olmaq olmur.

Yaddaş: dəqiqliyə necə çatmalı?

Dəqiq olmaq üçün jurnalist karyeranızın əvvəlindən çalışın ki, aşağıdakılar sizin üçün vərdişə çevrilsin:

- Adların yazılışını təkrar-təkrar yoxlamaqdan usanmayın. Bunun üçün sorğu kitabçalarına baxmağa ərinməyin. Əgər ikidilli qəzetdə işləyirsinizsə və yazınız tərcümə olunursa, çalışın ki, özünüz də tərcüməni oxuyasınız. Redaktorlara arxayın olmayın. Azərbaycan dilində cinslərin olması rus dilinə tərcümədə mexaniki səhvlərə, qadının kişi, kişinin isə qadın kimi təqdim olunmasına gətirib çıxara bilər (Məsələn, Arzu, İzzət, Afət, Qüdrət kimi adlarda).
- Əcnəbilərin adları Azərbaycan dilində tələffüz edildiyi kimi yazılsa da, bütün ehtimallara qarşı onların adlarının orijinalda necə yazıldığını öyrənin. Bunun üçün qonağın vizit kartını almaq daha məqsədəuyğundur.

Məşhur adamların adlarında və vəzifələrində şübhəniz olduqda İnternetdə axtarış verin.

- Dəqiqləşdirmək üçün yanınızdakı jurnalist həmkarınıza deyil, mənbənin özünə üz tutun.
- Əgər bir gündə eyni yerdən iki xəbər hazırlamısınızsa (Məsələn, prezidentin iki nümayəndə heyətini qəbul etməsi barədə), qonaqların təqdimatını, adlarını təkrar-təkrar yoxlayın. Adları və vəzifələri dəyişik salmadığınıza əmin olun.
- Mənbələrlə ehtiyatlı olun. Kimsə nəyisə deyirsə, bu hələ deyilənin həqiqət olması deyil.
- Yazını özünüz təkrarən oxuduqdan sonra onun daha iki redaktor tərəfindən oxunulduğuna əmin olun. Bilin ki, kənar göz daha itidir.
- Qeydlərinizi aydın götürün. Hər dəfə diktofona arxayın olmayın. Diktofon sizi sığortalamaq üçündür.
- Səhvlərinizi etiraf edin. Qəzetdə düzəliş getməsinə nail olun. Çalışın ki, düzəliş son səhifələrdə digər yazıların arasında "ört-basdır" olunmasın, əksinə, ilk səhifələrdə verilsin. Əgər çox ciddi qeyri-dəqiqliyə yol vermisinizsə, onda bu məsələyə aydınlıq gətirmək üçün yeni bir yazı yazmaqdan çəkinməyin.

Amerika – Azərbaycan: təcrübələrin müqayisəsi

Amerika təcrübəsində bir çox qəzetlərin qərarlaşmış düzəliş səhifələri var. Məsələn, *"Nyu York Tayms"ın* düzəlişləri üçüncü səhifədə yerləşdirilir. Öz nüfuzunu əziz tutan və qoruyan qəzetlər, bir qayda olaraq, düzəlişləri ilk

səhifələrə çıxarır, onları qəzetin son səhifələrində ört-basdır etmirlər. Bu həm də oxucuya hörmətin təzahürüdür. Oxucu düzəlişi axtarmaq üçün bütün qəzeti ələk-vələk etmir.

Azərbaycan milli mətbuatında səhvlər barədə qəzetin növbəti sayında məlumat verilsə də, düzəlişlər üçün xüsusi səhifə ayrılmayıb.

Amerika – Azərbaycan: təcrübələrin müqayisəsi

3. Vicdanlılıq

Sizcə, fakta təməllilik və dəqiqlik vicdanlı olmaqdırmı? Xəbər fakta əsaslanmış və dəqiq ola bilər, amma vicdanlı olmaya bilər. Dəqiqlik və Vicdan bir-birinə çox yaxın mənalar daşısalar da, eyni deyillər. Vicdanlı olmaq yalan və uydurmaya yol verməmək, Allahdan qorxmaq və yalnız olaya birbaşa dəxli olan faktlardan yararlanmaqdır.

Vicdanlılığı hadisənin dəqiq xəbərlənməsi deyil, onun necə xəbərlənməsi, hansı baxış bucağından təqdim olunması müəyyənləşdirir. Siz qəsdən vacib faktı unudub, ikinci dərəcəli faktı qabarda bilərsiniz. Yaxud münaqişəyə cəlb olunmuş tərəflərdən birinin mövqeyi açıqlamaya bilərsiniz. Elə buna görə də vicdanlılıq həm də hadisəni müxtəlif baxış bucaqlarından təqdim etmək cəhdi, balansı - tarazlığı gözləmək deməkdir.

4. Balanslılıq

Balanslı olanda vicdanlı olmaq çətin deyil. Balanslılıq plüralizm, çoxsəslilik, baxış müxtəlifliyidir. Balanslılıq başlıca qaynaqdan götürülmüş hakim baxışla yanaşı, əks (alternativ), fərqli və tamamlayıcı baxışların xatırladılmasıdır.

Balanslı və vicdanlı olmaq siyasi hadisələrin, xüsusilə seçki kampaniyalarının işıqlandırılmasında çox vacibdir. Bu, o demək deyil ki, hamıya eyni dərəcədə yer verilməlidir. Bu, o deməkdir ki, hamıya eyni imkan verilməlidir ki, öz mövqeyini açıqlaya bilsin. Əgər bir tərəf digərini ittiham edir, nədəsə suçlayırsa, onda siz qarşı tərəfin də mövqeyini bildirməsinə, onun özünü müdafiə etməsinə şərait yaratmalısınız. Balanslı olanda tərəfsiz olursunuz, çünki bir yox, bir neçə tərəfə, yaxud bütün tərəflərə söz verirsiniz. Qərəzsiz olmadan tərəfsiz olmaq mümkün deyil.

Yaddaş: Balansa necə çatmalı ?

- Bütün tərəflərin rəylərinin əks olunmasına çalışın. Birmənbəli xəbərlərlə işləyəndə ehtiyatlı olun. Mütləq digər tərəfin mövqeyini öyrənin.
- Hadisənin iki yox, bəzən bir neçə tərəfi ola bilər. Əmin olun ki, aşkar və gizli bütün məqamlar nəzərdən qaçırılmayıb.
- Maliyyə marağınız olan hadisələr barəsində yazmayın.
- Ətrafdakılara istənilən məsələdə tərəfkeş mövqe tutmağınız, neytral olmamağınız barədə mülahizələr yürütməyə imkan verən addımlar atmayın. Məsələn, maşınına və ya yaxana hər hansı bir siyasi aksiyanı, ya da partiyanı dəstəklədiyini bildirən nişanlar taxma.
- Xəbər otağında, yaxud başqa bir yerdə uzun-uzadı rəy bildirən söhbətlərə qoşulma.
- Yazmaq istədiyin təşkilatlardan və insanlardan heç zaman pul alma! Pul əvəzinə hər hansı bir hədiyyə, yaxud xidmət qəbul edilməsi də yolverilməzdir.

- Yazarkən münasibət, rəy bildirən istehzalı və kinayəli sözlərdən, ifadələrdən çəkinin. Xüsusən təyinlərin seçilməsində ehtiyatlı olun.
- Xəbər siyasəti qərəzsiz olmalıdır. Reklamverənləri, icmanın tanınmış nümayəndələrini, maraq və təzyiq qruplarını müdafiə etməyin.
- Yadda saxlayın ki, sizin işiniz xəbər verməkdir. Müvəkkillik rəy səhifələrinin işidir.
- Rəylər fərqləndirilməlidir.
- Xəbər yazanlarla baş məqalə yazanlar fərqli müxbirlər olmalıdırlar.
- Xəbər yazanlar reklam verənlərdən, qəzetin borclu olduğu insanlardan bir köynək uzaqda durmalıdırlar[23]

5. Qərəzsizlik

Vicdanının səsini eşidib, fərqli baxışlara göz yummamaq üçün jurnalist hər şeydən öncə, qərəzsiz olmalıdır. Qərəzsizlik jurnalistin şəxsi rəğbətini və nifrətini bir kənara qoyması, onları nəzarətdə saxlamasıdır. Bunun üçün jurnalist peşəkar kimi deyil, bir insan kimi ona xas bütün subyektiv yaşantıları: öz maraqlarını, inanclarını, meyllərini anlamalıdır. Yalnız bu meylləri anladıqda və nəzarətdə saxladıqda jurnalist həqiqətə sayğı göstərə, vicdanlı və açıqfikirli, yəni qərəzsiz ola bilər.

Çalışmalar:

[23] Handbook for Journalists / Edited by Malcolm F. Mallette. World Press Freedom Committee, 1990. p. 63-64.

1. **Xəbəri Rəydən ayırın:**

Əbiyevlə Piriyev arasında fikir ayrılığı? ***C. Sümərinli, "Ayna", 27 aprel 2006***

Müdafiə Nazirliyinin generalları Ali Hərbi Məktəbdə keçirilən konfransa qatılmadılar

Dünən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Gənc zabit kadrların hazırlığının aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib. Tədbirdə çıxış edən AAHM-in rəisi general-mayor Heydər Piriyev zabit kadrların hazırlanmasında qarşıda duran vəzifələrdən, gənc zabitlərin komandir-lider kimi yetişmələrinin əhəmiyyətindən, hərbi elmi-tədqiqat işlərinin vacibliyindən söz açıb. Daha sonra eyni mövzunu məktəb rəisinin tədris işləri üzrə müavini - şöbə rəisi polkovnik Vahid Eyyubov, Müdafiə Nazirliyinin ekologiya və təbiəti mühafizə xidmətinin rəisi polkovnik-leytenant Adil Məmmədov, Milli Məclisin deputatı Aydınxan Həsənov, məktəbin IV taborunun komandiri polkovnik-leytenant Erol Dəmir, ictimaiyyət nümayəndələri, hərbi məktəbin professor və müəllimləri davam etdirdilər.

Tədbirdə bildirilib ki, Ali Baş Komandan, prezident İlham Əliyev ordu quruculuğu, Silahlı Qüvvələrin inkişafı, döyüş hazırlığı, peşəkar zabit hazırlığı məsələlərini daim diqqətdə saxlayır, hərbçilərə xüsusi qayğı göstərir. Professor və müəllimlər, zabitlər yüksək peşəkarlığa malik zabit kadrları hazırlığında fəaliyyətlərini genişləndirəcəklərini, Ali Baş Komandanın torpaqlarımızın işğaldan azad olunması və vətənin müdafiəsi ilə bağlı qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini artıracaqlarını bildirmişlər.

Dünənki konfransla bağlı yadda qalan mühüm bir məqam var. Belə ki,

hərbi məktəblərin fəaliyyətini kurasiya edən nazir müavini, Müdafiə Nazirliyinin kadrlar və hərbi təhsil idarəsinin rəisi, general-leytenant Çingiz Məmmədovun bu tədbirə qatılmaması (hər halda "AzərTAc"ın məlumatında onun adı çəkilmir) bir sıra suallar doğurur. Halbuki bir müddət öncəyə qədər hərbi məktəblə bağlı keçirilən bütün tədbirlərdə Ç.Məmmədov ön sırada olurdu.
Əvəzində Müdafiə Nazirliyinin konfransda işə aidiyyəti olmayan bir qurumun - nazirliyin ekologiya və təbiəti mühafizəsi xidmətinin rəisi səviyyəsində iştirakı bir qədər müəmmalı görünür. Ekspertlərin fikrincə, bu, ölkə generalları, konkret olaraq nazir Səfər Əbiyevlə Heydər Piriyev arasında müəyyən anlaşılmazlığın mövcudluğu ehtimalı ilə bağlıdır. Bildirək ki, Müdafiə Nazirliyində yüksək vəzifələrə iddialı olanlar arasında H. Piriyevin adı ön sıralarda çəkilir. Düzdür, ekspertlər bu generalın fəaliyyəti ilə bağlı konkret fikir söyləməkdən çəkinirlər. Amma onun nazirliyin yüksək kürsülərinə gətirilməsi ehtimalları da çoxdur.

2. **Münasibət bildirmədən necə yazmaq olar:**

- Uzun müzakirələrdən sonra, nəhayət, BMT Təhlükəsizlik Şurası ABŞ-ın təklifi ilə İranın nüvə proqramına görə xüsusi qətnamə qəbul etdi. Dövlət Departamentinin dünən BMT-də ABŞ səfiri Con Boltona istinadən yaydığı məlumata əsasən, İran bu qətnaməni son ciddi siqnal kimi qəbul etməlidir. Sənəd müəllifləri İrandan bütün nüvə proqramlarını dayandırmağı tələb ediblər.
- Parlament yaz sessiyasında vur-tut 15 yeni qanun qəbul etdi.

- Təhsil naziri M. Mərdanov orta məktəblərdə valideynlərin hesabına fond pulunun yığılmasının qanunsuz olduğunu vurğuladı.

3. **Bu xəbərlərdə hansı etik aspekt pozulmuşdur:**

a. **İslamçılar ABŞ diplomatı ilə görüşü rədd etdilər.** ***S. Abbas, "Ayna", 3 avqust 2006.***

AİP sədri Yaxın Şərq hadisələrinə görə ABŞ-ı günahlandırır. Azərbaycan İslam Partiyası ABŞ-ın Azərbaycandakı səfirliyinin siyasi məsələlər üzrə müşaviri Rebekka Neslundun partiya rəhbərliyi ilə görüş təklifini rədd edib. Bu barədə məlumatı adıçəkilən partiyanın mətbuat xidməti yayıb. "Azərbaycan İslam Partiyası terrorçuluğu dəstəkləyən bir ölkə təmsilçisi ilə bir masa arxasında əyləşib hər hansı bir müzakirə aparmağı qəbuledilməz hesab edir", - deyə partiyanın yaydığı bəyanatda qeyd olunur.

AİP sədri Hacı Hacıağa Nurinin sözlərinə əsasən, islamçılar Azərbaycanda fəaliyyət göstərən bəzi partiyalardan fərqli olaraq, dostu düşməndən ayıra bilirlər.

"Bu gün İsrailin dinc Fələstin və Livan xalqına divan tutmasında ABŞ və Böyük Britaniyanın rolu böyükdür. Bu gün ABŞ dünyada müsəlman ölkələrini bir-bir sıradan çıxarmaqla məşğuldur. ABŞ İsraili işğalçı siyasətindən çəkindirmək əvəzinə, onu daha da silahlandırır. Bu gün Livanda zirzəmilərdə sığınacaq tapmış yüzlərlə mülki insan, qadınlar, uşaqlar və şikəstlər Amerikanın İsrailə verdiyi lazer bombaları ilə məhv edilir", - deyə qeyd edən H. Nuri hesab edir ki, Amerika və bəzi Qərb ölkələri terrorçuluqla mübarizə adı altında əslində dünyanın enerji resurslarına sahib çıxmaq istəyirlər.

"Baxın, Livandan sonra hədəfdə Suriya, sonra İrandır. ABŞ Əfqanıstanı, İraqı məhv edərək, indi də İsrailin əli ilə Yaxın Şərqdəki xırda ölkələri sıradan çıxarmaqla məşğuldur. Bunların fikri heç də demokratiya, insan hüquqları deyil. Bunlar bölgədə yeni dünya düzəni yaradıb enerji resursları üzərində nəzarətlərini qəti şəkildə bərqərar etmək istəyirlər", - deyə H.Nuri vurğuladı.

b. Nazir Azad Rəhimov günahlarını boynuna aldı. ***Anar, "Ayna", 2 avqust 2006.***

"Dopinqə qarşı mübarizədə belə nöqsanlara yol verməməliyik"

Dünən gənclər və idman naziri Azad Rəhimov jurnalistləri maraqlandıran sualları cavablandırıb. Nazir ilk olaraq dopinq qəbul etməkdə ittiham olunan tanınmış ağırlıqqaldıran Nizami Paşayevlə bağlı məsələyə münasibətini açıqladı: "Nizami Paşayev dopinq qəbul etməyib. O deyib ki, boğaz ağrısına görə preparatdan istifadə edib. Amma idmançı bəzi dərmanların dopinq maddələri siyahısına düşə biləcəyindən xəbərdar olmalıydı. Məlum səbəblə bağlı atletə Avropa çempionatının qızıl mükafatı verilməyib".

Media nümayəndələri Azərbaycan Ağırlıqqaldırma Federasiyasının məlum məsələni gizlətməyə çalışdığından gileylənərkən A. Rəhimov xəbəri gizlətməyə səbəb görmədiyini və nazirliyə müraciət olunmasının vacibliyini qeyd etdi: "Faktlar hər zaman açıqlanmalı və gizlədilməməlidir".

A. Rəhimov məlum problemlərin yaşanmaması üçün nazirlikdə dopinq sektorunun formalaşdırıldığını xatırlatdı. Onun sözlərinə görə, bu istiqamətdə təbliğat işləri aparılır, lazımi məlumatlar idman federasiyaları, cəmiyyətlərinə və idmançılara çatdırılır: "Dopinqə qarşı mübarizəni gücləndirmək üçün laboratoriya yaratmaq istəyirik. Bu

məqsədlə qiymətli avadanlıq sifariş olunacaq. Tibb dispanserimiz mövcuddur və bunlar 6 rayonda fəaliyyət göstərir. Lakin qeyd etməliyəm ki, həkimlərimiz kifayət qədər deyil. Hər il qadağan olunmuş preparatların siyahısı dəyişir və burada, hətta antibiotik, ağrıkəsici dərmanın adı ola bilər. Amma daim iş aparılmalıdır və çalışmalıyıq belə nöqsanlara yol verməyək. Statistikaya əsasən, hansısa ölkələrlə müqayisədə, ola bilsin ki, Azərbaycan dopinq qəbul edən dövlətlər siyahısında ən aşağı yerləri tutur. Ölkəmizdə bu problem ciddi olsa da, faciəli şəkildə deyil ".

Sonda nazir Azərbaycan və Ermənistan futbol yığmalarının oyunlarının harada keçiriləcəyi ilə bağlı yenilik olmadığını nəzərə çatdıraraq UEFA-nın qərarını gözlədiklərini söylədi.

Ədəbiyyat:

6. Adee K.W., Ault H. Phillip, Emery E. Reporting and Writing News. NY, Harper & Row, 1983. p. 13-35.
7. Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing. NY, Bedford/St.Martin’s, 2002. p. 13-49.
8. Mencher M. News Reporting and Writing. USA, Brown & Benchmark, 1997. p. 19, 33-52.
9. Рендалл Д., Универсальный журналист. M, ProMedia, 1996, с. 16-23, 47-53.
10. Repkova T. Yeni Dönəm: Demokratik cəmiyyətdə peşəkar qəzet buraxmaq yolları. Bakı, Qanun, 2006, s. 21-25.
11. Schudson M. Discovering the News. A Social History of American Newspapers. US, Basic Books, 1978. p. 121-159.

12. Fichtelius E. Jurnalistikanın qızıl qaydası. Bakı, Adiloğlu, 2002, s. 11-20.

Fəsil 3. ÇAP MEDİASINDA QAYNAQLAR

Əməkdar jurnalist, filologiya elmləri doktoru, BDU-nun jurnalistika fakültəsinin televiziya və radio jurnalistikası kafedrasının professoru Qulu Məhərrəmli (1954) 30 ilə yaxındır televiziyada çalışır. Televiziya və radio jurnalistikasının nəzəri problemləri ilə məşğuldur. Bir çox teleproqramların (“Azərbaycan dünya meridianlarında”, “7 gün”, “Təfsilat”, “Gerçəklik”), sənədli televiziya filmlərinin (“İstiqlal yolu”, “Əkinçi”, “Qobustan”) müəllifi və aparıcısıdır. O, sizinlə anonym qaynaqlarla iş təcrübəsini bölüşür:

İmkan verin adamlar olub-bitəni bilsin. O zaman bütün ölkə arxayın yaşayar.

A. Linkoln

Bu fəsildə açıqlanacaq suallar:

- *Jurnalist informasiyanı hansı qaynaqlardan alır?*
- *Ənənəvi təsnifata nə aiddir?*
- *Qeyri-ənənəvi təsnifat hansıdır?*
- *Qaynaqlarla işin incəlikləri hansılardır?*

Qaynaqların özəllikləri

Biz evlər tikmirik, biz atom enerjisini öyrənmirik, biz heç yay kolleksiyaları da yaratmırıq. Biz üstqurumuq. Bizim vəzifəmiz hamını xəbərdar etmək, oyatmaq, ayıq salmaq, hirsləndirmək, qürurlandırmaq, sevindirmək – yaşatmaqdı. Biz “ictimai məhkəməyik və oxucular-seyrçilər-

dinləyicilər andlı iclasçılardır ki, bu məhkmənin qərarına (hökmünə) birbaşa təsir göstərə və onu hamının hesablaşdığı hakimə çevirə bilərlər. Biz heç kimi əvəz etmirik. Biz görüb-sezmədiyimizi, bilib söyləmədiyimizi və öz gördüyümüzü, yardımınızla öyrənib üzə çıxardığımızı yazırıq". Biz hamıyıq və biz heç kimik. Bizi sevmirlər, bizdən qorxurlar, bizlə hesablaşmağa məcburdular. Biz dəyişirik və dəyişdiririk. Biz daha yaxşısına çatmalıyıq. BİZ JURNALİSTLƏRİK .

Reportyorluq, jurnalistika iki böyük, önəmli bacarıq, vərdiş tələb edir. Bunun birincisi, **informasiya toplamaqdı.** Uluslararası təcrübədə buna "reporting" deyirlər. Cəmi bir ildən sonra professional jurnalist fəaliyyətinizə "reporting"lə başlamalı olacaqsınız. Redaksiyanın təzə əməkdaşı olacaqsınız. Təbii**,** yavaş-yavaş sizin də başqa əməkdaşlar kimi öz informasiya qaynaqlarınız yaranacaq. Bunların içində yaxın dostlarınız, keçmiş tələbə yoldaşlarınız, işdəki həmkarlarınız, oxuduğunuz az-çox kitablar, internetdən faydalanırsınızsa, bəzi yenilik saytları olacaq. Bu qarmaqarışıq səsləri necə sistemləşdirməli, qaydaya salmalısınız? İşinizi necə asanlaşdırmalısınız? Cavab düşündüyünüzdən sadədi: işimizin uğurlu olması üçün bizlər, jurnalistlər, analitik düşünüşə malik olmalıyıq. "Analitik düşünüş" bir az qorxunc səslənsə də, qorxmayın! BDU-nun jurnalistika fakültəsində dərs dediyim təcrübədən belə nəticə çıxarmışam ki, sırf humanitar yönümlü təhsil jurnalistlər üçün ən optimal təhsil üsulu deyil. Jurnalistika olaylara daha dəqiq, məntiqli, analitik yanaşma tələb edir. Fikrimcə, jurnalistika ilə hansısa dəqiq elm sahəsində ciddi təhsil aldıqdan sonra məşğul olmaq daha ağlabatan variantdı. Amma ruhdan düşməyə dəyməz. Bütün başqa şeylər kimi analitik düşünüş tərzini də sonradan qazanmaq olar. Məntiqlə, sosiologiyanın metodikası, ritorika, riyazi

modelləşdirmə ilə bağlı çoxlu ədəbiyyat oxuyun. İntellektual oyunlar oynayın. Beyninizi paslanmağa qoymayın. *“ Boz maddə”nizi xərcləyin.*

Seçdiyiniz peşənin ikinci aspekti daha da sadə səslənir: **siz ünsiyyətcil olmalısınız.** Bu, sizin daha bir peşə standartınızdı. Futbolçunun yaxşı oyun texnikası, riyaziyyatçının məntiqi, evdar xanımın yaxşı yemək bişirməyi, sizinsə “şeytan tükünüz” olmalıdı. Siz adamlarda simpatiya doğurmalısınız. Boynumuza alaq ki, öncədən bizim peşəyə münasibət birmənalı deyil. Bu birmənalı olmayan münasibəti aşmalı, keçməli, özünüzə rəğbət qazandırmalısınız. Biliyinizlə, peşə əxlaqınızla, düzgünlüyünüzlə. Sizin qaynaqlarınız sizə bel bağlaya bilməlidirlər. Onlar sizinlə əməkdaşlıqdan ziyan çəkməməlidirlər. Toplumda yaxşı reputasiya çox şeyə dəyər. Onu qiymətləndirin. İstənilən situasiyada “üzünüzü” itirməyin. Həyatda elə şeylər var ki, heç cür yenidən qazanılmır. Bunu unutmayın. Yaxın keçmişdə bir essemdə yazdığım kimi: “Xidmət edərkən avtobioqrafiyanızı unutmayın”.

Yəqin, spiralvari inkişaf haqqında eşitmisiniz. Sivilizsiya eyni olaylara daha yüksək səviyyədə bir də qayıdır, spiral üzrə. Əslində, “doğuluş-yaşam-ölüm” – bu üç böyük olaydan başqa, heç nə dəyişmir. Bizim, bir də yaşadığımız toplumun bu olaylara baxışı dəyişir. Yaşam öz əhəmiyyətinə, həcminə, xarakterinə görə, rəngbərəng faktlar okeanıdı. Bunların çoxu bir birilə əlagədə mövcuddu. Jurnalist faktları rəngli kaleydoskopdakı kimi yeni düzümdə birləşdirməyi bacarmalıdı. Fakt axtarışına kreativ, yaradıcı yanaşmalidi. Dyu Qarın “Tobo ailəsi” romanından xatırlayırsınız ?

“Yaşam dənizinə baş vurun. Yalnız o sizi böyük yola çıxaracaq. Səhərdən axşama təpik döyün, bir şeyi belə buraxmayın. Gözlərinizi geniş açın. Sivilizasiya özü ilə nə gətirirsə gətirsi, xeyir ya şər, ağla sığmayan,

xəyallarda olmayan hər şey, baxın, baxın, baxın! Və bəlkə də, siz bundan sonra adamlar, cəmiyyət, özünüz haqqında nəsə bilirəm deyə bilərsiniz”.

Qeybətcildən fərqli olaraq, jurnalist əldə etdiyi informasiyaları çeşidləyir, müəyyənləşdirir ki, o nə dərəcədə qiymətli və gerçəkdi. Yeniliklər – qaynar xəbərdir, yaxud soyuq – fərqi yoxdur, dəqiq olmalıdı. Jurnalist materialı üçün yalnız lazımı faktları toplamaqla kifayətlənməməli, həm də onları istifadə etməkdən öncə yoxlamalıdı. Jurnalistlər adətən informasiyanın düzgünlüyünə əmin olmaq üçün onu bir neçə dəfə yoxlayır, şahidlərin olay haqqında bilgilərini alırlar. Bəzi halları çıxmaqla onlar öz informasiya qaynaqlarını göstərirlər.

MARAQLIDI

Maneəsiz, sağlam informasiya axınını təmin etmək üçün ABŞ yaradıcıları əsas insan hüquqları siyahısına mətbuat azadlığını da daxil etmişdi. Yeri gəlmişkən, Amerika Konstitusiyasına ilk düzəliş də bununla bağlı idi. **Məşhur “FIRST AMENDMENT” - Birinci düzəliş** .“*Konqres söz, yaxud mətbuat azadlığını məhdudlaşdıran heç bir qanun qəbul edə bilməz”*.

Yaxşı, gerçəkdən maraqlı materiallar yalnız o vaxt meydana gəlir ki, jurnalist geyri- standart qaynaqlara müraciət edir. Digər tərəfdən “informasiya axtarışında pintilik, məsuliyyətsizlik ona gətirir ki, jurnalist cəmiyyəti dezinformasiya edir, insanların inamını qırır”.

İnformasiya axtarışı müəyyən mənada həm də elmdir, hər bir jurnalist öz üslubu, informasiya qaynaqları ilə öz iş texnologiyasını formalaşdırır.

Təcrübəni bölüşənlər

Qulu Məhərrəmli

BİOQRAFİYA

Mənbəyi şübhə doğuran xəbər heç vaxt mötəbər sayıla bilməz. Mənbə həmişə konkret və dürüst olmalıdır. Məsələn, diqqət yetirmisinizsə, son vaxtlar yerli qəzetlərin çoxunda informasiyanın «etibarlı mənbələrə» istinadən verilməsi təcrübəsi xeyli artıb. Bu fakt redaksiyalarda məlumat qaynaqları ilə bağlı problemlərin olduğunu göstərir. Adətən, cəmiyyətdə anlaşma olmayanda, mətbuat yerişini itirib ləngərləyəndə qəzetlə informasiya mənbələri arasında etimad itir və bu zaman anonim qaynaqlarla işləmək zərurəti aktuallaşır. Beləliklə, Qərbdə mübahisəli fakt kimi çözülən anonim qaynaqlarla işləmək bizdə zərurətə çevrilir. Mən ilk dəfə bu problemlə 1992-ci ilin fevralında «Aydınlıq» qəzetinin sifarişi ilə «Paytaxt cəbhəyə necə kömək edir» mövzusunda yazı hazırlayarkən üzləşdim. Bakı məktəblərindən birinin 9-cu sinfinin iki şagirdi əsgərlərə qoşulub Qarabağa – cəbhə bölgəsinə vuruşmağa getmişdi. Bir həftədən sonra hərbi hissəyə gələn yoxlama komissiyası həmin «könüllüləri» geri qaytarmışdı. Mən bu yeniyetmələrin entuziazmı arxasında böyük bir xalq təşəbbüsünün dayandığını, bütün ölkənin, həqiqi mənada, arxa cəbhəyə çevrilməsini əks etdirməyə, müəyyən təhlillər aparmağa çalışırdım. Göz önündə bu məsələyə dair xeyli fakt var idi, lakin müraciət etdiyim hökumət təşkilatlarındakı mənbələrin heç biri bu məlum faktlar barədə danışmaq istəmədi. Mənə lazım olan informasiyaları verənlərin isə heç biri rəsmən ona istinad edilməsini, adının çəkilməsini istəmirdi. Yazım həmin dövr üçün xarakterik olan coşqun vətənərvərlik ruhunda olsa da, çoxları başını cəncələ salmaqdan ehtiyat edirdi. Bu çəkingən adamların sırasında çox yüksək vəzifə sahibləri var

idi…

Bu gün Azərbaycanda hansısa prinsipial məsələyə dair informasiyanı mətbuata verən mənbə daha çox anonim qalmağı üstün tutur. Məncə, milli psixologiya və həyati gerçəkliklərə görə bu məqamı başa düşmək mümkündür. Burada əsas odur ki, həmin anonim mənbənin verdiyi informasiyalar doğru, dürüst olsun. Məsələn, AzTV-də «7 gün» analitik informasiya proqramı apardığım vaxt Azərbaycana keyfiyyətsiz əlil arabaları alınması və bu işdə böyük pulların mənimsənilməsi ilə bağlı anonim qalmaq istəyən mənbədən informasiya almışdim. Teleşirkətin o vaxtkı sədri ilə razılaşdıq ki, mən bu biabırçı faktı araşdırım. Faktla balı Nazirlər Kabinetinin, Sosial Təminat Nazirliyinin, Maliyyə Nazirliyinin nümunayəndələri və xarici şirkətlə bağlanmış həmin müqaviləyə müsbət rəy vermiş ekspertlərlə görüşdüm. Hamı əlillərə sevgidən danışdı, belə şeydən pul qazanmağın günah olduğunu dedi və təbii ki, bu faktı danmağa çalışdı, yalnız ekspertlərdən biri etiraf etdi ki, alınacaq əlil arabaları, həqiqətən keyfiyyətsizdir və onun vicdanı bu faktı gizlətməyə imkan vermir. Həmin şəxs, efirdə danışmaqdan imtina etsə də, məsələnin mahiyyəti ilə bağlı mənə yazılı şəkildə geniş və anlaşıqlı arayış verdi. Mən bu arayışla bağlı şəxsi münasibətdə olduğum o vaxtkı maliyyə naziri ilə görüşdüm. Əvvəlcə dediyim faktlara inanmadı, sonra onu ekspert arayışı və əlavə dəlillərlə tanış etdim. Yaxşı ki, dinləməyə hövsələsi çatdı. Bir neçə ekspertin yanına çağırtdırdı.

Mən apardığım proqramda əlillərin bərpası mərkəzindən reportaj verdim, əlillərə dövlət qayğısı barədə süjet göstərdim, ölkədə əlil arabalarının çatışmazlığından danışdım. Azərbaycan işbazlarının məhsulunu

almaq istədikləri xarici şirkətin əlil arabaları barədə məndən anonim qalmağı xahiş etmiş ekspertin rəyini açıqladım, beynəlxalq ekspertlərə də istinad etdim. Əlil arabaları istehsal edən beynəlxalq şirkətlərin adlarını sadaladım. Proqram təsirsiz qalmadı. Nazirlər Kabineti əlillərin cibinə göz dikmiş işbazların müqaviləsini ləğv etdi. Bir neçə aydan sonra Azərbaycana başqa firmanın daha keyfiyyətli arabaları gətirildi.

İş təcrübəsi və əlaqələri artdıqca hər bir jurnalistin informasiya qaynaqları da artır. Adətən, jurnalistlərin əksəriyyəti məlumatı hakimiyyət orqanlarından, onların mətbuat xidmətlərindən alır. Amma belə məlumatlar çox vaxt təbliğat-təşviqat xarakteri daşıyır və KİV-in məqsədlərinə uyğun olmur. Ona görə də, gənc jurnalistlərə belə məlumat və mənbələrlə işləyərkən ehtiyatlı olmağı tövsiyyə edərdim. Əvəzində hadisə və proseslər içərisində olan sıravi adamlarla əlaqə qurmaq məqsədəuyğundur. Bu adamlar həmişə jurnalistələrə dəqiq məlumat verəməyə can atır, amma onların səlahiyyət və vəzifələri elədir ki, biz bu adamlara istinad edə bilmirik. Ona görə də jurnalist informasiya mənbəyini seçərkən bu adamlara diqqət yetirməli və onların məlumatlarını mötəbərlilik səviyyəsinə qaldıra bilməlidir. Mən öz iş təcrübəmdə bu adamların məlumatlarının 90 faiz dürüst olduğunu görmüşəm.

İnformasiya qaynaqlarınız.
İnformasiya qaynaqları ilə iş texnologiyasının incəlikləri

Qaynaqlar olaya yaxınlıq, aidlik, əhəmiyyətlilik dərəcəsinə görə **ilkin və ikincili** ola bilər. **İlkin qaynaqlara** öz adının çəkilməsinə razı olan şəxslərdən bunlar daxildi:

- olayın iştirakçıları;
- olaydan zərərçəkənlər;
- olayın şahidləri.

İkincili gaynaglara digər KİV-lər aiddi. Bu sizin yazınızın zəifliyidi, bir də "tənbəllər" jurnalistikasıdı. Çalışın özünüz informasiya tapasınız.

Qaynaqlarınızla işləyərkən bu qaydanı **unutmayın:** istənilən informasiyani biri birindən asılı olmayan ən azi iki qaynaq təsdiqləməlidi.

Biri- birindən asılı olmayan nə deməkdi?

1. A qaynağı informasiyanı B qaynağından almayıb;
2. A və B gaynaqaları informasiyanı eyni C qaynağından almayıblar.

UNUTMAYIN: iki asılı olmayan qaynaqdan təsdilənməyən informasiya fakt sayılmır.

İnformasiya qaynaqları üç yerə bölünür:

1. **Kommunikativ** metodlara ilk növbədə söhbət, müsahibə və sorğu aiddir. Bütün şəxslərarası və texniki ünsiyyət vasitələri bura daxildir.
2. **Qeyri-kommunikativ** *metodlar jurnalist işində mümkün olan bütün informasiya massivindən faydalana bilmək çox vacibdir. Qeyd etmək*

lazımdı ki, çap mediası və digər media məhsulları ilə tanışlıq, olayla bağlı ilkin sənədlər (kitablar, gündəliklər, məktublar, iş yaxud adi yazışmalar, əmr və sərəncamlar, digər sənədlər) jurnalistə material üzərində iş zamanı böyük informasiya massivi açır. Digər effektli üsul müşahidənin instrumental vasitələrindən faydalanmaqla alınan informasiyadı. Özü də müşahidə (monitorinq) xüsusi alətlərdən istifadə etməyərək tətbiq olunanda belə, bəzən qiymətli informasiya verir, çünki jurnalist olayı izləyir, şahidi olur.

3. **Analitik** *metod kifayət qədər geniş palitralı üsuldur. Kiçik bir çeşidləmə verək.*

- ***Sistemli analiz,*** *yəni elementlərin müəyyən qarşılıqlı əlaqəsi, iyerarxiyası, əsas funksiyalarının sistem şəklində qurulması, sistemyaradıcı, sistemdağıdıcı, sistem-neytral faktorlar. Burada məqsəd faktlar müxtəlif əlamətlərinə görə (xronologiya, tematika, əhəmiyyətlilik dərəcəsi) dəqiq sistemləşdirməkdi.*
- ***Müqayisəli analizdə*** *(komparativ metodika) hadisə, obyekt analoji hadisə ilə müqayisə olunur. Televiziya xəbərlərini yadınıza salın .Hansısa olay haqqında analoji hadisələr yada salınır, paralellər aparılır.*
- ***Deduktiv və induktiv metod*** *mülahizələrin ümumidən xüsusiyə və əksinə düzülməsidi.*
- ***Modelləşdirmə*** *(kompüter, məntiqi, riyazi) bu halda obyektin bəzi xüsusiyyətləri modelə köçürülür. Bununla bağlı iki çox informativ və maraqlı metodu qabartmaq istərdim. Blok-sxem və kontent-analiz. Blok-sxem ali riyaziyyatda qəbul edilən üsuldu. Sadəcə metodun prinsipini izah etmək istərdim. Olay, yaxud bir neçə olay modelləşdirilir. Analiz olunur və mümkün yeganə düzgün qərar verilir. "Baharın on yeddi anı" filmində sovet zabitini xatırlayırsınızmı? O, yeganə düzgün cavab tapmaq üçün alman ordusu funksionerlərinin şəkillərini çəkir, araşdırmalar apararaq bir-bir*

onların üzərindən xətt çəkir. Sonda ona lazım olan adamı tapır. Bu, blok-sxemin sadə izahıdı. Kontent –analiz də bir neçə elm sahəsində: sosiologiyada, psixologiyada, politologiyada, kütləvi kommunikasiyanın tədqiqində istifadə olunan metoddur.

...Daha ənənəvi və sadə təsnifat. Jurnalistlərin ənənəvi informasiya qaynaqları çox elmi ədəbiyyatda bu cür təsnif olunur:

1. Müsahibə
2. Sənədlər
3. Müşahidə

ÇALIŞMALAR:

1. **7- ci səhifəni bir daha diqqətlə oxuyun. Daxili İşlər Nazirliyindən informasiya verilir ki, Almadərən kəndində dövlət əleyhinə silahlı qiyam olub. Qiyamda bir polis nəfəri yaralanıb. İnformasiyanı Almadərən kəndinin bir polis işçisi təsdiqləyir. İnformasiya iki qaynaqdan təsdiqlənib. Necə düşünürsünüz - bu faktdır? Fikrinizi əsaslandırın.**
2. **Qanunsuz kütləvi aksiya keçirməyə cəhd edərkən tutulmuş müxalifətçi, buraxıldıqdan sonra bəyan edir ki, polis işçiləri onu öldürəcəklərilə hədələyiblər. "Yeni dönəm" qəzetində də müxalifətçiyə polis tərəfindən edilən hədələrdən yazılıb. Fikrinizcə, bu faktdı? Nə üçün?**

Ədəbiyyat:

1. Repkova T. Yeni Dönəm: Demokratik cəmiyyətdə peşəkar qəzet buraxmaq yolları, Bakı, Qanun, 2006. s. 236-238.

2. Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002. p.50- 118.
3. Rgndall D. Universalğnıy jurnalist, M., RroMedia, 1996. s. 30-39.
4. Şostak M.İ. Reporter: professionalizm i gtika, M., «RİP –xoldinq», 2002. s 44- 49.
5. Spravoçnik dlə jurnalistov stran Üentralğnoy i Vostoçnoy Evropı, M., İzd. "PPP", 1993. s. 12-14.
6. Məmmədli Z. KİV-də anonim qaynaqlardan istifadə özəlliklər. "Jurnalistika-dünən, bu gün, sabah" jurnalı, 2002.

FƏSİL 4. MÜSAHİBƏ

Sən, Sokrat, o qədər yaxşı soruşursan ki, yaxşı soruşanlara yaxşı cavab vermək mənə də xoş olur.

Platon

Bu fəsildə açıqlanacaq suallar:

- ***Müsahibəni necə aparmalı?***
- ***Müsahibə texnikası nədir?***
- ***Sualları necə qurmalı?***
- ***İctimai maraq nədir?***
- ***Müsahibənin mərhələləri***

BAŞLIQ

Başqa bir ağıllı adam, virtouz siyasətçi Teodor Ruzveltsə: “ Uğurun ən dəqiq formulu adamlarla dil tapmaği öyrənməkdi,”- deyirdi.

Yaxşı jurnalist olmağın formulunda da adamlarla dil tapmaq punktu var. Müsahibə aparmaq - insanlarla söhbət etmək bacarığı, yaxşı müsahib olmaq jurnalistin ikinci naturasıdı. İnformasiya jurnalist üçün əmtəədi. Bu əmtəənin bəzisi sənədlərdən, bəzisi müşahidələrdən, ən çoxu və ən önəmlisi isə üzbəüz söhbətlərdən toplanır. Buna görə də hər jurnalist müsahibə almaq vərdişlərinə yiyələnməlidi. Müsahibədən əldə etdiyiniz informasiya natamamdı, ona görə də əldə etdiyiniz informasiyanı digər qaynaqlarla tutuşdurun.

Amma həmişə xatırlayın – adamlar yalan deyə bilər, adamlar nəyi isə unuda bilər, adamlar sadəcə yorula bilərlər. Adamlar adamdılar. Üzbəüz söhbət zamanı bunu unutmayın. Hər bir qaynaq kimi insan qaynağından da yanlış informasiya gələ bilər. Nəyisə səhv deyə bilər. Ona görə də həmişə yoxlayın.

Psixologiyada müsahibə ilə bağlı **"uğur kvadratı** " adlanan anlayış var. Müsahibənin uğuru bu kvadratın hər dörd tərəfini təşkil edən elementlərin eyni dərəcədə yaxşı olmasından asılıdı.

Söhbətin məqsədi
Söhbətin predmeti
Müsahibi öncədən öyrənmə
Müsahibənin texnikası

Birincisi**, söhbətin məqsədi**. Məzmununa görə, biz müsahibə sual verərkən onun professional bilgiləri haqqında (məs. pediatrdan uşaq xəstəlikləri haqqında), yaxud onun fikri, rəyi haqqında (məs., Hacıbala Abutalıbov şəhərimizdəki çoxmərtəbələr haqqında nə düşünür), yaxud onun bildiyi faktlar haqqında (məs. təhsil naziri Misir Mərdanov bu il 11-ci sinifdə oxuyan şagirdlərin sayından) informasiya əldə edirik.

Kvadratın ikinci tərəfi – **söhbətin predmeti**, yaxud **müsahibənin tematikasıdı**. Jurnalist söhbət edəcəyi mövzudan nə dərəcədə xəbərdar olmalıdı? Burada jurnalist situasiyadan asılı olaraq, ya heç nədən xəbəri olmayan "maymaq", ya da təcrübəli "dəniz qurdu" rolunda çıxış edə bilər.

Amma söhbətin predmetindən bilgili olmaq sizə heç bir vəziyyətdə ziyan verməz. Bilgili adamla manipulyasiya etmək imkanları da daralır.

Müsahibəyə hazırlığın üçüncü tərəfi **müsahibi öncədən öyrənməkdi**. Təcrübəli jurnalistlər belə məlumatlara çox önəm verirlər. Onlar gələcək müsahiblərinin şəxsiyyəti, xarakteri, vərdişləri, jurnalistlərə münasibəti haqqında, öz işlədikləri mətbu orqana müsahibin münasibəti haqqında mümkün qədər çox informasiya toplayırlar. Əgər imkan varsa, siz müsahibinizin sevdiyi və onun üçün tabu olan mövzuları belə öyrənin. Bu məlumatlar sizə müsahibə haqqında vədləşməyə, sonra müsahibənin partiturasını qurmağa, söhbəti effektli qurmağa kömək edər.

Kvadratın sonuncu tərəfi söhbətin yönümünü, **müsahibənin texnikasını** fikirləşməkdir. Hər jurnalist müsahibəyə öz metodu ilə hazırlaşır – kimsə gələcək söhbətin əsas yerlərini fikirləşir, kimsə verəcəyi sualların siyahısını tərtib edir. Bu, jurnalistin xarakterindən, vərdişlərindən asılıdı.

Müsahibə aparma texnikaları ilə bağlı
peşə incəlikləri

1. **Cəlbetmə**

Danışana imkan yaradın özü danışsın, ancaq arabir söhbətə qarışın, yumşaq formada sizə lazım istiqamətə yönəldin. Danışana “köklənin”. Onun nə düşündüyünü anlamağa çalışın. Ona öz vəziyyətinin , dediklərinin gizli mənasını anlamağa kömək edin.

2. **İntriqa (paradoksal metod)**

Daxilən müsahibinizlə diskussiya aparmağa hazır olun. Sakit, ironiyasız, atmacalarsız müsahibinizlə mübahisə edin, bütün vaxt onun bu və

ya digər situasiyada əhəmiyyətini böyüdərək. Bic, “ikidibli” suallar verməyin. Şişirtmə, “hiperbola” rejimində işləyin. Sözün yaxşı mənasında “oynayın” (amma şitini çıxarmamaq şərtilə). Əgər bu metoddan yararlanmağa qərar vermisinizsə, axıradək oynayın. “İfşa olunmayın” və üzr istəməyin: paradoksal metod oyundu.

3. Müdaxilə

Lap əvvəldən təşəbbüsü əlinizə götürün. İndi siz vəziyyətin sahibisiniz, siz- Valideynsiniz, Müdirsiniz, siz çox məsul şəxssiniz. Siz hər şeyi bilirsiniz. Ünsiyyətdə inamlı olun, kəskin olun, ancaq kobudluq və nəzakətsizlik etmədən. Həmsöhbətinizlə razı olmadığınızı nümayiş etdirin. Onu öz fikrinizi qəbul etdirməyə çalışın. Müsahib zəiflik göstərib sizlə razılaşsa, çox maraqlı bir situasiya yarana bilər.

4. Açılış

Açıq danışığa hazır olun. Siz müsahibinizə özünüz haqqında nəyisə açıq etiraf edin, bunun əvəzində sizə yaxşı münasibətini nümayiş etdirmək üçün o da özü haqqında açıq etiraf edəcək. Danışın, eyni zamanda onun reaksiyasını izləyin. O başa düşəcək ki, siz səmimiliyinizə görə “təşəkkür gözləyirsiniz” və yəqin ki, “təşəkkür” edəcək.

Müsahibinizin individual keyfiyyətlərini nəzərə alaraq sadalanan texnikalardan faydalansanız, ünsiyyətdə optimal effektə nail olacaqsınız.

Bəzi ölkələrdə dövlət rəsmiləri media ilə əlaqələri yumşaq desək, sevmirlər. Hansısa təqdimatlarda siz həmin rəsmilərə sual verə bilərsiniz. Bu sizin üçün orta səviyyəli qaynaq ola bilər. Siz rəsminin köməkçiləri ilə dostcasına münasibətdəsinizsə, onlar sizə sualınızı verməyə imkan yarada bilərlər. Bəzən müsahibələr telefonla aparılır. Bu, vaxta gənaətdir. Əgər

imkanınız varsa, siz tanış olmadığınız müsahiblə şəxsən görüşsəniz yaxşıdı. Üzbəüz söhbətdə siz öz informasiya qaynağınızı həm də müşahidə edə bilərsiniz, bu, sizə yazınız üçün əlavə material verə bilər.

1. Müsahibəyə hazırlıq

Yazdığınız subyekt haqqında nə qədər çox bilirsənsə, bu sənə qaynaqla daha asan kontakt yaratmağa imkan verə bilər. Bu o demək deyil ki, siz ekspert olmalısınız. Lakin müsahibiniz görəndə ki, siz subyekti araşdırmağa vaxt sərf etmisiniz, o heç olmasa, sizinlə itirdiyi vaxta heyfsilənməyəcək. Qəzetinizin kitabxanasında problemə aid materiallar oxuyun. Başqa reportyorlar və redaktorlarla söhbət edin. Məsələ ilə bağlı ekspertlərə zəng edin. İnternetə baxın. Olayın backgroundu – ön tarixçəsi ilə bağlı nə qədər çox məlumat toplasanız, sizin müsahibənin fokusu bir o qədər dəqiqləşər. Verəcəyiniz sualların siyahısını tərtib edərkən 6 əsas sualı xatırlayın. Yazıya hazırlaşarkən fikirləşin:

- Bu yazını yazmaqla nə istəyirsiniz?
- Sizin oxucular nəyi bilmək istəyir?
- Onlar (oxucular) yanınızda olsaydı nəyi soruşardılar?

Uğurlu müsahibənin açarı hansı mövzunu işıqlandırmaq istədiyinizi dəqiq bilməkdi.

2. Müsahibəyə razılıq

Örnək kimi qəbul edə biləcəyimiz media bölümləri insanların şəxsi həyatına maraq göstərmir. Buna yalnız bir halda haqq qazandırmaq olar: **maraq dəqiq ictimai maraqla əlaqədar olarsa, yaxud sözügedən şəxs buna razılıq verərsə.** Jurnalistlər olayları işıqlandırarkən xüsusi yanaşma

tələb edən yerlərdə – təcili yardım maşınında, xəstəxanada, məktəbdə, həbsxanada – iki dəfə razıq alınmalıdı; material toplanması üçün və onun sonradan KİV-də yayılması üçün.

YADDAŞ

İctimai maraq nədir?

İctimai maraq nədir? Hələlik biz bunun dəqiq formulunu bilmirik. BBC ictimai maraq anlayışına aşağıdakı elementləri aid edir:

- Cinayətin açılıb ifşa olunması;
- Ciddi asosial davranış faktlarının açılması və ifşa olunması;
- Korrupsiya və ədalətsizlik faktlarının ifşası;
- Professional səriştəsizlik və məsuliyyət faktlarının üzə çıxarılması
- İnsanların sağlamlığı və təhlükəsizliyinə xələl gətirilməsi faktlarının üzə çıxarılması;
- Hansısa insan yaxud təşkilatın fəaliyyəti barədə ictimaiyyəti dezinformasiya etmək cəhdlərini aradan götürmək;

1. Vaxtında yerində ol.

Bu, professionallıq və ədəb əlamətidi. Əksər hallarda sizin müsahiblər sizə vaxt ayırmağa güclə imkan tapan məşğul adamlardı. Punktuallıq işinizə məsuliyyətlə yanaşmağınızın bəliridi.

2. Müsahibənin başlanğıcı

Başlanğıcda hökmən özünüzü və işlədiyiniz orqanı tanıdın. Hansı orqandan gəldiyinizi bilməyən adamdan sitat vermək səhv olardı. Müsahibinizə vizit kartınızı verin. Nə yazı yazacağınız haqqında məlumat verin. Bu, sizə söhbətinizin fokusunu müəyyənləşdirilməsinə kömək edəcək.

Bəzən müsahibinizin çox az vaxtı olduğundan , suallarınızı ona birbaşa verməlisiniz. Əgər vaxtınız varsa ümumi söhbətlə – hava, futbol və s. haqqında – müsahibənizə başlaya bilərsiniz. Müsahibiniz özünü komfortlu hiss etdikdən sonra , sizi maraqlandıran suallara keçə bilərsiniz.

3. Qeydgötürmə və diktofon

Diktofondan faydalanarkən dəqiq olun. Diktofondan istifadə etməyiniz sizə müsahibin sözlərinə fokuslanmaya imkan verir. Lakin bəziləri diktofon görərkən əsəbiləşirlər. Biləndə ki, onların hər sözü qeyd olunur, daha az danışırlar. Nəzərə alın ki, diktofondan yararlanmaq da vaxt alır. Bəzən dar macalda lazımi sitatı lenti geriyə fırladıb qulaq asmaq imkanı olmur, yaxud diktofonun cərəyanı qurtarır. Yanınızda ehtiyat batareyalar saxlayın. Hər ehtimala qarşı qeydlər də götürün.

Qulaq asa-asa qeyd götürmək çox çətindi. Əgər müsahibiniz çox surətlə danışırsa ,daha yavaş danışmağını nəzakətlə ondan xahiş edin. Əgər nəyisə çatdırmırsınızsa müsahibdən dediyini bir daha təkrar etməyi xahiş edin.

İxtisarlarla yazmağı öyrənin. Özünüz üçün ixtisarlar sistemi yaradın. Siz hər sözü yazmalı deyilsiniz. Açar-frazaları və məsələləri qeyd edin, müsahibin şərhlərinin altından xətt çəkin.

Yazıya başlamazdan öncə qeydlərinizi yerbəyer edin. Lid kimi gedə biləcək açar- elementləri rəngli markerlə fərqləndirin. Yaxın elementləri yanaşı qoyun. Öncədən qeydlərinizi yerbəyer etməklə materialınızın

fokusunu müəyyənləşdirməyə kömək edirsiniz. Bu yazını hazırlamağı asanlaşdırır və daha məntiqlidi.

4. “Nə üçün ?” və “Necə ?” sualları

Elə suallar ver ki, müsahibin fikirlərini izah etməyə, dəqiqləşdirməyə həvəslənsin. Birmənalı hə ya yox cavablandırılacaq suallardan çəkin.

“Nə üçün” və “necə” ilə başlanan suallar verin.

“ Nə üçün şəhərin sürüşmə riskli zonalarında tikinti yasaq olunmur ?”

“Nə üçün sizin aptekdə holoqramsız dərmanlar satılır ?”

“ Sərhəd rayonlarının monitorinqi necə həyata keçirilir ?”

Sualları qısa formalaşdırın. Bəzi jurnalistlər öz danışıqlarına qulaq asmağı xoşlayırlar. Uzun-uzadı suallar verirlər. Müsahib özünü itirə, sualın əvvəlini unuda bilər. Suallarınızı birbaşa və sadə verin. Sizin işiniz öz parlaq, təkrarsız intellektinizi nümayiş etdirmək yox, informasiya toplamaqdı.

5. Qulaq as, ayıq ol, qayğıkeş görün

Dediyim kimi, sizin işiniz müsahibinizə qulaq asmaqdı, ona mühazirə oxumaq, ya mübahisə etmək deyil. Öz rəyinizi özünüzdə saxlayın. Amma bu, o demək deyil ki, siz sadəcə qeyd edən robot olmalısınız. Siz diqqətlə qulaq asmalısınız. Nə deyildiyi haqqında düşünməlisiniz: Cavablar və şərhlər hansı emosiyalar doğurur? Müsahib suallarıma doğru cavab verirmi? Müsahibin nə dediyi haqqında düşünün, növbəti nə sual verəcəyinizi yox.

Bəzi qeyri-adi faktlar üçün ayıq olun. Əgər müsahib gözləmədiyiniz istiqamətdə maraqlı şeylər deyirsə buna reaksiya verin. Dəqiqləşdirin.

Müsahibəyə xüsusi hazırlıq görməyib gələn jurnalist imtahana hazırlıqsız gələn tələbəyə oxşayır. Doğrudan qulaq asın, özünüzü qulaq asan kimi göstərməyin. Təzə başlayan jurnalistlər elə həyəcanlanırlar ki, gözlərini öz hazırladıqları suallardan çəkmirlər, heç başlarını qaldırıb müsahiblərinə belə baxmırlar. Cavaba qulaq asmadan növbəti sualı vermək bəzən gülməli situasiya yaradır.

– Mən bilirəm ki, siz altı ildi ki, evlisiniz. Yoldaşınız necədi?

– Keçən həftə rəhmətə getdi?

– Çox yaxşı, bəs uşaqlar necədi?

6. Müsahibənin sonu

Müsahibinizə sizə ayırdığı vaxt üçün təşəkkür edin. Lakin ona verəcəyiniz üç yekun sualını unutmayın.

- Sizin deyəcəyiniz vacib heç nəyi soruşmağı unutmadım ki?
- Siz bu predmetlə bağlı bilgisi olan başqa bir adamı məsləhət görürsünüzmü?
- Mənim başqa suallarım yaranarsa sizə yenidən zəng edə bilərəmmi? (Əgər mümkünsə, müsahibin ev və mobil telefon nömrələrini götürün).

Müsahibədə ünsiyyətin bütün üsullarından istifadə olunur – həm verbal, həm geyri – verbal.

Psixologiyada ünsiyyətin üç distansiyası müəyyən edilir:

- Publik (beş metr məsafədən artıq)
- Şəxsi (bir metrdən üç metrə qədər)

Yaxın (yarım metrdən az). Adətən bizim jurnalistlər bu distansiyanı seçirlər. Çox adamlar, xüsusilə də xaricilər üçün bu diskomfort doğurur. Söhbət zamanı yaxın distansiyanı seçməyin, çəkingən müsahib uzaqlaşmaq üçün sadəcə sizinlə danışığı kəsə bilər.

MARAQLIDI

Ünsiyyət vasitələri iki yerə bölünür

Verbal (dil) – şifahi və yazılı nitq

Qeyri –verbal. Buraya daxildi:

a. kinesika (mimika, jestlər, duruş, yeriş);
b. proksemika (ünsiyyətin vaxt-yer baxımından təşkil olunması);
c. paralinqvistika (nitqin ,səsin hündürlüyü və tonu, qülüş, intonasiyalar, səsin tembri);
d. göz kontaktı.

ÇALIŞMALAR:

1. Qrupla birlikdə müsahibə prosesini əvvəldən axıra modelləşdirin. Şərti müxbir, redaktor, fotomüxbir təyin edin. Real insanlarla müsahibə almaq üçün şərtləşin. Müsahibəyə hazırlıq prosesindən tutmuş son addımlarınıza kimi planlaşdırın. Müsahibləriniz:

- gerçəkliyimizin adi, alışdığımız personajları - müəllim, zavodda fəhlə, fermer, biznesmen, bazarda satıcı;

- praktik olaraq deməyə heç nəyi olmayan, amma reklama çan atan ikinci dərəcəli siyasətçi;

- istedadı böyük şübhə doğuran estrada müğənnisi

olacaq. Hazırladığınız materiallar əsasında jurnalistika fakiltəsinin 1-ci kurs tələbələri üçün "Müsahibə almaq qaydaları" başlıqlı yaddaş hazırlayın.

2. Müəllimlə birlikdə dövlət rəsmisinin keçirdiyi mətbuat konfransının videoyzısını izləyin. Jurnalistlərin verdiyi sualları təhlil edin, dəyərləndirin. Siz hansı sualları verərdiniz?

ƏDƏBİYYAT

1. Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002. p. 50- 118.
2. 2.Repkova T. Yeni Dönəm: Demokratik cəmiyyətdə peşəkar qəzet buraxmaq yolları. Bakı, Qanun, 2006. s. 236-238.
3. Rgndall D. Universalğnıy jurnalist, M., RroMedia, 1996. s. 30-39.
4. Şostak M.İ. Reporter: professionalizm i gtika, M., «RİP –xoldinq», 2002. s. 44- 49.
5. Spravoçnik dlə jurnalistov stran Üentralğnoy i Vostoçnoy Evropı, M., İzd. "PPP", 1993. s. 12-14.

FƏSİL 5 . MÜŞAHİDƏ METODU VƏ SƏNƏDLƏR

Bu fəsildə açıqlanacaq suallar:

- ***Jurnalist nələri sənəd hesab edə bilər?***
- ***Mətbuat konfransından necə faydalanmalı?***
- ***Akademik və elektron informasiya qaynaqları hansılardır?***
- ***Anonim qaynaqlarla işin özəllikləri nədir?***
- ***Qaynaqlarla ünsiyyətdə hansı etika qaydalarına əməl olunur?***
- ***Açıq, gizli, məxfi informasiya nədir?***

MÜŞAHİDƏ

Gözlüksüz eşitmirəm...

Praktik jurnalistikada informasiya almağın əsas yollarından biri müşahidədi. Müşahidə nəticəsində jurnalist müəyyən informasiyanın alınmasında müəyyən məqsədləri həyata keçirir.

Bilirsinizmi, canlı nitqdə sözlər informasiyanın cəmi 7%-ni, intonasiya 38%-ni, mimika və jestlərsə 55%-ni daşıyır. “Gözlüksüz eşitmirəm” frazası həqiqətdən bir o qədər də uzaq deyil. Psixiatr C. Ruşun araşdırmalarına görə, jestlərin dilində 700 min müxtəlif siqnallar

mövcuddur. Müqayisə edin: orta həcmli dörd hissəlik lüğətdə cəmi 80 min söz var.

Müşahidə yenilikçilərin ikinci əsas informasiya toplamaq metodudu. Jurnalistikada müşahidə adi müşahidədən onunla fərqlənir ki, bu obyektləri qəsdən, bilərəkdən müəyyən məqsədlə müşahidə etməkdir. Jurnalistin müşahidədə iştirak dərəcəsinə görə qoşulmuş (jurnalistin aktiv iştirak etdiyi, məsələn, hansısa ekspedisiyada bərabərhüquqlu üzv olaraq iştirak etməsi) və qoşulmamış (jurnalist sadəcə olayı izləyir, məsələn, təcili yardım briqadası ilə). Jurnalistin pozisiyasına görə, açıq və gizli müşahidə olur. Açıq müşahidədə jurnalist öz məqsədlərini gizlətmir. Gizli müşahidədə isə müəyyən vaxtadək jurnalist öz məqsədlərini gizlədir. Bunun bir sıra hüquqi və etik tərəfləri var.

SƏNƏDLƏR

Əlyazmalar yanmır.

A. Bulqakov

"İstənilən az- çox əhəmiyyətli hadisə hökmən özündən sonra bütöv bir sənədlər "quyruğu" qoyur: ərizə, monoqrafiya, elmi araşdırma, hesabat, arayış, bank hesabı, yoxlama haqqında akt və s. Həmişə sənəd axtarın. Həmişə ehtimal edin ki, sənəd mövcuddu.

Jurnalistikada informasiyanı istənilən işarələr sistemində fiksasiya edən istənilən predmet sənəd sayılır. Məktub da, audio və video lentlər də, fotolar da, rəsmlər də, qərarlar da, jurnal məqaləsi də sənəd ola bilər. Jurnalist sənədlərlə işi üç mərhələdə həyata keçirir: faktları müəyyənləşdirir, onları interpretasiya edir və onları fiksasiya edir.

Sənədin doğruluğuna əmin olmaq üçün bu qaydalardan faydalanın:

- Olayın təsviri ilə onun interpretasiyasını fərqləndirin (faktı rəydən ayırma).
- Sənədi tərtib edənin hansı informasiya qaynağından yaralandığını müəyyənləşdirin.
- Sənədi hazırlayanın məqsədini müəyyənləşdirin.
- Sənədin yaradılma şəraitinin onun məzmununa təsir etdiyini nəzərə alın .

BƏLƏDÇİ: Jurnalistlərin ixtisaslaşdırılmış elektron informasiya qaynaqları.

1. Editor & Publisher: www.mediainfo.com/edpub

"Redaktor və naşir" kompaniyası eyni adlı jurnal dərc etdirir.Bu şəbəkə informasiya xidmətləri və qəzet nəşrlərinin inkişafına yardım üçün yaradılıb.Saytda həftəlik "Readktor və naşir" elektron qəzetin materialları ilə tanış olacaqsınız. əbəkə bazarında ("Online Store") qəzetə abunə ola bilərsiniz, müxtəlif sorğu materialları , həmçinin jurnalistika sahəsində illik mükafatlar, 500 artıq təqaüdlərin sorğu kitabçası , jurnalistlər üçün təqaüdlər haqqında məlumat ala bilərsiniz.

2. **Environmental Journalism Home Page:**

http://www.tribnet.com/environ/env_home.htm

Jurnalistlərin Ekoloji Cəmiyyətinin pulsuz xidməti. Burada ətraf mühitin gorunmasına dair müxtəlif informasiyalar tapa bilərsiniz.

3. **Freedom Forum: http://www2.nando.net/prof/freedom/1994/freedom.html**

The Freedom Forum (FF) (news@freedomforum.org) öz fəaliyyətini söz azadlığı, mətbuat azadlığı , şəxsiyyət azadlığı problemlərinə həsr edir. FF jurnalist hazırlığı ilə bağlı internasional proqramları maliyyələşdirir, araşdırmalar aparır.

4. **GlasNews: http://solar.rtd.utk.edu/~aboyle/glasnews/master.html**

Şərq –Qərb kommunikasiya jurnalistikanın bütün aspektlərinə aid , televiziya, fotoqrafiya, ictimai rəy və reklama aid əlaqələri işıqlandırır.

GlasNews şəbəkəsini «Seattle Post-Intelligencer»nin redaktoru Elan Boyl kömək edir. GlasNews üç seksiyadan ibarətdi; iki tematik məqalə və bir ekspress- xronikadan.

5. **Inet-News: http://www.helsinki.fi/valttdk/lists/inet-news/**

Inet-News qısa yeniliklər və elanlardan ibarətdir. Burada xüsusi informasiya qaynaqları haqqında məlumatlar tapa bilərsiniz.

6. **http://www.newslink.org/menu.html.** 1800-dən çox xəbərlər sistemini- Iş və professional xəbərlər də daxil olmaqla – birləşdirən şəbəkə. NewsLink jurnalistlər arasında ən populyar şəbəkədi.
7. **CPJ-L: http/.hall.org/places/spj/.** 1994-cü ildə Professional Jurnalistlər Jəmiyyətinin Yeni İnformasiya Texnologiyaları komitəsi tərəfindən yaradılıb. İndi onun dünyanın 20 ölkəsində 900 yaxın abunəçısı var. Gündə15-30 məlumat verir. Ayda 1 meqabayt informasiya axını var.
8. Poynter Institute for Media Studies: http://www.nando.net/prof/poynter/.

Bu, Florida ştatının Sanjt- Peterburq şəhərində fəaliyyət göstərən geyri-

kommersiya jurnalist məktəbidi. Jurnalistlərə və təəlbələrə informasiya axtarışında kömək edir.

JURNALİSTLƏRİ İNFORMASİYALANDIRMANIN DİGƏR SİSTEMLƏRİ

1. Brifinqlər – KİV işçilərinin, dövlət strukturlarının bu və ya digər məsələ ilə bağlı mövqeyi ilə tanışlığa həsr olunmuş qısa iclası;
2. Prezentasiyalar – hansısa dövlət, ictimaiyyət, yaxud özəl strukturların media işçiləri üçün də təşkil olunmuş yeni məhsul, yeni məhsul və s. ilə bağlı təntənəli görüş:
3. Mətbuat konfransları – dövlət yaxud ictimai xadimlərin, elm, mədəniyyət adamlarının hansısa bir aktual məsələ ilə bağlı, yaxud jurnalistlərin suallarına cavab vermək üçün təşkil olunmuş görüşlər;
4. Press-relizlər – bu və ya digər faktlarla bağlı media üçün mətbuat-xidmətləri üçün hazırlanmış xüsusi mətnlər;
5. Xüsusi informasiya bülletenləri – korporativ informasiya xidmətləri tərəfindən hazırlanmış olaylar haqqında məlumatlar;
6. Mətbuat katibləri, mətbuat xidmətləri tərəfindən redaksiyalara göndərilən təcili məlumatlar.

Bu sistemlərdən birinin üzərində bir qədər geniş dayanaq.

Mətbuat konfransları

Xəbərçilər çox yazıları üçün materialı görüşlərdən, mətbuat konfranslardan götürürlər. İstənilən halda, reportyor öncə mətbuat konfransı aparan adam və mövzu haqqında müəyyən informasiya toplamalıdı. Ancaq

bu halda o yaxşı sual verə bilər, öz oxucuları üçün maraqlı, dolğun hesabat hazırlaya bilər.

UNUTMAYIN: çox vaxt mətbuat konfransında danışmanın xüsusi məqsədi olur. Adam hansısa mesajını media vasitəsilə ictimaiyyətə çatdırır. Yaxud bu, sadəcə hansısa siyasi partiyanın, ya biznes məhsulunun örtülü formada topluma "keçirilməsi" olur. Buna yol verməyin. Siz jurnalist kimi bilməlisiniz ki, belə tədbirlərdə olayın ancaq bir tərəfi görünür. Danişmandan daha çox informasiya almağa, onu demək istədiyindən artıq danışdırmağa çalışmalısınız. Çox halda sizin verdiyiniz sualın cavabı əvvəldən hazırlanmış bəyanatlarda olmur.

Əgər mətbuat konfransda verilən məlumatlar, şərhlər mübahisəlidirsə, hazırlayacağınız materialda hökmən onun rəqibinin şərhini, yaxud onun baxış bucağı ilə razı olmayan ekspert, yaxud toplum üzvünün şərhlərini əlavə etməlisiniz. Bu sizə balanslı yazı hazırlamağa imkan verəcək.

YADDAŞ

Mətbuat konfransının fokusu. Kim nə dedi ?

Mətbuat konfransdan hazırlanan yazıya bunlar daxil olmalıdı:

- Kim danışdı (adı, titulu, təmsil etdiyi təşkilat);
- Danışan nə dedi (əsas baxış bucağı) bir-neçə güçlü sitat əlavə edilməklə;
- Mətbuat konfransı harada və nə vaxt keçirildi;
- Dinləyənlər (auditoriya) kimlər idi və olanlara onların reaksiyasını);
- Problemlə bağlı digər şərh və reaksiyaları.

Yazının lidində iki önəmli fakt əksini tapmalıdı: “KİM ?” “NƏ ?” dedi.

Mətbuatda tez-tez mətbuat konfransından olan yazıların lidinə, başlıqlarına danışmanın “Nə vaxt ?”, “Harada ?”, “Kimə?” dedikləri çıxarılır. Danışmanın əsas nə dediyi, əsas baxış bucağı unudulur. Özünüz özünüzə sual verin: “Bu danışman nə ən vacib, yaxud qeyri-adi şey dedi? Məsələn, bəlkə, danışman problemin tamamilə yeni həllini təklif edir? Bəlkə, onun şərhləri mübahisəlidi?” Bunları lidinizə yerləşdirin.

Mətbuat konfransının harada keçirilməsi, auditoriya haqqında informasiyanı yazının ikinci, ya üçüncü abzaslarında yerləşdirə bilərsiniz. Bu üsulla hazırladığınız material sadə və anlaşıqlı olacaq.

Əsas, baş baxış bucağının yazınızın fokusunda saxlanıldığına əmin olun. Mətbuat konfransında deyilən hər şeyin siyahısını verməyin. Sizin işiniz görüşdə səslənən önəmli, daha maraqlı baxışları oxucunuza çatdırmaqdı.

Bəzən çox maraqlı deyimlər uzun-uzadı nitqin sonunda deyilə bilər, ona görə də ayıq olun. Deyək ki, nazir hansısa diaqnostika mərkəzinin açılışında 45 dəqiqə çıxış edir, son beş dəqiqədə isə mövzunu dəyişib qaçqınlara ayrılan aylıq pulun artırılacağından danışır. Bütün qaçqınlar, onların burada anadan olmuş övladları ilə birgə N. manat dövlət yardımı alacaqlar. Əgər nazir tibbi yardım haqqında heç dramatik şey deməyibsə, sizin lidiniz belə olmamalıdı:

Yeni diaqnostika mərkəzinin açılışında cənab nazir ölkədə tibbi yardımın səviyyəsi haqqında məlumat verib.

Lidiniz belə olmalıdı:

Cənab nazir qaçqın ailələrinə dövlət yardımının artırılacağını dedi.

Materialınızda daha sonra xatırlada bilərsiniz ki, bəyanat diaqnostika mərkəzinin açılışında edilib. Diaqnostika mərkəzindəkilərin sizə açıqları tutmamalıdı. Siz mərkəzdəkilər üçün yox, oxucularınız üçün yazırsınız.

Bəzən danışman çox vacib bəyanat verir, ancaq onu öz nitqində dəqiqliklə açа bilmir. Nitqdən sonra bunu izah etməyini danışmandan xahiş edin. Mətbuat konfransından sonra danışmana yanaşmağı özünüz üçün qayda edin. Bu söhbətdən siz çoxlu detallar, daha maraqlı sitatlar əldə edəcəksiniz. Materialınız daha güclü, maraqlı olacaq.

YADDAŞ

Mətbuat konfransdan necə yazmalı

1. Mətbuat konfransına qədər mövzuya aid maksimum informasiya yığmalı;
2. Özünə həmişəki sualları vermək: Bu konfrans nə məqsədlə keçirilir? Onlar niyə belə dedilər? Nəyin üzərindən sükutla keçməyə çalışırlar? Jurnalistləri həyə inandırmaq istəyirlər?
3. Biz onlar üçün yalnız alət deyilik ki? Ayıq olmalı, tərifərə uymamalı;
4. Bu mövzu barədə operativ daha kimdən nə öyrənə bilərsiniz?
5. Soruşmalı, səhvləri tutmalı, “ bezara gətirməlisiniz”.
6. Fakt uyğunsuzluğunu, danışanların sözlərində ziddiyətləri o saat üzə vurmaz.
7. İndiki materialları əvvəl yayılmış, yaxud çap olunmuşlarla müqayisə etməlisiniz.
8. Sənədlər yiğmağa - audioyazıya, şəkillər çəkməyə hazır olmalısınız.
9. Üzdə görünənlə gerçəyi fərqləndirməyi bacarın. Gözünüzə kül

üfürülməsinə imkan. Suallarınızda cəsarətli olun.

10. Hər situasiyada asılıqsız olun.

Alışdığımız – akademik informasiya qaynaqları

Ümid edirəm ki, indiyədək oxuduqlarınız sizə işə başlayarkən "nə edim? necə edim ?" suallarınızdan xilas edəcək. Mən buna ümid edirəm. İndiyədək diqqətlə oxumusunuzsa, metodikadan kifayət qədər xəbəriniz oldu. İndi isə sizə alışdığımız və yeni informasiya qaynaqlarından informasiya verəcəyəm. Alışdığımız qaynaqların ən birincisi redaksiyanızın kitabxanası (Qərbdə buranı, qorxulu səslənsə də, "morq" adlandırırlar).

Hansısa nitqi işıqlandırmalısınız? *Nitq söyləyənin keçmişi ilə bağlı informasiya toplayın.*

İdman matçını işıqlandırırsınız? *Komandanın rekordlarını araşdırın. Hakimin kimliyini araşdırın?*

Jurnalist redaksiyanın kitabxanasında, arxivində bu faktları yoxlaya bilər. İndi belə kitabxanaların əksəriyyəti kompüterləşib.

Kitabxana – material toplamağın birinci dayanacağı

Redaksiya kitabxanası haqqında daha bir qeyd: burada siz bayaq dediyim natiqin ,yaxud idman hakiminin fotosunu tapa bilərsiniz. Bu sizə üzbəüz müsahibəyə hazırlaşmağa kömək edər.

Lüğətlər, ensiklopediyalar, yaddaş kitabçaları və s. kimi alışdığımız informasiya qaynaqları hələ də öz önəmini itirməyib. Yaxşı reportyor hər vacib faktı yoxlamağı vərdiş etməlidi. Burada sizə bəzi informasiya toplularının siyahısı verilib.

- Şəhər ünvanlar kitabçası;
- Lokal telefon kitabçaları;
- Xidməti istifadə üçün nəzərdə tutulan telefon məlumat kitabçaları, ayrı-ayrı təşkilatların əməkdaşlar haqqında informasiya – telefon kitabçaları;
- Ölkənin, şəhərin dünyanın xəritələri, atlaslar.

Bundan əlavə, sizə lazım olan materialları səkkiz kateqoriya mənbələrlə yoxlaya bilərsiniz.

Ümumi mənbələr:

- Ensiklopediyalar
- Almanaxlar
- Statistik məlumat topluları
- Bioqrafiyalar
- Xəritələr
- Sitatlar toplusu
- Dövlət və siyasi partiyalardan gələn informasiyalar
- Lüğətlər
- Dövrü nəşrlər
- Lokal mənbələr (telefon kitabçaları, şəhərin xəritələri, küçələrin xəritələri).

Sizə yarayacaq qaynaqları sadalayarkən diqqətinizi çəkdi ki, jurnalistlərin müxtəlif tip informasiyalara çıxışı nə dərəcədə dardı?!

Azərbaycan reallığında informasiyanın çatımlılığı ilə bağlı bir problemi də nəzərə almalıyıq: respublikamızda informasiyalandırma sistemlərinin inkişaf etdirilməsinə ciddi ehtiyac var. Cəmiyyətin sivillik dərəcəsi informasiyaya çıxışın asanlığı ilə düz mütənasibdi. Toplumda informasiya nə qədər asan əldə olunursa, o toplum bir o qədər azaddı.

Daha ədalətli və effektiv surətdə informasiya əldə edilməsi üçün aşağıdakı istiqamətdə ümumi əhəmiyyətli informasiya resursları, müxtəlif sahələr üzrə portallar yaradılmalıdı. Məsələn: əhalinin registri haqqında, dövlət mülkiyyətinin registri haqqında, dövlət qeydiyyatına alınan müxtəlif mülkiyyətlərin registri haqqında, torpaq kadastrı haqqında, təbii ehtiyatlar kadastrı haqqında”[24].

Təsəvvür edin bu tip informasiya jurnalistlərin əlində olsun! İşləmək, araşdırma aparmaq nə dərəcədə asanlaşar.

Kompüterləşdirilmiş informasiya qaynaqları

Kompüterdən alınan əsas informasiya qaynaqlarına bunlar daxildi:

- Sənin özünün işlədiyin orqanın kitabxanası;
- İctimai informasiya xidmətləri (CompuServe, Prodigy, The Microsoft Network və b.);
- İnternet resursları.

YADDAŞ

İnternet axtarış maşınları

RAMBLER, ALTAVİSTA, YANDEX

[24] Gun işığı qaçılmazdır. Media Hüququ İnstitutu, Bakı, 2005, s. 105.

APORT, MSM, HOTMAİL, QOOQLE

*CD-ROM. Bu kompakt disklər sizin musiqiyə qulaq asdığınız disklərdən fərqlənmir. CD-ROM-un tutumu 600 Meqabaytdı, bu 300 000 cap vərəqinə bərabərdi. Bu, informasiyanı saxlamaq üçün ən rahat üsuldu. Daha tutumlu informasiya daşıyıcıları da var: USB fləş yaddaş kartları. Bu kartlarda da xeyli informasiya yerləşir. Kartın özü isə çox kiçikdi, bir qələm qədər yer tutur.

ANONİM QAYNAQLAR

Çap mediasında anonim qaynaqlar kimlər üçün önəmlidi? İctimai maraq naminə, aşkarlanması başqa heç cür mümkün olmayan faktları üzə çıxaran jurnalistlər üçün. Çox vaxt siyasətçilər, dövlət adamları jurnalistlərin birbaşa suallarını cavablandırmır, əsas məqsəddən yayınır, önəmli olayları gizlətməyə çalışırlar. Bu zaman həqiqətdə nə baş verdiyini öyrənmək üçün media işçiləri öz "idealist- ifşaçı" – çox vaxt anonim qaynaqlarına müraciət etməli olurlar. Bunlar müxtəlif qurumlarda, idarələrdə nəyəsə incimiş, yaxud rəhbərliyin hərəkətlərindən narazı əməkdaşları olur. Bu adamlar adlarının açıqlanmayacağı, onlar ziyan çəkməyəcəyləri şərtilə jurnalistlərə qizli informasiyaları ötürürlər.

MARAQLIDI

ABŞ-da anonim qaynaqlardan yararlanma respublika quruluşunun ilk günlərindən mövcuddu. İlk prezident Corc Vaşinqton nazirlər

kabinetində baş verən hər şeyin mediyaya bütün detallarıyla çatmasından çıx hirslənirdı.Ona elə gəlirdi ki, informasiya sızmasının səbəbkarı dövlət katibi Tomas Ceffersondu.

19-cu əsr boyu jurnalistlər dövlət sənədlərini daşıyan klerkləri satın almaqla informasiya toplayırdılar. 20-ci əsrin əvvəlində digər prezident Kelvin Kulic (1923-1929) mediyaya öz təsir üsulunu "kəşf etmişdi". İctimai rəy formalaşdırmaq üçün onun əməkdaşları lazımi informasiyanı anonim olaraq yayırdılar. İş o yerə çatmışdı ki, Kulic öz administrasiyasına gələn məktublara şəxsən "Ağ Evin sözçüsü " adı ilə cavab yazırdı.

Lakin praktika göstərir ki, anonim gaynaqların verdiyi informasiya heç də həmişə gerçək olmur. Bəzi hallarda jurnalistlər sadəcə bu qaynağı özlərindən uydururlar. 1981-ci ildə "Vaşinqton Post" qəzetinin müxbiri Canet Kuk 8 yaşlı narkoman haqqında ürəkağrıdan məqalə yazır. Guya bu oğlan 5 yaşından narkotiklərə alışıb. Qıvraq Canet qaynağını açmayacağını deyir. Guya bu halda onun qəhrəmanının həyatı təhlükədə ola bilər. Məqaləyə görə, Canet Amerikanın ali jurnalist mükafatını Pulitser Ödülünü (Pulitzer Prize) alır. Canetin kolleqalarının çoxu "işin içində iş olduğundan" şübhələnirdilər. Nəticədə Canet narkoman Cimmini özü uydurduğunu boynuna alır. Və mükafatı qaytarmalı olur.

ANONİM QAYNAQLARDAN NƏ ÜÇÜN İSTİFADƏ OLUNUR?

"Sosial önəm daşıyan xəbəri açıq yolla toplamaq və təsdiqləmək mümkünsüz sayılanda anonim xəbərə üz tutmaq lazım gəlir. Anonim xəbər də faktlara dayanmalı və ictimai çıxarlar baxımından dəyərli olmalıdır." [25]

ANONİM QAYNAQLARA İSTİNAD

Jurnalist bu inormasiyanı özü dəyərləndirməlidi. Qeyd olunduğu kimi, jurnalist öncə anonim mənbənin verdiyi məlumatın fakt olub-olmadığını müəyyənləşdirməlidi. Əqər qaynaq kifayət qədər peşəkardısa (öz fəaliyyət dairəsində), rahatca ona istinad verə bilərsiniz. Lakin bir şeyi unutmayın: yalnız onun kompetentliyinə aid faktlardan söhbət gedirsə. Diqər tərəfdən, Rusiya dövlətinin vəzifəli şəxsi anonim olaraq deyir ki, bütün çeçenlər başkəsəndir, yaxud Çeçenistan rəsmisi anonim olaraq geyd edir ki, ruslar hamısı xroniki alkololiklərdi. Siz bu deyimləri VERMƏMƏLİSİNİZ !

ÖZÜNÜZDƏN SORUŞUN: NƏ ÜÇÜN QAYNAQ ANONİM QALMAQ İSTƏYİR?

Bəlkə, sizdən sadəcə vasitə kimi istifadə edirlər?

Bəlkə, sizdən faydalanırlar?

Yox əgər əmin olursunuzsa, qaynağın açılması informasiya verənə ciddi zərər verəcək, üstünüzə belə " günah" götürməyin. "Qaynaq və ya qaynaqların qorunması vacibdi. Bu heç də o demək deyil ki, sözügedən qaynağın xarakteri barədə bəzi bilgilər verilmir. Qaynağın öz adını niyə gizli

---

[25] Məmmədli Z. КИВ-дя аноним гайнаглардан истифадя юзялликляри. "Jurnalistika-dünən, bu gün, sabah" jurnalı, 2002.

saxlaması, müzakirəyə çıxarılan məsələdə mövqeyi açıqlanmalıdır”.

Qaynaqla öncədən şərtləşin- anonimliyi pozmamaq şərtilə şəxs haqqında maksimum informasiya verəcəksiniz. “Bakı şəhəri icra hakimi” yox, “Bakı şəhəri icra hakimiyyəti rəsmisi” formasında .

Anonim qaynaqlarla bağlı daha bir önəmli an.

UNUTMAYIN: YAZINIZ TƏK ANONİM QAYNAQLARA ƏSALANARAQ YAZILMAMALIDI.

Bu, kobud səhvdi. Anonim qaynaqdan gələn informasiya yaxşı jurnalist araşdırmasının, analitik yazının hazırlanmasına təkan ola bilər. Amma bütünlükdə yazınız anonim qaynaqların üzərində durursa, bu şəhərimizdə tikilən yeni binalara oxşayacaq; 16 mərtəməli binanın konstruksiyası 6 metrlik özülün üzərində qurulur. Belə pis memar olmayın!

ANONİM QAYNAQLARDA XÜSUSİ VƏZİYYƏTLƏR

Bəzən jurnalist özü qaynağı anonimləşdirir. Söhbət

- cinayət;
- təcavüz;
- insan alveri qurbanlarından;
- zora məruz qalmış azyaşlılardan;
- yaxınlarını itirmiş insanlardan gedirsə.

Bu, jurnalistin etik və demək, həm də peşəkar standartlarına daxil anlayışlardı.

QAYNAQLARLA İŞİN ETİK ASPEKTLƏRİNDƏN

Əslində, cəmiyyət sağlamdısa, sivildisə informasiya toplayışı elə gözgörəsi ciddi problemlər doğurmamalıdı. Bu idealda belədi. Reallıq isə bizi başqa situasiyalarla üzləşdirir. Orta sinif çinovnik sadəcə bizi daha

uzağa göndərir, mənzil istismar kontorunun işçisi "məlumat vermirəm, deyəcəyin varmı?" soruşur, marşrut sürücüsü isə ifadələrində məhdudlaşmadan emosiyalarını bəlli edir. Digər tərəfdən biz də unutmamalıyıq ki, işimizin müəyyən aspektlərində bilərəkdən və bilməyərəkdən vətəndaşlara ziyan vura bilərik. Bunun baş verməməyi üçün bəzi etika qaydalarını bilməyiniz zəruridi.

Müsahibə alarkən:

- Müsahib sizin məqsədlərinizdən, hansı mətbu orqanı təmsil etdiyinizdən xəbərdar olmalıdı.
- Müsahib sizin ona istinad edəcəyinizi bilməlidi.

Sitatlar verərkən:

- Çox dəqiq olun, sizin tərəfinizdən ən kiçik bir dəyişiklik deyilən sözlərin vurğusunu və mənasına dəyişə bilər[26].
- Sitatı kontekstindən çıxarmayın.

Müşahidə edərkən:

- Siz hakim deyilsiniz, siz detektiv deyilsiniz. Siz məqsədi informasiyalandırmaq olan professionalsınız. Aldatmaq, "badalaq vurmaq", açar deşiyindən baxmağı ləyaqətinizə sığışdırmamalısınız. Gizli video və audio yazılar , vətəndaşların özəl həyatına müdaxilə qəbul edilməzdi. Sivil ölkələrdə bu tip

[26] Рэндалл Д. Универсальный журналист, М., ProMedia, 1996. s.49.

yazıların hazırlanması ciddi surətdə tənzimlənir və nəzarət olunur. Yox əgər siz paparasi olmaq istəyirsinizsə, buyurun: izləyin, saatlarla pusquda durun və s.

Sənədlərlə işləyərkən:

- Sənədlərin saxta olmadığını araşdırın. Ancaq tam əmin olduqdan sonra onlardan faydalanın.

DÜNYA TƏCRÜBƏSİNDƏN

"DOOR-STEPPİNG" adlı jurnalist priyomu var. Türkcə bu, "çarp-qapı gəlmək" kimi səslənir. Yəni intervyu-müdaxilə. İnsanla qəflətən üzbəüz gəlib ona suallarını verirsən, bunu lentə köçürürsən, əgər telefonla danışırsansa, deyirsən ki, onunla söhbət yazılır. Öncədən danışıq olmadığından müsahib üçün bu gözlənilməz olur. Əgər müsahib sizdən bunu dayandırmağı xahiş edirsə və siz özünüzü ciddi jurnalistikanın təmsilçisi hesab edirsinizsə, bu xahişə əməl etməlisiniz. Müəyyən tipli informasiyalar var ki, sizin onu hüquqi cəhətdən çap etdirməyiniz qəbul ediləndir. Ancaq redaksiyanızın dayandığı pozisiya baxımından, sizin şəxsı pozisiyasınız baxımından, etik görüşləriniz baxımından onu çap etmək mümkün deyil. Burada bələdçiniz işlədiyiniz mətbu orqanın redaksiya siyasəti, bir də öz şəxsi prinsiplərinizdi.

Hüquq bələdçiniz

İnformasiya nədir?

İnformasiya Əldə Etmək haqqında Azərbaycan Respublikası Qanununa görə :

“Yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan , yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar İNFORMASİYA adlanır”.

“Hüquqi dildə informasiya, məlumat təbiət, toplum və dövlətdə insanların maraq dairəsində olan başqa məsələlərlə bağlı olaylar, proseslər, faktlar və şəxslər haqqında fərqli qaynaqlardan alınmış və fərqli formalarda (yazılı və şifahi ,mətbu və elektron vasitələrlə və s.) çatdırılan xəbərdi”.[27]

Hansı tip informasiyalar var?

“Əldə olunma növünə görə, informasiya ümumi istifadə üçün açıq və alınması məhdudlaşdırılan informasiyalara bölünür”.[28] Azərbaycan Respublikası Qanunu ilə əldə olunması məhdudlaşdırılmayan informasiyalar **açıq informasiyalar** sayılır.

Daha bir informasiya tipi – məxfi və gizli informasiyalardı.

- **Məxfi informasiyalar** – dövlət sirri sayılan informasiyalar.
- **Gizli (konfedensial) –** informasiyalar isə vətəndaşların mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarınını qorunması məqsədi ilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat) kommersiya, istintaq və məhkəmə sirləri, habelə fərdi məlumatlar.[29]

İnformasiya sorğusu necə verilə bilər?

---

[27] Jurnalistin hüquq məsləhətçisi. Media hüquqları institutu. İnternyus. Bakı, 2004, s.16.
[28] Məmmədov S. İnformasiyanı necə əldə etməli. Bakı, 2006. s. 8.

[29] Yenə orada .s. 9.

KİV haqqında qanunun 8-ci maddəsinə əsasən dövlət orqanları, bələdiyyələr, idarə və müəssisə və təşkilatlar, ictimai birliklər, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqqında məlumatı kütləvi informasiya vasitəsinin sorğusu əsasında, habelə mətbuat konfransı keçirmək yolu ilə, yaxud başqa formalarda verirlər. İnformasiya almaq üçün sorğu yazılı və şifahi ola bilər. Hüquqi şəxs olan redaksiya sorğunun hər iki formasından istifadə edə bilər. Qanunvericilik və təcrübə yazılı sorğu ilə bağlı vahid forma müəyyənləşdirməyib. Amma yazılı sorğuda özünüz haqqında minimum məlumat verməlisiniz. Burada adınız, soyadınız, sorğunuza cavab verilməsi üçün əlaqə məlumatları (ünvan - poçt yaxud elektron, telefon və ya telefaks nömrəniz) olmalıdı. Sorğu edilən informasiyanın məzmunu bəlli edilməlidi.

Çalışmalar:

1. Bu bölümdə səkkiz mənbə kateqoriyaları müzakirə olunub: ümumi mənbələr, bioqrafiyalar, sitatlar, dövlət və siyasətçilər, dövrü çap məhsulları, lüğətlər, yerli mənbələr və səyahət bukletləri. Universitetin kitabxanasından bu kateqoriyaların hər birindən bir ədəbiyyat tapın. Verilmiş nümunə əsasında səkkiz fakt hazırlayın.

SUAL – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev neçənci ildə anadan olub ?

CAVAB: .....

MƏNBƏ: .....

2. Tətbiqi riyaziyyat fakültəsində növbəti sessiyanın nəticələri haqqında müxtəlif qaynaqlardan məlumat toplayın. Bunun əsasında bir xəbər yazın.

3. Təhsil Nazirliyinə yazılı sorğu hazırlayın. Ödənişli təhsildə müəyyən olunmuş təhsil haqqının miqdarı hansı parametrlərlə təyin olunub?

4. Ailə arxivinizdə olan sənədlərə əsaslanaraq ulu babanız haqqında oçerk hazırlayın.

Ədəbiyyat:

1. Məmmədov S. İnformasiyanı necə əldə etməli. Bakı, 2006. s.8.
2. Gun işığı qaçılmazdır. Media Hüququ İnstitutu. Bakı, 2005. s. 105.
3. Jurnalistin hüquq məsləhətçisi. Media hüquqları institutu. İnternyus. Bakı, 2004. s.84-85
4. Repkova T. Yeni Dönəm: Demokratik cəmiyyətdə peşəkar qəzet buraxmaq yolları. Bakı, Qanun, 2006. s. 236-238.
5. Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing. NY, Bedford/St.Martin's, 2002. p. 50- 118.

3. Rgndall D. Universalğnıy jurnalist. M., RroMedia, 1996. s. 30-39.

4. Şostak M.İ. Reporter: professionalizm i gtika. M., «RİP –xoldinq», 2002.s 44- 49.

5. Bern G. İqrı, v kotorıe iqraöt lödi (Psixoloqiə çeloveçeskix vzaimootnoşeniy). M., 1988. s. 24-26.

6. Nirenberq D., Kalero Q. Çitatğ çeloveka kak kniqu. M., 2002. s. 32-39.

7. Spravoçnik dlə jurnalistov stran Üentralğnoy i Vostoçnoy Evropı. M., İzd. “PPP”, 1993. s. 12-14.

8. Məmmədli Z. KİV-də anonim qaynaqlardan istifadə özəllikləri. “Jurnalistika-dünən, bu gün, sabah” jurnalı, 2002.

FƏSİL 6. PİRAMİDALAR ÇEVRİLƏNDƏ

Mənə dayaq nöqtəsi verin, Yer kürəsini çevirim.

Arximed

Bu fəsildə açıqlanacaq suallar:

- *Çevrilmiş piramidanın üstünlükləri nədədir?*
- *Lid nədir?*
- *İsti xəbərin lidini necə yazmalı?*
- *İsti xəbərin strukturu necə olmalıdır?*
- *Background – qaynaq informasiya nədir?*

Piramidaların sirri

"Görəsən, qosqoca piramidalar – Misir ehramları haçansa sirrini sirdaşa verəcəkmi? Yoxsa elə beləcə, Yer üzünün yeddi möcüzəsindən biri kimi dünya durduqca susacaq? Kim bilir..."

Kim bilir... Bəlkə də, bir gün sən özün müxbir kimi Misirə səyahət edəcəksən və səfər təəssüratlarını elə buna bənzər cümlələrlə kağıza köçürəcəksən. Amma hələ bilmirsən ki, haçansa Misirə jurnalist kimi gedib, ehramların sirrindən yazmaq üçün sənə, hər şeydən əvvəl, elə piramidaların sirrini öyrənmək lazım gələcək. Misir piramidalarının yox, Xəbər piramidalarının sirrini. Bunun üçünsə Misirə getmək lazım deyil. Əlinə kağız-qələm almağın yetər.

Məsələ 1. Kağıza bərabərtərəfli üçbucaq və kvadrat şəkilləri çəkin. Onların sahələri bərabərdir. Təsəvvür edin ki, 200 sözlük xəbəriniz var. Hər söz 1 manatdır. Siz xəbəri bu iki fiqurdan birində elə yerləşdirməlisiniz ki, onu səhifəyə qoyanda qayçılamaq lazım gələrsə, söz itkisi minimum olsun. Hansı fiquru seçərdiniz? **Şəkil 1. Səkil 2.**

Məsələ 2. Yuxarıdakı tapşırığı fiqurların istiqamətini eyni bucaq altında dəyişmək şərtilə yerinə yetirin. İndi hansı fiquru seçərdiniz və onu hansı istiqamətdə çevirərdiniz?

Cavabı birlikdə axtaraq. Birinci məsələdə kvadrat üçbucaqdan daha sərfəlidir. Çünki üçbucağın oturacağına doğru getdikcə sahə artır, demək, söz itkisi də çoxalır.

İkinci məsələdə şərtin dəyişməsi ilə onun həlli də dəyişir. Belə ki, kvadratı çevirəndə yenə kvadrat alacağıq və heç nə dəyişməyəcək. Üçbucağı çevirəndə isə... Çevrilmiş üçbucağın sahəsi aşağıya doğru daralır. Demək, söz itkisi minimumdur. Bu, həm də o deməkdir ki, biz qazancda itirmirik. Axı hər söz puldur.

Bizim qazancımız bəllidir. Bəs redaktor və oxucu nə udur? Redaktora yer lazım gələrsə, o, çevrilmiş piramidanı “quyruğundan” rahatlıqla kəsə bilər. Oxucu isə xəbərə göz yetirən kimi söhbətin nədən getdiyini biləcək. Yəni tələsən oxucu mütaliəni yarıda kəsərsə, çox şey itirməz. Çünki xəbərin yükü əvvəldə gəlir, çevrilmiş piramidanın başında cəmlənir.

Yadda saxlayaq. Çevrilmiş piramidanın üç tili olduğu kimi xəbərin də üç tərəfi var: Müxbir, Redaktor və Oxucu. Onların hər birinin öz qazancı var:

- Müxbir – Pul
- Redaktor – Yer
- Oxucu – Vaxt udur.

Çox asandır, deyilmi? Hamının razı qalması üçün sadəcə Xəbər piramidasını çevirmək lazımdır. Bəs bunu necə etməli? Arximedi xatırlayaq. O deyirdi: “Mənə dayaq nöqtəsi verin, Yer kürəsini çevirim”. Elə isə Xəbər piramidasının dayaq nöqtəsi nədir ki, onu tapanda piramidanı çevirə biləsən?

Təcrübəni bölüşənlər

Sevinc Abdullayeva (1959) 1982-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirib. Peşəkar jurnalist fəaliyyətinə 1983-cü ildə Azərinformda müxbir kimi başlayıb, şöbə müdiri, baş redaktor vəzifələrinə qədər yüksəlib. 1998-ci ildən RİTA-SÖTA agentliyinin Azərbaycan üzrə xüsusi müxbiridir. İnformasiyanı “kiçik bir əsər” kimi qiymətləndirən S. Abdullayeva onu 20-30 sətrə sığışdırmağın sirlərini bölüşür:

İstənilən informasiya üç əsas suala cavab verməlidir: Nə? Harada? Nə zaman? Jurnalistikanın klassik qanunu bu cür səslənsə də, çətin ki, müasir oxucunu belə xəbərlə maraqlandıra biləsən (əlbəttə, əgər qeyri-adi bir hadisə baş verməyibsə). Musiqili Komediya Teatrında hansı bir gündəsə orta ümumtəhsil məktəbləri müəllimlərinin konfransının keçirilməsi barədə xəbərin oxucunu maraqlandıra biləcəyinə şübhə edirəm. Amma bu informasiyanın ilk cümləsində Azərbaycanda 12 illik orta təhsilə keçidə hazırlığın başlandığı bildirilərsə və məhz bu məsələnin konfransda müzakirə olunduğu xəbərlənərsə, əlbəttə, informasiya diqqəti cəlb edər.

Adətən, oxucunun xəbərin dərinliyində gizlənən hadisənin mahiyyətini tapmağa nə vaxtı olur, nə də həvəsi. Odur ki, oxucuya çatdırılacaq əsas məlumat xəbərin ilk cümləsində, lidində yer almalı, informasiyanın başlanğıcı onun

kulminasiya nöqtəsi olmalıdır. Çevrilmiş piramida bu prinsiplə işləyir: güclü lid və onun üzərində qurulan xəbər.

İnformasiya janrında işləmək, peşə vərdişlərinə yiyələnmək istəyən gənc jurnalistlərlə bəzi peşə sirlərini açmaq istərdim.

Birinci. Lid informasiya ilə zəngin olmaqla yanaşı, həm də "ləzzətli", qeyri-adi olmalıdır. Qəliblərdən və trafaretlərdən qaçın, daim yaradıcılıq axtarışında olun. Bu, öz bəhrəsini verəcək. RİTA-SÖTA-da bir zamanlar aşağıdakı fraza ilə başlanan informasiya janrın klassikası sayılırdı: "Hətta ən adi qaşıq belə Xoxlamada[30] hazırlanıbsa, əsl sənət nümunəsi ola bilər". Bu xəbərdə söhbət xalq sənəti nümunələrinin sıradan bir sərgisindən gedirdi. Amma müəllif, fikrimcə, belə bir parlaq lid tapmaqla şablondan qaça bilmişdi.

İkinci bir məsələ, informasiyanın kompozisiyasıdır. Onu elə qurmaq lazımdır ki, xəbəri məzmuna xələl gətirmədən kəsə biləsən. Məlumatın önəmi xəbər sona yetdikdə azalmalıdır. Bu da çevrilmiş piramidanın effektidir. Şübhəsiz, təfərrüat, detallar, nüanslar istənilən material üçün vacib elementlərdir. Amma operativlik naminə onları qurban vermək olar. Axı informasiya jurnalistikanın ən sürətli və rəqabətə davamlı janrı sayılır. İnformasiya agentliklərindən fövqəloperativlik tələb olunanda onlar rəqibləri önləmək üçün tez-tez ildırımsürətli fləş-xəbərlərin verilməsi praktikasına müraciət edirlər. Adətən fləş-xəbər bir neçə cümlədən ibarət olur. İnformasiyanın müxtəlif versiyaları isə sonra hazırlanır. Məhz bu versiyalarda bir qədər əvvəl qeyd etdiyimiz detallar, ekspert qiymətləndirmələri öz əksini tapır.

Sənətdə ilk addımlarını atan xəbərçi-jurnalistlərə deyirlər: barəsində yazdığınız xəbər haqqında şəxsi mülahizələriniz heç kimə maraqlı deyil. Bu da

[30] Rusiyada xalq sənət nümunələri ilə məşhur olan şəhər

janrın qanunlarından biridir. (Hərçənd ki bu dünyada hər şey nisbidir. Jurnalist xəbərdə öz münasibətini birbaşa bildirə bilməsə də, onun münasibəti hadisəni işıqlandırarkən oxucunu maraqlandırmaq üçün seçdiyi rakursda əks olunur). Elə buna görə də, müxtəlif mənbələrə istinadlar informasiyanın ayrılmaz hissəsidir. Burada əsas qayda balansı gözləməkdir. Yalnız bir baxışın əks olunduğu informasiya kamil deyil, yarımçıqdır, o, əsas keyfiyyətdən – obyektivlikdən məhrumdur.

Xarici informasiya agentliyində çalışan jurnalist kimi bunu da bildirməyi borc sayıram: informasiyanı yazarkən onun yerli ya xarici oxucular üçün hazırlandığı mütləq nəzərə alınmalıdır. Auditoriyadan asılı olaraq məlumatın rakursu müəyyənləşdirilir. Məsələn, materialda dövlət başçısının hökumətin sosial siyasətinə aid bəyanatı işıqlandırılır. Yerli oxucuya neftdən gələn gəlirlər hesabına minimum əmək haqqının və pensiyaların artırılması xəbəri önəmli olduğu halda, xarici oxucunu məsələnin qlobal aspekti cəlb edir. Məsələn, hökumət sosial-iqtisadi siyasətinin prioritetlərini dəyişir, neft dollarını insanların rifahını yüksəltməyə, təhsil və səhiyyə sisteminin inkişafını sürətləndirməyə yönəldir. Bu zaman balansa nail olmaq üçün qarşı tərəfin, müxalifətin fikirləri və bu tipli bəyanatların qiymətləndirilməsində az-çox obyektiv mənbə olan statistik məlumatlar verilməlidir.

Çoxları informasiyanı jurnalistikanın ən asan janrı sayır. Fikrimcə, bu yanlış bir təsəvvürdür. İnformasiya öz kompozisiyası, süjet xətti, kulminasiyası və açılışı olan kiçik bir əsərdir. Və onu 20-30 sətrə sığışdırmaq heç də asan iş deyil.

Lid – Xəbər piramidasının dayaq nöqtəsi

“Afinalılar, biz qalib gəldik” (e.ə. 490-cı il).

“Nyu York dağılır, televizoru yandır” (11 sentyabr 2001-ci il).

“Baksovetdə”, metroda eskalator uçdu” (8 iyun, 2005-ci il).

Bu xəbərlərin məkanı da, zamanı da, çatdırılma sürətləri də fərqlidir. Afinalı döyüşçü 42 km. yol qaçmalı olmuşdu, alova bürünmüş “Əkizləri” görmək üçün TV-nin düyməsini basmaq kifayət idi, metro xəbərini isə çoxumuz ilk dəqiqələrdə mobil telefonlarla almışdıq. Nə qədər fərqli olsalar da, hər üç xəbəri birləşdirən bir ümumi cəhət var. Onların üçü də **liddir.** Yəni Nə baş veribsə, O. Yaxud olay barədə sərrast bir informasiya.

“Lead” ingilis sözüdür, “aparıcı, başçı, rəhbər” deməkdir. “Lead”-in başqa bir mənası da açardır. Xəbərin lidi onun başlanğıcı - ilk cümləsi və ya cümlələridir. Bu cümlə və ya cümlələrlə xəbər oxucuya açılır və acıqlanır. Örnəklərə baxaq.

Dünən Nazirlər Kabinetinin geniş yığıncağını keçirən Prezident İlham Əliyev hökuməti büdcə üzərində nəzarəti gücləndirməyə çağırıb. (Sözlərin sayı: 15).

Azərbaycanın ABŞ-dakı səfiri postuna ölkənin Nyu-Yorkdakı daimi nümayəndəliyinin başçısı Yaşar Əliyevin namizədliyi irəli sürülüb. Diplomatik mənbələrdən "Turan"a məlum olub ki, hazırda ABŞ hökuməti Y. Əliyevin səfir təyin olunmasına razılıq verilməsi məsələsinə baxır. (Sözlərin sayı: 32).

Ötən il Xəzərə düşmüş AN-140 təyyarəsi konstruktor səhvi ucbatından qəzaya uğrayıbmış. (Sözlərin sayı: 11).

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə İsrail ordusunun Livandan çıxarılmasını tələb edir. (Sözlərin sayı: 14).

Azərbaycan hökuməti Macarıstan Apelyasiya məhkəməsinin qərarından sonra Ramil Səfərovun ekstradisiyası ilə məşğul olacaq. (Sözlərin sayı: 13).

Yaddaş vərəqi: Lid nədir

- Lid xəbərin cövhəridir. Divin canı şüşədə olduğu kimi xəbərin canı da liddədir.
- Lid oxucunu yazıya dəvət etməlidir, onun diqqətini çəkməlidir.
- Lid jurnalistin vizit kartıdır. Peşəkar jurnalist lidindən bəllidir.
- Jurnalist dəqiq, vicdanlı və balanslı olmalıdır. Lid dəqiq, vicdanlı və qərəzsiz yazılmalıdır.
- Güclü lid yalnız xəbər dərindən toplandığı zaman yazıla bilər. Yarımçıq toplanmış xəbərin lidi də yarımçıqdır.

Birbaşa və dolayı lidlər

Lidə "xəbərin qapısı" da deyirlər.[31] Binanın qapıları onun ölçülərinə, arxitekturasına cavab verməli olduğu kimi, xəbərin lidi də xəbərin ölçüsünə və üslubuna uyğun gəlməlidir. Prezident sarayının qapısı Şirvanşahlar sarayının qapılarından, universitet, məhkəmə, nazirlik qapıları isə mənzilimizin qapılarından fərqlidir. Demək, isti xəbərin qapısı - lidi ilə soyuq xəbərin lidi eyni ola bilməz.

Lidlər xəbəri çatdırma texnikasına görə, iki yerə bölünür:

[31] Handbook for Journalists. Edited by Malcolm F. Mallette. World Press Freedom Committee, 1998, p. 21.

1. Birbaşa lid;
2. Dolayı lid.

İsti xəbərin lidi birbaşa, soyuq xəbərin lidi isə adətən dolayı, yaxud ertələnmiş lid olur. Bir sözlə, isti xəbərin lidi xəbər piramidasına “qapı”dan, yəni birbaşa girmək yolu tutduğu halda, soyuq xəbərin lidi xəbər piramidasına dolayısı ilə - “baca”dan düşməklə, yaxud lağım atmaqla girməyi təklif edir.

Aşağıdakı misallarda isti və soyuq xəbərlərin birbaşa və dolayı lidlərini müqayisə edək.

Örnək 1. Nardaranlılar mitinqlərə start verdilər. İdrak, “*Ayna*”, 1 avqust, 2006 (ixtisarla).

Dünən saat 15:00-da Nardaran sakinləri qəsəbənin İmam Hüseyn meydanında təxminən 200 nəfərin iştirakı ilə etiraz aksiyası keçiriblər. Qəsəbə ağsaqqallarından biri, Məşədi Natiq Kərimovun "Ayna"ya verdiyi məlumata əsasən, keçirilən aksiya "Hizbullah"a dəstək məqsədini daşıyır.	**LİD, 33 söz, iki cümlə.** **Kim?** Nardaran sakinləri **Harada?** Nardaranda, İmam Hüseyn meydanında **Nə zaman?** Dünən, 15:00-da **Necə?** İki yüz nəfərlə **Nə?** Etiraz aksiyası **Nə üçün?** "Hizbullah"a dəstək məqsədilə
"Biz İsrailin dinc Fələstin və Livan xalqlarının başına gətirdiyi müsibətlərə göz yuma bilmərik.	Təfərrüat İncələmə

Bu gün (dünən - RED.) biz piket keçirmişik, bir neçə gündən sonra isə bütün kənd sakinlərinin iştirakı ilə çox möhtəşəm mitinqimiz olacaq", - deyə vurğulayan N.Kərimovun məlumatına görə, bu mitinq avqustun 4-də saat 16:00-da başlayacaq. "Biz kənd ağsaqqalları ilə bu aksiyanı müzakirə etdik və qərara aldıq ki, mitinqdə xanımlar və uşaqlar da iştirak etsinlər. Çünki Fələstin və Livanda hər gün günahsız xanımlar və uşaqlar da qətlə yetirilir", - deyə qeyd edən N.Kərimov aksiyada cəmi bir tələbin səsləndiriləcəyini qeyd etdi.	

Örnək 2. Şokolad terapiyası təsirlidirmi? Hmmm, bəlkə də ... Sally Pook, *"The Daily Telegraph"*, 2 mart 2006 (ixtisarla).

Lavinia qarşımızda paltarsız uzansa da, ona çılpaq demək olmaz: o, təpədən-dırnağa kimi şokoladın içindədir. "Goldfinger"in qəhrəmanı balaca Şirli Eton kimi qarabuğdayı və yeməlidir. Bu, sevimli kinodan məşhur səhnə deyil. Bura Londonun qərbindəki Kenqiston şəhərinin şəfa ocaqlarından biridir. Biz şokolad terapiyasına tamaşa edirik. İnsan bədəni yapışqan fırçanın şirəsini – musu canına çəkdikcə çəkir...	**LİD, 51 söz, 5 cümlə, iki abzas** **Kim?** Lavinia **Harada?** Londonun qərbi, Kenqiston şəhərində **Nə?** Şokolad terapiyası **Necə?** **Nə üçün?**

Deyilənlərə görə, Ekvadorun ən keyfiyyətli kakao tozundan hazırlanan bu musun tərkibindəki dərinin ömrünü uzadan anti-oxsidantların qatılığı çox yüksəkdir. Şokoladın kofeini isə İtaliyanın Domori Chocolatiers şirkətindəndir. Belə bir kofein sellüliti əridir, dərini hamar və tarım edir.	Təfərrüat İncələmə

Birinci xəbər isti xəbərdir. Onun lidi iki cümlədən ibarətdir. İlk cümlədə "Kim? Nə? Harada? Nə vaxt? Necə?" sualları, ikinci də isə "Nə üçün?" sualı açıqlanır. Beləliklə, oxucu xəbərin ilk cümlələrindən, yəni liddən əsas suallara cavab tapır. Bir sözlə, xəbər isti-isti oxunur.

İkinci xəbər soyuq xəbərdir. İsti xəbərin suallarını bu xəbərə versək də, cavab bizi qane etmir. Nə Laviniyanın adı, nə də Kinqiston bizə hələ heç nə demir. Çünki bu lid Laviniyanın şokolada **Necə** qərq olması üzərində qurulub. Onun məqsədi "Necə?" sualını açıqlayaraq "Nə üçün?" sualına zəmin yaratmaqdır. Oxucunun qızın nə üçün şokolada batdığını öyrənmək istəyi lidin uğurundan, ilk cümlələrin nə dərəcədə çəkici və maraqlı olmasından asılıdır. Yoxsa soyuq xəbər ürəkləri qızdıra bilməz.

Bəs isti xəbəri soyumağa qoymayan, soyuq xəbəri isə isidə bilən lidi necə tapmalı? Xəbəri necə başlamalı?

"Əkinçi"nin **birbaşa lidli xəbəri**

Aşura axşamı Səlyan qəsəbəsində yanğından 30-dan ziyadə dükan tamam malları ilə ki, 40 min manata qədər qiyməti olsun, yanıb tələf olub. Yanğının şiddət etməyinə səbəb 2 neft dükanı olub ki, zikr olan 30 dükan 2 saatın

müddətində yanıb qurtarıb.

“Əkinçi” qəzeti,

Təzə xəbərlər, 15 fevral 1876

Nədən başlamalı? Lidi necə tapmalı?

Gəlin sualı dəqiqləşdirək. Necə yox, nədən başlamalı. Əgər nədən başlamağı bilsək, onda necə başlamağı tapmaq çətin deyil.

Aşağıdakı xəbəri birlikdə təhlil edək.

Lənkəranda faciə. “*Ayna*”, 5 avqust 2006.

Dünən saat 14:00 radələrində Lənkəranın Sütəmurdov kəndində faciəvi hadisə baş verib.

APA-nın cənub bürosunun məlumatına görə, çay üzərindəki körpüdən keçən hərbi maşının banında ayaq üstə dayanan 12 əsgərdən üçü şlaqbaumla toqquşaraq xəsarət alıb.

Ağır vəziyyətdə Lənkəran mərkəzi xəstəxanasına gətirilən əsgərlərdən biri, 1987-ci il təvəllüdlü Muradov Əhməd Rafiq oğlu yolda keçinib. Digər iki əsgər - 1987-ci il təvəllüdlü Cabbarov Yaşar İbadət oğlu və İmanov Ceyhun Şahin oğlu xəstəxananın reanimasiya şöbəsində yerləşdirilib. Yaralıların vəziyyəti ağırdır.

Məlumata görə, hərbi maşın mülki şəxs tərəfindən idarə edilib. Faktla bağlı Lənkəran şəhər Polis Şöbəsində Cinayət Məcəlləsinin 263.2 maddəsi ilə cinayət işi qaldırılıb. Faktla bağlı Lənkəran şəhər Polis Şöbəsində Cinayət Məcəlləsinin 263.2 maddəsi ilə cinayət işi qaldırılıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya bildirilib ki, hadisə ilə bağlı nazirliyə heç bir məlumat verilməyib.

Təsəvvür edin ki, siz evdəsiniz, bu xəbəri oxuyursunuz və ah çəkirsiniz. Ananız soruşur: “Nə olub, a bala?” Siz nə cavab verirsiniz? Aşağıdakı variantlardan birini seçin.

a. Lənkəranda faciə baş verib.
b. Lənkəranın Sütəmurdov kəndində faciəvi hadisə baş verib.
c. Lənkəranda əsgərlər qəzaya düşüblər.
d. Lənkəranda əsgərlər qəzaya düşüblər, biri elə yolda keçinib.

Birinci və ikinci cavabları eşidən yenidən soruşacaq: “Nə baş verib? Faciə? Sel, tufan, zəlzələ, yoxsa başqa bir bədbəxt hadisə ?”. Üçüncü cavab da yarımçıqdır, çünki qəzanın nəticələri açıqlanmır, hər qəza isə faciə deyil. Dördüncü variantda “faciə” sözü işlənməsə də, faktın özü – əsgərin qəza nəticəsində yolda – xəstəxanaya çatmamış keçinməsi faciənin göstəricidir. Demək, avtomobil qəzası özü-özlüyündə xəbərin canı deyil, xəbərin canı qəza nəticəsində əsgərin həlak olmasıdır. Sizi təəssüfləndirən də budur. Ananızın sualına cavab da budur. Əslində, bu xəbərin lidi birinci yox, üçüncü cümlədədir. Demək, lid gecikir. Gecikən lidsə oxucunu ləngidir, onun hövsələsini daraldır.

Lidi necə yazmalı?

Lid tapıldı. İndi qalır onu yazmaq. Unutmayaq ki, uğurlu lid xəbərin əsas suallarına cavab verməli, qısa və maksimum informativ olmalıdır. Elə buna görə də sözləri sayaq.

Dünən saat 14:00 radələrində Lənkəranın Sütəmurdov kəndində milli orduya məxsus hərbi maşının qəzaya uğraması nəticəsində bir əsgər hadisə yerində həlak olub.

Sözlərin sayı: 21-dir. “Kim? Nə? Harada? Nə vaxt?” suallarına cavab verilsə də, hadisənin nəticələri yarımçıqdır. Elə buna görə də ikinci variantı daha dolğun yazaq.

Dünən saat 14:00 radələrində Lənkəranın Sütəmurdov kəndində milli orduya məxsus hərbi maşın qəzaya uğrayıb, nəticədə bir əsgər həlak olub, iki nəfər ağır yaralanıb.

Sözlərin sayı: 23-ə qalxır, iki nəfərin yaralandığı əlavə olunur. Amma başqa bir sual çıxır. Həlak olan əsgər kimdir? Növbəti variantda bunu nəzərə alaq.

Dünən saat 14:00 radələrində milli orduya məxsus hərbi maşın Lənkəranın Sütəmurdov kəndində çayın üzərindəki körpüdən keçərkən qəzaya uğrayıb, nəticədə 1987-ci il təvəllüdlü əsgər Muradov Əhməd Rafiq oğlu həlak olub, iki nəfər yaralanıb.

Sözlərin sayı 32-yə qalxır. İndi lid bitkindir. Amma diqqət yeturiləsi incə bir məqam var. O da “Necə?” sualı ilə bağlıdır. Məlumatdan görünür ki, maşının kuzovunda ayaq üstə duran əsgərlər körpüdən keçərkən şlaqbaumla toqquşublar. Demək, hadisənin necə baş verməsi başqa bir cümlədə daha geniş açıqlanmalıdır. Liddən “Necə?”sualını çıxarmaq lazımdır. Əks halda, lid ilk baxışda hadisəni açıqlasa da, hadisənin necə baş verməsi barədə məlumat əlavə edildikdə oxucu çaşa bilər. Bizim işimiz isə oxucunu çaşdırmamaq, ona bitkin informasiya verməkdir. Aşağıdakı variantda bu cəhət nəzərə alınıb.

Dünən saat 14:00 radələrində milli orduya məxsus hərbi maşın Lənkəranın Sütəmurdov kəndində qəzaya uğrayıb, nəticədə 1987-ci il təvəllüdlü əsgər Muradov Əhməd Rafiq oğlu yolda keçinib, iki əsgər ağır yaralanıb.

28 sözlük bu liddə “iki nəfər” ifadəsini dəqiqlik üçün “iki əsgər” ifadəsi ilə əvəz edirik. İndi ikinci cümlədə hadisənin necə baş verdiyini yazmaq olar.

Örnək 3. “**Lənkəranda faciə”** xəbərinin yeni versiyasının orijinal versiya ilə müqayisəli təhlili. Qeyd: yeni versiya yağlı şriftlə, izahlar kursivlə verilib.

Lənkəranda faciə	Sərlövhə
Dünən saat 14:00 radələrində Lənkəranın Sütəmurdov kəndində faciəvi hadisə baş verib. **Dünən saat 14:00 radələrində milli orduya məxsus hərbi maşın Lənkəranın Sütəmurdov kəndində qəzaya uğrayıb, nəticədə 1987-ci il təvəllüdlü əsgər Muradov Əhməd Rafiq oğlu həlak olub, iki əsgər ağır yaralanıb.** *Yeni variantda sərlövhəaltı ixtisar olunur. Oxucunun səbrini iki dəfə “faciə” və “faciəvi hadisə” ifadələri ilə sınağa çəkməkdənsə, birbaşa mətləbə - lidə keçmək lazımdır. Biz sərlövhəaltını birbaşa lidlə əvəz edirik.* *Yeni variantın üstünlüyü: hadisə dərhal xəbərlənir. Oxucu vaxtda udur.*	Sərlövhəaltı Nə? Nə zaman? Harada? Lid. Kim? Nə? Harada? Nə zaman?
APA-nın cənub bürosunun məlumatına görə, çay üzərindəki körpüdən keçən hərbi maşının banında ayaq üstə dayanan 12 əsgərdən üçü şlaqbaumla toqquşaraq xəsarət alıb. **Çay üzərindəki körpüdən keçən hərbi maşının banında ayaq üstə dayanan 12 əsgərdən üçü şlaqbaumla toqquşaraq xəsarət alıb. APA-nın cənub bürosunun məlumatında belə deyilir.**	Lid Lidin açıqlanması. “Necə?”

Lidi açıqlayır, "Necə?" sualına cavab veririk. Cümləni "APA-nın cənub bürosunun məlumatına görə" ifadəsi ilə başlamırıq, əksinə, onunla bitiririk. Çünki oxucunu əvvəlcə "Necə?" sualının cavabı maraqlandırır, bunu kim deyib isə sonra. *Yeni variantın üstünlüyü: xəbərin tempi saxlanılır.*	sualının cavabı.
Ağır vəziyyətdə Lənkəran mərkəzi xəstəxanasına gətirilən əsgərlərdən biri, 1987-ci il təvəllüdlü Muradov Əhməd Rafiq oğlu yolda keçinib. Digər iki əsgər - 1987-ci il təvəllüdlü Cabbarov Yaşar İbadət oğlu və İmanov Ceyhun Şahin oğlu xəstəxananın reanimasiya şöbəsində yerləşdirilib. Yaralıların vəziyyəti ağırdır. **Lənkəran mərkəzi xəstəxanasına çatdırılan əsgərlər: Cabbarov Yaşar İbadət oğlu və İmanov Ceyhun Şahin oğlu reanimasiya şöbəsində yerləşdiriliblər. Yaralıların vəziyyəti ağırdır.** *Birinci cümləni lidə çıxardığımız üçün onu ixtisar edirik. Yalnız xəstəxanaya yerləşdirilən əsgərlərin adını veririk.*	İncələmə. Digər detallar. İncələmə. Digər detallar.
Məlumata görə, hərbi maşın mülki şəxs tərəfindən idarə edilib. **Məlumata görə, hərbi maşını mülki şəxs sürüb.** *Nitqi ağırlaşdıran "hərbi maşın mülki şəxs tərəfindən idarə edilib" ifadəsini "**hərbi maşını mülki şəxs sürüb**" ifadəsi ilə əvəz edirik.*	İncələmə. Digər detallar.
Faktla bağlı Lənkəran şəhər Polis Şöbəsində Cinayət Məcəlləsinin 263.2 maddəsi ilə cinayət işi qaldırılıb.	Nəticə

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya bildirilib ki, hadisə ilə bağlı nazirliyə heç bir məlumat verilməyib.	Dəqiqləşdirici informasiya

Yaddaş vərəqi: Birbaşa lidi necə yazmalı

Lidi yoxla:

- Lidi oxu və özündən soruş: "Söhbət nədən gedir ?" Lid bu suala cavab verirmi?
- Liddə ən vacib informasiya əks olunub, yoxsa önəmsiz detallar var. Varsa, onları çıxar, yazıda bu detalları önəmlilik dərəcəsinə görə yerləşdirmək olar.
- Bir cümlə - bir informasiya qaydasına əməl edilibmi, yoxsa cümlələr "yüklənib"? Əgər "yüklənibsə", cümlələri böl və sadələşdir.
- Sözlərin sayı 30-u keçməyib ki? Lidin sözlərinin sayı 25-35 arasında olmalıdır.
- Cümlələr keçmiş zamandadırmı? Zamanlar bir-biri ilə uzlaşırmı?

Lidi tapmağa çətinlik çəkirsənsə...

- İsti xəbərin lidi sizin yaxınlarınıza bir cümlə ilə deyə biləcəyiniz informasiya olmalıdır. Hər dəfə hadisə yerinə gedəndə ailə üzvlərinizdən birinin, ya dostunuzun sualı qulaqlarınızda səslənsin: "Nə olub ?" Bu sual lidə aparan ən doğru yoldur. [32]

[32] Yaddaş vərəqinin yazılmasında Duqlas Kosperin tipşitindən istifadə olunub.

İndi isə öyrəndiklərimizin tətbiqinə çalışaq. Çalışma 1 (bax. Çalışmalar). Bu çalışmanı yerinə yetirərkən bir məqama xüsusi diqqət yetirək. Liddə hər zaman “Kim ?”, “Nə ?”, “Nə zaman ?”, “Harada ?”, “Nə üçün ?”, “Necə ?” sualları eyni dərəcədə açıqlanırmı? Yoxsa hadisədən asılı olaraq hansısa sualın cavabı daha çox yer alır?

Lid bütün suallara cavab verməlidirmi?

“Beş barmağın beşi də bir deyil,”- deyirlər. Doğrudan da, əgər şəhadət barmağının vəzifəsi şahidlik verməkdirsə, onun yerinə digər barmaqları işlətməyə dəyərmi? Qələm tutmaq üçün baş barmaqla şəhadət barmağı bəsdirsə, orta, adsız, çeçələ barmaqların dayaq verməsi kifayət edər. Lidin sualları da belədir. Liddə “Kim?”, “Nə?”, “Nə zaman?”, “Harada?”, “Nə üçün?”, “Necə?” suallarından hansının daha çox açıqlanması hadisənin mahiyyətindən doğur.

“Kim ?” ya “Nə ?”

Tanınmış adamlarla bağlı hadisələr baş verəndə “Kim ?” sualı daha çox qabardılır. Məsələn, *“Dünən Respublika Artroloji Mərkəzində xalq artisti Afaq Bəşirqızının sol ayağında cərrahiyyə əməliyyatı aparılıb”*. Ayağından əziyyət çəkən, əməliyyat keçirən insanlar minlərlə olsa da, bu olayı xəbər edən məşhur aktrisanın özüdür.

“Kim ?” sualı olmayan yerdə “Nə?” sualı önə keçir. “Dünən Bakı Dövlət Universitetində 56 hakimliyə namizəd imtahan verib” lidinin fokusu hakimliyə namizədlik imtahanlarının keçirilməsidir. İmtahan verənlər içərisində tanınmış bir kimsə olsa idi, onda lidin fokusu dəyişər, yəni “Kim ?” sualı qabardıla bilərdi.

Harada?

“Dünən İslam Partiyası İsrail səfirliyinin önündə piket keçirməyə cəhd göstərib” lidində “Harada ?” sualının açıqlanması önəmlidir. Liddə “Nə ?”

və “Nə zaman ?” sualları ikinci dərəcəlidir. Çünki bu, İslam partiyasının İsrail Livanda hərbi əməliyyatlara başlayandan bəri keçirdiyi ilk piket deyil. Amma piketin İsrail səfirliyi qarşısında keçirilməsinə cəhd edilməsi isə təzədir, elə buna görə də lidin vurğusu onun üzərinə düşməlidir.

Nə zaman?

İsti xəbərin lidində zaman elementinin göstərilməsinə münasibət ikilidir. Bəzi redaktorlar bunun vacib olduğunu bildirir: xəbər zamansız ola bilməz. Bəzi redaktorların fikrincə isə, isti xəbər öz-özlüyündə isti-isti baş vermiş olayı xəbərlədiyindən liddə zamanın göstərilməsi önəmli deyil. Çünki oxucu onsuz da bilir ki, söhbət təzə xəbərdən gedir. Aşağıdakı misallarla bu mövqelərə aydınlıq gətirək:

“İyulun 13-də Səhiyyə Nazirliyində keçirilmiş kollegiya iclasında QİÇS üzrə Respublika Mərkəzinin fəaliyyəti müzakirə olunub. Bu barədə iyulun 14-də nazirliyin yaydığı məlumatda deyilir” (*“Trend”, “Günay”* qəzeti, 15 iyul 2006-cı il) lidində zaman iki dəfə qeyd olunsa da, o, olayın önəmini nə azaldır, nə da artırır. Əslində, bu xəbərin lidində Səhiyyə Nazirliyinin kollegiya iclasında QİÇS üzrə Respublika Mərkəzinin fəaliyyətinin Niyə müzakirə olunması açıqlanmalı idi.

“ABŞ-ın Konnektikut ştatında Demokrat Partiyasından senator postuna namizədlərin müəyyənləşməsi üçün keçirilən ilkin seçkilər başa çatıb. APA-nın yaydığı məlumata görə, ermənipərəst senator, milliyyətcə yəhudi olan Cozef Liberman praymeriz seçkilərində məğlub olub”, “Hindistanın Şimali Kerala ştatının hökuməti Coke, Persi, Sprite və Coca-Cola Co. and PersiCo Inc. şirkətlərinin istehsal etdiyi içkilərin satışına qadağa qoyub. Bu barədə ştat administrasiyasının nümayəndəsi xəbər verib” lidlərində zaman göstərilmir. Birinci liddə önəmli olan C. Libermanın məğlubiyyəti, ikincidə isə məşhur şirkətlərin məhsullarının satışına qoyulan qadağadır.

Demək, zaman elementinin yerini lidin məzmunu müəyyənləşdirir. Aşağıdakı misalda olduğu kimi:

Bu gün saat 13:20-də metronun "Bakı Soveti stansiyasında partlayış olub.

Bu xəbərdə qaynar xəbərin məzmunu hadisənin baş vermə zamanını saatına qədər lidə çıxarılmasını tələb edir. Zaman elementi daha çox qaynar xəbərlərdə vurğulanır.

Niyə?

"Kim ?" və "Nə ?" suallarının cavabı oxucuya bir söz deməyəndə "Niyə ?" sualına keçmək lazımdır. *"Trend"* agentliyinin bu xəbərində olduğu kimi:

"Geydelberq Akademiyası Karlsruye Universitetinin alimləri Briqit Müller və Mark Tunqay Bakıdadır. Milli Elmlər Akademiyasının Yer haqqında Elmlər Şöbəsi xəbər verir ki, səfərin məqsədi tektonik fəallığı öyrənməkdir. Araşdırmalar 2005-ci ildə Milli Elmlər Akademiyasının Geologiya İnstitutu ilə Karlsruye Universiteti arasında imzalanmış "Dünya gərginliyinin xəritəsi" layihəsi çərçivəsində aparılır.

1986-cü ildə alman alimləri dünyanın gərginlik xəritəsini yaratmaq ideyasını irəli sürüb və bu məqsədlə professor Frideman Vensentin rəhbərliyi altında uzunmüddətli beynəlxalq layihənin əsası qoyulub. Azərbaycanın bu layihəyə qoşulmasının məqsədi xəritənin Azərbaycan hissəsini hazırlamaqdır ("Günay" qəzeti, 15 iyul).

Birinci cümlə oxucuya heç nə vermir. Çünki oxucu Briqit Müller və Mark Tunqayı tanımır. İkinci cümlədən məlum olur ki, alimlər tektonik fəallığı öyrənmək üçün Bakıya gəliblər. Xəbəri sona qədər oxuduqda səfərin məqsədi daha da aydınlaşır: "Dünya gərginliyinin xəritəsinin" Azərbaycan hissəsini tamamlamaq. Tektonik fəallıq da buna görə öyrənilir. Demək, bu xəbərin lidində "Niyə ?" sualı açıqlanmalıdır:

“Dünyanın gərginlik xəritəsi”nin Azərbaycan hissəsini tamamlamaq üçün ölkəmizin tektonik fəallığını öyrənən alman alimləri Briqit Müller və Mark Tunqay Bakıya gəliblər”.

Necə?

“Necə?” sualının açıqlanması lidin ən maraqlı elementi ola bilər. Bu sualın cavablanması, əsasən, kriminal xəbərlərin lidində yerinə düşür.

“Martın doqquzunda səhər saat 10:15 radələrində Lerik rayon sakini Qərənfil Kərimova əri Manaf Qəmbərovla birgə Binə qəsəbəsində yaşayan qardaşı Qail Kərimovun evində olarkən balta ilə onu qətlə yetirib, onun qızı 3 yaşlı Əfsanəni boğub, arvadı Yaquta isə zorla sirkə turşusu içirdib”. “GÜN səhər”, 11 mart 2006.

“Necə?” sualına cavab verən lidlər daha çox təsvirə əsaslanır. Onlardan, əsasən, soyuq xəbərlərdə istifadə olunur. Bu lidlərə Qərb jurnalistikasında “Necə? lidlər” deyilir.

Yuxarıdakı misallardan bəlli olur ki, lidin bütün suallara cavab verməsi önəmli deyil. Önəmli olan lidin əsas sualını tapmaqdır. Çünki əsas sual xəbərin fokusudur. O müəyyənləşəndə xəbərin fokusu müəyyənləşir. Fokussuz xəbər fokussuz fotoşəkilə bənzəyir: kadrda hər şey var, amma yayğın və dumanlıdır. Diqqəti cəmləmək mümkün deyil.

Yaddaş vərəqi: liddə nələrdən qaçmalı

- Mürəkkəb xəbərlər. Lidin xəbərini bir sözlə yazmağa çalışın: bəyan etmək – **açıqlamaq;** qeyd etmək – **bildirmək, söyləmək, demək;** təxirə salmaq – **ertələmək** və s.
- **Münasibət bildirən xəbərlər**. “Vurğulamaq”, “israrlamaq” kimi

ifadələr işlətməkdənsə vurğunu və ya israrı əks etdirən sitatlar verin. Liddən sonra gələn və liddəki informasiyanı dolğunlaşdıran sitat onu daha da qüvvətləndirir.

- **Parazit sözlər.** “Sözügedən”, “adı çəkilən”, “belə ki”, “artıq” . “Sözügedən”, “adı çəkilən” sözlərini işarə əvəzlikləri ilə əvəz edin. Məs., “Dünən Səbayel rayon Məhkəməsi Daxili İşlər Nazirliyi Narkotiklərlə Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanovun iddiası ilə "Azadlıq" qəzetini və sözügedən qəzetdə müsahibəsi dərc olunmuş politoloq Zərdüşt Əlizadəni cərimə edib” əvəzinə, “Dünən Səbayel Rayon Məhkəməsi Daxili İşlər Nazirliyi Narkotiklərlə Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanovun iddiası ilə "Azadlıq" qəzetini və bu qəzetə müsahibə vermiş politoloq Zərdüşt Əlizadəni cərimələyib”.

İsti xəbərin strukturu

Bilirsinizmi ki, ingiliscə “Leader” sözü “lead”-dən yaranma, düzəltmə sözdür. Liderin Azərbaycan dilinə tərcüməyə ehtiyacı yoxdur. Güclü liderlə güclü lid bir-birinə bənzəyir: hər ikisi irəlidə gedərək arxadakıları ardınca çəkib aparır. Birincisi insanları, ikincisi isə xəbəri, xırdalasaq, cümlələri.

Xəbərə güclü lid tapa bilmişiksə, sonrakı cümlələr ipə muncuq düzülən kimi düzülməlidir. *“Vaşinqton Post”un* köşə yazarı Tomas Bosvel bunu belə izah edir: “Çətini mövzunun mərkəzi ideyasını tapmaqdır. Belə bir ideya sapa bənzəyir. Bu sap tapılanda sitatlar, detallar, söhbətlər ona muncuq kimi düzülür”[33].

İsti xəbərin quruluşu yuxarıda deyilənlərə əsaslanır:

[33] Mencher M. News Reporting and Writing. USA, Brown & Benchmark, 1997. p.119.

- Lid
- Lidi dəstəkləyən və izah edən material
- Qaynaq informasiya, ön tarixçə və yaxud background
- İkinci dərəcəli, daha önəmsiz material

Aşağıdakı xəbərin misalında isti xəbərin quruluşunu incələyək.

Örnək 3. İsti xəbərin quruluşu. Azərbaycan əsgəri Livana göndərilə bilər. C. Sümərinli, "*Ayna*", 10 avqust 2006

Azərbaycan əsgəri Livana göndərilə bilər	Sərlövhə
Bu məsələnin gerçəkləşməsi üçün İslam Konfransı Təşkilatının "xeyir-dua"sı zəruridir	Yarımsərlövhə
İsraillə Livan arasında hərbi əməliyyatlar səngiyən dövrdə bölgədə sabitliyi təmin etmək üçün NATO-ya tərəfdaş ölkələrin, o cümlədən Azərbaycanın sülhməramlıları oraya göndərilə bilər. Bu barədə NATO-nun Brüsseldəki mənzil-qərargahından "Ayna"ya bildirilib.	Lid
Mənbənin məlumatına görə, sülhməramlıların sözügedən bölgəyə göndərilməsi orada sabitliyin bərqərar olmasına ciddi töhfə verə bilər. Amma bu, vaxt aparacaq prosedurdur.	Lidin izahı, gücləndirilməsi
Azərbaycan Müdafiə Nazirliyində sülhməramlılarımızın qaynar bölgəyə göndərilməsi barədə məlumatlarla bağlı hər hansı fikir söyləməkdən çəkinirlər. Nazirliyin adının çəkilməsini istəməyən təmsilçisi əməkdaşımızla söhbətində bu məsələyə münasibət bildirməyin hələ tez olduğunu	Balans: hökumət

bildirdi.	
Xarici İşlər Nazirliyindən isə bildirildi ki, bu məsələnin reallaşması üçün beynəlxalq təşkilatların rəhbərliyindən Azərbaycana təkliflər olmalıdır. Bundan sonra bu təkliflər parlamentdə müzakirə oluna və prezident tərəfindən qəbul edilə bilər.	Balans: hökumət
Bildirək ki, indiki halda ekspertlər bölgəyə müsəlman sülhməramlılarının göndərilməsi üçün NATO ilə yanaşı Birləşmiş Millətlər Təşkilatı və İslam Konfransı Təşkilatının qərarını əsas hesab edirlər.	Balans: ekspert
Keçmiş briqada komandiri, ehtiyatda olan polkovnik İldırım Məmmədov Azərbaycan sülhməramlılarının Livana göndərilməsi ideyasını çox müsbət qarşılayır. "Öz Silahlı Qüvvələrinin döyüş hazırlığını gücləndirmək niyyətində olan ölkələr belə şansları əldən buraxmırlar. Əsgərlər belə ərazilərdə öz təcrübələrini, dünyagörüşlərini artırırlar", - deyən İ. Məmmədovun fikrincə, Azərbaycanın sözügedən bölgəyə əsgər göndərməsi üçün ilk növbədə İslam Konfransı Təşkilatının qərarı zəruridir. Çünki, əks halda, bəzi islam ölkələri bizi İsrailin tərəfində olmağımıza görə qınaya bilərlər. Bütün bunlara baxmayaraq, İ. Məmmədov hazırda Azərbaycan sülhməramlılarının Livana göndərilməsi ideyasının müzakirə olunmadığı qənaətindədir. "İndi daha çox Avropa ölkələrinin sülhməramlılarının bölgəyə göndərilməsi məsələsi müzakirə obyektidir. Amma situasiya dəyişə bilər. Belə	Münasibət

olduqda Azərbaycan 30-40 əsgərlə münaqişə zonasında sabitliyi qoruya bilər", - deyə o bildirir.	
Qeyd edək ki, Ukrayna Müdafiə Nazirliyinin həyata keçirilən əməliyyatlar mərkəzinin rəhbəri general Sergey Bezluşenko bildirib ki, gələn il Ukrayna sülhməramlıları Livan və Sudana göndərilə bilər. Onun sözlərinə görə, Ukrayna Liberiya və Kosovodan başqa digər qaynar nöqtələrdə sülhməramlı qüvvələrini sayca artırmağa texniki cəhətdən qadirdir. S.Bezluşenko qeyd edib ki, BMT artıq Ukraynaya hərbçiləri Sudana göndərməyi təklif edib. Amma bu qərarı Ali Rada və Ukrayna prezidenti qəbul etməlidir.	İkinci dərəcəli informasiya
Xatırladaq ki, Azərbaycan sülhməramlıları hazırda Əfqanıstan, İraq və Kosovoda beynəlxalq antiterror qüvvələri tərkibində xidmət edirlər.	Qaynaq informasiya, ön tarixçə – background

Təhlildən göründüyü kimi, isti xəbər ən önəmli informasiyadan (Azərbaycan əsgərinin Livana göndərilmək ehtimalından) başlayaraq bu informasiyaya münasibəti əks etdirir. Münasibətin özü də balansı saxlamaq üçün hökumət və qeyri-hökumət mənbələrinə əsaslanaraq önəminə görə, 3 yerə bölünür: müdafiə və xarici işlər nazirlikləri, ekspert və istefada olan hərbçi. Xəbərin ikinci dərəcəli – daha önəmsiz hissəsi Ukrayna sülhməramlılarının gələn il Livana və Sudana göndərilmək ehtimalıdır. *“Xatırladaq ki, Azərbaycan sülhməramlıları hazırda Əfqanıstan, İraq və Kosovoda beynəlxalq antiterror qüvvələri tərkibində xidmət edirlər”* cümləsi qaynaq material, yaxud bəkqraunddur. Bəs “backqround” nədir?

Background – olayın tarixçəsi

“Qaynaq”, “mənbə”, “mənşə”, “bioqrafik məlumatlar”... Bu sözlər “background”un ingilis dilindən Azərbaycan dilinə tərcüməsidir. “Background” artıq olmuşlardır, baş vermiş faktlardır. Bir sözlə, hadisənin dosyesi, onun kökləridir. Elə buna görə də “background”u Azərbaycan dilinə termin olaraq “qaynaq informasiya” və ya “ön tarixçə” kimi tərcümə edəcəyik. Backgrounda bəzən “xatırlatma” da deyirlər. Bu qeyri-rəsmi terminin formalaşmasına səbəb milli mətbuatımızda qaynaq materialın təqdimatında “xatırladaq ki” ifadəsinin işlənməsidir. Bir qədər əvvəl təhlil edilən yazıda olduğu kimi.

Qaynaq informasiya nə dərəcədə vacibdir? Xəbəri onsuz yazmaq olmazmı? Qaynaq informasiya xəbərin özü deyil, onun ön tarixçəsidir. Amma bu tarixçənin xəbərə birbaşa dəxli olmalıdır. Məsələn, biz ipoteka kreditinin verilməsindən yazırıqsa, ön tarixçə xəbərin fokusuna xidmət etməli, Azərbaycanda ipotekanın ümumi tarixi barədə dastan olmamalıdır. Aşağıdakı xəbər bu tələblər səviyyəsindədir:

Örnək 4. İpoteka krediti almaq üçün 140 nəfər müraciət edib. V. Familqızı, “525-ci qəzet”, 10 avqust 2006.

İpoteka kreditlərinin verilməsinə başlanan vaxtdan bu günə qədər 140 nəfər kredit almaq üçün müvafiq müvəkkil banklara müraciət edib. İpoteka Fondundan verilən məlumata görə, indiyə qədər müraciət edənlərin yalnız 63 nəfərinə kredit verilib.	Lid
Vətəndaşlara təqdim edilən 63 kreditin 12-i yenidən maliyyələşdirilib. Müvəkkil banklar tərəfindən verilən	Lidin izahı

ipoteka kreditinin orta məbləği 21 min 750 manat olub. İpoteka Fondu tərəfindən aparılan monitorinqlər nəticəsində məlum olub ki, kreditlə mənzil alanlar hər mənzilə orta hesabla təxminən 34 min manat pul verib. Kredit götürən vətəndaşlar tərəfindən alınan mənzillərin orta sahəsi isə 62 kvadrat metr olub. Kredit alanların böyük əksəriyyəti imkanlı şəxslərdir. Belə ki, borc götürənlər kreditlərə görə orta hesabla hər ay 270 manat ödəyiblər.	
Xatırladaq ki, ipoteka kreditləri 3 ildən 15 ilə qədər verilir və onların faiz dərəcəsi illik 12 faizdən çox olmur. Krediti almaq istəyən vətəndaşların aylıq gəliri isə kreditin qaytarılması üçün hesablanan məbləğdən ən azı 2 dəfə çox olmalıdır. Digər tərəfdən ipoteka krediti hesabına ev almaq istəyənlər nəzərdə tutduqları mənzilin dəyərinin 30 faizini özləri ödəməlidir. Bu il dövlət büdcəsindən ipoteka kreditlərinin verilməsi üçün 26 milyon manat vəsait ayrılıb. Ancaq bu günə qədər ayrılan vəsaitin yalnız 3 faizindən istifadə edilib.	Qaynaq informasiya, ön tarixçə

Göründüyü kimi, bu xəbərdəki qaynaq informasiya oxucuya ipoteka kreditinin şərtləri barədə informasiya verərək ona xəbərdən yararlanmaq, düzgün qərar qəbul etmək imkanı yaradır. Demək, düzgün qaynaq informasiya verməklə biz oxucuya xidmət edirik.

Yaddaş vərəqi: “Background”u –ön tarixçəni necə yazmalı

İnsanın backgroundu onun ömürlüyü – tərcümeyi-halıdır. Hadisənin backgroundu onun ön tarixçəsidir. Demək, backgroundu – qaynaq materialı yazanda bioqrafiya prinsipinə əməl etmək lazımdır. Yəni:

- Hadisələri xronoloji ardıcıllıqla düzülməli.
- Tarix və hadisələr bir-birini izləməlidir.
- Yalnız baş vermiş olaylar – Faktlar haqqında yazın.
- Bioqrafiya prinsipinə əməl edin. Yəni sizin "Mən 1972-ci ildə Bakı şəhərində doğulmuşam. 1979-cu ildə Nəsimi rayonundakı 1 saylı orta məktəbə getmişəm" yazmağınız kifayətdir. Bu zaman "valideynlərimin dediyinə görə, mən 1972-ci ildə Bakı şəhərində doğulmuşam. İbtidai sinif müəllimim Fəridə xanımın sözlərinə görə, 1979-cu ildə Nəsimi rayonundakı 1 saylı orta məktəbə getmişəm" yazmaq nə qədər yersizdirsə, "background"da da istinadlara eyni dərəcədə ehtiyac yoxdur.
- Qısa və yığcam, sanki arayış yazırmışsınız kimi yazın. "Xatırladaq ki", "qeyd edək ki" və s. ifadələrdən qaçın. "Xatırladaq ki", "qeyd edək ki" yazmaqdansa, nəyi xatırladıb, nəyi qeyd etmək istədiyinizi birbaşa yazın.
- Tarix yox, tarixçə yazın. Qaynaq informasiya xəbərdə açıqlanan məsələyə aydınlıq gətirməli, onun tarixçəsini izah etməlidir. Məs., söhbət təhsil sistemində islahatlar çərçivəsində yaradılmış pilot məktəblərin fəaliyyətindən gedirsə, qaynaq informasiya ümumən təhsil sistemi islahatları tarixindən deyil, pilot məktəblər barədə olmalıdır.
- Qaynaq informasiyanı abzasdan yazın.
- Qaynaq informasiya ilə bağlı internet resursları – veb.səhifələri

göstərin.

“*Əkinçi”nin* çevrilməmiş piramidası

450 il bundan sabiq Osmanlı türkləri Avropaya daxil olub Rum dövlətinin Qəstəntiniyyə şəhərini zəbt edib ona İslambul, yəni islam şəhəri ad qoyub, ətrafda vaqe olan xaçpərəst vilayətlərini həm zəbt ediblər. Bir neçə il bundan sabiq zikr olan vilayətlərin bəzi ki, olsunlar Serb və Qaradağ, yəni Əşqüdrə və Əflan və Bağdan əyalətləri, Osmanlı dövləti ilə cəng edib onun zirdəstindən çıxıb, indi ancaq dövləti-Osmaniyyəyə müəyyən olan xərc verirlər, amma ümurati-daxiliyyələri özləri ilədir.

Bu halda ki, Bosnə və Qerdseqovinə əhli Osmanlı dövləti ilə cəng edirlər, onların həm muradı oldur ki, zikr olan əyalətlər kimi olsunlar. Zikr olan əyalətlərdən Serb və Qaradağ əhli Bosnəyə kömək etməkdən muradları oldur ki, Osmanlıya heç xərc verməsinlər.

Çünki Serb və Qaradağ əhli Bosnəyə kömək etməyi məlumdur və keçən həftə tel gəlmişdi ki, Osmanlı dövləti Serb və Qaradağı zəbt etmək istəyir, ona binaən danışıq var idi ki, Avropa dövlətləri o cəngə qarışacaqlar. Amma indi tel gəlib ki, Osmanlı əsgəri ol əyalətlərin sərhədini keçməyib və keçmək istəmir.

“Əkinçi” qəzeti,

Təzə xəbərlər, 28 aprel 1876

Birlikdə çalışaq

2006-cı ilin isti yay günlərinin birində Kayseri Erciyez Universitetində çalışan həmyerlimiz astrofizik İsmayıl Yusifovdan maraqlı

bir e-mail aldım. Alim son araşdırmalar və uğurlar barədə yazırdı. İsmayıl müəllimdən xahiş etdim ki, tədqiqat barədə kiçik bir informasiya hazırlasın və biz jurnalistika məktəbində onun əsasında isti bir xəbər yazıb dərc edək. Həmyerlimizdən aldığımız ilk məlumat belə idi:

Məlumat 1.

Son zamanlarda Türkiyənin inkişafında, Türk bilim və teknolojisinde böyük irəliləmələr, müvəffəqiyyətlər görünməkdədir. Bunlardan en böyüyü, bu yaxınlarda açılışı olan və "100 yılın projesi" adlanan Bakü-Tiflis-Ceyhan boru xəttidir. İndi isə buna Azərbaycan bilim adamlarının da adı keçən bir projenin tamamlanması əlavə olunacaq.

Bu, Kayseri-Erciyes Universiteti Astronomiya Bölümünde yürütülmekte ve yaxın 10-15 gün içində sazlanması tamamlanacaq Türkiyənin ilk Radioteleskop projesidir. Bilimsəl önəmi ilə yanaşı, projenin Türkiyə və eyni zamanda Azərbaycan üçün digər bir önəmi ondadır ki, bu yaxın bölgədə radioteleskop ancaq Ermənistanda və Yunanıstanda mövcuddur. Bunun yardımıyla, Türk bilim adamları, optikdə olduğu kimi, radio dalğalarda da kainatın incələnməsinə qatıla biləcəklər. Azərbaycan için isə, projenin bir digər önemi, bu projede Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunun (IFAN) əməkdaşı fiz.-riy.e.n. İsmayıl Yusifovun da yer almasıdır.

Əslində, Türkiyə radioteleskop qurma çabalarına TÜBİTAK-da 1990-cı illərdən başlamışdı. 1995-də Ukraynadan diametri 2m olan bir radio teleskop alındı. 1996-da bu teleskopda çalışmaq üzrə İ. Yusifov TÜBİTAK-a dəvət olundu. Lomonosov adına MDU-nun astronomiya bölümünü bitirmiş, 100 m-lik Pulkovo radioteleskopunda təcrübə keçmiş və uzun müddət ŞAR və Fizika İnstitutunda radio astronomiya araşdırmaları yapmış I.Yusifov üçün bu, ideal bir çalışma ortamı olurdu. TÜBİTAK başqanlıgı 1996-1997-de

radioteleskop proje yönetmeliyini I. Yusifova həvalə edir. Təəssüf ki, alıcıda olan bir texniki nasazlıqdan və maliyyə dəstəyinin olmaması üzündən 1997-de proje durdurulur və bu teleskop 2000-də Kayseri, Erciyes Universitetində yeni açılmış Astronomiya bölümüne hədiyyə olunur. I. Yusifov da bu bölümə dəvət olunur.

Radioteleskop projesi konusunda Erciyes Universiteti daha qərarlı idi və yetərli para dəstəyi saxlayaraq nəinki 2m-lik teleskopu təmir etməyə, hətta 2 ədəd 5m-lik antennadan oluşan interferometr qurmağı qərara alır. Problemin böyüklüyü nəzərə alınaraq projenin yönətməniliyi 2 kişiyə, bölüm başkanı Dr. Ibrahim Küçüğe ve Dr. Ismail Yusifova həvalə olunur. Universitetin Bilimsəl Araşdırma Projeleri bölümünün http://proje.erciyes.edu.tr/2003fen.htm veb. səhifəsindən göründüyü kimi, proje aşağıdakı 2 hissəyə bölünmüşdür:

1) **5 metr çaplı 2 və ya daha fazla antenadan oluşan radio interferometr tasarımı;**

Yönetmen I. Küçük, Yardımçı I. Yusifov;

2) **Erciyes universiteti radio teleskopunun otomatik takip sisteminin və 1420 MHz frekansta çalışan nötr hidrojen alıcısının geliştirilmesi;**

Yönetmen I. Yusifov, Yardımçı I. Küçük

2003-de başlanan bu projenin 1-ci hissesinin 1-ci qismı (1 teleskopun inşası) 1-2 ay öncə bitdi. Projenin 2-ci hissesinin 1-ci qismi (kompyuterle avtomatik kontrol) isə bu günlərdə bitmək üzrədir. Avqust ayında, teleskopun sazlanması bitəndən sonra onun açılışının olması gözlənilməkdədir.

Proje haqqında ətraflı məlumat I.Yusifovun veb.sahifəsindən almaq olar: http://www. yusifov.info.

Məlumat burada bitirdi. İsmayıl müəllim yazırdı ki, suallar çıxarsa, ona müraciət edə bilərik.

Biz əvvəlcə yuxarıdakı mətni saf-çürük etmək, yəni lazımlı və lazımsız informasiyalara ayırmaq qərarına gəldik. Bizə lazım olan informasiya aşağıdakı suallara cavab verməli idi.

1. “Kim?” , “nə?”, “harada?”, “nə zaman?” baş verib?
2. Hadisənin önəmi nədir?
3. Hadisə barədə qaynaq informasiya nədir?
4. Hadisə barədə daha nələr bəllidir?
5. Mənbələr hansılardır?

Bundan sonra yuxarıdakı informasiyadan bizə qalan ancaq aşağıdakılar idi.

1. **Lidin tapılması.**

Altı əsas suala cavab axtaraq.

a. **Kim?** Azərbaycan Elmlər Akademiyası Fizika institutunun (IFAN) əməkdaşı fiz.-riy.e.n. İsmayıl Yusifov və bölüm başkanı Dr. Ibrahim Küçük.

b. **Nə?** Türkiyənin ilk radioteleskop layihəsi (sazlanması tamamlanmaqdadır).

c. **Harada?** Kayseri, Erciyes Universiteti Astronomiya Bölümündə.

d. **Nə zaman?** Avqustun sonlarında.

Hadisənin önəmini tapaq?

e. Bilimsəl önəm. Türk bilim adamları, optikdə olduğu kimi, radio dalğalarda da kainatın incələnməsinə qatıla biləcəklər.

f. Yaxın bölgədə radioteleskop ancaq Ermənistanda və Yunanıstanda mövcuddur. **Sual:** Bu, həmin ölkələrə nə verir?

g. Azərbaycan alimi bu layihədə yer alıb.

2. **Qaynaq informasiyanın tapılması. Qaynaq informasiya ikidir. Birincisi, radioteleskop, ikincisi İ.Yusifov barədə.**

   a. Radioteleskop barədə - Türkiyə radioteleskop qurma çabalarına TÜBİTAK'da 1990-cı illərdən başlayıb. 1995-də Ukraynadan diametri 2m olan radio teleskop alınıb. TÜBİTAK-da 1996-1997-də İ.Yusifovun rəhbərliyi ilə RT layihəsi başlayıb. Texniki nasazlıq və maliyyə dəstəyinin olmaması üzündən 1997-də layihə dayandırılıb. Bu teleskop 2000-də Erciyes Universitetində yeni açılmış Astronomiya bölümünə hədiyyə olunur. İ.Yusifov yenidən layihəyə rəhbərlik etməyə dəvət alır. **Sual:** TUBİTAK-ın açılışı necədir?

   b. İ. Yusifov barədə - Lomonosov adına MDU-nun astronomiya fakültəsini bitirib, 100 m-lik Pulkovo RT-da təcrübə keçib, uzun müddət ŞAR və Fizika institutunda radio astronomiya araşdırmaları aparıb. **Sual:** ŞAR-ın açılışı.

   c. Hadisə barədə daha nələr bəllidir?

   d. Radioteleskop projesi konusunda Erciyes Universiteti daha qərarlı idi, yetərli para dəstəyi saxlayaraq nəinki 2m-lik teleskopu təmir etməyə, hətta 2 ədəd 5m-lik antennadan oluşan interferometr qurmağı qərara alır. Problemin böyüklüyü nəzərə alınaraq projenin yönətməniyi 2 kişiyə, bölüm başkanı Dr. Ibrahim Küçüyə ve Dr. Ismail Yusifova həvalə olunur. Proje aşağıdakı 2 hissəyə bölünmüşdür:

1) 5 metr çaplı 2 və ya daha fazla antenadan oluşan radio interferometr tasarımı; Yönetmen I. Küçük, Yardımçı I. Yusifov;

2) Erciyes universiteti radio teleskopunun otomatik takip sisteminin və 1420 MHz frekansta çalışan nötr hidrojen alıcısının geliştirilmesi;

2003-de başlanan bu projenin 1-ci hissesinin 1-ci qismı (1 teleskopun inşası) 1-2 ay öncə bitdi. Projenin 2-ci hissesinin 1-ci qismi (kompyuterle avtomatik kontrol) isə bu günlərdə bitmək üzrədir. Avqust ayında, teleskopun sazlanması bitəndən sonra onun açılışının olması gözlənilir. **Sual:** bunları daha aydın yazmaq olarmı? Oxucu üçün bu, maraqlıdırmı?

e. **Mənbələr –** Erciyez Universitetinin Bilimsəl Araşdırma Projeleri bölümünün və I.Yusifovun web.səhifələri: http://www. yusifov.info və http://proje.erciyes.edu.tr/2003fen.htm .

İnformasiyanı saf-çürük edəndən sonra bəzi suallar çıxır. Bizə lidi gücləndirmək üçün radioteleskop layihəsinin önəmi barədə daha geniş informasiya lazımdır. İsmayıl müəllimə göndərdiyimiz suallara bu cavabları alırıq:

Sual 1. Bu cihazdan nə məqsədlə istifadə olunacaq və nə onun önəmi nədir?

Cavab: Kainatı sadəcə optik dalğalarda müşahidə edəndə elə bil bir gül bağçasına ağ-qara televizordan baxırsan. Kainat haqqında, oradakı mənbələr haqqında (ulduz, qalaktika, kvazar və s.) ətraflı məlumat almaq üçün hər dalğada müşahidə aparılsa, daha yaxşı olur. Müxtəlif dalğalarda müşahidə edəndə

oradakı fiziki şərait haqqında daha ətraflı məlumat almaq olur.

Sual 2. Cihazdan istifadə edən ölkələr, xüsusilə Ermənistan hansı üstünlüklər qazanıb? Cihazın sosial önəmi nədir ?

Cavab: Hər bir elmin, ayrı-ayrı sahələri, istiqamətləri, kafedraları və ya şöbələri var. Fizikada: atom fizikası, kvant fizikası, optika, təbabətdə: uşaq xəstəlikləri; daxili xəstəliklər ve s. Bənzər olaraq, astronomiyada da, səma mexanikası, astrofizika, optik astronomiya kimi şöbələr var. Bunlardan biri də radioastronomiyadır.

Radioteleskop hazırlamaq və ya almaq çox baha başa gələn bir sahədir. Ancaq kifayət qədər güclü dövlətlərin radioteleskopu var. (Rusiya, Amerika, İngiltərə, Almaniya və s.). Teleskop olmayanda kadr yetişdirmək, elmin bu sahəsində araşdırmalar aparmaq olmur. Radioteleskop olanda ölkənin bu sahədə öz mütəxəssisləri olur. Xarici ölkələrlə birgə araşdırmalar aparmaq gerçəkləşir. Radioteleskopun ermənilərə qazandırdığı üstünlük budur.

Bəzənsə tərsinə olur. Kadr var, amma maliyyə yoxdur.

1976-1978-ci illərdə Şamaxı Astrofizika Rəsədxanasında (ŞAR) radioastronomiya sahəsində işlərə başlasaq da, iqtisadi çətinliklər üzündən bu iş yarımçıq qaldı.

Türkiyədə iqtisadi vəziyyət pis deyil, amma kadrsızlıq ucundan indiyə qədər radioteleskop hazırlaya bilməyiblər. Mən belə bir layihəni həyata keçirməyə razılıq verdim.

Layihənin qaynaq, tokar işlərinin çertyojlarını, radioteleskopun fəaliyyətinə nəzarət edən kompyuter proqramlarını mən hazırlamışam.

Sual 3. Radioteleskopun hazırlanması neçəyə başa gəlir?

Cavab: 2-mlik radioteleskopu ukraynalılar Türkiyəyə 40 min dollara satıblar. Konstruksiyanı sadələşdirərək mən 5m-lik radioteleskopun qiymətini 20 min dollara saldım. Rusiyada və ya Amerikada bənzər radioteleskopların qiyməti 1-2 milyon dollardır.

İndi isə xəbəri yazmağa başlayaq. Təklif olunan lidlər bunlardır:

- Türkiyənin ilk radioteleskop layihəsi avqust ayında tamamlanacaq.
- Kayseri Erciyes Universiteti Astronomiya fakültəsinin hazırladığı Türkiyənin ilk radioteleskop layihəsi yaxın 10-15 gündə tamamlanacaq.

Amma bu lidlərin hamısında söhbət yalnız radioteleskop layihəsinin başa çatmaqda olduğundan gedir. Özümüzü oxucunun yerinə qoyaq. Belə bir lid ona nə deyir? Oxucu bu lidi oxuyub soruşacaq: "Layihənin nəticəsi nədir?" Cavab sadədir. Bu layihənin nəticəsi radioteleskopdur. Demək, liddə radioteleskopun hazırlandığı yazılmalıdır:

Türk dünyasının ilk radioteleskopu yaxın günlərdə Türkiyənin Erciyez Universitetinin Astronomiya bölümündə hazır olacaq.

İndi isə lidin izahına və gücləndirilməsinə keçək.

Türkiyəni radioastronomiyada Rusiya, ABŞ, Almaniya, Böyük Britaniya kimi dövlətlərlə bir sıraya çıxaran bu cihaz vasitəsilə kainat daha dərindən incələnəcək.

Bu cümlədən sonra "dərindən incələmə nədir?" sualına cavab sitat vasitəsilə verilsə, lid daha da qüvvətlənər. İsmayıl müəllimin cavabından istifadə edək:

"Kainatı sadəcə optik dalğalardan müşahidə edəndə elə bil gül bağçasına ağ-qara televizorun ekranından baxırsan. Radioteleskop isə kainatı bütün rəngləri ilə görməyə, onun sirlərini öyrənməyə, ulduzlar, qalaktika haqqında ətraflı məlumat toplamağa imkan verir,"- radioteleskop layihəsinin

müəlliflərindən biri Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı, f.e.n. İsmayıl Yusifov türk həmkarları ilə 10 illik zəhmətinin bəhrəsini belə qiymətləndirir.

Bu hissədə biz oxucuya İsmayıl müəllimi təqdim etməklə həm də növbəti abzas üçün keçid yaradırıq. “10 illik zəhmətin bəhrəsi” ifadəsi bizə qaynaq informasiyanı verməyə kömək edir:

Türkiyənin radioteleskop qurmaq cəhdləri 1990-cı illərdə TUBİTAK (Türkiyə Bilim Texnik Araşdırmalar Kurumu) çərçivəsində başlayıb. Bu məqsədlə 1995-ci ildə Ukraynadan diametri 2 m. olan radioteleskop alınsa da, 1997-ci ildə cihazdakı texniki nasazlıq üzündən layihə dayandırılır. 2000-ci ildə teleskopun Kayseri Erciyes Universitetinin yeni açılmış Astronomiya bölümünə hədiyyə edilməsi ilə layihə yenidən gündəmə gəlir. 1996-ci ildə layihəyə rəhbərlik etmiş İ.Yusifova fakültə dekanı İbrahim Küçüklə birlikdə layihəyə yönətmənlik həvalə edilir.

Qaynaq informasiyadan növbəti abzasa keçirik. Bu abzasda kadr və maliyyə məsələləri açıqlanacaqdır. Biz İsmayıl müəllimin bəkqraundunu verməklə kifayətlənməyəcəyik. Onun bu layihədəki xidmətini faktlarla yazaraq qaynaq informasiyanı gücləndirəcəyik.

Radioteleskop qurmaq mütəxəssislə yanaşı, həm də güclü maliyyə dəstəyi tələb edir. M.Lomonosov adına MDU-nu bitirmiş, Pulkovoda təcrübə keçmiş, Şamaxı Astrofizika Rəsədxanasında (ŞAR) və AMEA-nın Fizika İnstitutunda araşdırmalar aparmış İ.Yusifov layihənin konstruksiyasını sadələşdirərək 5 metrlik RT-nin qiymətini iki dəfə ucuzlaşdıra bilir. “Bu

radioteleskop 20 000 ABŞ dollarına başa gəlir. Rusiyada və ABŞ-da bənzər teleskopların qiyməti bir-iki milyon dollardır,”- İ. Yusifov belə deyir.

İndi isə ikinci dərəcəli informasiyaya keçmək olar. Bu informasiyanın coğrafiyası bölgəni əhatə edir, Yunanıstan və Ermənistanla başlayıb, Azərbaycanla bitir. Belə bir informasiyanı əlavə etməklə biz xəbəri lokallaşdırırıq, yəni özümüzə yaxın və daha əhəmiyyətli edirik:

Bölgədə radioteleskop yalnız Yunanıstanda və Ermənistanda var. Azərbaycanda radioastronomiya sahəsində araşdırmalara hələ 1976-1978-ci illərdə ŞAR-da başlanılsa da, iqtisadi səbəblər üzündən bu iş yarımçıq qalib. Radioteleskopun olmaması Azərbaycan alimlərinə yalnız nəzəri tədqiqatlar aparmağa imkan verib.

Biz İsmayıl müəllimin məktubundakı layihə barədə bütün məqamları yazmadıq. Amma oxucuya veb.səhifənin ünvanını verməklə onun əlavə məlumat almasına yardımçı oluruq:

Türkiyənin ilk radioteleskop layihəsi barədə daha ətraflı məlumatı Erciyez Universitetinin Araşdırma bölümünün və İ. Yusifovun veb.səhifələrindən almaq olar: http://proje.erciyes.edu.tr/2003fen.htm, http://I.Yusifov.com.

Beləliklə, birlikdə 263 sözlük isti xəbər yazdıq. Birlikdə lidi tapıb xəbər piramidasını çevirdik...

Şəkil. 3.

Ən mühüm və maraqlı informasiya. “Kim?”, “Nə?”, “Nə zaman?”, “Harada?”, “Nə üçün?”, “Necə?”

Lidi dəstəkləyən detal və sitatlar

Liddəki informasiyanın qaynaq materialı

Mövzunu açıqlayan detallar, sitatlar

Daha önəmsiz informasiya

Amerika – Azərbaycan: təcrübələrin müqayisəsi

Qərb təcrübəsində lid xəbərin birinci cümləsidir. Qərbdə xəbəri sərlövhəsiz və sərlövhəaltısız da yazmaq olar. Sərlövhə və sərlövhəaltı redaktorun işidir. O, xəbəri oxuyaraq təkcə xəbərə deyil, həm də səhifəyə uyğun sərlövhəni tapır. Bu zaman xəbərin yerləşdiriləcəyi səhifədəki digər materiallar, sərlövhənin uzunluğu, bir sözlə, dizayn nəzərə alınır. Qərbdə sərlövhəaltılardan az istifadə olunur.

Azərbaycan təcrübəsində redaktorlar materialı adətən sərlövhə ilə qəbul edirlər, əks halda, yazı tamamlanmamış sayılır. Azərbaycanda sərlövhəaltılar Qərblə müqayisədə qat-qat çox yazılır. Araşdırmalar göstərir ki, bunun səbəbi milli mətbuatımızda sərlövhəaltıların, əslində, lid funksiyası oynamasıdır. Əsil lid – xəbərin birinci cümləsi isə, adətən, standart uğursuz lid formasında yazılır. Bu isə xəbərin piramida şəklində yazılmasına gətirib çıxarır. Məs., “Fövqəladə əməkdaşlığın prioritetləri bəlli oldu. Yaxın vaxtlarda Azərbaycan və Türkiyə birgə təlimlər keçirə bilər. Dünən Türkiyə hökuməti ilə Azərbaycanın Fövqəladə Hallar Nazirliyi (FHN) arasında "Fövqəladə halların idarə edilməsi üzrə əməkdaşlıq haqqında" protokol imzalanıb” xəbərinin yarımsərlövhəsindəki “Yaxın vaxtlarda Azərbaycan və Türkiyə birgə təlimlər keçirə bilər” xəbəri barədə daha ətraflı məlumat

almaq üçün oxucu 181 işarəlik xəbərin 168 işarəsini, yəni 92 faizini oxumalıdır. _____

Amerika – Azərbaycan: təcrübələrin müqayisəsi

Çalışmalar:

2. **Xəbərlərin lidini tapın.**
   a. Dünən qərargahı Nyu Yorkda yerləşən və bütün dünyada demokratik azadlıqların vəziyyətini araşdıran "Freedom House" təşkilatı "Ölkələr yol ayrıcında" adlandırdığı illik hesabatını açıqlayıb. "Azadlıq" radiosunun məlumatına görə, hesabat 2004-cü ilin noyabrından 2005-ci ilin noyabrına qədər dövrü əhatə edir. Otuz ölkəni əhatə edən bu hesabatda idarəetmənin əsas komponentləri, qanunun aliliyi , vətəndaş azadlığı, antikorrupsiya və şəffaflıq ön plana çəkilib. Keçmiş sovet ölkələri sırasında Ukrayna və Gürcüstan kimi ölkələr islahatların keçirilməsi baxımından açıqlansa da, Azərbaycanla Qazaxıstan korrupsiya ilə ən zəif mübarizə aparan ölkələr kimi xarakterizə edilir. Bu sənəddə korrupsiya ilə mübarizədə Azərbaycan Zimbabve, Yəmən, Qazaxıstan və Bəhreynlə eyni cərgədə göstərilir.
   b. Ermənistan Uşaq Hüquqlarının Müdafiəsi Təşkilatının sədri, tanınmış biznesmen Aleksandr Qivoyevin xidməti maşını dünən Aştarak -

Gümrü magistral yolunda naməlum şəxslər tərəfindən atəşə tutulub. Ailəsi ilə birlikdə Gümrüyə gedən iş adamı maşınını yol kənarındakı ticarət köşkünün qarşısında saxlayıb. Aleksandr Qivoyev maşından düşərək mağazaya daxil olan zaman yaxınlıqdakı "VAZ-2109" markalı maşından düşən maskalı şəxs biznesmenə avtomat silahdan atəş açıb. Atəş nəticəsində Aleksandr Qivoyev və mağazanın satıcısı Gülnarə Karapetyan ölüb, bir neçə nəfər yaralanıb. Faktla bağlı cinayət işi açılıb, təhqiqat aparılıb.

3. Xəbərin Çevrilmiş piramida şəklində yazılıb-yazılmadığını araşdırın.

Ekologiya nazirliyi Böyükşor gölünü qurudur. *"Günay", 15 iyul 2006.*

Azərbaycanda irili-xırdalı 800-dən çox göl var ki, bunun da 200-ü təbii göllərdir. Göllər neft məhsulları və məişət tullantıları ilə çirklənib. Bu barədə ekologiya və təbii sərvətlər nazirliyinin Xəzər dənizinin kompleks Ekoloji Monitorinq İdarəsinin başçısı Lətifə Hüseynova məlumat verib.

Onun sözlərinə görə, Böyükşor gölünün vəziyyəti daha pisdir. Bura hər gün 18 min kubmetrdən çox istehsalat və məişət tullantıları atılır.

Hazırda bu gölün qurudulmasına başlanılıb. İndiyədək təxminən 15 ha sahə qurudulub və torpaqla örtülüb. Təxminən 83 ha sahə qurudulsa da, hələ torpaqla örtülməyib.

L. Hüseynova deyib: "Ən böyük problem bundan ibarətdir ki, infrastruktur inkişaf etsə də, ətraf mühitin qorunması üçün ekoloji, hidrotexniki qurğular inşa edilmir:

O qeyd edib ki, 5 il ərzində Xəzərin sahil xəttində aparılmış tədqiqatların nəticələri müsbət olmayıb. "SSRİ vaxtından bəzi yerlər çirklənmiş vəziyyətdədir"**.**

4. **Sərlövhə, sərlövhəaltı və lid arasındakı uyğunsuzluğu aradan qaldırın.**

a. **Xalq artisti Afaq Bəşirqizi əməliyyat olunub.** *"525-ci qəzet", 10 avqust 2006.*

Ayağındakı ağrılardan əziyyət çəkən aktrisanın sol diz oynağında cərrahiyyə əməliyyatı həyata keçirilib.

Dünən Respublika Artroloji Mərkəzində xalq artisti Afaq Bəşirqızının sol ayağında cərrahiyyə əməliyyatı aparılıb. Bu barədə APA-ya əməliyyata rəhbərlik etmiş Respublika Artroloji Mərkəzinin direktoru Eldar Abasov məlumat verib.

b. **1931 yer uğrunda 4634 namizəd mübarizə aparacaq.** *"Ayna", 10 avqust 2006.*

MSK təkrar bələdiyyə seçkiləri ilə bağlı yekun məlumatını yaydı.

Mərkəzi Seçki Komissiyası bu il oktyabrın 6-da keçiriləcək təkrar, əlavə və yeni bələdiyyə seçkilərinə qatılacaq namizədlərlə bağlı yekun məlumat yayıb. MSK-nın mətbuat xidmətindən verilən məlumata görə, seçkilərdə 4634 namizəd iştirak edəcək.

5. **"Lid bütün suallara cavab verməlidirmi?" paraqrafındakı "Geydelberq Akademiyası Karlsruye Universitetinin alimləri Briqit Müller və Mark Tunqay Bakıdadır" xəbərindəki məlumatları önəmlilik dərəcəsinə görə düzün, qaynaq informasiyanı tapın və xəbəri Çevrilmiş piramida şəklində yazın.**

6. **Bu xəbərlərdə hansı qaynaq informasiya verilməli idi? Unudulmuş qaynaq informasiyanı hazırlayın və boşluğu doldurun.**

a. **"Azadlıq"dan yeni qərar.** *"Ayna", 6 avqust 2006.*

Quruma daxil olan partiyaların bələdiyyə seçkilərində iştirak edəcək üzvləri partiyadan xaric olunacaqlar

Dünən "Azadlıq" blokunun Sədrlər Şurasının toplantısı keçirilib. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev APA-ya bildirib ki, toplantıda bələdiyyə seçkilərində partiyaların qərarlarına zidd addım atan namizədlərin təşkilatdan xaric olunması məsələsi müzakirə olunub. Qərara alınıb ki, qurumun siyasi xəttinə qarşı fəaliyyət göstərərək, seçkilərdə iştirak edən partiya üzvləri təşkilatdan xaric olunsunlar.

Yığıncaqda ADP sədri Rəsul Quliyevin təklifi də müzakirə olunub. Partiya sədrləri sentyabr ayında ictimai birliklərin iştirakı ilə tədbirin keçirilməsi haqda razılığa gəliblər. Qurumun toplantısında AXCP-yə olan təzyiqlər də müzakirə mövzusu olub. Blok bununla bağlı bəyanat verib. Bəyanatda AXCP sədri Əli Kərimlinin ümumvətəndaş pasportu ilə əlaqədar problem, "Azadlıq" qəzetinə qarşı məhkəmə iddiaları və "Yeni Fikir" Gənclər Təşkilatının üzvləri haqda çıxarılan məhkəmə qərarı pislənib.

b. **Feldyeger xidməti əməkdaşlarının maaşları artırılıb. *"Ayna", 6 avqust 2006.***

Dünən prezident İlham Əliyev Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidmətinin şəxsi heyətinə daxil olan, xüsusi rütbəyə malik əməkdaşların və mülki işçilərin aylıq vəzifə maaşlarının artırılması barədə sərəncam imzalayıb. Sərəncama əsasən, sözügedən şəxslərin mövcud aylıq vəzifə maaşları 2006-cı il avqustun 1-dən 100 faiz artırılır.

7. Cümlələri redaktə edin.

a. Quşlar arasında növbəti monitorinq başlandı. *"Ayna", 27 aprel 2006.*
b. Artıq bilindiyi kimi, iyulun 5-də Vaşinqtonda ABŞ prezidenti Corc Buş və Gürcüstan prezidenti Mixail Saakaşvili arasında görüş

planlaşdırılır. (Vaşinqton Gürcüstanın ərazi bütövlüyünü tanıyır. *“Ayna”*, 23 iyun 2006).

c. "GünAz" TV-nin fasiləsiz yayımının təmin olunması bütün Azərbaycan türklərinin məsələsidir və burada hər bir azərbaycanlı əlindən gələni əsirgəməməlidir". Güney Azərbaycan Milli Hərəkatına Dəstək Komitəsinin (GAMHDK) təmsilçisi Tofiq Seyid bu sözləri dünən adıçəkilən məsələ ilə bağlı keçirilən "dəyirmi masa"da söyləyib. (Siyasətçilərimiz "Günaz" TV-yə maliyyə yardimi edəcəklər. *“Ayna”*, 1 avqust 2006,).

d. İpoteka krediti üzrə dövlət güzəştlərinin verilmə qaydalarının layihəsi tezliklə ölkə prezidenti səviyyəsində təsdiq olunacaq. Azərbaycan ipoteka fondunun icraçı direktoru Faiq Məmmədovun sözlərinə görə, əvvəlki prezident fərmanlarında mexanizm və kateqoriyaların işlənməsi haqqında sərəncamlar verilib, ona görə də ölkə hökuməti tərəfindən müsbət baxılan layihələr üzrə konkret qərarlar qəti olaraq daha yüksək səviyyədə qəbul olunacaq. (İpoteka krediti üçün güzəştlər tətbiq ediləcək. N. İsmayılova, *“Ayna”*, 2 avqust 2006).

8. “Birbaşa və dolayı lidlər” və “Background – olayın tarixçəsi” paraqraflarındakı verilmiş “Əkinçi” qəzetindən götürülmüş xəbərləri təhlil edin. Onların lidini, qaynaq materialını tapın.

9. “Amerika – Azərbaycan: təcrübələrin müqayisəsi” qutusundakı mülahizələri müzakirə edin. Münasibətinizi arqumentlərlə əsaslandırın.

Ədəbiyyat və elektron resurslar:

13. Adee K.W., Ault H. Phillip, Emery E. Reporting and Writing News, NY, Harper & Row, 1983. p. 35-52.

14. Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002. p. 145-159.
15. Mencher M. News Reporting and Writing. USA, Brown & Benchmark, 1997. p. 130-153.
1. Шостак М.И. Репортер: профессионализм и этика, М., «РИП – холдинг», 2001, с. 21-49.
16. Рендалл Д. Универсальный журналист. М., ProMedia 1996, с. 63-69.

FƏSİL 7. XƏBƏR SOYUYANDA

Od nə çəkdi küldən soruş...

R. Rza

Bu fəsildə açıqlanacaq suallar:

- *Soyuyan xəbər yenidən necə "isinir"?*
- *Soyuq xəbərin strukturu isti xəbərin strukturundan nə ilə fərqlənir?*
- *Soyuq xəbərin lidi necə yazılmalıdır?*
- *Soyuq xəbəri necə yazmalı?*

Odla kül arasında

Heç ocaq qalamısan? Dizlərini, əllərini yerə vurub, üzünü az qala torpağa yapışdırıb közə düşən ağac parçalarını üfürə-üfürə ocağı alovlandırmağa çalışmısanmı? Alov dillərinin rəqsinə necə, tamaşa etmisənmi? Bu çılğın rəqsin sonunda yorğun şölələrin yavaş-yavaş necə öləzidiyini, ocağın közə düşdüyünü, sonda isə külə döndüyünü gözlərinlə görmüsənmi?

İsti xəbər alovdur. Təsadüfi deyil ki, tələbələrə isti xəbər yazmağı adətən yanğın əhvalatı əsasında öyrədirlər. İsti xəbəri alova bənzədiriksə, onda kül nədir? Odla külün arasındakı köz özü nədir? Onlar da "xəbərdirlərmi"?

... 2006-cı il iyun ayının 26-da bir qrup tələbə-jurnalist “Şəhərdə bir gün” mövzusunda yazı yazmaq üçün paytaxta xəbər “ovuna” çıxmışdı. Çox keçmədi ki, onlar asta yerişlərinə haram qatmalı oldular: “Zabitlər evi”nin yerləşdiyi bina yanırdı...

Səhəri gün dərsin əsas mövzusu yanğın idi. Tələbələr topladıqları informasiyanı – gördüklərini və soruşub-öyrəndiklərini bölüşürdülər. Dərsin sonunda isti xəbər hazır olanda məlum oldu ki, onlar demək istədiklərinin hamısını deyə bilməyiblər. Samirə israr edirdi ki, liddə iyunun 26-nın Silahlı Qüvvələr günü olması vurğulanmalıdır, çünki yanan “Zabitlər evi”dir. Bu yerdə İradə və Aygün deyirdilər ki, yanan təkcə “Zabitlər evi” deyil, ona görə də belə bir qarşılaşdırma mübahisəlidir. İki daşın arasında yanan binanın sakinləri ilə söhbətləşməyə macal tapan Vəfa ilə Əhməd binanın qəsdən yandırıldığını istisna etmirdilər. Amma onların müsahiblərindən heç biri adının çəkilməsinə razılıq verməmişdi. Ruslan və Sevil yanğının səbəblərini araşdırmağı təklif edirdilər. Nəsibə ilə Sevdanı narahat edən başqa bir məsələ idi: əgər yanğın mərkəzdən uzaqda baş versə idi, onu neçə saata söndürmək olardı? Axı yanğınsöndürənlər dəniz suyundan istifadə etmişdilər. Təhminə deyirdi ki, yanğının səbəbi köhnə binanın təhlükəli elektrik xətləridirsə, onda hadisənin təkrarlanma ehtimalı böyükdür. Şəhərdə o qədər köhnə bina var ki... Səbinə, Nailə və Durna oxuculara yardımçı olmaq məqsədilə “Yanğın zamanı nə etməli ?” sualını cavablandırmağı təklif edirdilər.

Tələbələr suallara və ehtimal olunan cavablara yer axtarırdılar. Çevrilmiş piramidanın xəbər yükü dolmuşdu. İndi onu “Əlcəyin nağılı”ndakı əlcəyə çevirmək cəhdləri başlanmışdı. “Çevrilmiş piramidanı nə qədər genişləndirmək olar? Genişləndirsək, ondan əsər-əlamət qalarmı?” sualları mübahisəyə səbəb olduğu bir vaxt Xavər incik-incik: “Mənə qulaq

asmadınız. Mən yanğından pişiyini xilas edən, onu şala büküb əzizləyən bir qadın gördüm”, - dedi. Xavərin müşahidəsi mübahisəyə son qoydu: “Çevrilmiş piramida yaxşıdır. Amma bizim yazmaq istədiklərimiz və qaldırılan suallar piramidalıq deyil”...

Çevrilmiş piramida isti xəbər yazmağın ən effektiv forması olsa da, indiki vəziyyətdə bizim oxucuya demək istədiklərimizi çatdırmaq üçün kifayət deyildi. Belə çıxır ki, biz oxucuya isti xəbər deyil, nəsə **fərqli** bir xəbər vermək istəyirik. Bu **fərqli** xəbər nə idi? Bu xəbər yanğınla bağlı olsa da, birbaşa “Zabitlər evi”ndəki yanğın barədə deyildi. Bizi düşündürən məsələləri bir də xatırlayaq: köhnə evlərin elektrik xətlərinin təhlükəsizliyi, yanğınsöndürən maşınların su ilə təchizi, yanğının qəsdən baş verməsi ehtimalı, “yanğın zamanı nə etməli?” sualının cavabı, hətta pişiyini xilas edən qadının kimliyi və sakinlərin sonrakı taleyi. Bu sualları qaldırmaq olardı. Amma oxucuya təkcə sual deyil, həm də cavab lazımdır. Cavabsa vaxt tələb edir. O vaxta qədər yanğın söndürülür, külü qalır. Oxucular yanğını unutsalar da, müxbirlər onlara rahatlıq verməyən sualları unutmurlar. Bu suallar onların hafizələrində közərir. Səbirli və ardıcıl olanlar suallara cavab axtarırlar, mənbələrlə işləyirlər, cəsarətlilər isə daha dərinə – araşdırma jurnalistikasına baş vururlar. Və günlərin birində yanğının tüstüsü çəkilib, külü göyə sovrulanda oxucular sensasiyalı açıqlama, ya araşdırma ilə tanış olurlar. Soyuq xəbərlər belə yaranır. Soyuq xəbər közdən yaranan xəbərdir. Ona nəfəs verən və külə çevrilməyə qoymayanlar jurnalistlərdir.

“Soyuq xəbər”, “Feature” ya “Очерк”? Necə adlandıraq?

Qərbdə (ABŞ, Qərbi Avropa) ona “fiçə” (feature) deyirlər, Şərqdə (Rusiya, Mərkəzi və Şərqi Avropa) “oçerk” (очерк), Qərblə Şərqin kəsişdiyi Azərbaycanda isə yaşlı nəsil “oçerk”, cavanlar bəzən “fiçə”, bəzən “soyuq

xəbər”, bəzənsə mübahisədən və artıq izahdan qaçmaq üçün heç nə. Kimin qərbli, kimin şərqli, kiminsə Qərblə Şərqin körpüsü olması necə mübahisəlidirsə, nəyin fiçə, nəyin oçerk, nəyinsə də soyuq xəbər adlanması o qədər söz-söhbətlidir. Amma “Qərb” ya “Şərq” adlandırmağımızdan asılı olmayaraq, ABŞ ABŞ-dır, Avropa Avropa, Rusiya Rusiya, Azərbaycan da Azərbaycan. Lap fiçə ilə oçerk kimi.

“Feature” “cizgi” sözündəndir, yəni hansısa bir hadisəni sözlə cizgiləmək. “Очерк”in də kökündə eyni söz durur – “черта”. “Очертить” də sözlə cizgiləməkdir. İstər Qərb jurnalistikası olsun, istərsə də Şərq, dəxli yoxdur, istər “fiçə” adlansın, istər “oçerk”, universal jurnalistikada (Rendalı xatırlayın) bu yazıları dəyərləndirən ölçülər eynidir. Biz sizinlə bu ölçüləri öyrənəcəyik və fiçə - oçerk terminoloji qarmaqarışıqlığına son qoymaq üçün daha neytral olan “soft news”, yəni “soyuq xəbər” terminini işlədəcəyik.

Soyuq xəbərin ölçüləri

Soyuq xəbərlər üçün ümumi olan cəhətlər bunlardır:

- **Hadisəyə – isti xəbərə qayıdış.** Soyuq xəbər isti xəbərdən doğan yazıdır. İsti xəbər yazılsa da, bizi nə isə, məs. cavabsız qalan suallar, geriyə dönməyə vadar edir.
- **Rahatlıq, arxayınlıq.** Soyuq xəbər tələsik yazılmır. Könüllü geri qayıtdığımız üçün bizi tələsdirən də yoxdur. Amma “yoxa çıxdığımız” üçün bizi tənbeh edən tapıla bilər. Elə buna görə də qayıdışımızı əsaslandırmalıyıq. Əliboş dönməməliyik. Əlidolu qayıtmaq azdır, elə şey gətirməliyik ki, ona ehtiyac olsun.

- **Emosionallıq.** Soyuq xəbər yenidən canlandırılan xəbərdir. Bütün canlılar kimi onun gözü, qulağı, burnu, ağzı və əlləri olmalıdır. Yəni oxucu onunla görməli, eşitməli, iyləməli, dadmalı və duymalıdır.
- **Üslubun fərdiliyi.** İsti xəbərin həndəsi həlli çevrilmiş piramidadırsa, soyuq xəbər piramida deyil. Soyuq xəbərin həndəsi təsviri bütün fiqurlar ola bilər: romb, düzbucaqlı, qum saatı (iki üçbucağın birləşməsi) və s. Çünki o, fərdi üslubdan yaranır.

Yuxarıda sadalanan 4 cəhətin hamısı bir yazıda eyni dərəcədə əks oluna bilməz. Soyuq xəbərin növündən asılı olaraq bu cəhətlərin hansısa qabardılır, hansısa daha zəif verilir. Bəs soyuq xəbərin növləri hansılardır?

Soyuq xəbərin növləri

- **İsti xəbərdən yaranan soyuq xəbərlər** analitik xarakterli olub hadisə baş verdikdən sonra onun başvermə səbəblərini və s. daha dərindən araşdıran, çoxsaylı mənbələrə əsaslanan geniş xəbərdir (Örnək 1).
- **İnsanları maraqlandıran mövzulara həsr edilmiş soyuq xəbərlər** mövzu rəngarəngliyi ilə seçilir: uşaqlar, gənclər, qocalar, canlı aləm və s. Bir sözlə, sevinc və kədər doğuran, insanların hiss və həyəcanlarını riqqətə gətirən hadisələr barədədir (Fəsil 1, Örnək 4).
- **İnsanın portreti cizgilənən soyuq xəbərlər.** Onlara Qərb jurnalistikasında “profile” (profayl), biz də isə “portret oçerk” deyirlər.
- **Səfər təəssüratları** soyuq xəbərlərin geniş yayılmış növlərindəndir.

- **Araşdırma yazıları** – jurnalist təhqiqatını soyuq xəbərin zirvəsi hesab etmək olar.[34] Bu yazıları yazma texnikası ilə "Araşdırma jurnalistikası" bölümündə tanış olacaqsınız.

Təcrübəni bölüşənlər

Azad Şərif (1930) Azərbaycan Dövlət Konservatoriyasını və Azərbaycan Dövlət Universitetini bitirib. 45 ildir ki, mətbuatdadır. "Molodyoj Azerbaydjana" qəzetinin baş redaktoru, "Vokruq sveta" jurnalının baş redaktor müavini, "İzvestiya" qəzetinin Türkiyə, İran və Əfqanıstanda müxbiri, "Azərinform"un baş direktoru vəzifələrində çalışıb. 1992-93-cü illərdə "Qaradağneft"də fəhlə işləyib. Azərbaycanın Əməkdar jurnalisti, 20-dən çox kitab müəllifidir. Hazırda Qərb Universitetində dərs deyir.

İlk alpinist oçerklərini hələ 19 yaşında "Molodyoj Azerbaydjana" üçün yazan Azad Şərif bu gün də sevimli janrına sadiqdir. Onun 2005 və 2006-cı illərdə çıxan "Geriyə baxmaq zamanıdır" və "Geriyə baxmalı, amma dayanmamalı" kitablarında son illərdə respublika mətbuatında çıxan 120-dən çox oçerki toplanıb. Ustad jurnalist Azad Şərif soyuq xəbəri necə "isitməsi" barədə təcrübəsini bölüşür:

Mən hər gün, hər axşam yazıram. Bu, mənim həyatımdır. Yazmasam, ölərəm. Bilirəm ki, qələmim susanda ürəyim də susacaq. Mənə yazmaq üçün sadə bir bəhanə kifayətdir. Universitetdə dərs deyirəm, gənclərlə daim ünsiyyətdəyəm. Tələbələr keçmişi yaxşı bilmirlər, məsələn, onlar üçün Bülbülün, ya Niyazinin adı az söz deyir. Amma mən biləndə ki, Bülbülün yubileyidir, bu, Bülbülün şəxsiyyətinə qayıtmaq, onun haqqında xatirələrimi bölüşmək üçün bir fürsətdir.

[34] Eng P., Hodson J. Reporting and Writing News a Basic Handbook. Bangkok, Artasia Press Company, 2001, p.75

... 2002-ci ilin yayı idi. “Elm və həyat” nəşriyyatının direktoru Cəmil Əlibəyovun kabinetində Azərbaycan Sovet Ensiklopediyasını vərəqləyirdim. Gözümə tanış familiya dəydi: “Tağıyev Eyyub İsmayıl oğlu. Moskva Neft və Sənaye Kimyası İnstitutunun prorektoru, professor. 1912-ci il yanvarın 27-də Bakıda doğulub, 1967-ci il yanvar ayının 17-də Moskvada vəfat edib”.

Bu ad yaddaşımda iki xatirəni göyərtdi: Eyyub Tağıyevlə 1960-cı ilin aprelində Bakıda Azərbaycan SSR-in 40 illik yubileyində tanış olmuşdum. Üç dəfə Stalin mükafatı alan həmyerlimiz biz, jurnalistlərin, diqqətini çəkməyə bilməzdi... İkinci xatirəni köhnə dostum, tanınmış alim İmran Cəfərov danışmışdı. O, 1986-cı ildə Sovet nümayəndə heyətinin tərkibində Kəlküttəyə gedəndə ev sahibləri qonaqlardan birinin Azərbaycandan olduğunu eşidir və hamını şəhərin mərkəzi parklarından birinə aparırlar. Burada Eyyub Tağıyevin qara mərmərdən yonulmuş büstü qoyulmuşdu. Metryarımlıq pyedestalın üzərinə qızılı hərflərlə yazılmışdı: “Hind neftinin atası”. Mən ensiklopediyanı vərəqləyə-vərəqləyə bu iki epizodu xatırladım və həmyerlimiz Eyyub Tağıyev haqqında yazmağa qərar verdim. Bu, çətin bir iş idi. Eyyub Tağıyev 1967-ci ildə dünyasını dəyişmiş, həyat yoldaşı və oğlu da dünyadan köçmüşdülər. Moskvada onun yeganə yadigarı – qızı Elmiranı tapdım. O, mənə atasının arxivini verdi. Burada nələr yox idi. Həmyerlimizin portretini cizgiləmək üçün yeni faktlar üzə çıxardım. Tağıyev təkcə Hindistanda deyil, həm də Braziliyada neft yataqlarının tapılmasında əvəzsiz xidmətlər göstərmişdi. İçəri şəhərdə doğulan, İçəri Şəhərə indiki Sabir bağının yanından qapı açdırmağa nail olan tacir Hacı Zeynalabdin Tağıyevin (o, məşhur milyonçu Hacı Zeynalabdin Tağıyevin adaşı idi) nəvəsi, əfsanəvi neftçi Eyyub Tağıyev haqqında sənədli povest belə yarandı. 2003-cü ildə “Bakılı neft kralı” əsəri işıq üzü görənə qədər Eyyub Tağıyev barədə silsilə oçerklərim respublika mətbuatında çıxmışdı...

Bu əsərlə mən yeni bir layihəyə başladım. Bizim tanımadığımız, ya unutduğumuz, dünyasını dəyişmiş məşhur azərbaycanlılar haqqında yazmaq. Mən, hər şeydən əvvəl, jurnalistəm. Elə buna görə də kitab çıxarmazdan əvvəl yazılarımı qəzetdə dərc etdirməyi sevirəm. Yazı yazanda tələsmirəm. Yazan kimi onu çapa vermirəm. İsti başla yazdığımı bir neçə gündən sonra soyuq başla oxuyuram. Yalnız bundan sonra onu oxucuların mühakiməsinə buraxıram.

Soyuq xəbərin strukturu

Soyuq xəbər üç hissədən ibarətdir: Giriş, Əsas hissə (Gövdə) və Sonluq. Bu hissələr bir-biri ilə bağlıdır və hər birinin fərqli özəlliyi var. Dediklərimizi aşağıdakı xəbər əsasında incələyək.

Örnək 1. Qafqazdakı hücumlar yeni qaçqın dalğası yaradır, "*Nyu York Tayms*", 9 aprel 1993. 5193 söz.

Murov keçidi, Azərbaycan. 6 aprel. Onlar – 9000 futluq dağ keçidinin şimal yamacı boyu enən, öz torpaqlarında qaçqınlığa məhkum olan üç insan – qar dənizində qara nöqtələrə bənzəyirlər. Yaxınlaşdıqca görürsən ki, üç yox, beş imişlər. 30 yaşlarında əldən düşmüş kişi və 20 yaşlarında iki qadın əli körpəlidirlər. Altı günlük yoldan sonra soyuqdan yanıb, çaş-baş qalan bu insanlar Kəlbəcərin Başıbəyli kəndindən dağları və meşəni keçərək gəliblər.	**Giriş.** **Lid** oxucunun diqqətini çəkir, onu yazını oxumağa vadar edir.
Burada – Cənubi Qafqazda erməni silahlı birləşmələrinin həftənin sonunda Dağlıq Qarabağı işğalı nəticəsində minlərlə insan öz ev-eşiyindən	**Xüsusidən ümumiyə keçid abzası.**

didərgin düşüb, bölgədə yeni, misli görünməmiş qaçqın böhranı başlanıb...	Mövzu açıqlanır. “Yazı nə barədədir?” sualına cavab verilir.
Azərbaycanın tabeliyində olsa da, əhalisi, əsasən, etnik ermənilər olan Dağlıq Qarabağ erməni separatçıları ilə azərbaycanlılar arasında elan edilməmiş beş illik müharibənin mükafatıdır. Müharibədə üç minə yaxın insan həlak olub. Kəlbəcərin işğalı ermənilərə Qarabağı qonşu Ermənistanla şimaldan cənuba birləşdirən zolağa nəzarət etmək imkanı verir.	**Əsas hissə, yaxud gövdə.** Hadisəni açıqlayır. Onun kontekstini – əhatə və təsir dairəsini verir.
İlk körpü – Laçın ötən il açılmış, ondan Dağlıq Qarabağın təchizatında və buraya qoşunların gətirilməsində istifadə olunmuşdu. Döyüşlər zamanı Azərbaycan Ermənistana iqtisadi blokada tətbiq edib. Qışda qonşu Gürcüstanda qaz kəmərinin partlayışından sonra Ermənistanın təbii qazla təchizatı kəsilib. Odsuz, işıqsız qalan ermənilər böhrandan çıxmaq üçün xarici yardıma üz tutublar. Onlar deyirlər ki, partlayış azərbaycanlı partizanların işidir.	**Qaynaq informasiya, Ön tarixçə.** “Hadisənin kökləri hara gedib çıxır ?” , “Dünənlə bu günü nə birləşdirir ?” sualları cavablandırılır.
Həftəsonu döyüşlərdən sonra qaçan 39 000 azərbaycanlı qaçqın mərkəzlərindən keçib. Rəsmilərin dediyinə görə, 5000 nəfərin taleyi aydın deyil. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə, 15 000 insan itkin düşüb.	**Mövzuya qayıdış.** Hadisə incələnir.

“Biz qaçanda 30 nəfər idik. Amma yolda pərən-pərən olduq. Mən bilmirəm ki, başqalarının başına nə gəldi. Bəlkə də, onlar hamısı ölüblər”, – beş nəfərdən biri – Səttar Tağıyev belə deyir. Tağıyevin dəstəsi ola bilsin ki, Xanlardakı qaçqın mərkəzinə gəlib çatan sonuncu qrupdur. Ev-eşiyindən qovulan 30 mindən çox kişi, qadın, uşaq mərkəzdən gəlib keçiblər. Yevlaxdakı mərkəzdən ötən həftə vertolyotlarla gətirilmiş 3000, Daşkəsəndəki mərkəzdən isə 6000 insan keçmişdir.	Sitatlar
BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndəsi deyir: “Bizdə olan məlumata görə, 2000-3000 insan Daşkəsən keçidinin o biri üzündə qalıb. Onlar təcili olaraq təxliyə edilməzlərsə, qorxuruq ki, xəsarət alanların sayı qat-qat arta. Çünki onların böyük əksəriyyəti qocalar, qadınlar və uşaqlardır. Hətta cavan kişilər belə əldən düşmüş, termal şok almış vəziyyətdə gəlirlər”.	Sitatlar
Keçidi aşanların çoxunu don vurub, 40 nəfər isə ölüb. Keçə bilməyənlərin sayı isə məlum deyil. Qaçqın komitəsi keçidin o biri üzündə qalanları vertolyotlarla təxliyə etmək istəyir. Amma bu işin nəticə verəcəyinə ümid azdır. Azərbaycan ordusunun qaçqın və yaralıları daşıyan 4 vertolyotu ötən həftə qəzaya düşüb, bazar günü isə Mİ-8 vertolyotu vurulub. Heyət üzvlərindən üçü həlak olub, 9 nəfər yaralanıb.	Detallar

Qaçqınları gətirməli olan digər bir vertolyotun havaya qalxmağı ilə ermənilər tərəfindən atəşə tutularaq geri dönməsi bir olub.	
Xilasetmə əməliyyatlarını həyata keçirməyə ən böyük maneə siyasi məsələdir. Faktların əksinə olaraq, Ermənistan hökuməti israr edirdi ki, onun əsgərləri Kəlbəcəri ələ keçirməyiblər, atəşkəs danışıqları Bakının tanımaqdan imtina etdiyi "Dağlıq Qarabağ Respublikası"nın hökuməti ilə aparılmalıdır. Sonra Yerevan bildirdi ki, azərbaycanlıların Kəlbəcərdən hücumlarına cavab olaraq Qarabağ erməniləri bu rayonu tutaraq Ermənistana birləşmək üçün ikinci dəhliz açıblar.	Məsələyə münasibətdə fərqli mövqelər
Təkcə Azərbaycan hökuməti deyil, Kəlbəcərin işğalını gözləri ilə görənlər deyirlər ki, Kəlbəcərə hücum Ermənistandan başlanıb. Qarabağa aparan 100 kilometrlik yeni və enli şimal dəhlizi isə Kəlbəcər regionunun de-fakto ilhaqı deməkdir.	**Sonluq** Yazının başlanğıcı ilə əlaqəsi olan yazıya bitkinlik gətirən sitat, hadisə, yaxud ümumiləşdirmə.

UNUTMAYIN: Soyuq xəbər bədii yazı deyil, o, FAKT jurnalistikasının janrıdır. Soyuq xəbərin gücü canlandırılan faktlardadır. Gəlin bu texnikanı – canlandırma texnikasını birlikdə öyrənək.

Birinci addım: rakursu tapmalı

Günlərin birində, reportyor işlədiyim vaxtlarda Xarici İşlər Nazirliyinə rəsmi bir tədbiri işıqlandırmaq üçün dəvət olunmuşdum. Nazirin qonaqlarla görüşü ləngiyirdi. Qədim binanın hündür divarlarını bəzəyən rəsm əsərlərinə baxmaqdan xoş bir məşğuliyyət tapa bilməyəndə heç ağlıma da gəlməzdi ki...

“Bağda çayxana” və “Şərq bazarı”... Yaddaşıma ömürlük köçən əsərlər, səhv etmirəmsə, belə adlanırdılar. İlk baxışda adi və sadə mövzular. Siz bu mövzularda əsər yaratmalı olsa idiniz, nə çəkərdiniz? Gül, bülbül, samovar, satıcılar və Şərq nemətlərinin ağırlığına davam gətirməyən dolu piştaxtalar, yoxsa daha nələr?...

Rəssamsa çayxananı çiçəklənən ağacların başından çəkmişdi. Təsəvvür edirsinizmi, çayxanaya küçədən, yoldan keçəndə baxmayasan, yuxarıdan ağacların arasından baxasan və gözünə birinci sataşan nəhəng, ağır, qədimi mis samovarın üstünə dəmə qoyulan güllü çaydan ola. Sonra isə çayçının məmnun və bahar çiçəkləri kimi təravətli çöhrəsi, bir də ağaclar... Bu tabloda baharın müjdəsi ağacların təpəsindən, pöhrələnən yarpaqlar arasından görünən samovar idi...

...Məscidin minarələrinə həmişə aşağıdan yuxarıya baxmağa adət etmişik. Bəs yuxarıdan – mələklərin qanad çaldığı səmadan minarə necə görünür? Rəssam Şərq bazarına göy üzünün bircə ona bəlli olan qatından baxırdı. Əvvəl minarələrin içi, sonra bu minarələrin ayaqları altına sərilmiş şəhər və bolluq süfrəsi kimi açılmış Şərq bazarı...

Hər iki əsərin müəllifi xalq rəssamı Toğrul Nərimanbəyov idi. Mənə elə gəlir ki, Toğrul Nərimanbəyov təkcə rəssamlara deyil, həm də jurnalistlərə rakurs barədə ustad dərsləri keçə bilər. Bu əsərlərdən bizim bir jurnalist kimi öyrənə biləcəyimiz məhz rakursun seçilməsidir.

“Rakurs” fransız sözüdür, foto və kinoçəkilişlərində qeyri-adi perspektiv deməkdir. Belə bir perspektiv obyektə birbaşa deyil, fərqli baxış bucağından – yuxarıdan və ya aşağıdan baxışı nəzərdə tutur.[35] Jurnalistikada isə rakurs yazının təqdimatıdır. Biz yazını hansı baxış bucağından təqdim ediriksə, oxucu da hadisəni o bucaqdan görür.

Əgər biz isti xəbər yazanda fokus axtarırıqsa, soyuq xəbər yazanda rakurs axtarırıq. İsti xəbərin lidi məhz bu fokusun əsasında yazıldığı kimi, soyuq xəbərin lidi də rakurs əsasında qurulur. Elə buna görə də isti xəbərin gücü fokusun dəqiqliyindədirsə, soyuq xəbərin gücü rakursun məharətlə seçilməsindədir. İsti xəbərdə oxucu özü xəbərin dalınca qaçdığı halda, soyuq xəbərdə, əksinə, xəbər oxucunun ardınca qaçır. Lap reklam çarxlarında olduğu kimi. Bu, soyuq xəbərin təbiətindən irəli gəlir. Axı xəbər soyuyub. Demək, onu oxucu üçün ilginc, çəkici, maraqlı etmək, bir sözlə, “isitmək” lazımdır. Qələmə almaq istədiyimiz hadisəni dərindən öyrənib yazını başlamaq üçün elə bir məqam seçməliyik ki, həmin məqam oxucunun diqqətini çəkməklə yanaşı, həm də yazının lokomotivi olsun, onu özünün ardınca çəkib apara bilsin.

“Pasportsuz Yelizaveta ” yazısının lidi kimi:

2006-cı il iyulun ilk günü. Bakıdakı “Hyatt-Recensi” oteli. Otelə təşrif buyuran qonaqlar Ülyahəzrət İkinci Yelizavetanın rəsmi doğum günü ilə əlaqədar Əlahəzrət York Hersoqunun, sadə dillə desək, Böyük Britaniya Kraliçasının oğlu Endrünün gəlişini gözləyirlər. Oğul da ki nə oğul. Qonaqlar ondan kübar bir nitq gözlədikləri halda kraliçanın oğlu Milli Məclisin sədri Oqtay Əsədovun yanında aldı, görək nə dedi.

“Bilsəydiniz, anamın ad gününü neçənci dəfədir ki, qeyd edirəm”, - deməyə macal tapmayan kraliçanın oğlunun bu sözlərinə tədbirə təşrif

[35] Slovar inostrannıx slov. S. 426.

buyuran azərbaycanlı qonaqlar duruxdular. Necə yəni neçənci dəfə? Bəs dəvətnamənin üstündəki "rəsmi doğum günü ilə əlaqədar" yazısı və bu ləzzətli yeməklərlə içkilərin mənası nədir?

Mərasimdən evə dönən kimi kitabları vərəqlədim və kraliçanın fiziki nöqteyi-nəzərdən 21 aprel tarixində doğulduğunu, rəsmi doğum gününün isə 17 iyunda qeyd edildiyini öyrəndim...[36]

Oxucunun diqqətini çəkən Endrünün sözləridir. "*Bilsəydiniz, anamın ad gününü neçənci dəfədir ki, qeyd edirəm*". Müəllif bu sözlərdən istifadə edərək soyuq xəbəri "isitməyə" - 80 yaşlı Kraliça İkinci Yelizavetanın portretini cizgiləməyə keçir. Oğuldan – anaya rakursu oxucunu asanlıqla 2006-cı il iyul ayının biri Bakısından Böyük Britaniya və Şimali İrlandiya Krallığına keçirərək kraliçanın ömürlüyünün mühüm məqamları ilə tanış edir. Bir sözlə, bu lid oxucuya uzağı yaxın edə bilir.

Bir qədər əvvəl təhlil etdiyimiz "Qafqazdakı hücumlar yeni qaçqın dalğası yaradır" xəbərinə yenidən göz yetirək. 1993-cü ilin aprelində ermənilər Kəlbəcəri ələ keçirəndə və bölgədə yeni qaçqın dalğası yarananda "*Nyu York Tayms*"ın müxbiri hadisəni xəbərləyəndə məhz Murov keçidini rakurs seçmişdi. Müəllif belə bir rakursla Amerikadan çox-çox uzaqlarda baş verən hadisəni oxucusuna yaxınlaşdıra bilmişdi. Çünki amerikalı oxucu Murov keçidi nədir bilməsə də, insan əzabı nədir, yaxşı bilir.

Foto və kinoda rakursu tapmağın öz texnikası var. Bəs jurnalistikada rakursu – baxış bucağını necə tapırlar?

Yaddaş: Rakursu necə tapmalı

Yadınızda saxlayın: İsti xəbərin fokusunu tapmaq üçün "Kim ?", "Nə ?",

[36] Pasportsuz Yelizaveta, E. Şahinoğlu, "GÜN səhər", 8-14 iyul 2006.

“Harada ?”, “Nə vaxt ?”, “Necə ?”, “Nə üçün ?” suallarına cavab axtardığımız halda, soyuq xəbərin rakursunu tapmaq üçün “Necə ?” sualını cavablandırmaq lazımdır. Bunun üçün atacağınız addımlar aşağıdakı ardıcıllıqla olmalıdır:

1. Yazacağınız mövzunu dəqiqləşdirin. Məsələn, “Mən uşaq evindən yazmaq istəyirəm” hələ heç nə demir. Sualı konkretləşdirin: “Mən uşaq evindən **NƏ** yazmaq istəyirəm?” sualına cavab tapın. Məs. yetkinlik yaşına çatmış insanların bu evdən sonrakı taleyi, onlar ailə qurarkən qarşılaşdıqları problemlər.
2. Mövzu ilə bağlı bütün materialları toplayın, mənbələrlə işləyin. Əmin olun ki, heç nə yaddan çıxmayıb. Real qəhrəmanları tapın. Rəsmi, statistik faktlarla yanaşı, insan tarixçələrini toplayın. Məsələn, Təhsil Nazirliyinin rəsmisi sizə N saylı evdə böyümüş T. ilə F.-in ailə qurduqlarını, onlara boya-başa çatdıqları uşaq evində müvəqqəti yaşayış üçün otaq ayrıldığını bildirir. Siz N saylı evin müdirəsindən məlumatı dəqiqləşdirəndə, məlum olur ki, T. ilə F. ailə qursalar da, onlara otaq verilməyib. Belədə sizin işiniz Təhsil Nazirliyinin rəsmisi ilə məktəb müdirəsinin informasiyalarının niyə bir-biri ilə düz gəlmədiyini araşdırmaq deyil, əksinə, ailə qurmuş T. ilə F.-in ünvanını tapmaq, onlarla söhbətləşməkdir. Faktlar mütləq real hadisələrlə müşayiət olunmalıdır. Bir sözlə, siz hadisənin əsl qəhrəmanlarını tapmalısınız.
3. İndi isə hadisəni təsəvvürünüzdə canlandırmağa çalışın. Bütöv bir mənzərə yaranırmı? Bu mənzərədə yaddaqalan nələr var: insan taleləri, hadisənin baş verdiyi məkan, yoxsa başqa bir cəhət? Bunların hansından açar kimi istifadə edib yazını onun üzərində

qurmaq olar? Başlıcası isə, həmin yaddaqalan element uşaq evindən **NƏ** yazmaq istədiyinizi açıqlayırmı? T. ilə F.-in tarixçəsinin bu mənzərədə yeri necə görünür?

4. Sizin üçün ən maraqlı olan bu elementi (hadisəni, tarixçəni, səhnəni və s.) 5-10 cümlə ilə qələmə almağa çalışın. Sizcə, oxucu bu hissəni oxuyandan sonra sizdən "Niyə ?", "Nə üçün ?" soruşacaqmı? Soruşarsa, ona cavab verə bilərsinizmi? Bu cavab yazıda qaldırmaq istədiyiniz problemi açıqlaya bilərmi? Əgər belə bir cavab yazının problemini açıqlayırsa, demək, siz rakurs tapa bilmisiniz.

İkinci addım: rakursu lidə çevirməli

Soyuq xəbərin lidi gecikmiş lid olub adətən "Necə ?" sualına cavab verir. Bu cavab dolğun və bitkin olmalıdır. O qədər dolğun ki, oxucu özünü hadisənin içində hiss etsin, onu görsün.

"Nyu York Tayms"ın sabiq icraçı direktoru Gen Roberts gündəlik qəzetlərdən birindəki iş təcrübəsindən belə danışırdı: "Qəzetimizin naşiri kor olduğu üçün hər səhər bizə qəzeti başdan-ayağa kimi oxutdurardı. Günlərin birində naşir məni otağına çağırdı və şikayətləndi: "Roberts, mən sənin yazılarını görmürəm. Məni məcbur et ki, onları görüm". [37]

Oxucunun yazını görməsi üçün aşağıdakı yazı texnikası mövcuddur.

- Xəbərin insandan keçirilməsi
- Əhvalatın nəqli
- Səhnənin canlandırılması
- Dialoqlar

37 Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. Telling the Story., NY, Bedford/St.Martin's, 2001, p.138.

Xəbəri insandan keçirməli

İnsanlar bir-birlərini tanımaya bilərlər. Amma bütün insanlar üçün eyni hisslər, yaşantılar tanışdır. Demək, yad insanları sevinc, kədər, qorxu, cəsarət, məhəbbət, təklik, həsrət, vüsal doğmalaşdıra bilər. Yazını insandan keçirmə texnikası hadisəyə hər hansı bir insanın taleyindən, yaşantılarından keçərək yanaşmaqdır.

Örnək 2. Sülh barədə danışmaq cəhdləri. M.Vayns, "*Nyu York Tayms*", 27 may 2001, (ixtisarla).

Ağdam, Azərbaycan. Azərbaycan-Ermənistan savaşında ərini və var-dövlətini itirmiş Ayna Hüseynovanın olan-qalanı bircə arzusudur: indi yaşadığı xəstəlik yuvası olan qaçqın düşərgəsindən 30 mil uzağa getsin, 1993-cü ildən ermənilərin nəzarətində olan doğma şəhərinə qayıtsın. "Mənim ərimin yeganə arzusu vətənə qayıtmaq idi", - o, göz yaşlarını gizlədə bilmir. "Biz Ağdamsız yaşaya bilmərik".	Lid – bir insanın taleyi
O, Ağdamın başına nələr gəldiyini sona qədər bilmir. Təqribən on il bundan əvvəl xanım Hüseynova kimi 50 min azəri şəhərdən qaçdıqdan sonra şəhər talan edildi, daşı daş üstündə qalmadı. Bu gün Ağdam ürək ağrıdan xarabalığa dönüb. Uçmuş divarları və metal yığnağını alaq otları basıb. Üstü naxışlı şəhər məscidi inək sürüsünün ixtiyarındadır. Dağılmamış bir bina belə yoxdur.	Keçid abzası. Kontekst, hadisənin miqyası
Münaqişənin nizama salınmasında Amerikanın xüsusi nümayəndəsi Kerri Kavana Ağdam küçələri ilə maşınını sürdükcə gördüklərini belə dilə gətirir: "Şəhər dünyanın ən böyük ev anbarına çevrilib". O deyir: "Qaçqınlar bilirlər ki, Ağdam dağıdılıb, amma, məncə, onlar şəhərin nə hala salındığını sonadək təsəvvür etmirlər. Geri dönəndə	Mövzuya keçid İncələmə

bütün bunları görmək onlar üçün çox ağır olacaq.	

Bu yazı Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Minsk qrupunun həmsədri kimi ABŞ-ın prosesdə iştirakı barədədir. Amma müxbir mətləbə birbaşa keçmir. Oxucunu maraqlandırmaq, faciənin miqyasını cızmaq üçün o, yazıya qaçqın qadının arzusu ilə başlayır. Onun bu arzudan qiymətli heç nəyi yoxdur. Bu arzu onun itirdiklərinin "əvəzidir". Lidə yalnız bir nəfəri çıxarmaqla müxbir, əslində, 50 min ağdamlı qaçqının taleyinə güzgü salır, onları oxucuya yaxın edir. Çünki müxbir yaxşı bilir: rəqəmləri unutmaq asandır, insanları çətin...

Oxucunun unuda bilməyəcəyi ikinci bir məqam əhvalatdır.

Əhvalatın nəqli

Əhvalat, əslində, yazının içindəki hadisədir. *"Zerkalo"nun* müxbiri N. Məcidova korroziyadan bəhs edən "Deşiklər öz qurbanlarını gözləyir" yazısını şahidi olduğu bir hadisə ilə başlayır:

Örnək 3. Deşiklər öz qurbanlarını gözləyir. N. Məcidova, *"Zerkalo"*, fevral 1997.

Avtomobil Nobel prospekti ilə gedirdi. Və birdən biz və sürücü hiss etdik ki, maşın boşluğa yuvarlanır. Gurultu eşidildi. Geriyə çevrilib baxdıqda bizim arxamızca gələn maşının havadan asılı qalmış arxa təkərlərini gördük və bir neçə saniyənin içərisində maşın gözdən qeyb oldu. Maşınımızı saxladıq və biz hadisə yerinə qaçdıq. Böyük bir asfalt parçası tüstülənirdi və bizim gözümüzün qarşısında buz kimi əriyib tökülürdü. Çuxurun dərinliklərindən göyə	**Lid** **Əhvalatın nəqli**

buxar dumanı qalxdı. İçindəki altı sərnişinlə çuxura yuvarlanmış maşın bu “qazanda” bişirdi.	
Sonra bəlli oldu ki, adamların bədənləri faktiki olaraq bu buxarın içində bişmiş və onlardan heç birini xilas etmək mümkün olmayıb. Mütəxəssislərdən soruşub öyrəndik ki, torpağın altından keçən qızdırıcı boru xəttində korroziya nəticəsində deşik açılmış və asfaltın altında çatlar əmələ gəlmişdir. Nəhayət, günün birində asfalt təzyiqə davam gətirməyərək parçalanmışdır. Yolda çat bunun nəticəsində baş vermişdir.	Keçid abzası

Müəllifin özünün şahidi olduğu bir əhvalatın nəqli ilə başlanan bu yazı oxucunu korroziya probleminin ciddiliyinə hər hansı bir statistik rəqəmdən daha çox inandırır.

Səhnənin canlandırılması

Yazını oxucu üçün görümlü etməyin ən sadə yollarından biri məkan rakurslarından istifadə etməkdir. Məkan rakursları hadisənin baş verdiyi yerin – səhnənin sözlə cizgilənməsidir.

Örnək 4. Qafqazdakı etnik müharibədə qisasın yeni qatları. F. X. Klines, “*Nyu York Tayms*”, 8 mart 1992 (ixtisarla).

Ağdam, Azərbaycan. 5 mart. Burada – vadidəki məsciddə mürdəşir Haqverdi Hacıyev güllələnmiş uşaqların, eybəcər hala salınmış yaşlıların cəsədlərini yuduqca adama elə gəlir ki, onun əllərindən gəlib keçən Dağlıq Qarabağ uğrunda Ermənistanla 4 ildən bəri aparılan elan edilməmiş	Lid – Səhnənin canlandırılması

müharibədə Azərbaycanın yaşadığı ağrı-acılar və məğlubiyyətlərdir. “ Fevralın 26-dan 200 meyit yumuşam”. Haqverdinin dəhşət içində kəfənə bürüdüyü başı kəsilmiş növbəti kişi meyiti Ermənistanla Azərbaycan arasında intiqam və qan qisasının yeni təzahürüdür. O deyir: “Meyitlərin bəzilərindən əsər-əlamət qalmasa da, biz onları dəfn etməliyik”.	
Dağlıq Qarabağ qaynadıqca, anklavın erməni çoxluğu özünüidarəni Azərbaycanın əlindən tamamilə almaq üçün başladığı kampaniyanı davam etdirdikcə Azərbaycan müharibəni uduzur.	Keçid abzası

Bu üç cümlə oxucunun təxəyyülünü işə salmaqla onu yazıya dəvət edir. Bir sözlə, oxucu oxuduqlarını görür. Yəni yazı oxucunun gözünə çevrilir.

Oxucu yazı ilə eşidə də bilər.

Örnək 5. Cah-cəlallı adadan. Dünyanın inciləri. S.Kinzer. “*Nyu York Tayms*”, 16 sentyabr 1997 (ixtisarla).

Lahıc, Azərbaycan. Bu uzaq Qafqaz kəndini qeyri-adi edən əyri-üyrü çaylaq daşları döşədilmiş küçələr boyunca düzülən misgər emalatxanalarından ətrafa yayılan cingiltili və incə çəkic səsləridir. İçəri girəndə görürsən ki, dünyanın ən məşhur misgərləri boşqablara, sinilərə, dolçalara, camlara və kuzələrə naxış vurmaq üçün neçə-neçə əsr əvvəllər olduğu kimi dədə-baba	Lid

qaydasınca bapbalaca çəkiclərdən istifadə edirlər.	
Misgərlər dünyanın Lahıc adlanan möcüzəsinin ən qiymətli varisləridir.	Keçid abzası
Kəndi dövrələyən uca dağlar bu yerləri təsərrüfat üçün əlverişsiz edib. Bu səbəbdən yerli əhali qədimdən sənətkarlıqla məşğul olmağa başlayıb. Misgərlik isə bu kəndə daha çox şöhrət gətirib. Lahıclıların əlləri qızıldır, ən adi şeyləri belə misilsiz gözəllik nümunəsinə çevirə bilirlər.	Qaynaq informasiya, ön tarixçə

S. Kinzer Lahıcın ruhunu vermək üçün misgər dükanlarından yayılan çəkic səslərinin cingiltisini seçirdisə, G. Zotov üçün Beyrut bomba səsləri ilə başlayır.

Örnək 6. İsrail Hizbullahı niyə varlandırır? G. Zotov, "*Аргументы и факты*", 16-22 avqust 2006 (ixtisarla).

Bomba gur səslə partlayır, elə bil pəncərədən royal tullayırlar: "bum-m-m" və bu səsi müşayiət edən pəncərə şüşələrinin cingiltisi. Bir qədər keçir, bomba düşən yerdən toz dumanı qalxır. Nə fəryad səsləri gəlir, nə inilti. İndi, günortadan sonra mən günəşli küçə ilə addımlayıram və bir nəfər belə olsun insana rast gəlmirəm. Adətən tıxacdan boğulan dağıdılmış şose də bomboşdur. Bütün mağazalar bağlıdır, vitrinlər partlayışın zərbəsindən sınıb. Bu şəhərdə həyat yalnız dar məhəllə küçələrində yaşanır. Burada alverçilər ucalan tüstülərə həyəcanla baxa-baxa qəhətə çəkilmiş benzinin litrini 3 dollara satırlar. Buna oxşar bir səhnəyə mən dəhşət filmlərindən birində rast gəlmişəm: xəstəxanadan qaçmış insan nəhəng bir meqapolisə	Lid

çıxır, oradasa heç kim yoxdur. Burada da eyni mənzərədir.	
Beyrut kabusa dönmüş şəhərdir.	Keçid abzası

Oxucu yazı ilə şəhərin qoxusunu duya da bilər. C. Qoldberq neft qoxusunu Bakının ayrılmaz atributu kimi verir.

Örnək 7. Qlobal kapitalizmin sərt üzü. J. Qoldberq. *"Nyu York Tayms"*, 4 oktyabr 1998 (ixtisarla).

Azərbaycan Rusiyanın cənubu ilə İranın şimalı kimi narahat bir məkanda yerləşən keçmiş Sovet respublikasıdır. O, ancaq nefti ilə tanınır və neft iyi burada hər yerdən gəlir. Hətta bizi Xəzərin üzərinə qaldırmaq üçün uğursuz cəhdlər göstərən köhnə vertolyotun kabinəsindən belə.	Lid
Sovet istehsalı olan paslanmış Mİ-8 yerdən 25 fut qalxsa da, havadan asılıb qalıb. Biz buradan 15 mil uzaqda yerləşən Neft daşlarına uçmalıyıq. Bu vertolyot Azərbaycan Hava yollarına Aeroflotdan qalsa da, qənimətdən çox, ehtiyat hissələrinə bənzəyir.	Keçid abzası

Dialoqlar

Lidi çəkici edən elementlərdən biri də dialoqlardan istifadədir. Lid birbaşa dialoqla başlaya bilər. Yaxud aşağıdakı misalda olduğu kimi, dialoqa bir qədər sonra keçmək olar. Bu misalda lid müəllifin başına gələn hadisə ilə başlayır, dialoqla davam etdirilir.

Örnək 8. Əhrari – azad insan. A. Bəşirli, *"Dalğa"*, 4-10 fevral 1992, (ixtisarla).

Doxsanıncı ilin yayı idi. Yolum Respublika kitabxanasının yaxınlığından keçirdi. Birdən nəzərlərimi qayım-qayım qaynayan şəhərdə sakit-sakit gəzişən bir adam cəlb etdi. “Bu odurmu? Özüdür ki, var. İbrahim Əhrari. İşin tərsliyinə bax. Nə söhbət edə bilərəm, nə də müsahibə almaq mümkündür. Belə bir rəssamı tanıya-tanıya yanından laqeydcəsinə ötmək? Bəs “xoş gəldin” demək necə?” Ondan avtoqraf aldım...	Lid - əhvalat
- İbrahim bəy, bu imza sizə nə deyir? - Deyir ki, mənimkidir.	Dialoq
İbrahim bəyin yadına düşdümü, düşmədimi, bir elə fərqi yox idi, mən itmiş açarı tapmışdım. İbrahim bəyin sirli dünyasına səyahət etmək üçün sehrli açarı.	Keçid abzası

Bu lidə qarışıq lid də demək olar. O, eyni mövzu (rəssam İbrahim Əhrari ilə görüş) ətrafında müxtəlif vaxtlarda (1990 və 1992-ci illər) baş vermiş əhvalat və dialoq üzərində qurulub. Lidi yazma texnikasının iki müxtəlif elementindən istifadə edilmiş bu lidə diqqətlə baxsaq, üçüncü bir elementin işartılarını da görə bilərik. Bu, əhvalatın baş verdiyi səhnənin canlandırılmasıdır: “Respublika kitabxanasının yaxınlığı, qayım-qayım qaynayan şəhər, sakit-sakit gəzən” məşhur rəssam. Soyuq xəbərin lidində müxtəlif canlandırma texnikalarından eyni zamanda istifadə edilməsi tamamilə təbiidir. Sadəcə, bu zaman bir texnika daha güclü, digərləri isə yardımçı olur. Örnək 4-ə bir daha göz yetirək. Səhnə yalnız insandan – kənd məscidinin mürdəşirindən keçərək canlandırılır. Bu məqamda isti xəbərlə, soyuq xəbərin lidini yazmaq texnikasında oxşar bir cəhətlə rastlaşırıq. Yadınızdadırsa, isti xəbərin lidi altı əsas suala cavab versə də, əslində, bu

suallardan ancaq birinin cavabını qabardırdı. Soyuq xəbərin lidində müxtəlif yazı texnikalarından istifadə edilsə də, hansısa bir texnika aparıcı olur. “Nəyin üzərində dayanmalı ?, Nəyi vurğulamalı ?” sualına müəllif özü seçdiyi rakursa əsasən, cavab tapır.

UNUTMAYIN: Ən uğurlu lid belə yalnız və yalnız yazının başlanğıcıdır. Lidin uğurunu müəyyənləşdirən şərtlərdən biri də onun yazının əsas hissəsinə nə dərəcədə uyğun gəlməsidir. Bir sözlə, lid əgər başdırsa, əsas hissə gövdədir. Sənətkarlıq başın gövdə ilə harmoniyasını tapmaqdadır. Ən gözəl başlar belə yalnız öz gövdəsində gözəldir. Sizcə, Mikelancelonun Davidinin başını başqa bir heykələ yaraşdırmaq olardımı?

Üçüncü addım: liddən mövzuya keçməli

Bu yerdə Davidi deyil, Nefertitinin boynunu xatırlamaq yerinə düşər. Yazının lidi ilə gövdəsi bir-birinə bu boyun kimi gözəl bir keçidlə birləşməlidir. Jurnalistikada buna keçid abzası deyirlər. Keçid abzası lidlə əsas hissəni üzvi şəkildə birləşdirən bağdır. Yuxarıdakı misallara bir daha nəzər yetirək.

“Qafqazdakı hücumlar yeni qaçqın dalğası yaradır” xəbərinin keçid abzası bir cümlədir: “Burada – Cənubi Qafqazda erməni silahlı birləşmələrinin həftənin sonunda Dağlıq Qarabağı işğalı nəticəsində minlərlə insan öz ev-eşiyindən didərgin düşüb, bölgədə yeni, misli görünməmiş qaçqın böhranı başlanıb”. Bu cümlədə hadisənin baş verdiyi yer (Cənubi Qafqaz, Dağlıq Qarabağ), zaman (həftənin sonu), səbəbi (erməni silahlı birləşmələrinin işğalı), nəticə (minlərlə insan öz ev-eşiyindən didərgin düşüb) göstərilməklə yanaşı, soyuq xəbərin məqsədi açıqlanır: “misli görünməmiş qaçqın böhranı”ndan yazmaq. Çünki hadisənin təsir dairəsi

məhz minlərlə insanı əhatə edir. Bu misalda keçid abzası xüsusini – Murov keçidini aşan 5 insanın faciəsini ümumi ilə birləşdirir.

Örnək 2-də "Sülh barədə danışmaq cəhdləri" xəbərində də xüsusidən ümumiyə keçilir. Keçid abzası 7 qısa cümlədən ibarətdir: "O, Ağdamın başına nələr gəldiyini sona qədər bilmir. Təqribən on il bundan əvvəl xanım Hüseynova kimi 50 min azəri şəhərdən qaçdıqdan sonra şəhər talan edildi, daşı daş üstündə qalmadı *(hadisənin əhatə dairəsini açan qaynaq informasiya).* Bu gün Ağdam ürək ağrıdan xarabalığa dönüb. Uçmuş divarları və metal yığnağını alaq otları basıb. Üstü naxışlı şəhər məscidi inək sürüsünün ixtiyarındadır. Dağılmamış bir bina belə yoxdur *(nəticələr, bugünkü durum).* Bu yerdə keçid abzası bitir. O, öz funksiyasını görüb. Yəni hadisənin əhatə dairəsini, kontekstini açıqlayıb. İndi müəllif yazının əsas hissəsinə keçir. Oxucu keçid abzasındakı sadalanan faktları Kerri Kavanonun sürdüyü maşının pəncərəsindən görməklə yanaşı, eyni zamanda ABŞ nümayəndəsinin münasibətini öyrənir: "Şəhər dünyanın ən böyük ev anbarına çevrilib", "Qaçqınlar bilirlər ki, Ağdam dağıdılıb, amma, məncə, onlar şəhərin nə hala salındığını sonadək təsəvvür etmirlər. Geri dönəndə bütün bunları görmək onlar üçün çox ağır olacaq". K. Kavanonun münasibəti yazının problemini açır: Sülh danışıqlarına nə mane olur? Qaçqınların psixoloji durumu bu prosesdə nə dərəcədə önəmlidir? Xəbərin əsas hissəsində – gövdəsində bu suallara müxtəlif mənbələrə üz tutaraq, balansı gözləyərək cavab verilməlidir. Amma unutmayaq ki, bu cavablar yetərli olmaya bilər. Axı istənilən problemin və hadisənin kökləri var. Bu isə o deməkdir ki, problemi anlamaq, onun həlli yollarını tapmaq üçün bu gün öyrəndiklərimizlə kifayətlənməməliyik, qaynaq informasiyaya üz tutmalıyıq. Qaynaq informasiya ilk növbədə oxucu üçün vacibdir. Çünki o yazının problematikası ilə tanış olmaya bilər. Elə bu misalın özündə olduğu kimi.

Xəbərin yazıldığı 2001-ci illə Dağlıq Qarabağ hadisəsinin başladığı 1988-ci ili 13 il ayırır. Demək, müəllifin verdiyi qaynaq informasiya – ön tarixçə bu illərin ən önəmli hadisələrini əhatə etməklə, oxucuda aydın təsəvvür yaratmalıdır.

UNUTMAYIN: Ön tarixçə "Tarixi-Nadir" olmamalıdır, o dünənlə bu günü birləşdirən ən vacib informasiyanı verməlidir. Qaynaq informasiya adətən, keçid abzasından sonra, yaxud əsas hissənin əvvəlində yazılır. İsti xəbərdə qaynaq informasiya çevrilmiş piramidanın ucunda – sonuncu bölmədə yerləşdirildiyi halda, soyuq xəbərdə qaynaq informasiya bir qədər önə keçir. Bu yazının məntiqindən doğur. Çünki soyuq xəbərin verdiyi yeni məlumatları, incələmələri, məsələyə münasibətdə fərqli mövqeləri "həzm etmək" üçün belə bir informasiyanın daha tez çatdırılması önəmlidir. Qaynaq informasiya xəbər boyu mövzuya uyğun olaraq paylaşdırıla bilər.

Örnək 9. Ölüm ayağında olan şəhər həkimlərə qapı açmır. S. Levin. *"Nyu York Tayms"*, 9 may 1997.

Sumqayıt, Azərbaycan. – "Onların heç bir yaşları yox idi, bəlkə də, bir-iki aylıq olardılar. Körpə idilər", - yaşlı kişi şəhər qəbiristanlığının bir küncünü göstərir. Onlardan qalan tənha və kiçik başdaşılarının cərgəsidir.	Lid
1980-ci illərdə Sumqayıt "ölü zona" kimi tanınırdı.	Keçid abzası
32 kimya və metal zavodu ildə 120 min ton zəhərli tullantı atırdı. Dünyaya gələn hər min körpənin 36-ı bir yaşına çatmamış ölürdü. Sovet İttifaqı dağılandan sonra nəhəng zavodlar bağlanmağa başlayanda Dünya Valyuta Fondunun rəsmiləri 330 min əhalisi olan Sumqayıtın köçürülməsini və şəhərin boşaldılmasını təklif etdi. Plan qəbul olunmasa da,	Qaynaq informasiya, ön tarixçə

Xəzər sahilindəki bu şəhərin üzərindən çarəsizlik dumanı çəkilməyib. Zavodlar bağlanıb, işsizlik baş alıb gedir. Solmuş şəhər sakitdir. Tozlu, ürək darıxdıran küçələrdə ara-sıra köşklər gözə dəyir. Uşaq ölümü indinin özündə də ABŞ-dan 3 dəfə yüksəkdir.	

Təhlildən göründüyü kimi, oxucu qaynaq informasiya ilə yazının əvvəlindəcə, bir cümləlik keçid abzasından sonra tanış olur. Bu qaynaq informasiya lidi və xəbərin mövzusunu açıqlamaq üçündür. Bu informasiyada Sumqayıtın tarixinə toxunulmur. Çünki söhbət hələlik uşaq ölümünün yüksək olması, şəhərin insan yaşayışına yaramaması barədədir. Oxucu üçün yazının bu məqamında şəhərin tarixini yazmaq uzun-uzadı, darıxdırıcı ola bilər. Müəllif bu qaynaq informasiyadan sonra BMT-nin Azərbaycan hökuməti ilə birlikdə Sumqayıtda başladığı nəhəng layihəyə keçir. Yazının əsas hissəsi bu layihə, onun Sumqayıtın yenidən dirçəlməsində rolu və qarşıya çıxan çətinliklər barədədir. Yalnız bu yerdə oxucuya ikinci qaynaq informasiya təqdim olunur. O daha dərin və tarixidir. Çünki məqsəd BMT-nin layihəsini dünənlə bağlayan kökləri tapmaqdır:

Sumqayıt Bakının şimalındadır, onu paytaxtdan yarım saatlıq yol ayırır. İkinci dünya müharibəsi bitəndə buralarda üzümlüklər, elektrik stansiyası və xlor zavodu vardı. Sonra Sovet rəsmiləri burada heyrətamiz sənaye şəhəri salmaq qərarına gəldilər. Neft kimyası, sintetik materiallar, yuyucular və s. Bəzi zavodlar Bakıdan buraya köçürüldü, qalanları isə tikildi.

Zavodlar sürətlə ucaldıqca, əhalinin sayı da 4 mindən 200 minə qalxdı. Sumqayıt iqtisadi möcüzə adlandırılırdı və buna müəyyən mənada

əsas vardı. Amma heç kim dilinə gətirmirdi ki, Sumqayıtda nəfəs almaq mümkün deyil, küçəyə çıxanda adam boğulur.

Bu ön tarixçə oxucuya yeni, daha geniş məlumat verməklə onu yazının əsas hissəsində qaldırılan sualları anlamağa kömək edir. Qaynaq informasiya yardımçı informasiya olduğundan onu oxucuya birbaşa deyil, məqamına görə vermək mümkündür. Bu zaman qaynaq informasiyanı düzgün paylaşdırmaq gərəkdir.

UNUTMAYIN: Soyuq xəbərdə ön tarixçə önəmli komponentlərdən biri olsa da, o yardımçı informasiyadır. Əsas məlumat bizim mövzu ilə bağlı öyrəndiyimiz yeni faktlar və münasibətlərdir. Soyuq xəbər mənbələrin çoxluğu ilə fərqlənir. Mənbələrin çoxluğu müxtəlif baxışlar deməkdir. Bu zaman balans gözlənilməlidir. Mənbə naminə mənbə axtarmayın.

Soyuq xəbərdə mənbələrin sayı minimum 4 olmalıdır. "Ölüm ayağında olan şəhər həkimlərə qapı açmır" yazısında mənbələrin sayı dörddür: Azərbaycan Prezidenti H. Əliyev, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi P.Lembo, "Kaiser's Engeneering" şirkətinin icraçı direktoru Q. Morrey və təqaüdçü Ə. Mustafayev. Mənbələr bir-birlərini tamamlamalı, yazının dolğun və bitkin olmasına xidmət etməlidir. Belədə yazını bitirmək çətin olmur.

Dördüncü addım: tamamlamalı

Yazının sonu sonuncu akkorddur. Yazının lidi kimi sonluğu da yaddaqalan olmalıdır. "Ölüm ayağında şəhər həkimlərə qapı açmır" yazısı təqaüdçü, 97 yaşlı əmək veteranı, Sumqayıtın özülünü qoyan Əli Mustafayevin sözləri ilə bitir: "Lembonun ən böyük azarkeşlərindən biri Sumqayıtın özülünü qoyan, "indiki azərbaycanlıların ancaq özlərini fikirləşdiklərini" deyən 97 yaşlı Əli Mustafayevdir.

Çarpayısının kənarında əyləşən Ə. Mustafayev qədim radioya baxa-baxa deyir: “Görərsiniz, bura iqtisadi zonaya çevriləcək. Bir gün bütün zavodlar işləyəcək. Hər şey yaxşı olacaq”.

Yazının başlanğıcı ilə sonu bir-birini tamamlayır. Lid də, sonluq da adi insandan keçir. Liddəki adi insan anonim olaraq qalır. Sonluqda isə o, anonim deyil. Lid keçmişə, sonluq isə gələcəyə ünvanlanıb. Lid bədbin, sonluqdakı sitat isə nikbindir.

Yazının lidi və sonluğu bir-birini tamamlayanda yazı bütöv və bitkin təsir bağışlayır. Buna nail olmaq üçün adətən sonluqda yazının lidində vurğulanan məqama yenidən qayıdılır. V. Babanın “Yol göstərən qırmızıpapaq” (*“GÜN səhər”*, 18-25 mart 2006) yazısında olduğu kimi:

O, bəzi günlər günəş üzünə həsrət qalır. Həmin vaxtlar o, yer üzündə olmur. Rütubətli, özünün dediyi kimi “xəstəlik dolu bir yerdə” insanlara yol göstərir. O, sutkanın tam yarısını, bəzən günün birinci, bəzənsə ikinci hissəsini yerin altında işləyir. Bu, onun vəzifəsidir. Çünki o metroda çalışır.

“Yol göstərən qırmızıpapaq” yazısı metro dispetçeri Gülnarə Zeynalova barəsindədir. Müəllif oxucunu hər gün rastlaşdığı, amma məhəl qoymadan yanından tələsik keçdiyi bu gənc xanımın təkcə iş günü ilə deyil, həm də iç dünyası, arzu və ümidləri ilə tanış edir, Gülnarənin portretini yaratdıqdan sonra soyuq xəbəri lidlə bağlı bir sonluqla bitirir:

Yerin altındakı işindən o qədər də razı olmayan Gülnarənin bir arzusu var: ixtisasına uyğun bir yerdə işləmək. Gülnarə onu “qaranlıq dünyadan işıqlı dünyaya” çıxaracaq Zümrüd quşunu gözləyir...

Bu sonluq göydəndüşmə deyil. O, yazının üslubundan doğur, onun bitdiyini bildirir.

Beşinci addım: sonuncu canlandırma, yaxud daha nələr...

Sonluq yazıldı. Yazı bitdimi? Yox, iş hələ bundan sonra başlanır. İndi soyuq xəbəri sonuncu dəfə canlandırmaq lazımdır. Soyuq xəbər üç dəfə canlanır. İlk dəfə mənbələrlə iş zamanı, ikinci dəfə yazı qələmə alınarkən və sonuncu dəfə səhifəyə qoyularkən. Yazının dizaynı onu yaşada da bilər, öldürə də. Yazını yaşatmaq istəyiriksə, vacib bir sualı bir daha özümüzə verməliyik: "Kimin üçün işləyirik ? Kimin üçün yazırıq ?" Əgər biz oxucu üçün işləyiriksə, ona xidmət ediriksə, onda xidmət jurnalistikasının – "service journalism" adlanan jurnalistikanın prinsiplərinə əməl etməliyik. Yəni yazının qrafik həlli onu oxucu üçün maksimum yetərli etməlidir.

1. **Yarımsərlövhələr.** Soyuq xəbər rəngarəng şəbəkəyə bənzəməlidir. O, oxucunu yormamalı, "palaz" material təsiri bağışlamamalıdır. Bunun üçün soyuq xəbəri yarımsərlövhələrə bölmək olar.
2. **İzahlı qutular.** Xəbər yüklənməməlidir. Oxucunun başa düşmədiyi terminlər, yeni anlayışlar açıqlanmalıdır. İzahları yazının içində yox, ayrıca qutularda yerləşdirmək olar.
3. **Xronologiya.** Oxucu davamlı yazılarda (məhkəmə prosesi, idman yarışları və s.) bəzən hadisələrin başvermə ardıcıllığını unudur. Belədə olay ona hadisələr zənciri kimi deyil, pırtlaşıq düşmüş kələf kimi gəlir. Qaynaq informasiyanı, baş vermişləri xronoloji ardıcıllıqla verdikdə bu qarmaqarışıqlığa son qoymaq olar. "GÜN səhər" qəzeti DİN əməliyyat müvəkkili H. Məmmədovun işi ilə bağlı məhkəmə prosesini işıqlandırarkən oxuculara "Hacının siyahısı" adlı cədvəl təqdim etmişdi. Bu cədvəldə sabiq əməliyyat müvəkkilinin törətdiyi cinayətlər üç parametrə görə çeşidlənirdi: zaman, cinayət və nəticə.[38]
4. **Fotolar və şəkillər.** Soyuq xəbər hadisəni görüntüləməlidir. Foto və şəkillər xəbəri canlandırır. Şəkilaltı ilə verilmiş foto və şəkillər daha

[38] Hacının siyahısı, "Gün səhər", 15-21 iyul 2006.

effektiv olub, xəbərdə deyə bilmədiyimizi deməyə, yardımçı informasiya verməyə kömək edir. Fotoların və şəkillərin müəllifləri mütləq göstərilməlidir. “Ölüm ayağında olan şəhər həkimlərə qapı açmır” yazısı iki foto və Azərbaycanın xəritəsi ilə tamamlanmışdır. Birinci fotoda uşaq qəbirləri, ikincidə isə Əli Mustafayev çəkilib. Şəkilaltılar bunlardır: “Balaca daşların cərgəsi Sumqayıtda (Azərbaycanda) ölmüş körpələrin qəbir daşılarıdır. “Ölü zona kimi tanınan bu şəhərdə 1980-ci illərdə kimya və metallurgiya zavodlarının zəhərli tullantıları doğulan hər 1000 körpədən 36-nı öldürürdü”; “Sumqayıtın pioneri 97 yaşlı Əli Mustafayev belə düşünür ki, iqtisadi zona layihəsi gerçəkləşəcək və şəhər yenidən dirçələcək”; “Sovetlərin “iqtisadi möcüzə” adlandırdığı Sumqayıt özü özünü zəhərlədi”.

Soyuq xəbərin həndəsəsi

İsti xəbərin həndəsəsi Çevrilmiş piramidadırsa, onda soyuq xəbərin həndəsəsi nədir?

Soyuq xəbərin həndəsəsi üslubdan doğur. Üslublar müxtəlif olduqca həndəsi fiqurlar da dəyişir. Qərb jurnalistikasında soyuq xəbərlərin quruluşundan danışarkən ən müxtəlif bənzətmələrə və fiqurlara (məs. güldan) rast gəlinsə də, bütövlükdə elmi ədəbiyyatda iki həndəsi fiqura üstünlük verilir, qalan fiqurlar isə onlardan törəmə sayılır. Bu iki həndəsi fiqur Qum saatı və Paxlavadır. Hər ikisi iki üçbucağın birləşməsindən əmələ gəlib. **Şəkil 1. Qum saatı. Şəkil 2. Paxlava.**

Qum saatı

Şəkil 1-ə baxaq. Qum saatının iş prinsipi ümumidən xüsusiyə, xüsusidən ümumiyə prinsipidir. Qum saatının birinci hissəsi çevrilmiş

piramidadır və demək, onun prinsipi ilə işləyir. Bu hissədə yazının məğzi verilir. Piramidanın sonuna yaxınlaşdıqca isə xırdalama gedir. D. Axundzadənin Bakının 75 km-liyində yerləşən Umbakı qəsəbəsindəki Respublika Cüzam Xəstəxanasına həsr etdiyi "Cüzamlılar: kimdir onlar ?" yazısı (*"Zerkalo"*, 24 iyun 1995) Qum saatı prinsipi ilə yazılıb. Məqalə cüzam xəstəliyi, onun tarixi barədə məlumatla başlayır:

"Cüzam", yaxud da "lepra" sözləri artıq ümumi ismə çevrilmiş xəstəlik adlarıdır. Bəşəriyyət onun üçün təhlükə törədən hər şeyi "taun" adlandırdığı kimi (istər faşizmin "qəhvəyi taunu" olsun, istərsə də "XX əsrin taunu" sayılan QİÇS)", "cüzamlı" sözü də artıq çoxdandır ki, xəstəlik deyil, sosial status bildirir. Qədim zamanlarda Avropada cüzamlı xəstələri dərhal cəmiyyətdən təcrid edir, kilsədə onun üçün cənazə duası oxuyurdular.

Cüzam xəstəliyi 2 min ildən artıqdır ki, məlumdur. Lakin hələ də infeksiyanın ötürülmə yolları və yoluxma mexanizmi müəyyənləşdirilməyib. Heç kəs deyə bilməz ki, nə üçün xəstə valideyndən doğulan 5 uşaqdan 4-ü sağlam, biri isə xəstədir. Xəstəliyin inkubasiya dövrü 20 ilə qədərdir. O, ilk vaxtlar ləng və nəzərə çarpmadan inkişaf edir.

Müəllif bu abzasdan sonra Respublika Cüzam Xəstəxanasına keçir. Mövzu yavaş-yavaş daralır, lap qum saatının boğazı kimi. Müəllif xəstəxana barədə ümumi məlumatdan sonra xüsusiyə keçir: xəstə Zeynalabdin Məmmədovun tarixçəsinə.

Zeynalabdin Məmmədov 55 ildir ki, xəstədir: cəbhədə döyüşüb, müharibə əlilidir. İndi isə buradakıların hamısı kimi birinci qrup əlildir. Xəstələnməzdən əvvəl evlənib, lakin xəstəlik onu ailəsindən ayırıb. İkinci dəfə artıq burada ailə qurub. Bu yaxınlarda isə elə cüzam xəstəxanasında doğulmuş, lakin xoşbəxtlikdən sağlam olan oğluna toy edib.

Yazı xəstənin tarixçəsi ilə davam etdirilir. Bir xəstənin timsalında başqa xəstələrin də problemləri ümumiləşdirilir. Və yenidən məqalə xüsusidən ümumiyə doğru inkişaf edir. Yazının sonluğu da lidi kimidir – ümumi:

Əvvəllər cüzamlı xəstələrin, korların və əlsizlərin boynuna zınqırov asırdılar ki, adamlar onların yaxınlaşmasından xəbər tutsunlar. İndi bu xəstələrin şikayətlərini eşitdikcə həmin zınqırov səsləri qulaqlarımda cingildəyir. Xəstəlik onları əbədi dustaqlığa məhkum edib. Bizimlə qonşuluqda yaşamaq, mağazada adi adamlarla bir yerdə növbədə dayanmaq, qonşu şöbədə işləmək, hamı kimi bazarda alış-veriş etmək onlara nəsib olmayıb, çünki cəmiyyətdən təcrid olunublar. Ancaq bu o demək deyil ki, cəmiyyət özünü onlardan təcrid etmək hüququna malikdir.

Paxlava

Şəkil 2-ə baxaq. Paxlava – romb iki üçbucağın birləşməsindən əmələ gəlib. O, Qum saatına əks prinsiplə işləyir, yəni xüsusidən ümumiyə, ümumidən xüsusiyə. “Sülh barədə danışmaq cəhdləri” (Örnək 2) yazısı Paxlava prinsipi ilə yazılıb. Lid Ayna Hüseynovanın tarixçəsi ilə başlayır. Keçid abzası xüsusini – bir insanın taleyini minlərin taleyi ilə birləşdirərək ümumiləşdirmə aparır. Yazının gövdəsi, əsas hissəsi ümuminin üzərində qurulub. Yazının sonu yenidən ümumidən xüsusiyə keçidlə tamamlanır. Sonluqda yenidən qaçqınlar danışır:

40 yaşlı Həsənov Rəhman deyir: “Biz heç nədə səhv etmirik. Biz əvvəllər olduğu kimi yaşamaq istəyirik. Biz torpaqlarımıza qayıtmaq istəyirik. Bu olmasa, biz müharibə edib, torpaqlarımızı geri alacağıq”.

Pərvanə Hüseynovadan bir neçə mil uzaqda səngərlərdəki ermənilər barədə soruşanda o, inamla: “Biz onlara nifrət edirik”, - dedi.

Çalışmalar:

1. **Bu isti xəbərlərdən hansı soyuq xəbərlər yarana bilər:**

a. Paytaxtın Səbail rayonunda Bayılda torpaq sürüşməsi nəticəsində 5 ev dağılıb. Bir nəfər həlak olub, xəsarət alanlar var. Şəhər meriyası zərərçəkənlərə kompensasiya verir, təcili yeni mənzillərlə təmin edir. Sürüşmə ərazisinin yaxınlığındakı gecəqondularda isə qaçqınlar yaşayır.

b. S. Vurğun küçəsi 18 ünvanında tikilən binada gecə saat üçdə yanğın olub.

c. Avtobuslarda cibgirlik edən dəstə tutulub. Dəstə üzvləri hamısı kimsəsiz uşaqlardır.

2. **Bu faktlar əsasında hazırlayacağınız soyuq xəbərin planını yazın. Onları insandan necə keçirmək olar?**

a. Tələbə təqaüdləri 5 dəfə artırıldı.

b. Azərbaycan hökuməti ABŞ-da təhsil almağa hər il 1000 tələbə göndərəcək.

c. Marşrut avtobuslarında sürücüyə kömək edən uşaqların 90 faizi məktəbə getmir.

d. Universitetin hüquq və jurnalistika fakültələrində tələbə qızların sayı oğlanlardan 2 dəfə çoxdur.

3. **“Kitab pasajı”nda olun. “Kitab pasajı”nda bir gün” adlı soyuq xəbərin rakursunu tapın.**
4. **Aşağıdakı mövzularda soyuq xəbər hazırlamaq üçün mənbələri sayın: “Uşaq bağçaları özəlləşdirilmədən sonra”, “M. F. Axundov adına Milli kitabxana təmirdən sonra”.**
5. **Aşağıdakı xəbərin soyuq xəbərə çevrilmə yollarını arayın.**

Yanmış ərazilər insan sağlamlığı üçün təhlükə yaradır. N. Söhbətqızı. “*Ayna*”, 18 iyul 2006.

Tərtər rayon xəstəxanasının həkimləri son günlər xəstəxanada vaxtından əvvəl doğuş və ölüdoğulma hallarının çoxaldığını deyirlər.

Son aylar ermənilərin işğalı altında olan Azərbaycan ərazilərinin yandırılması təkcə kəndlərin, meşələrin məhvi ilə nəticələnməyib, bölgədə yaşayan insanların sağlamlığına da ciddi təhlükə yaradıb. Belə ki, yanan ərazilərdən çıxan tüstü və zəhərli qaz çöküntüləri cəbhəyanı kəndlərdə yaşayan astmalı xəstələrə əziyyət verir, hətta sağlam sakinlərin də bu xəstəliyə düçar olmasına səbəb olur (APA). Tərtər Mərkəzi rayon xəstəxanasının (MRX) terapevti Mətanət Hüseynzadənin sözlərinə görə, son günlər sözügedən xəstəlikdən əziyyət çəkmələri barədə xəstəxanaya müraciət edənlərin sayı çoxalıb.

"Astmadan əziyyət çəkən xəstələr tüstüdən, tozdan qoruna bilmirlər. Ona görə də boğulma, çətin tənəffüs etmə halları həddən artıq çoxalıb", - deyə o əlavə edib. Terapevt qeyd edib ki, ətraf mühitin çirklənməsi, təkcə astmadan əziyyət çəkən xəstələr üçün deyil, bütövlükdə insan sağlamlığına təhlükədir.

Tərtər rayon xəstəxanasının nevropatoloqu Şükür Məmmədov isə

bildirib ki, ürək qan-damar sistemindən əziyyət çəkən xəstələr arasında isə ölüm halları müşahidə edilməkdədir. Buna səbəb kimi, işğal altında olan ərazilərdə törədilən yanğınları göstərən nevropatoloqun fikrincə, qoşunların təmas xəttinə yaxın yerlərdə yaşayanların baş verən hadisələri birbaşa gözləri ilə görməsi, onların psixologiyasına, yanğınlar nəticəsində yaranan zəhərli qaz və tüstü çöküntüləri isə adamların ürək qan-damar sisteminə mənfi təsir edir.

Rayon mərkəzi xəstəxanasından onu da bildiriblər ki, son günlər xəstəxanada vaxtından əvvəl doğuş və ölüdoğulma halları da çoxalıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə işğal olunmuş ərazilərdə, ermənilər tərəfindən yandırılan meşələrin ilk ekoloji xəritəsini hazırlamağa başlayıb. Nazirliyin mətbuat xidmətinin yaydığı məlumata görə, hazırlanacaq xəritədə yanğınların əhatə olunduğu ərazilər göstəriləcək. "Hazırda xəritə üzərində təkmilləşdirmə işləri aparılır. Xəritə üzərində aparılan işin gələn həftə yekunlaşacağı gözlənilir", - deyə məlumatda bildirilir. Xəritə hazır olduqdan sonra Xarici İşlər Nazirliyi və beynəlxalq təşkilatlara təqdim ediləcək.

Ümumiyyətlə, sözügedən nazirliyin ilkin hesablamalarına görə, yanğınlar nəticəsində ekoloji baxımdan Azərbaycana 4,5 milyon dollar məbləğində ziyan dəyib.

6. **İsti və soyuq xəbərdə qaynaq informasiyanın fərqli və oxşar cəhətləri hansılardır? Soyuq xəbərdə qaynaq informasiyanın yeri haradadır, onu oxucuya təqdimetmə formaları necə ola bilər?**

Ədəbiyyat:

17. Adee K.W., Ault H. Phillip, Emery E. Reporting and Writing News, NY, Harper & Row, 1983, p. 130-140.
18. Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting and Writing., NY, Bedford/St.Martin's, 2002, p.188-205.
19. Mencher M. News Reporting and Writing. USA, Brown & Benchmark, 1997. p. 186-218.

FƏSİL 8. ZƏR QƏDRİNİ BİLƏNLƏR

Çörəyi ver çörəkçiyə...

Xalq məsəli

Bu fəsildə açıqlanacaq suallar:

- *Jurnalistikada ixtisaslaşma nədir?*
- *İxtisaslaşmanın üstünlüyü nədədir?*
- *Beynəlxalq həyat, iqtisadiyyat, səhiyyə, mədəniyyət, kriminal və idman xəbərlərini necə yazmalı?*

Kimdir onlar?

Onlar zərgər deyillər. Amma zər qədrini yaxşı bilirlər. Çünki zər nədir bilirlər. Onlar siyasətçi ilə siyasətçi, sənətkarla sənətkar, həkimlə həkim, biznesmenlə biznesmen, idmançı ilə idmançı kimi, bir sözlə, hamı ilə öz dilində danışsalar da, nə siyasətçidirlər, nə sənətkar, nə həkim, nə biznesmen, nə də idmançı. Onlar, sadəcə, ixtisaslaşmış jurnalistlərdir...

Jurnalistikada ixtisaslaşma iki cürdür: sahəyə görə və məkana görə. Sahəyə görə ixtisaslaşmanın diapazonu genişdir: beynəlxalq həyat, siyasət,

iqtisadiyyat, səhiyyə, təhsil, mədəniyyət, kriminal, idman və s. Məkana görə ixtisaslaşma isə bu sahələrin gerçəkləşdiyi yerlərdir. Onların sayı sahələrdən qat-qat çoxdur: Prezident Aparatı, Milli Məclis, Nazirlər Kabineti, nazirliklər, Respublika Prokurorluğu, məhkəmələr, bələdiyyələr, məktəblər, xəstəxanalar və s. və i.

İxtisaslaşma jurnalistə müəyyən bir sahəni həmin sahənin peşəkarı kimi dərindən bilmək imkanı verir. İxtisaslaşmış jurnalistlər yazdıqları sahənin bilicisinə çevrilirlər. Onları aldatmaq, gözlərindən pərdə asmaq mümkün deyil. Bu yerdə uzun illər "Vaşinqton Post"a rəhbərlik etmiş Katrin Qrahamın xatirələrindəki bir məqam yada düşür.

Uoterqeyt əhvalatını qələmə alan xanım Qraham yazırdı ki, Demokratların qərargahında baş verən hadisə barədə xəbər hazırlamaq tapşırığı 1935-ci ildən qəzetin Vaşinqtonda polis müxbiri olan Al Levisə tapşırılır. 1972-ci il iyun ayının 17-də Uoterqeyt əhvalatı baş verəndə Al Levis artıq 37 il idi ki, eyni yerdə polis müxbiri işləyirdi və onun burada tanımadığı adam yox idi. Al Levisin polislərlə, xüsusilə polis rəisi ilə dostcasına münasibəti ona hadisə yerində səhərdən axşamacan qalmağa, ilk uğurlu yazını yazmağa kömək etdi. [39]

Bu misal Qərb jurnalistikasında ixtisaslaşmanın oynadığı rola bariz nümunədir. Bəs Azərbaycanda vəziyyət necədir? İxtisaslaşma vacibdirmi? Peşəkarlar özləri nə düşünürlər?

Bu fəsildə sizin qonaqlarınız praktiklər özləri olacaqlar. Onlar nəinki təcrübələrini bölüşəcək, həm də sizə dəyərli tövsiyələri ilə bələdçilik edəcəklər.

BEYNƏLXALQ HƏYAT

[39] Graham K. Personal History. NY, Vintage Books, 1997. p. 460-461.

- *Nurani (Tofiqəxanım Fazil qızı Qasımova, 1970) orta məktəbi qızıl, Azərbaycan Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib. Aspirantura təhsilini 1995-ci ildə yarımçıq qoyub. Jurnalist fəaliyyətinə 1992-ci ildə öncə "Yurddaş", daha sonra "Bakines" qəzetlərində başlayıb. 1993-cü ildə "Azərbaycan", 1994-2001-ci illərdə "Ayna"-"Zerkalo" qəzetlərində çalışıb, 2000-ci ildən "Exo" qəzetinin siyasi icmalçısı, 2001-ci ildən bu qəzetin Beynəlxalq həyat şöbəsinin müdiridir. Həsən bəy Zərdabi mükafatına (1996), "Yeni Nəsil" Jurnalistlər Birliyinin "Media açarı" mükafatının "İlin ən yaxşı jurnalisti" (1996, 1997), "İlin ən yaxşı beynəlxalq jurnalisti" (1998) nominasiyalarına, Qadın Jurnalistlər Assosiasiyasının "Bahar simpatiyası" və "İlin ən yaxşı jurnalisti" (2000) mükafatlarına layiq görülüb. Kipr probleminə dair kitab müəllifidir.*

Azərbaycanda beynəlxalq jurnalistika yalnız müstəqillik qazanıldıqdan sonra gəlişməyə başladı. Jurnalistikanın bu qoluna öz varlığını sübut etmək, qəzet səhifəsinə yol tapmaq o qədər də asan başa gəlmədi. Beynəlxalq mövzularda yazmaq ancaq "mərkəzin", yəni Moskva qəzetlərinin işi idi, Azərbaycan jurnalistlərinə pambıq, neft və istehsalat qabaqcıllarından yazmaqdan başqa, bir şey qalmırdı. Xoşbəxtlikdən, az bir zamanda məlum oldu ki, Azərbaycanın unikal geostrateji vəziyyəti, neft ehtiyatları, dünyanın siyasi və iqtisadi proseslərinə inteqrasiya olunması bizdən dünyada baş verənləri və bütün bunların Azərbaycana necə təsir etdiyini öyrənməyi tələb edir. Bizim ölkəmizin vəziyyətinə məs., Venesuela və Boliviyadakı ölkədaxili siyasi yaşantılar, Türkiyənin Avropa İttifaqına qəbulu, Kiprlə danışıqlar, Balkanlardakı vəziyyət və s. təsir göstərə bilər. Və

bu zaman “o şey ki Yupiterə caizdir, öküzə caiz deyil” prinsipini öz ölkəmizə tətbiq edə bilmərik...

Nəzəri cəhətdən beynəlxalq jurnalistikada da janrlar var: intervülər, məqalələr, reportajlar, qısa xəbərlər... Amma bununla yanaşı, beynəlxalq jurnalistikanın öz spesifikası mövcuddur. Bir sıra səbəblər, başlıcası iqtisadi çətinliklər üzündən, Azərbaycan KİV-nin hələ ki yetərli sayda xarici müxbiri və geniş müxbir şəbəkəsi yoxdur. Elə buna görə də material üçün qəzetlər informasiya agentliklərinə, televiziya kanalları isə İnternet vasitəsilə beynəlxalq videomübadiləyə üz tutur. Heç də həmişə eksklüziv informasiya əldə etmək mümkün deyil. Bundan da çətini yüksək keyfiyyətli eksklüziv almaq imkanıdır.

Silahlı münaqişələrin işıqlandırılmasına diqqət yetirmək lazımdır. İraq müharibəsi buna yaxşı bir örnəkdir. Nəhəng informasiya şəbəkələri müharibəyə bütöv briqadalar göndərir. Bir jurnalist Qətərdə, Dohadakı Amerika mətbuat mərkəzində əyləşir, o biri isə cəbhə xəttinin hər iki tərəfində işləyir... Belə olan halda qəzet münaqişə zonasına öz müxbirini göndərsə belə, bu cür briqada ilə rəqabətə girmək nəzəri cəhətdən mümkün deyil. Hətta eksklüziv əldə edilərsə də, “əlaqələndirici mərkəzin informasiyası” ilə işləmək məcburiyyətindəsən.

Beynəlxalq jurnalistikada ölkədaxili siyasi olayların və iqtisadiyyatın işıqlandırılmasında informasiyanın, habelə analiz və şərhlərin işlənib hazırlanması böyük rol oynayır. Çünki məhz bu proses zamanı Kanada Kvebekində separatizm dalğasının növbəti qalxanışının, Balkanlardakı müharibənin və Latın Amerikasındakı daxili didişmələrin Azərbaycana təsirini müəyyənləşdirmək imkanı yaranır.

Beynəlxalq jurnalistikada ön tarixçəni bilməyin və yazmağın böyük önəmi var. Məs. Azərbaycanda AXCP ilə “Müsavat” arasında növbəti

alyansdan danışanda Əli Kərimov və İsa Qənbərin kim olduğunu izah etməyə ehtiyac olmadığı halda, Livan münaqişəsindən söz açarkən Hizbullahın erməni terrorçuları ilə əlbir işləmələrini yada salmaq vacibdir.

Bələdçi: beynəlxalq həyatdan yazırsansa...

Bələdçiniz Nuranidir.

- Sizə lazım olan informasiyanın böyük hissəsini diktofon və kamera vasitəsilə deyil, məhz İnternetlə əldə edəcəyinizə hazır olun. Bu, bizim işin spesifikasıdır. Bu informasiyanı yoxlamaq hər dəfə mümkün deyil. Elə buna görə də sizə hər şeylə yanaşı, mənbəni qiymətləndirməyi öyrənmək lazım gələcək. Çünki çox zaman vacib, maraqlı informasiya etibarsız ola bilər. KİV öz ölkələrinin maraqlarından çıxış edərək (xüsusilə Rusiya KİV) informasiyanı tez-tez "korrektə" edir.
- Özünümaarifləndirmə ilə məşğul olun. Sudan Darfurunda baş verənləri, Şimali Koreya probleminin mahiyyətini oxucuya çatdırmaq üçün jurnalist özü bu problemlər barədə aydın təsəvvürə malik olmalıdır. Ön tarixçələri öyrənin.
- Xarici dil öyrənin. Beynəlxalq jurnalist bunsuz ötüşə bilməz.
- İnformasiyanı qiymətləndirməyi bacarın. Bu, sizə hadisə barədə isti, yaxud soyuq xəbər hazırlamaq qərarını verməyə kömək edəcək. İnformasiyanın önəmini müəyyən edən amillərdən biri də onun Azərbaycana nə dərəcədə aid olmasıdır. Məsələn, Azərbaycan auditoriyası üçün ABŞ prezidentinin ölkəsinin ərəb neftindən asılılığını azaltmaq barədə çıxışı Saratov vilayətində

milli icmaların sərgisində Azərbaycan diasporasının iştirakı xəbərindən daha önəmlidir.

- İnformasiya mənbələrinizi çoxaldın, daim yeni mənbələr axtarın.
- Dünyadakı münaqişəli durumlardan yazarkən obyektiv və tərəfsiz olun.
- Münaqişələrdən, "maraqların toqquşması"ndan yazarkən Azərbaycan maraqlarının nədən ibarət olduğunu oxucuya çatdırın. Bu zaman yazdıqlarınızın Bakıda yerləşən diplomatik missiyaların xoşuna gəlməyəcəyinə hazır olun.
- Diplomatik nümayəndəliklər, səfirliklərlə işin öz özəlliyi vardır. Məsələn, heç bir zaman hər hansı bir ölkədə baş vermiş hadisə barədə o ölkənin səfirliyindən elə həmin gün məlumat alacağınıza ümid etməyin. Səfirlik nə müxbir məntəqəsidir, nə də redaksiya. Buradan ölkənin hər hansı bir məsələyə rəsmi münasibətini öyrənmək olar.
- Diplomatın sizin ikibaşlı sualınızdan yayınacağına hazır olun.
- Diplomatiyada nüanslar və çalarlar böyük rol oynayır. Elə buna görə də diktofona deyilənləri qələmə alarkən diqqətli və dəqiq olun.

İQTİSADİYYAT

- *İlham Şaban (1967) ixtisasca neft mühəndisidir. Peşəkar jurnalist fəaliyyətinə 1992-ci ildən "İntibah" informasiya mərkəzində başlayıb.*

“Azadlıq” qəzetində reportyor, “Press-fakt” və “Yeni Müsavat” qəzetlərində informasiya bölümünün rəhbəri olub. 1994-cü ildən “Turan” informasiya agentliyində çalışır. 1997-ci ildən Azərbaycanda neft sənayesi üzrə ixtisaslaşan yeganə informasiya bülleteni olan “Turan-Energy”nin redaktorudur. Yerli və xarici mətbuatda Xəzər regionunun enerji məsələləri üzrə şərhçisi kimi çıxış edir.

Müasir Azərbaycan jurnalistikasında sahələr üzrə ixtisaslaşmanın tarixi qısadır: 10 ildən bir qədər çox. İqtisadiyyat sahəsində davamlı yazıları ilə ad çıxarmış jurnalistlərin sayı isə indinin özündə belə 25-30 nəfərdən artıq deyil. Əgər nəzərə alsaq ki, ölkəmizdə nəşr edilən qəzetlərin sayı 500-dən artıqdır, onların sayının nə qədər az olduğu üzə çıxır. Paradoksal haldır ki, bir çox qəzetdə hələ də belə iqtisadiyyat səhifəsi yoxdur. Populyar gündəlik qəzetlərdə isə iqtisadi mövzular ən yaxşı halda, ümumi materialların 1/16-ni təşkil edir. İqtisadiyyatın özünün də bölündüyü sahələr üzrə ixtisaslaşmış jurnalistləri Azərbaycanda barmaqla saymaq olar. İqtisadiyyat daxilində ixtisaslaşma, əsasən, maliyyə, neft və nəqliyyat-rabitə sahələrini əhatə edir.

Əgər jurnalist iqtisadiyyat sahəsində ixtisaslaşmağı qarşısına məqsəd qoysa, onda o, azından aşağıdakı mərhələlərdən keçməlidir.

Birinci mərhələ: isti xəbərlərin reportyoru. Bunun ilkin yolu informasiya müxbiri ştatından keçir. Öz təcrübəmə əsasən, deyə bilərəm ki, informasiya istehsalçısı prosesini lazımi səviyyədə keçməyən müxbir gələcəkdə heç vaxt hansısa sahə üzrə mükəmməl təhlilçi kimi özünü göstərə bilmir. İnformasiyanın əldə olunması, emalı və operativ çatdırılması jurnalistikanın ən ağır və məsuliyyətli sahəsidir. Mən deyərdim ki, isti

xəbərlərin müxbirləri bir növ işçi arılardır və onların vəzifəsi iqtisadiyyatın hansısa sahəsi üzrə maraq doğura biləcək məlumatları gündəlik əldə etməkdir. Ona görə “maraq doğura biləcək” ifadəsini işlətdim ki, iqtisadiyyatda cəmiyyət üçün tamamilə maraqsız hesab edilən kifayət qədər informasiyalar dolaşır. İnformasiyanın əldə olunması mərhələsində jurnalistdən tələb olunan informasiyanın önəmliliyini ayırd edə bilməkdir. Məhz bu tələbə cavab verə bilmədikləri üçün Azərbaycanın dövlətdən maliyyələşən kütləvi informasiya vasitələri, o cümlədən elektron KİV-ləri ölkə daxilində, həm də ölkə xaricindəki informasiya istehsalçıları ilə rəqabət apara bilmir. Məsələn, 20 sentyabr Azərbaycanda Neftçilər günüdür və bununla bağlı hər il hökumət səviyyəsində keçirilən müxtəlif tədbirlərdə xeyli müxbir iştirak edir. Gəlin görək həmkarlarımız bu tədbirlərdən necə faydalanırlar. Dövlətin maliyyəsi hesabına fəaliyyət göstərən KİV-lər adətən belə mərasimlərdən reportaj tipli material verməklə kifayətlənirlər. Daha doğrusu, diqqəti hansısa məqama yox, ümumilikdə əldə edilən uğurların təntənəsinə yönəldir, hətta bayram konsertlərində kimlərin iştirak etdiyini yazmağı belə unutmurlar.

Abunəçilərə məlumat satmaq hesabına fəaliyyət göstərən informasiya agentlikləri (onları müstəqil adlandıraq) isə belə tədbirlərdən bəzən onlarla xəbər yaratmaq gücündə olurlar. Təbii ki, informasiyaların keyfiyyəti və sayı müxbirin peşə hazırlığından və cəldliyindən (baxdığımız epizodda tədbirdə neçə vəzifəli şəxslə təmas qurub nəsə öyrənmək) asılı olur. Məsələn, müstəqil agentliklərin müxbirlərinin çoxu ilk xəbərlərinin lidini belə verdilər: “2006-cı ildə Azərbaycanda ilk dəfə olaraq rekord həcmdə, yəni 30 milyon tondan bir qədər artıq neft hasil ediləcək, gələn il isə bu rəqəm 47 milyon tona çatdırılacaq”. Eyni informasiya dövlət agentliklərinin müxbirlərinin xəbərlərində dəfələrlə təkrar olunsa da, o, xəbərin lidinə

çıxarılmır. Nəticədə fokusu ancaq tədbirdə cəmlənmiş bir xəbər yazılır ki, belə xəbər də oxucuya effektiv enerji daşımayan cümlə yığnağı təsiri bağışlayır.

Neftçilər günündə müstəqil KİV nümayəndələri neft sənayesində gözlənilən struktur dəyişiklikləri, enerji daşıyıcılarının qiymət artımı və yaxın gələcəkdə planlaşdırılan layihələrlə bağlı rəsmilərdən informasiya əldə edir və bu informasiyaları ayrı-ayrı xəbərlər kimi yayırlar. Dövlət KİV-ləri də həmin tədbirdən əlavə informasiya yayır. Ancaq necə? Lap Sovet dönəminin praktikasına uyğun səpgidə, yəni hansısa Neft və Qazçıxarma İdarəsinin tikinti tresti neftçilər günü münasibətilə aylıq plan göstəricilərini vaxtından 10 gün əvvəl yerinə yetirib. Bir daha diqqət yetirin: bu xəbər yuxarıda qeyd etdiyim "iqtisadiyyatda cəmiyyət üçün tamamilə maraqsız hesab edilən informasiyalar" tipinə aiddir. Onlar oxucunu maraqlandırmır, peşəkarlar isə bu xəbərləri təbliğat kimi qiymətləndirirlər.

İkinci mərhələ. Soyuq xəbərlərin reportyoru. Fikrimcə, informasiya sahəsində, yəni isti xəbərlərin toplanmasında özünü göstərə bilən hər bir jurnalistin müəyyən dövrdən sonra bu mərhələyə keçmək arzusu oyanır. İnformasiya istehsalı ilə məşğul olan jurnalistlərin böyük əksəriyyəti agentliklər və informasiya mərkəzlərində çalışırlar. Professional dildə isə onlara zarafatla "ölü jurnalistika" nümayəndələri deyirlər və oxucular bir qayda olaraq (müəyyən istisnalar olmaqla) onları tanımır, çünki onların imzası nadir hallarda qəzet və jurnallarda görünür.

Azərbaycan reallığında iqtisadi sahədə reportyorların sayı olduqca azdır. Bu da ondan irəli gəlir ki, reportyorlar ancaq qəzetlərdə cəmləşiblər və yerli TV-lərdə onların əməyinə ehtiyac görmürlər (ANS TV-dəki iqtisadiyyat bölümü sırf informativ xarakterlidir). İkinci bir tərəfdən ümumilikdə iqtisadi sahədə ixtisaslaşmış yaxşı reportyor olmaq çox çətin bir

işdir. Ona görə ki iqtisadiyyat özü çoxsahəli bir sistemdir və onun bütün sahələrinə bələd olmaq asan deyil.

Soyuq xəbərləri yazmaq üçün reportyorun ilkin instinkti müxtəlif informasiyalardan baş çıxarmaq, onların arasında önəmli olanını tapmaq qabiliyyətidir. İnformasiya nə dərəcədə aktualdır? Onun digər proseslərlə bağlılığı nədədir? İqtisadi mənzərədə yeri haradadır? Soyuq xəbəri yazan müxbir bu suallara cavab verə bilməlidir. Əks halda, soyuq xəbər yazmaq istəyən müxbir isti xəbərlərin "qaynar qazanı"nda yana bilər. Soyuq xəbərləri yazarkən reportyorun vəzifəsi müxtəlif mövqelərə istinad etməklə hadisənin daha dolğun və ətraflı çatdırılmasını təmin etməkdir.

Üçüncü mərhələ: təhlilçi. Bu jurnalist fəaliyyətinin, mən deyərdim ki, zirvəsidir. Hər hansı bir jurnalist uzun müddət hansısa bir sahə ilə məqsədyönlü şəkildə məşğul olursa, həmin sahənin bilicisinə çevrilir. Qərbdə çəkilmiş sənədli filmləri xatırlayın. Bu filmlərdə hadisələrə qiymət verən və onun detallarını izah edən şəxslər arasında jurnalistlərə tez-tez rast gəlirik. Bizim ölkəmizdə də belə bir praktika var. Ancaq bu, əksər hallarda siyasi proseslərlə bağlı məsələlərə aid olur. İqtisadiyyatın hər hansı sahəsi üzrə isə Azərbaycanda jurnalist diplomu ilə şərhçi, ya təhlilçi statusuna yüksəlmiş qələm sahibi, məncə, olmayıb.

Təhlilçi cəmiyyətə nə üçün lazımdır? Məgər informasiya və reportyor yazıları məsələnin mahiyyətini açmaq üçün yetərli deyil? İqtisadi təhlilçi oxucuya rəqəmlərin mahiyyətini anlamağa kömək edir. Bu tezisimizi əsaslandırmaq üçün bir daha Neftçilər gününə qayıdaq. Neftçilər günündə səslənən rəqəmlər ictimaiyyət üçün bir şey deyirmi? 30 milyon ton neft sadə azərbaycanlı üçün nədir? Təhlilçi ilk növbədə qeyd etməlidir ki, 30 milyon ton neft o qədər də böyük rəqəm deyil: Dünyada hazırda 72 ölkədə neft çıxarılır və bu həcmlə biz haradasa 30-cu yerdə qərar tuturuq. Bəs bu

göstəricilərlə regionda vəziyyətimiz necədir? Biz Türkmənistandan 3 dəfə çox, Qazaxıstandan isə 2 dəfə az neft çıxarırıq. Təhlilçinin bu izahı müxtəlif KİV-lərin təbliğat və ya antitəbliğat xarakterli materiallarının mahiyyətini oxucuya aydınlaşdıra bilər. Başqa bir misal, hazırda dövlət məmurları ÜDM-in 30-35 faiz artdığını dönə-dönə təkrar edirlər. Ancaq sadə vətəndaş bunun gündəlik həyatla əlaqəsini təsəvvür edə bilmirsə, onda reallıqda bu, Sovet dönəmində Lenin qiraət günündə Marksın "Kapital" əsərinin kolxozçular üçün oxunulmasına bənzəyir.

Ancaq belə incəlikləri açmağı bacarmaq çox böyük zəhmət və qabiliyyət tələb edir. Ona görə də bu sətirləri oxuyan gələcək jurnalistlər bilməlidirlər ki, jurnalistika təkcə yazmaq qabiliyyəti deyil, həm də düşünmək və düşündürmək qüdrətidir.

Bələdçi: iqtisadiyyatdan yazırsansa...

Bələdçiləriniz İlham Şaban, Hafiz Babalı, Elbrus Cəfərlidir.

- İqtisadiyyat sahəsində ixtisaslaşmaq istəyirsənsə, iqtisadiyyatı kompleks şəkildə öyrənməlisən. Bu, iqtisadi panoramı tam görməyə imkan verəcək. Seminar və konfranslarda iştirak et. Bu isə sənə iqtisadi proseslər barədə öz mövqeyinin formalaşmasında, eləcə də müxtəlif məsələlərə dair mütəxəssis rəylərinin alınması üçün istiqamətin düzgün müəyyənləşdirilməsində lazım olacaqdır.
- Daim mütaliə et, iqtisadi ədəbiyyatı öyrən, iqtisadi terminləri, onların mənalarını mənimsə, qeydlər apar, gündəlik tut.
- Hökumətin qəbul etdiyi dövlət proqramlarını, fərman, sərəncam və qərarları diqqətdə saxla.
- İqtisadiyyatın fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını öyrən.

Məsələn, kreditləşdirmə məsələlərindən yazırsansa, hökmən bank fəaliyyətinin tənzimlənməsinə yönəldilmiş qanunvericilik aktlarını, “Milli bank haqqında”, “Bank fəaliyyəti haqqında”, “Kredit ittifaqları haqqında” qanunları, Nazirlər Kabinetinin qəbul etdiyi normativ-hüquqi aktları, eləcə də Milli Məclisin hər il üçün təsdiq etdiyi Pul-kredit siyasətinin əsas istiqamətlərini bilməlisən. Bundan sonra kredit təşkilatları ilə təmas qurmaqda, onlardan məlumat əldə etməkdə ciddi problem yaranmayacaq.

- İqtisadiyyatın bütün sahələrinə dair – monetar siyasətindən tutmuş regional siyasətədək, energetikadan başlamış, deyək ki, əqli mülkiyyətin qorunması məsələlərinədək – hər bir şey barədə məlumatlı ol, eyni zamanda ayrı-ayrı mərkəzi icra hakimiyyəti orqanlarının (nazirlik, komitə, agentlik, xidmət və s.) vəzifələrini öyrən.
- Aparılan iqtisadi siyasəti kor-koranə qəbul etmə. İqtisadiyyatda korrupsiya, rüşvətxorluq, inhisarçılıq, sahibkarlığa süni maneələr və s. kimi neqativ amillərin mövcudluğunu bil və bütün bunlara obyektiv qiymət verməyi bacar.
- Jurnalist iqtisadiyyatın bütün sahələrinə eyni uğurla nüfuz edə bilməz. İqtisadiyyatın daxilində sahələr üzrə ixtisaslaşma zəruridir (energetika, bank-maliyyə, nəqliyyat və rabitə, kənd təsərrüfatı, sənaye-investisiya və s.). Bu, sənin ekspert kimi yetişməyinə kömək edər.
- İsti xəbərləri yazmaqdan başlayın. İqtisadi jurnalistikada soyuq xəbərləri yazmaq üçün isti xəbər məktəbindən keçmək lazımdır.
- İqtisadi mövzuda yazmaq həvəsində olan jurnalistlər qələmlərini ilk növbədə iqtisadiyyatın mikro səviyyəsinə aid məsələlərdə sınamalıdırlar. İqtisadi proseslərin axarına düşmədən hər hansı makroiqtisadi

hadisəyə qiymət vermək cəhdləri uğursuzluqla nəticələnə bilər.

- İqtisadiyyat rəqəmlərdən ibarətdir. Rəqəmlər arasında baş itirməmək, iqtisadi dəyişikliklərin dinamikasını müəyyən edə bilmək üçün jurnalist ən sadə riyazi əməliyyatları, məs., ədədin faizini çıxara bilməlidir.
- İqtisadiyyatı oxucuya anlaşıqlı və çatımlı təqdim edin. Faktları canlandırın. Oxucu quru rəqəmlərə əsaslanan yazıları sevmir, xüsusən də bu rəqəmlər iqtisadiyyatdan olanda. Rəqəmlər arxasında nələr durduğunu izah edin. Oxucu bu rəqəmlərin onun həyatı ilə bağlılığını hiss etməlidir.
- İqtisadçı-jurnalistdən yüksək mədəni keyfiyyətlər: səbir, təmkin, respondentlə insani münasibətlər qurmaq məharəti tələb olunur. Bu amillər bəzən onun peşəkar keyfiyyətlərindən az rol oynamır.
- İnformasiya mənbələriniz məlumat verməkdən imtina edə bilərlər. Belə olan təqdirdə əlindəki çiy məlumatı şişirdib-bəzəyərək mətbuata çıxarmaqdan çəkin. İnformasiyanı dəqiqləşdirmədən, məsələyə əks tərəfin münasibətini öyrənmədən onu təhvil vermə.
- İnformasiya mənbəyi kimi rəsmi statistika məlumatlarından, yerli və beynəlxalq iqtisadi qurumların rəylərindən, mətbuat konfransları və brifinqlərdən bəhrələn. Amma bu zaman müqayisəli təhlil üçün internetə baş vurmağı, analoji iqtisadi prosesləri yaşamış ölkələrin təcrübəsini də öyrənməyi unutma.

SƏHİYYƏ

- *Nigar Məcidova (1971) ixtisasca jurnalistdir. Peşəkar jurnalist fəaliyyətinə 1992-ci ildə "Ayna"-"Zerkalo" qəzetlərində başlayıb. Burada müxbirdən elm şöbəsinin müdiri və "Naşe zdorovye"*

əlavəsinin redaktorunadək yol keçib. BBC radiostansiyasının "Ekoloji jurnalistikanın janr və hüquqi aspektləri", Albert Şveytser İnstitutunun "Janr jurnalistikası. KİV-də tibbi mövzuların işıqlandırılması" peşəkar jurnalistika kurslarını bitirib. Həsən bəy Zərdabi mükafatı, AİDS mövzusunda ən yaxşı məqaləyə görə BMT İP və "İxlas" Assosiasiyası Mükafatı laureatıdır. "Tibbi jurnalistika" kitabının müəllifidir.

"Teatr asılqandan başlayır" ifadəsini səhiyyəyə ünvanlasaq, əminliklə deyə bilərik ki, iqtisadiyyat da, siyasət də, mədəniyyət də sağlamlıqdan başlayır. Bu sahələrdən hansı birini təhlil etsək, səhiyyə problemləri ilə üzləşəcək və əksinə, səhiyyənin problemlərini qaldırsaq, onların sosial, iqtisadi, ekoloji, psixoloji və siyasi köklərini görəcəyik. Əhalinin sağlamlığı millətin rifahının göstəricidir. Elə buna görə də səhiyyə ilə müdafiə eyni dərəcədə istənilən ölkənin təhlükəsizliyinin əsası sayılır. Təəssüf ki, biz bu bağlılığı sona qədər dərk edə bilmirik. Bu isə cəmiyyətin sağlamlığa başdansovdu münasibətinə gətirib çıxarır. Yalnız xəstəlik qapımızı döyəndə, iş-işdən keçəndə, itmiş sağlamlığımızı klinikalarda axtaranda ayılırıq. Belə anlarda ömür boyu qazandıqlarımızı bu əvəzsiz kapitalı qaytarmaq üçün xərcləməyə hazır oluruq. Elə bu zaman həqiqət anı yetişir: əvvəl can sağlığı, qalanı sonra...

Bu həqiqəti vaxtında dərk etmək üçün KİV əvəzsiz rol oynaya bilər. Tibbi jurnalistika ilə məşğul olan jurnalistin qarşısında duran əsas məsələlər oxuculara elmi bilikləri populyar bir dildə çatdırmaq, sağlamlıq və ona təsir edən amilləri açıqlamaq, əhalinin öz sağlamlığına yüksək dəyər verməsinə çalışmaqdır. Tibbi jurnalist təkcə özü barədə deyil, həm də onunla birlikdə həyat yolunda addımlayan insanlar barədə düşünməlidir. Əgər siz, əziz həmkarım, dediklərimi bölüşürsünüzsə, demək, biz eyni yolun yolçusuyuq. Elə isə birlikdə addımlayaq.

Jurnalistlərin təbabətdən olan materiallara fərqli yanaşmasını şərtləndirən əsas cəhət tibb tematikasının mürəkkəbliyi və çoxşaxəliliyidir. Əvvəldə qeyd etdim ki, istənilən tibb tarixçəsi ekologiya, mədəniyyət, iqtisadiyyat, siyasət ilə bağlıdır. Buna görə

də sağlamlıqdan yazarkən problemin bütün aspektlərinə toxunmaq, ekoloji, psixoloji, iqtisadi, siyasi və sosial amillərin təbabətlə bağlılığını vermək lazımdır.

Ənənəvi olaraq jurnalistlər materialı iki baxış bucağı üzərində qururlar. Tibbi jurnalistikada bu bucaqların sayı məsələdə maraqlı olan insanların sayı ilə düz mütənasibdir. Tibbi jurnalistikanın jurnalistikadakı digər ixtisaslaşmalardan fərqi də məhz bundadır. Çalışın ki, yazıda daha çox mütəxəssisin rəyi əks olunsun.

Tibbi materiallarda unudulmamalı məqamlardan biri də maddi məsələdir. Cansağlığı heç nə ilə müqayisə olunmayan bir kapitaldır. Elə buna görə də məqalədə xəstəliyin müalicəsi üçün lazım olan maliyyəni göstərin. Bununla siz xəstəliyin profilaktikasının və önlənməsinin müalicədən daha ucuz başa gəldiyini izah etmiş olarsınız.

Tibb və sağlamlıq problemləri psixoloji və emosional yük daşıdığından bu cəhət həmişə oxucu üçün cəlbedicidir. Oxucunu maraqlandırmaq üçün jurnalist konkret problemlə oxucu arasındakı bağlılığı göstərməlidir. Tibbi jurnalist nəinki materialı obyektiv işıqlandırmalı, həm də problemi oxucuya konkret çatdırmalıdır. Azərbaycanda tibb jurnalistika məktəbinin olmaması daim sensasiya dalınca qaçışla nəticələnir ki, bu da informasiyanın təhrifinə, materialın əhali üçün praktik əhəmiyyətinin itirilməsinə gətirib çıxarır. Elə buna görə də jurnalist cəmiyyətə düzgün informasiya çatdırmaqla, “zərər yetirməməli” prinsipi arasında balans tapmalıdır. Balansı tapmaq üçün əvvəlcə problemin mahiyyətini dərk etmək lazımdır. Bu isə jurnalistdən mənəvi və psixoemosional güc, fədakarlıq, mövzuya savadlı yanaşma ilə yanaşı, həm də səriştə, canıyananlıq, səmimilik tələb edir. Əgər buna hazır deyilsinizsə, yaxşısı budur, heç yazmayın.

Özünüz mövzu seçin. Gözləməyin ki, kimsə sizə tapşırıq versin. Təxəyyül, intuisiya və peşə fəhminizi işə salın. Əgər yazdığınız mövzu sizi silkələyibsə, ona can yandırmaqdan çəkinməyin. Belə yazı oxucunu laqeyd qoymayacaq.

Və sonda. Yalnız səhiyyənin, dövlətin və KİV-in səylərini birləşdirməklə əhaliyə sağlamlığın qayğısına qalmağı aşılamaq, sağlam həyat tərzini millətin qürur mənbəyinə çevirmək olar. Belədə insan öz sağlamlığına kapital, təbabətə isə özünəməxsus investisiya bankı kimi yanaşır. Bizim cəmiyyətimiz öz sağlamlığının qayğısına fəal

qalacaqmı? Tibbi-sosial problemlərin həllinə qoşulacaqmı? Yoxsa kənar müşahidəçiyə çevrilib dövlətdən "sosial rifah payı" gözləyəcək? Bu məsələdə cəmiyyətin seçimi KİV-in mövqeyindən asılı olacaq.

Bələdçi: səhiyyədən yazırsansa...

Bələdçiniz Nigar Məcidova əmindir: "Tibbi jurnalistika müxbirdən təkcə savad deyil, həm də cəsarət, təmkin, psixoloji dözüm, can yanğısı və səmimilik tələb edir".

- Tibbi jurnalist onunla birlikdə həyat yolunda addımlayan insanlar barədə düşünməli, yazı üçün can yandırmaqdan çəkinməməlidir. Mənəvi, psixoemosional gücə, fədakarlığa hazır olmalıdır.
- Sağlamlıqdan yazarkən problemin bütün aspektlərinə toxunun, ekoloji, psixoloji, iqtisadi, siyasi və sosial amillərin təbabətlə bağlılığını vermək lazımdır.
- Elmi-tibbi jurnallar oxuyun. Onlar sizə yeni mövzular verəcək. İdeyaların daha bir qaynağı elmi görüşlər və mühazirələrdir.
- Yazacağınız mövzunun mahiyyətini özünüz üçün açın. Mövzunu dərindən dərk etmək üçün mütəxəssislər, universitet professorları ilə görüşün.
- Problemi oxucuya konkret çatdırın. Bu zaman analogiyalardan yararlanın. Sadə dildə yazın.
- Tibbi terminologiyanı oxucuya izah edin.[40]

[40] Daha ətraflı oxuyun: N. Məcidova "Tibbi jurnalistika", İnternational Media Bridge, Bakı 2005.

KRİMİNAL

Afaq Quliyeva (1967) BDU-nun jurnalistika fakültəsini bitirdikdən sonra əvvəlcə "Gənclik" nəşriyyatında fəaliyyətə başlayıb. Müharibə illərində könüllü olaraq hospitalda tibb bacısı işləyib. 1993-cü ildən "Azərbaycan-Türk Agentliyi"ndə və agentliyin nəzdindəki "Avrasiya" qəzetində müxbir kimi çalışıb. Azərbaycanda ilk dəfə vəsiqəsinə "polis mühabiri" sözləri yazılan A. Quliyeva "Panorama" , "Hürriyyət", "7 gün", "İmpuls" qəzetlərinin kriminal xəbərlər şöbələrində işləyib. 1999-cu ildən "İnterpolis" qəzetinin baş redaktorudur. Dəqiq fənləri sevən, inşaatçı olmaq istəsə də, jurnalistikaya ata-anasının arzusu ilə gələn A. Quliyeva özünü bu sahədə təsadüf hesab etmir:

Mənim bəxtim onda gətirdi ki, *"Avrasiya"nın* baş redaktoru İrfan Sapmaz ilk sınaqdan sonra məni məhz "polis mühabiri" kimi gördü və bu, yaradıcılıq yolumu müəyyənləşdirdi. Sənət yolumu məşhur aktyorumuz Həsən Turabovun yoluna bənzədirəm. Mənə elə gəlir ki, "7 oğul istərəm" filmindəki Gəray bəy rolundan sonra H. Turabov nə oynadısa, Gəray bəyi xatırlatdı. Gəray bəy onun alın yazısı idi. Mən də kriminal mövzulardan qaçmağa çalışmışam. Hətta mədəniyyətdən yazmışam. Amma sonunda qarşı tərəf məni məhkəməyə verib... Yenidən kriminal xəbərlərə qayıtmışam...

İlk vaxtlar tələb olunan qaydalara əməl etmək çətin idi. Məlumatı topladıqdan sonra onu DİN-in mətbuat xidməti ilə dəqiqləşdirməli, zərərçəkmiş və təqsirləndirilən tərəfin nümayəndələri ilə görüşməli idim. Qonşular və hadisənin şahidləri ilə söhbətlər də öz yerində. Cinayət törətmiş şəxsin və ya onun qurbanının hansı məktəbdə oxuması, necə şagird olmasını bilmək də önəmli idi. Fikirləşirəm ki, bu tələblər olmasa idi, mən jurnalist kimi yetiş-

məzdim, başlıcası isə yazdığım sahə mənim üçün marağını itirərdi. Jurnalist dərindən yazmağı bacarmalıdır. Səthi yazılardan alınan zövq də səthi olur. Təcrübəmin mənə öyrətdikləri budur. İndi mənim öz tələblərim var və onlara əməl edirəm. Sizinlə də bu tələblər nədir onları, bölüşmək istəyirəm.

Birinci tələb: Neytral mövqe saxla. *"Avrasiya"* qəzetində yenicə çalışırdım. DİN-dən məlumat aldım ki, Nazirlər Kabineti yanında İdarəçilik İnstitutunun 1-ci kursunda oxuyan bir qız özünə qəsd edib. Redaksiyadan material hazırlamaq tapşırığı aldım. İnstitutun birinci mərtəbəsində mərhumun divara vurulmuş şəklini gördüm, fotoaparatımı çıxarıb şəkli çəkdim. Sonra onun oxuduğu fakültənin dekanı ilə görüşüb öyrəndim ki, intihara səbəb tələbənin imtahanlardan birindən aldığı aşağı qiymət olub. Tələbə qızın qrup yoldaşlarını axtarmaq qərarına gəldim və institutun çayxanasına yollandım. Burada 10 nəfərə yaxın oğlan bir masa arxasında oturmuşdu. Qızın tələbə yoldaşlarının kimlər olduğunu soruşdum. Sən demə, sual verdiyim oğlan tələbə qızın sevdiyi oğlanmış... Onlar məni stollarına dəvət edib faciə barədə ətraflı danışdılar. Sonra isə niyə bu hadisə ilə maraqlandığımı soruşdular, jurnalist olduğumu dedim. Belədə tələbə qızın sevdiyi oğlan məni kənara çəkərək göz yaşları içində yalvardı ki, bu barədə yazı yazmayım. Düzünü deyim ki, hadisə məni elə sarsıtmışdı ki, nə edəcəyimi bilmirdim. Oğlanın göz yaşlarına dözə bilmədim, xahişinə əməl edəcəyimə söz verdim. Redaksiyaya döndüm. İrfan bəyə əhvalatı danışdım, hətta intihar edən qızın şəklini çəkdiyimi belə dedim. O çox sevindi: "Qız, bu çox gözəl xəbərdir, bomba kimi partlayacaq", - deyərək tez bir zamanda yazdıqlarımı qələmə almağı tapşırdı. Mən isə dedim ki, söz vermişəm, yaza bilmərəm. O: "Belə gözəl xəbəri məhv etmək olmaz", - deyib məni qınadı. Onun gənc bir qızın intiharına "gözəl xəbər" deməsi mənə o qədər təsir etdi ki, hətta ona: "Siz başqa bir ölkənin gəncinin faciəsinə necə sevinə bilirsiniz

?”- deyə kobud sual verdim. O: “Mən faciəyə yox, xəbərə gözəl xəbər deyirəm”, -deyə məni sakitləşdirsə də, mən sözümə əməl etdim, bir küncə çəkilib ağlayaraq İrfan bəyin qəlbsizliyinə acıdım.

İllər keçəndən sonra o vaxt etdiyim hərəkətin yanlış olduğunu anladım. Anladım ki, o yazını yazmalı idim və orada vurğunu yenicə tələbə adını qazanmış gənclərin təlim-tərbiyəsinə həsr etməli, onlara belə vəziyyətə düşəndə səbirli olmağı tövsiyə etməli idim. Elə hadisə olur ki, onu qələmə alanda vurğu hadisəyə yox, onu yaradan səbəblərə düşməlidir. Həmin hadisə belələrindən idi. Mən səriştəsizliyim ucbatından bunu bacarmadım...

İkinci tələb: Nəyisə dəyişə biləcəyinə inan. Yenə də “Avrasiya”dakı iş təcrübəmdən misal gətirəcəyəm. Bakı şəhərinin Nəsimi rayonunda yaşayan T.X. adlı bir qadın qonşuluqdakı 7 yaşlı uşağın başını kəsmişdi. Sonradan bu qadını həbs etsələr də, istintaqın gedişi mərhumun valideynlərini qane etmirdi. Hadisə barədə məlumat alan kimi həmin ünvana yollandım. Qətli törətmiş şəxsin mənzilinin qapısı bağlı idi. Üz tutdum mərhumun ailəsi yaşayan ünvana. Çətinliklə də olsa, qapını üzümə açdılar. Könülsüz baş verənlərdən danışaraq müstəntiqi işi səthi aparmaqda qınadılar. Onları inandırdım ki, bu barədə qəzetdə material dərc edilsə, istintaqın gedişinə təsir göstərə bilər. Bundan sonra onlar geniş müsahibəyə razılıq verdilər. Hətta qatilin uşaqlarının da şəkillərini tapmaqda mənə yardımçı oldular. Onlardan öyrəndim ki, T.X. institutlardan birinin jurnalistika fakültəsində müəllim işləyir. Əvvəlcə işi aparan müstəntiqlə görüşmək üçün Nəsimi rayon prokurorluğuna yollandım. Onunla görüşümüz baş tutdu. O bildirdi ki, qatil çox güman ki, psixi xəstədir. Hətta qadının müayinə olunmaq üçün psixiatriya xəstəxanasına göndərildiyini də bildirdi. Müstəntiqlə söhbətdən sonra birbaşa həmin qadının müəllim işlədiyi instituta yollandım. Orada dəqiqləşdirdim ki, qadın tam sağlam olub. Hətta

bir ay əvvəl instituta sağlamlıq barədə daşdan keçən sənəd də təqdim edib. Sənədlə tanış olandan sonra böyük bir araşdırma yazısı hazırladım və yazının vurğusunu istintaqın səriştəsiz aparılmasına vurdum. Qəzetdə sağlamlıq kağızının surətini də dərc etdik. Qəzetimizin həmin sayının satışı 100 faiz oldu. Bunu görən qəzet sahibi bütün tirajın yenidən vurulması barədə göstəriş verdi. Yazıya təkcə oxucular reaksiya vermədilər. Respublika Prokurorluğu işi rayon prokurorluğundan alaraq öz icraatına götürdü. Müstəntiqə şiddətli töhmət verildi. Sonradan həmin qadın 10 il müddətinə azadlıqdan məhrum edildi. Jurnalist araşdırma apararkən alacağı qonorar barədə fikirləşməməlidir. O inanmalıdır ki, yazdığı yanlış aparılan hər hansı bir istintaqın səmtini dəyişə bilmək gücünə malikdir.

Üçüncü tələb: Araşdırmanı sona kimi apar. Azərbaycanda araşdırmaçı jurnalist çox azdır, yoxdur, desək, bəlkə də, səhv etmərik. Səbəblərdən biri araşdırmaçı jurnalist üçün şərait yaradılmamasıdır, biz bu jurnalistlərə kifayət qədər pul verib onları hər hansı bir faktı araşdırmağa yönəldə bilmirik. İki gündən, ən yaxşı halda isə bir həftədən sonra ondan nəticə istəyirik. Belədə jurnalist yarımçıq araşdırmanı qəzet səhifəsinə çıxarır. Əks effekt alınır: yarımçıq yazıdan qəzet və oxucu udmur, amma cinayətkarlar qəzet vasitəsilə “xəbərdarlıq alır”, işlərini daha möhkəm tutub gizlənə bilirlər. Bunu “İnterpolis”də başımıza gələn bir hadisədən bilərəm.

... Redaksiyamıza Mehdiabad qəsəbəsinin sakinləri zəng edərək şikayət etdilər ki, qəsəbədə hansısa mafioz qruplaşma fəaliyyət göstərir. Onlar işləməyən zavodların balansından böyük çənləri silinmə yolu ilə alaraq həmin əraziyə gətirir, doğratdırır və maşınlara yığıb ölkədən çıxarırlar. O da bildirilirdi ki, son dəfə kəsilən çənlərdən birindən ətrafa zəhərli kimyəvi maddə səpələnib. Hadisə yerinə getdik. Məlum oldu ki, kəsilən çənlərdən biri Sumqayıtdakı kimya zavodlarından birindən gətirilib.

Doğranarkən ətrafa formalin maddəsi səpələnib. Bu maddə toz şəklində olduğundan küləkli havada böyük bir əraziyə yayılıb, hətta həyətlərə belə tökülüb. Bunu görən işbazlar izi itirmək üçün əraziyə su buraxıblar. Nəticədə həmin ərazini dəhşətli üfunət iyi bürüyüb. Yaxınlıqda yaşayanların su quyuları sıradan çıxıb. Əməkdaşlarımız həmin ərazidə olub, sakinlərlə söhbətləşdilər, hadisə yerinin şəkillərini çəkdilər. Orada işləyənlərsə, hətta müxbirlərə pul təklif edərək gördüklərini qələmə almamalarını xahiş etdilər. Sonradan qəsəbə sakinləri bildirdilər ki, bu günə kimi onların çağırışı ilə bir neçə qəzetdən və televiziyadan buraya gələnlər olsa da, həmin şəxslərlə görüşdükdən sonra hadisə barədə mətbuatda heç bir yazı işıq üzü görməyib. Biz qərara aldıq ki, təcili reportaj hazırlayaq. Çünki müxbirlər hadisə yerindən qayıdan kimi tanımadığımız şəxslər redaksiyaya zəng edərək mənimlə görüşmək istədiklərini bildirmişdilər. Onların arasında DİN-dən olanlar da var idi. Zəng edənlərlə görüşü səhəri günə təyin etsəm də, reportaj həmin gecə işıq üzü gördü. Səhər redaksiyanın telefonları susmaq bilmirdi. Qəsəbə sakinləri bildirirdilər ki, səhər tezdən maddə tökülən ərazinin torpağını maşınlara yığıb harasa aparır və yerinə başqa yerdən gətirilmiş torpaq tökürlər. Onlar bizə təşəkkür edirdilər. Digər zəng vuranlarsa bizi öldürəcəkləri ilə hədələyirdilər. Çünki quyruqlarını möhkəm tapdalamışdıq... Nəticə əldə etdik. Lakin... Bu, jurnalist araşdırması üçün yetərli deyildi. Biz həmin sexi işlədənlərin arxasında kimlər durduğunu, dəmir çənlərin hansı yollarla əldə edildiyini, hansı ölkəyə satıldığını öyrənə bilmədik, suallar cavabsız qaldı.

...Mənim tələblərim nədir, bildiniz. Güman edirəm ki, onlar sizin üçün də maraqlı oldu.

Kriminal xəbərlər yazmaq istəyirsənsə, təşəbbüskar ol, təsviretmə və tənqidi düşüncə qabiliyyətini artır, gərgin əməyə hazırlaş. Uğurlar olsun!

Bələdçi: kriminaldan yazırsansa...

Bələdçiləriniz Afaq Quliyeva, Esmira Cavadova, Könül Zərbəliyeva

bir fikirdə yekdildirlər: "Sensasiya xatirinə yazmaq olmaz".

- Faktı dönə-dönə dəqiqləşdirin. Rəsmi qurumların hər birində mətbuat xidməti fəaliyyət göstərir. Çalışın aldığınız hər bir məlumatı əlaqədar orqanların mətbuat xidmətləri ilə dəqiqləşdirəsiniz.
- Təqsirsizlik prezumpsiyasını pozmayın. Bu o deməkdir ki, məhkəmə prosesini qələmə alarkən bilməlisiniz ki, dəmir barmaqlıqlar arxasında oturan sadəcə təqsirləndirilən şəxsdir. Hökm çıxarılmamış onu "qatil", "cinayətkar", "dələduz", "vətən xaini" və s. kimi təqdim etmək olmaz.
- Ailə sirri ilə bağlı məlumatları qəzet səhifəsinə çıxarmayın. Bu cür faktların açıqlandığı məhkəmə prosesi qapalı keçirilir. Əgər qapalı məhkəmə prosesindən məlumat alsanız belə, onu yazmaqda maraqlı olmayın. Əks halda, Cinayət Məcəlləsinin 156-cı maddəsi ilə (şəxsi həyatın toxunulmazlığını pozma) barənizdə cinayət işi qaldırıla bilər.

Mənbələri necə tapmalı?

- Kriminal olaylar haqqında yazıların mənbələrini güc strukturlarında və xəstəxanalarda axtarın. Hər hansı polis idarəsinin növbətçi hissəsində əyləşən polis serjantı ilə elə ünsiyyət qura bilərsən ki, o, sənə çalışdığın müddətdə üzünü belə görmədən yaxşı mənbə ola bilər. Yaxud da əksinə, hər hansı bir məlumatı dəqiqləşdirmək üçün zəng etdiyin polis serjantına elə müraciət edərsən ki, o, sənə kobud cavab verə bilər. Belədə nömrəni təkrar yığıb səni acılayan polis serjantına öyüd-nəsihət verib, mətbuat haqqında qanundan sitat gətirməkdənsə, bir anlığa fikirləş ki, təqsir məndədir, sualı gərək belə mənasız qoymayaydım.

Hadisə yerində nədən başlamalı?

- "Filan küçədə çoxlu insan vardı, polis maşınları gəlmişdi" xəbərini eşidəndə rəhbərlikdən tapşırıq gözləmək vaxt itirmək deməkdir. Diktofon, fotoaparat və

qələm-kağız götürüb tez redaksiyadan çıx. Hadisə yerinə özünü tez çatdır ki, oradakı rəsmi şəxslərdən (məs. rayonun prokurorundan, polis rəisindən, sahə müvəkkilindən) məlumat əldə edə biləsən. Prokurorun, polis rəisinin yalnız "faktla bağlı araşdırma aparılır" kəlməsi də kifayət edir. Əsas odur ki, hadisəyə rəsmi münasibət səslənsin.

- Məmurlara həmkarlarınla birlikdə yaxınlaşmaq məsləhətdir. Belə ki, onlar tək-tək yaxınlaşan jurnalistlərə cavab verməyə meylli olmurlar.
- Fotoları unutma. Onlar yazını canlandıracaq. Bu zaman keyfiyyət dalınca qaçma, çalış çeşidlər çox olsun.
- Hadisə yerini tərk etməyə tələsmə. Polis rəisindən aldığın məlumatlarla kifayətlənmə. Şahidləri unutma. Onlarda məlumat daha çox olur. Bu zaman ehtiyatlı ol. Şahidlər gördüklərinə "duz qatmağı" sevirlər. Şahidlərlə söhbət edərkən rəsmiyyəti bir kənara qoy, müstəntiq yox, jurnalist kimi soruş.
- Hadisə yerindən məlumat topladıqdan sonra işin ikinci hissəsi başlanır. Əgər hadisə zamanı odlu silahdan yaralanan varsa, bu, o, deməkdir ki, xəstəxanaya getmək lazım gələcək. Xəstəxananın ünvanını dəqiqləşdirin. Əgər xəstə reanimasiya şöbəsindədirsə, adətən yaralının qohumları şöbənin qarşısında yığışırlar. Onlara yaxınlaş, söhbət et. Bu zaman rəsmi şəkildə sual verməyin yeri yoxdur. Qadınlarla söhbət etmək kişilərlə söhbətdən daha asandır. Çünki onların təsəlliyə və həmdərdə daha çox ehtiyacları var. Mətləbə birbaşa keçmə. İnsanlara təsəlli ver, həyan ol. Sonra həmsöhbətinin kim olduğunu araşdır: ailə üzvü, yoxsa qohum.
- Tibbi personalla danış. Xəstənin durumu, xəstəxanaya nə vaxt, necə daxil olması barədə məlumat topla.
- Reanimasiya şöbəsinə daxil olub şəkil çəkməyin sənin fərasətindən asılıdır. Bu işdə şöbənin müdirinə bel bağlamağa dəyməz. Qəzet müxbirlərini, televiziya müxbirlərindən fərqli olaraq, adətən şöbəyə buraxmırlar .
- Materialları tam topladıqdan sonra indi yazını qələmə almaq olar. Bu zaman yalnız faktları qələmə al. Fərziyyələrə yer vermə.

Bunları da yadda saxla...

- Məhkəmə prosesində iştirak etmədən ittiham aktındakı materiallar əsasında yazı hazırlama. Əgər belə bir halla qarşılaşarsansa, bil ki, ittiham aktında təqsirləndirilənlərin ifadələrinə yer verilir. Prosesin digər iştirakçılarının mövqeyinə və fikirlərinə yer ayrılmır. Bu isə o deməkdir ki, ittiham aktı əsasında yazılmış yazıda balans pozulacaq.
- Yaxşı olar ki, ailə-məişət, boşanma və s. bu kimi məhkəmə işlərinin qəzet səhifələrində yer almasına o qədər də meylli olmayasan. Əgər bunlardan yazmalı olsan belə, mövzuya fərqli bir rakursdan yanaş. İnsanların şəxsiyyətini deyil, boşanmanın səbəblərini araşdır. Məsələ sensasiya xarakteri deyil, ictimai maraq daşımalıdır.

MƏDƏNİYYƏT

- *Sevda İsmayıllı (1954) 1974-cü ildən peşəkar jurnalist fəaliyyəti ilə məşğuldur. "Televiziya tələbə tribunası", "Xoş gördük, tələbə!", "Kitab köşkü", "Palitra" kimi televerilişlərin ssenari müəllifi və aparıcısı, uzun illər çalışdığı "İşıq" nəşriyyatında mədəniyyətdən bəhs edən bir çox kitabın redaktoru olub. Hazırda "Azadlıq" radiosunda efirə gedən "İz" mədəniyyət proqramının aparıcısıdır. Məhz mədəniyyət məsələlərinin işıqlandırılmasında uğurlarına və peşəkar səylərinə görə, 2006-cı ildə Həsən bəy Zərdabi mükafatına layiq görülüb.*

Çox istərdim ki, jurnalist olmaq istəyən adam bir şeyi qulağında sırğa eləsin: **ən böyük xəbər insandır və bəlkə də, olayları yaradan yox, olaylardan bəhs edən insandır!** Son dönəmlər daha çox mədəniyyət

mövzularına toxunduğumdan fikrimi elə o çərçivədə açıqlamağa çalışım: düzünü deyim ki, mədəniyyəti daha anlaşıqlı qavramağım xeyli zaman alıb və əslində, lap yaxınlarda – 2005-ci ildə baş tutub.

…“Azadlıq” radiosu üçün İçəri şəhərin memarlığından veriliş hazırlayırdım. “Qoruq şəhərə” baş çəkəndə dəhşətə gəldim: ağır tikililər, beton konstruksiyalar İçəri şəhərin kövrək səthini “əzib-göynədirdi”. Bu bir yana, İçəri şəhərdə içərişəhərli tapa bilmirdim. Deyəsən, qazanc ehtirasları və mədə şıltaqlıqları bu bənzərsiz orta cağ şəhərini ən böyük abidəsiz – yerli insansız qoymuşdu. Bəzən raket kimi şığıyan, bəzənsə ləngər vuran və sanki mey-məzə dağıdan yerli ləhcə qulağa dəymirdi. Nərd oynayan yaşlıların, dolanbaclarda qaçdı-tutdu oynayan və top qovan uşaqların səsi gəlmirdi. Ağbirçək görəndə qızaran, səsini alçaldıb sayqıyla salamlaşan və yolunu dəyişən cavanlar sanki heç olmamışdı. İçəri şəhər küsmüş, soyumuş və özünə qapanmışdı. Və birdən… ünsiyyət dolu tanış ləhcə hər şeyi dəyişdi. Qız Qalası çevrəsində turistlər arasında rastlaşdığım qocaman həmkarım Tofiq Axundov əsl Kopperfild sehrbazlığı ilə İçəri şəhəri dindirdi və həm məni (yəni verilişi), həm də turistləri xilas etdi… Turistlər bu insanla Qız Qalasından çox maraqlandılar. Mədəniyyətin məhz insanlar olduğunu onda tam anladım.

Mədəniyyətdən yazarkən başqa bir güclü impulsu tanınmış filosof Rəhman Bədəlovdan almışam. O, mədəni insandan danışarkən həmişə **“qlobal düşün, lokal yaşa”** düsturunu yada salır. Bu “lokal” anlayışı müxtəlif kontekstlərdə anlaşılmalıdır: bəzi hallarda etnos, digər hallarda bölgə, şəhər, hər hansı “kiçik zona”, bir başqa halda, sadəcə, şəhər məhəlləsi və s. və i.a. Rəhman Bədəlovun fikrincə, qlobal aləmdə lokal kontekstin saxlanılması indiki cağın başlıca məsələlərindən biridir və istər mədəniyyətlə, istər mədəni siyasətlə birbaşa bağlıdır. “Azərbaycanda əks

meyl – “lokal düşünüb qlobal yaşamaq” dəbdədir və dərinə işləyən əyalət ruhu ilə mədəni iddiaların belə eybəcər pərçimi nəinki eybəcər, hətta dağıdıcı ola bilər”. Müsahibim Rəhman Bədəlov belə deyir.

Cılız düşüncə ilə gen yaşamanın faciəsini başqa bir müsahibim, əslən Güney Azərbaycandan olan və indi Almaniyada yaşayan ünlü rəssam İbrahim Əhrari də gözəl anladıb: **“Mədəniyyəti əlindən alınmış və ya mədəni yaddaşını itirmiş insan qarışqa kimi onurğasızdır, ayaq altda əzilir. Mədəniyyət yaşamın onurğa sütunudur”.** Şərhə ehtiyac varmı?

Bir an da insanı unutma, əziz dost!

Bələdçi: mədəniyyətdən yazırsansa...

Sevda İsmayıllı bələdçiliyə müxtəlifliklə başladı ...

- Müxtəlifliyə sayqı göstər və müxtəlifliyin insanlar üçün əvəzsiz sərvət olduğunu yaddan çıxarma.
- Mədəni olmaq müxtəlifliyə açıq olmaq deməkdir (“mədəniyyət” sözü öz kökünü ərəbcədəki “mədinətin”, yəni “şəhər” kəlməsindən götürübsə, demək bu anlayışın təməlində “kənd və şəhər”, yaxud “qapalı və açıq” qarşıdurması var).
- Məlumat bazanı zənginləşdir (kağız və elektron formatda kitabxana, ekspert və yaradıcı insanların, muzey işçilərinin, çeşid-çeşid “sonuncu mogikanların” ünvanları və s. və i.a.).
- Dil bilgilərini gəlişdir (ancaq unutma ki, heç bir ensiklopediya canlı

insanlarla ünsiyyəti əvəzləyə bilmir).

- Unutma ki, mədəniyyətdən yazmaq təbiət və cəmiyyət bağlantısında bütün müxtəlifliyə uyum saxlayan, özünü dəyişdirməklə dünyanı dəyişdirən insanlardan yazmaq deməkdir.
- "Qlobal düşün, lokal yaşa və ya gen düşün, dar yaşa" fəlsəfəsini anlayan və buna dəyər verən insanları öz yazılarında diqqət mərkəzində saxla.
- "Məlumatlandırmaq məndən, anlatmaq bilicidən" düsturunu yaddan çıxarma.
- Yaradıcı yanğın yoxdursa, məlumatlandırmaq ehtiyacı duymursansa, yazma (yazsan, biganə varlıqların sayı artacaq, medianı gözdən salacaq və əvvəl-axır, işsiz qalacaqsan).
- Keçmiş və gələcəklə ünsiyyəti itirsən, bügünü anlamayacaqsan (mədəniyyət anlamağa can atmaqdır).
- Baş verən dəyişikliklərin hədəfini anla və həmin dəyişiklikləri müxtəlif insanlardan keçirərək bütün ziddiyyət və tərəddüdləri ilə diqqətə yetir.
- Sözlüyünü daim zənginləşdir, ancaq yığcam və sadə yaz.
- Mənasını dəqiq bilmədiyin və adi sözlərlə ifadə etməyə aciz qaldığın terminlərdən qaç.
- Olduğundan ağıllı görünmə, çünki başqalarının ağlı ilə bilgili görsənmək sənə və təmsil etdiyin media qurumuna inamı azaldacaq.
- Unutma ki, geyim, davranış və danışığında yol verdiyin yanlışlar təmsil etdiyin media qurumunu nüfuzdan sala bilər.

Lalə Cəfərova isə maarifçiliklə yekun vurdu ...

- Mədəniyyətlə ilgili insanlar, əsasən, iki yerə bölünür: hansısa bir sənət

nümunəsini, əsəri yaradanlara və onu qiymətləndirməyi bacaranlara. Sənəti qiymətləndirməyin özü də böyük istedad sayılır və təbii ki, “zər qədrini bilən zərgərdən” sevdiyi sənət sahəsi ilə bağlı müəyyən bilgilər tələb edir. Mədəniyyətdən yazan jurnalist əsasən, bu kateqoriyaya aid olur.

- Siz məhz mədəniyyət mövzusunda yazmalısınızmı, yoxsa başqa sahələrdə qələminiz daha uğurlu nəticələr göstərə bilər? Bunu bəri başdan müəyyənləşdirmək gərəkdir. Özünüz bilirsiniz ki, insanların böyük əksəriyyəti mədəniyyət adamına sevgisini bildirə bilər, amma bu, heç nəyi həll etmir. O mənadakı sevgi kortəbii ola bilər. Belə məhəbbətdən qopan kəlmələr sənətkarın, ən əsası isə sənətin özünün xətrinə dəyər...
- Əgər sizi sənətkarlar öz mühitlərinə buraxacaq olsalar, bu mühitdə ünsiyyət hər iki tərəf üçün yorucu yox, səmərəli olsa, deməli, hələ heç bir kəlmə yazmasanız belə, uğurun yarısını qazanmısınız. Yadda saxlayın, sənətkarların sizdən, yəni sizinlə ünsiyyətdən boyun qaçırması və ya söhbəti tezcə xətm eləmək istəyi yaxşı əlamət deyil.
- Unutmayın, sənət adamı nə qədər zəngin olsa belə, onun içindəki bilgiləri daim təzələməyə və ya yeni ideyalarını kiminləsə bölüşməyə ehtiyacı var. Bu mənada ona həmişə həmsöhbət, həmdərd gərəkdir. Hərgah sizdən fikir və reaksiya şəklində bir şey ala bilməsə, sənətkar sizinlə yoldaşlıq edən deyil.
- Tanışlıq üçün sadəcə səmimi olmaq kifayətdir. Bilgilərinizi dərhal nümayiş etdirməyə tələsməyin, komplekslərinizi bir kənara qoyun. Konkret bu sahə və bu insanla çox maraqlandığınızı və hər yeni informasiyanı əxz eləməyə tam hazır olduğunuzu göstərin. Yadda

saxlayın ki, sənət adamları çox həssasdırlar, diletantları dərhal tanıyırlar. Yalnız səmimi, canlı marağı görən sənətkar həmsöhbətinə sənətin sirlərini açacaq.

- Sənətkarı danışdırmaq üçün vacibdir ki, onunla öz məkanında söhbət edəsən. Yalnız emalatxana şəraitində sənət adamı ünsiyyətə tam açıq olacaq.
- Mədəni prosesdə önəmli hadisəni qeyri-önəmlidən ayırmaq vərdişinə yiyələnmək üçün ölkənin mədəni mühiti ilə nəfəs almalı, yeni tamaşalar, filmlər, sərgilər və s. onun diqqət mərkəzində olmalıdır. Yaradıcı adamlarla əlaqə qurmağı bacarmalısan.
- Azərbaycanın mədəniyyət tarixini öyrənin. İstənilən sahə ənənənin, vərəsəliyin nəticəsi olaraq əmələ gəldiyindən çağdaş situasiyanı qiymətləndirmək üçün bu günə dünəndən baxmaq gərəkdir. Belə olanda sabahı görmək də asanlaşır.
- Mətbuatdakı mədəniyyət yazarlarının, fikrinə hörmətlə yanaşdığınız həmkarlarınızın xülasələrini oxuyun. Mədəniyyət hadisəsi haqqında tam təsəvvür belə formalaşır. Bu həm də intriqaları, görünməyən cərəyanları izləmək imkanı verəcək.
- Jurnalist mədəniyyət sahəsinə aid qanunvericilik aktlarından xəbərdar olmalıdır. Post-sovet məkanındakı analoji prosesləri bilsə, onun xeyrinədir. Eyni zamanda dünyada gedən mədəni prosesləri izləməlidir. Çünki sizin bir missiyanız da var: maarifçilik... Əslində, bələdçiliyi elə bilərəkdən ən əsas məsələ ilə tamamladım.

İ D M A N

- *Əməkdar jurnalist Valid Sənani (1935) 1957-ci ildə BDU-nun coğrafiya fakültəsini bitirib. Jurnalist fəaliyyətinə tələbəlik illərindən başlayıb. 1957-ci il aprelin 11-də televiziya ilə ilk futbol reportajını aparıb. Azərbaycan televiziyasının ilk idman şərhçisidir. 1955-ci ildən 1991-ci ilə kimi respublika radiosunda diktor, redaktor, "Xəbərlər" baş redaksiyasının baş redaktoru vəzifələrində işləyib. Hazırda "Space" televiziyasının redaktorudur, Qərb Universitetində müəllimdir. Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini, Beynəlxalq Jurnalistlər İttifaqı Konfederasiyası Şurasının üzvüdür.*

İdmanın kütləviliyi və uğuru təkcə millətin sağlamlığının deyil, həm də mədəni səviyyəsinin göstəricisidir. İdmanın kütləviliyinə nail olmaqda idman jurnalistikası az rol oynamır. Cəmiyyətin həyatında idmanın möhkəm yer tutması onun fəal təbliğatçıları olan jurnalistlərdən də çox asılıdır.

İdman, növündən asılı olmayaraq, qüvvətli və çevik olmaqdan əlavə, idmançıdan öz gücünə, bacarığına dərin inam, nəzəri bilik, durmadan təkmilləşmə və kamilləşmə tələb edir. İdmançıda bu keyfiyyətlərin

tərbiyəsində, mənə elə gəlir ki, idman jurnalisti ikinci məşqçi, ya da məşqçinin yaxın köməkçisi ola bilər.

İdman jurnalisti idmanın bütün növləri ilə yaxından tanış olmalı, onların qaydalarını bilməlidir. Amma bu da azdır. Mən idman jurnalistləri arasında ixtisaslaşma aparılmasını vacib hesab edirəm. Məsələn, jurnalist idman oyunları (futbol, həndbol, basketbol, voleybol) üzrə ixtisaslaşanda onun informasiyaları və hesabatları daha dəqiq, sanballı və inandırıcı olur. Qəzet səhifələrində göstərilən növlər üzrə yarışlar haqqında şərhin, icmalın, reportajın, müsahibənin, adicə bir informasiyanın altında eyni imzanı görən oxucu həmin jurnalisti bu sahənin bilicisi kimi qəbul edir, bir şərtlə ki, yazı obyektiv olsun.

İdman jurnalistikasını seçən gənc jurnalistlərə bir tövsiyəm var: özünüz də idmanın hər hansı bir növü ilə məşğul olun. Bu, sizə yarış və məşq zamanı idmançının keçirdiyi hissləri, düşdüyü vəziyyəti oxucuya daha canlı və inandırıcı çatdırmağa kömək edər.

Bələdçi: idman jurnalisti nələri bilməlidir?

Bələdçiləriniz Valid Sənani, "Futbol+" qəzetinin baş redaktoru Mahir Rüstəmli, "Het-trik" qəzetinin baş redaktoru Rəşad Şükürsoy və "Futbol bez qranis" jurnalının baş redaktoru Teymur Bahabov bir fikirdə yekdildirlər: böyük jurnalistika meydanında idman yazarlarının oynamaq üçün sahələri nisbətən dar olsa da, prinsiplər ümumi və hamı üçün keçərlidir.

- Haqqında yazdığı idman növünün qaydalarını, tarixini, bu növ üzrə dünyanın aparıcı komandalarının nailiyyətlərini;
- Komandalar, məşqçilər, idmançılarla müntəzəm əlaqə saxlamalı,

komandalarda hökm sürən əhval-ruhiyyədən xəbərdar olmalı;

- Yarışları izləməli, idmanla bağlı dövlətin və hökumətin qəbul etdiyi sənədləri öyrənməli və bu sənədlərin yerinə yetirilməsi gedişini izləməli;
- İdman terminlərini bilməli, xarici dillərdən alınan terminlərin tərcüməsində və yeni terminlərin yaradılmasında fəal iştirak etməli;
- İnformasiya ovuna çıxmalı. Ən yaxşı xəbər rəsmi mənbələrin verdiyi xəbər deyil, onlardan "qopardılan" xəbərdir.
- Ölkə, yer, xalq, klub adlarına, coğrafi terminlərə başdansovdu münasibət yaramaz. Amerika yer kürəsində mövcud olan 6 qitədən biridir. Amma bu gün hər hansı idman növündə ABŞ idmançılarının çıxışından bəhs edən jurnalistlər daim "Amerika" ifadəsindən yararlanır. Amerika futbolçuları və ya voleybolçuları əvəzinə ABŞ futbolçuları və ya ABŞ voleybolçuları ifadələrini işlətmək lazımdır. Eləcə də "xoxollar", "polyaklar" kimi ifadələrə idman jurnalistikasında yer yoxdur. Bunların əvəzində "ukraynalılar", "polşalılar" kimi daha aydın ifadələr var.
- Azərbaycan dilini mükəmməl bilməli. Məs., "müxtəlif əyarlı üç medal" ifadəsini işlətməməli. Əyar qiymətli metalın – qızılın, gümüşün və s. keyfiyyət göstəricisidir. "Müxtəlif əyarlı üç medal" dedikdə qızıl, gümüş və bürünc medallar deyil, hər hansı bir qiymətli metalın müxtəlif əyarları başa düşülür.
- Yerli-yersiz işlədilən "xalları yarı böldülər" ifadəsindən qaçmalı. Vaxtilə, ötən əsrin 90-cı illərinin əvvəllərinə qədər futbolda qələbəyə görə 2 xal verildiyindən, heç-heçə bitən oyunlardan sonra işlədilən "xalları yarı böldülər" ifadəsi yerinə düşürdü. Amma göstərilən tarixdən

etibarən “qələbəyə görə 3 xal” prinsipi qüvvəyə mindiyindən bu Gün heç-heçədən sonra “xalları yarı böldülər” ifadəsini işlətmək yolverilməzdir. Çünki heç-heçə təqdirində hərəyə 1 xal verilirsə, 1 xal da ortada qalır. Bir sözlə, futbolda 3 xalı yarı bölmək olmaz. Amma əvəzində şahmat, dama yarışları haqda yazarkən bu ifadəni işlətmək mümkündür. Həmin idman növlərində qələbəyə görə 1 və 2 xal verilir.

- Tez-tez işlədilən və oxucuların çaşqınlığına səbəb olan ifadələrdən biri də belədir: “Filan komanda itirilən xalların sayına görə liderdir”. Belə ifadəni məsələn, “Xəzər-Lənkəran” 5 oyundan sonra 13, “Neftçi” isə 4 oyundan sonra 12 xal toplayıb uyğun olaraq 1-ci və 2-ci pillələrdə qərarlaşanda işlədirlər. Yəni yazı müəllifi lənkəranlıların 1 oyunda heç-heçə etdiyini, bakılıların isə ehtiyatda qalan oyunda mümkün qələbəsini nəzərə alıb “Neftçi”yə münasibətdə “itirilən xalların sayına görə liderdir” ifadəsini işlədir. Halbuki burada söhbət itirilməyən xallardan gedir və məntiqi olaraq “itirilməyən xalların sayına görə liderdir” ifadəsini işlətmək lazımdır.
- “İngilis klubu”, “italyan mətbuatı”, “start heyət” kimi ifadələr. Halbuki bütün bu ifadələr dilimizin qayda-qanununa uyğun olaraq ikinci növ söz birləşmələri şəklində, yeni “İngiltərə klubu”, “Italiya mətbuatı”, “start heyəti” kimi işlədilməlidir.
- Bu gün idman mətbuatında, elə elektron KİV-də də ən çox işlədilən ifadələrdən biri “müqavilənin bitməsi”dir. Amma təbii ki, müqavilə bitmir. Burada “müqavilə müddətinin bitməsi” və ya “müqavilənin qüvvədən düşməsi” ifadələrindən birini işlətmək lazımdır.
- Xəbər, reportaj və yazı müəllifləri adətən hər hansı oxucunun

qəzeti ilk dəfə əlinə alması ehtimalını nəzərdən qaçıraraq haqqında danışdıqları adamın yalnız soyadını işlədirlər. Tutaq ki, Kapello, Raykaard, Blatter və s. Amma kimlərinsə bu məşhur adamların adını bilməməsi mümkündür. Odur ki, məşqçilərin, hakimlərin, klub rəhbərlərinin, bir sözlə, futbol təsərrüfatında çalışan adamların ad və soyadı tam şəkildə, heç olmasa, yazının əvvəlində bir dəfə işlədilməlidir.

- Sözçülükdən qaçmalı. Xəbər yazmaq texnikasına yiyələnməli. Eyni xəbərin iki versiyası idman jurnalistikasında peşəkarlıq və qeyri-peşəkarlıq arasındakı fərqi görməyə imkan verəcək. Naşı yazılmış birinci xəbərin həcmi ikincidən iki dəfə çoxdur:

Rəşad Sadıqov "Neftçi"də oynaya bilər

Xəbər verdiyimiz kimi, Türkiyə Super Liqasında – "Kayserispor"da forma geyən həmyerlimiz Rəşad Sadıqov komandanın son üç oyununu ehtiyat oyunçular skamyasından izləməli olurdu. Əlbəttə, belə vəziyyət Sadıqovun ürəyincə olmayacaqdı. Yığmamızın biabırçı Ukrayna matçından sonra Türkiyəyə qayıdan Rəşad, çempionatın növbəti oyunundan sonra qalmaqala səbəb olub. Futbolçumuzun "Kayserispor" un qələbəsindən sonra davranışı klub rəhbərliyinin xoşuna gəlməyib. Nəticədə ciddi narazılıq ortaya çıxıb və Rəşad klubla müqaviləsini pozub. Müdafiəçinin yenidən "Neftçi"yə qayıdacağı gözlənilir.

Rəşad Sadıqov "Kayserispor"dan ayrıldı

Milli komandamızın kapitanı Rəşad Sadıqov "Kayserispor"la yollarını rəsmən ayırıb. Dünən aldığımız məlumata görə, futbolçu onunla klubun

vitse-prezidenti Türkər Horoz arasında yaranmış problemdən sonra bu qərara gəlib. Sadıqovun bu gün Bakıya qayıdaraq, “Neftçi”nin düşərgəsində məşqləri davam etdirəcəyi gözlənilir.

Fəsil 9. Gerçək axtarışında

Səhv etmək qorxusu sizi gerçək axtarışından çəkindirməməlidir.

Helvetsi

Bu bölümdə açıqlanacaq suallar:

- *Araşdırma jurnalistikası nədir?*
- *Araşdırma jurnalistikası necə başlanıb?*
- *Araşdırma jurnalistikasında qaynaqlar hansılardır?*
- *Araşdırma prosesi: çətinliklər, maneələr*

"Vudsteyn" əhvalatı

Onları "zibil eşənlər" - "muckrakers"lər adlandırırlar. Bu mübahisəli damğanı onlara ABŞ prezidenti Teodor Ruzvelt 1906-cı il 10 fevral nitqində vurub. Amerika çap mediasında jurnalist araşdırması çox işlək yazı

formatlarından hesab olunur. Amerika Respublikası qurulanda indiki keçid demokratiyalarına çox oxşayırdı; vicdansız, prinsipsiz partiyalar mətbuatı, rüşvətdə batan çinovniklər, ilkin kapitalın hərisliklə toplanması, ədalətsizlik və s. Danışacağımız **araşdırma jurnalistikası bu xaosda qayda yaratmağa çalışan sosial instituta çevrildi.** Semyuel Lenqhorn Klemens – Tom Soyeri fikirləşmiş sevimli Mark Tven də müəyyən mənada mareykerlərin "əcdadı" sayılır. İstənilən elmi ədəbiyyatda araşdırma klassikləri kimi siz Makklyur, Stefens, Lonq, Uorrenin adlarına rast gələcəksiniz. "Vudstayn fenomeni" ilə tanış olacaqsınız.

Maraqlıdır

"VUDSTAYN FENOMENİ" iki jurnalistin adı ilə bağlıdı. ROBERT VUDVORT və KARL BERNSTAYN. Yəqin eşitmisiniz - "Votergeyt Qovluğu". Bu iş 1973-cü ildə prezident Niksonun imriçmentinə səbəb oldu. Uzaq 1972-ci ildə Amerika biri-birinə dəymişdi. İki sadə jurnalist oğlan araşdıraraq üzə çıxarmışdılar ki, Ağ Evin agentləri rəqib demokrat partiyasının seçkigabağı ştabına soxulublar.

Ştab "Votergeyt" mehmanxanasında yerləşirdi. "WASHINGTON POST" qəzetinin əməkdaşlarının hər bir cəhdi Ağ Ev administrasiyası tərəfindən güclü etirazla qarşılaşırdı. Vudvord və Bernstayn heş nəyə baxmayaraq addım-addım bu qaranlıq işi çözürdülər. İnformasiya verməkdən qorxan insanlara "sizin adınız heç vaxt çəkilməyəcək" deyirdilər. Önəmli informatorlardan birinin adı "DƏRİN BOĞAZ" – "DEEP THROAT" idi. Amma Vudvort bu informatorun adını heç kimə açmadı. Bu küylü olaylardan sonra "Votergeyt Qovluğu" XX əsr jurnalistikasının qələbəsi

adlandırıldı. Axı iki sütül uşaq Ağ Evdən bir dəstə fırıldaqçını qova bilmişdilər.

Məsləhət görürəm ki, bu problemlə bağlı amerikalı müəlliflərdən birinin, məsələn, Ullmenin əsəri ilə tanış olasınız. Bu bölümdə isə siz araşdırma jurnalistikasının ümumi konturları ilə tanış olacaqsınız.

Araşdırma jurnalistikası deyəndə o saat ağlınıza möhtəşəm siyasi skandallar, yaxud kriminal aləmlə isti əlaqələri olan qarabığ reportyor gəlir. Əslində isə, araşdırma - (ing. -investigation) jurnalistikanin, bəlkə də, ən çox zəhmət tələb edən qoludu. **Topluma nəzarət, sosiuma təsir, müdaxilə mexanizmidi.**

Jurnalist araşdırması - az öyrənilmiş, qapalı, gizlədilən mövzunun hərtərəfli və bütün detalları ilə öyrənilməsidir. Bu araşdırma üçün lazım olan informasiya müxtəlif maraqlı strukturlar tərəfindən qizlədilə, açıqlanmaya bilər. Jurnalist onları qazıb- çıxarmalıdı.

Əmin, maddi və siyasi baxımdan uğurlu toplum üçün ictimai maraq anlayışı, demokratiya yolunda təzə addımlar atan hansısa üçüncü ölkədəki ictimai maraq anlayışından çox-çox fərqlənir. Birinci halda, söhbət toplumda ev heyvanlarına qayğılı münasibətdən gedə bilərsə, ikinci halda həyatı bahasına topluma informasiya çatdıran jurnalistin ölüm səbəblərindən gedə bilər.

Azərbaycanda jurnalist araşdırması hələlik öz akademik formasını almayıb. Bu janr hansısa standart mövzu çərçivələri ilə məhdudlaşmamalıdı. Talantlı jurnalist ən adı, maraqsız görünən mövzunu belə araşdırma predmetinə çevirə bilər. **UNUTMAYIN:** pis mövzu yoxdu, pis jurnalist var.

"Nyus Dey" qəzetinin əməkdaşı Robert Qrin araşdırma jurnalistikasını belə təsəvvür edir. "Bu müəyyən şəxslərin, yaxud təşkilatların gizli saxlamaq istədiyi bəzi vacib məsələlərin jurnalistin öz istəyi ilə araşdırıb işlədiyi materialdı. Araşdırmanın üç əsas elementini diqqətdə saxlayın:

1. Jurnalist heç kimin aparmadığı araşdırmanı aparır;

2. Araşdırmanın mövzusu oxucu üçün vacibdi;

3. Digərləri - araşdırmanın predmeti ilə bağlı şəxslər mövzu ilə bağlı informasiyanı gizlətməyə çalışır". [41]

TƏCRÜBƏNİ BÖLÜŞƏNLƏR

Hans Smit (1938) 17 il Amsterdamın öncə yerli, sonra ümummilli qəzetlərində reportyor işləyib. 1971-2001-ci illərdə "Vrij Nederland" (Free Netherlands) həftəlik qəzetinin redaktoru, Haaqada siyasi müxbiri, Almaniya, İsveçrə və keçmiş Yuqoslaviyada xüsusi müxbiri olub, radioda siyasi şərhçi kimi çalışıb.

1990-cı ilədək Utrixtdə Jurnalistika məktəbinin mühaziraçisi olub.

[41] Уллмен Дж. Журналистские расследования: современные методы и техника. М., 2001. s. 68-74.

Qazaxstan, Bosniya-Hersoqovina, Makedoniya və Azərbaycanda jurnalistika kursları aparıb.

Araşdırma jurnalistikanın çox önəmli sahələrindədir. Bu, demokrtik cəmiyyətin vacib bir tərkib hissəsi, süzgəcidir. Araşdırma jurnalistikası ictimai maraqlardan çıxış edərək artıq qəbul edilmiş hər hansı bir hökmün və ya qərarın ifşa edilə biləcəyi ehtimalı üzərində qurulur.

Araşdırma jurnalistinin stereotipi belədir: aqresssiv, skeptik, ehtiraslı və fəal. O inanır ki, hər sövdələşmənin arxasında bir qalmaqal var. O inanır ki, biznes və iqtidar nümayəndələri hər dəfə əl verəndə bir-birinə rüşvət verirlər. Məşhur amerikalı jurnalist İ.F.Stonun fikrincə: “Bütün hökumətlər yalan deyir”. Ola bilsin ki, bü, tamamlilə belə deyil. Amma bu cür düşünmək araşdırma jurnalistinin düşüncə tərzidir.

Araşdırma jurnalistikasının ən vacib mövzularından biri korrupsiyadan yazmaqdır. Korrupsiya hər yerdədir. İstər Şimal olsun, istər Cənub, istər Şərq olsun, istər Qərb, korrupsiya korrupsiyadır. Jurnalist şərəf və demokratiya uğrunda mübarizə aparmalıdır. Korrupsiyaya qarşı mübarizə aparmaq hər bir ölkə üçün önəmlidir. Bu mübarizə yeni demokratiyalar, xüsusilə müharibədən çüxmış, inkişaf və quruculuq yoluna qədəm qoymuş ölkələr üçün daha vacibdir. Korrupsiyanın və hakimiyyətdən sui-istifadənin ifşası mətbuatın vəzifələri sırasındadır. Şübhəsiz ki, bu, hər şeydən öncə, cəmiyyətin və xüsusilə hökumətin, ayıq-sayıq prokurorların və korrupsiyaya uğramamış polisin borcu olsa da, mətbuatın işi cəmiyyəti ayiq-sayıq və məlumatlı saxlamaqdır. Çünki seçicilər hökuməti geri çağıra bilər, siyasi partiyalar isə korrupsiya və hakimiyyətdən sui-istifadə barədə hesabat verə bilərlər. Korrupsiya şəxsi mənafe naminə

hakimiyyətdən sui-istifadədir. O, hər zaman olub. Son on illərdə isə onun coğrafiyası və intensivliyi dəfələrlə artıb. 1970-ci illərin ortalarından etibarən korrupsiyanın toruna düşməyən ölkə qalmayıb. Hollandiyada mətbuat korrupsiyaya qurşanmış siyasətçilərin və rəsmilərin ifşası ilə fəal məşğul olur. Gündəlik və həftəlik qəzetlər, eləcə də televiziya İnformasiya Azadlığı haqqında Aktın köməkliyi ilə dövlət məmurlarının rüşvət və saxtakarlıqda əli olması faktlarını üzə çıxarır. Son iyirmi ildə ən azı 10 nazir bu səbəbdən istefa verməli olub.

Mən 1975-ci ildə Amsterdamdakı "Vrij Nederland" həftəliyinin xüsusi araşdırmaçı jurnalistlər komandasının üzvü olmuşam. Bu qrup Şahzadə Culiananın əri və Holland ordusunun müfəttişi Şahzadə Betriksin atası mərhum Şahzadə Bernhardın korrupsiyaya qoşulması barədə xeyli yazı yazmışdı. O, Amerikanın bir sıra aviasiya şirkətlərindən orduya yeni qırıcı təyyarələrin alınması üçün rüşvət almışdı. Bu araşdırmalardan sonra şahzadə vəzifəsini və bir sıra imtiyazını itirdi.

Jurnalist araşdırmasında qaynaqlar

İlk qaynaqlarınız: adamlar, adamlar, adamlar... İstənilən informasiyaya sağlam skeptisizmlə yanaşın. Hər şeyi iki dəfə yoxlayın. Telefon nömrələri, ad və soyadları, küçə və təşkilatların adlarının hamısını sorğu kitabçalarından dəqiqləşdirmək olar.

İnformasiya qaynağınızla ehtiyatlı olun. Əmin olun ki, o, nə dediyini bilir. Hətta ikinci bir nəfər də verilən informasiyanı təsdiqləyirsə, bu onun gerçək olduğu deyil. Özünüz üçün qayda qoyun; **olay haqqında gerçəkdən**

bilgisi olan şəxsdən sitat verin. Məs. qəza yerindən bir qədər aralı olan yol polisi əməkdaşı qəza haqqında dəqiq bilgisi olmaya da bilər.

Mürəkkəb materialda faktlar və hətta sitatların üzərindən bir də keçərək yoxlayın, əmin olun ki, yazılanları düz başa düşdünüz. Düzgün anladığınızı başa düşməyin digər üsulu intervü vaxtı müsahibdən cavabını bır də təkrar etməyi xahiş edin. Bu sizə çapa gedəcək faktların gerçəkliyini yoxlamağa bir imkan da verəcək.

Ehtimallara yer qoymayın**. Ehtimal araşdırma jurnalistikası üçün deyil.**

Yazının son variantını diqqətlə oxuyun. Məzmunda səhvləri düzəldin, müxtəlif baxış bucaqlarına proporsional yer ayrıldığına, məntiqi vurğunun düzgün qoyulduğuna diqqət edin.

Dəqiq, düzgün, aydın araşdırma apararkən dayanacağınız önəmli ölçülərdi bunlar. Material o vaxt vicdanlı sayıla bilər ki, problem bütün baxış bucaqlarından araşdırılıb.

Araşdırma çoxlu qaynağa – insanlara, müşahidələrə, sənədlərə əsaslanır. Çox vaxt hakimiyyət orqanlarının gizlətmək istədiyi faktlar araşdırma əsnasında üzə çıxır. Bəzənsə materiallarda məhz o orqanlardan alınmış faktlar gedir. Jurnalist-araşdırmaçı, Boston Universitetinin mühazirəçisi Maykl Berlinin fikrincə, reportyorun bu sahədə əsas silahı aşağıdakılardır:

1. İnsanlar – informasiya qaynağı kimi;
2. Müxtəlif tipli sənədlər və onlarla işləmək bacarığı;
3. Səbir və məharətlə keçirilmiş müsahibə;

4. Əxlaq və sosial cavabdehlik hissi.

Reportyor öz işini yaxşı bacarmalıdı. Münasibətlərdə, işində səliqə və sağlam təfəkkür xüsusilə vacibdir. Çünki araşdırmalar jurnalistə çoxlu düşmən qazandırır. Onlar ən xırda fakt yanlışlığına belə "ilişə" bilərlər. Sizin apardığınız bütün araşdırmanı diskreditə edərlər.

Jurnalist araşdırması hər yerdə aparıla bilər. Dövlət orqanlarında, kommersiya strukturlarında, məktəblərdə, polis idarələrində, məhkəmələrdə, xəstəxanalarda, şəhərlərdə və əyalətdə.

Cəmiyyətə xidmət, ədalət uğrunda mübarizə jurnalist araşdırmasının motivlərindəndir. KİV üçün araşdırma jurnalistikası **"ictimai dəyərlərin qoruyucusu"** reputasiyası deməkdi. Bununla siz həm də oxucularınızın inamını qazanmış olursunuz.

Jurnalist materiallarında heç vaxt öz şəxsi fikrini bildirməməlidi. Bu, Qərb jurnalistikası üçün aksiomdu. Kiminsə rüşvət aldığını, ya rüşvət verdiyini iddia etməkdənsə, jurnalist dəqiq faktlar üzərində qurulmuş möhkəm strukturlu material yaratmalı, oxucuya bu pozuntuların mexanizmini, haradan qaynaqlandığını göstərməlidi. Amma unutmamalıyıq ki, jurnalist qanun və etika çərçivəsindən çıxmamalıdı. **Heç bir oğurlanmış sənədlər**.

UNUTMAYIN: İnformasiya üçün heç bir rüşvət vermək, özəl ərazilərə qanunsuz daxil olmaq olmaz. Yoxsa sizin araşdırdığınız obyektlərindən fərqiniz olmaz ki!

Araşdırma öncəsi

Kitablar, qəzetlər, jurnallar oxuyun (mən bilirəm nə deyirəm, əziz tələbələrim), sənədli filmlər izləyin. Kitabxanalardan, arxivlərdən, elektron informasiya daşıyıcılarından yararlanın. Nəzərə alın ki, informasiya axını il-ildən güclənir, əgər siz bu axından bir neçə ay belə kənarda qalsanız, təzələnmək, yenilənmək, peşəkar kimi lazımlı olmaq şanslarınız çox aşağı düşür. Yeni texnologiyalarla maraqlanmayan, az məlumatlı jurnalist kimə lazımdı?! Hər şeydən başqa, siz öz pul qazanmaq imkanlarınızı daraldırsınız.

İzləyin, müşahidə edin ətrafınızı, toplumu. Siyasətçiləri fərqli ortamlarda müşahidə edin. İnsanlarla neçə danışır? İşə nə vaxt gəlir? Məişət vərdişləri necədi? Redaksiyanızın önünə tikilən göydələn neçə aya tamam oldu? Kortej keçəndə marşrut taksidə neçə dəqiqə gözlədiniz? Tələbə yoldaşın niyə əsgərliyə qetmədi? Güclü yağışlardan sonra krandan neçə gün bulanıq su gəldi? Avqust ayının neçəsində bulvarda temperaturu göstərən elektron tablo söndü və s. Bu yerlərdən çəkilmiş fotolar isə sizin müşahidələri sənədə çevirə bilər.

Söhbət edin. Bəzi araşdırmalar sənədlərdən başlanır, sonra adamlara keçir, bəziləri adamlarla başlanıb sonra keçir sənədlərə.

Amerikalı jurnalist araşdırmaçı Oliv Tolli yazır: “Kimsə gecə yarı ...dəvətsiz ... arvad –uşağı qorxudaraq... evimə basqın edib məni oyatsa, nə var, nə var, bir neçə sual verəcəyəm, təbii ki, xoşuma gəlməz. Məncə, adamlarla dil tapmaq olar. Biz adamlarla özümüzlə necə davranmaq istədiyimiz kimi davransaq, bu qayda 99 faiz işləyər”.

İstənilən halda müsahibə yaxşı planlaşdırılmalıdı. Jurnalist hansı sualları verəcəyini, söhbətdə müsahibi dindirə bilmək üçün hansı psixoloji

yanaşma tərzini seçəcəyini öncədən bilməlidi. Təbii, üz-üzə alınan müsahibə telefon müsahibəsindən qat-qat informativdi.

İmkan olduqca diktofondan yararlanın. Bu sizə müsahibin fikirlərinin inkişafını izləməyə imkan verəcək. Düzdür, bu bəzi adamları qıcıqlandırır, amma müəyyən vaxt keçdikdən sonra diktofon unudulur.

Əgər söhbəti diktofona yazmaq imkanı yoxdursa, daha bir kolleqanızı dəvət edin ki, o da qeydlər etsin.

Səbirli, tələsməyən müsahiblə işləyərkən ən yaxşısı ümumi suallar verməkdi, qoy söhbət təbii axarı ilə getsin. Sizsə səbirlə qulaq asmalısınız. Söhbət zamanı yaranan pauzaları suallarınızla doldurmağa çalışmayın. Qoy adam öz istəyi ilə söhbəti davam etdirsin. O, ürəyini boşaldandan sonra, söhbəti lazımi istiqamətə yönəldən suallarınızı verin.

Bəzən elə situasiyalar olur ki, müsahib sizinlə əməkdaşlıq etmək istəmir, ya qorxur. Çalışın müsahibinizi gərgin vəziyyətdən çıxarasınız, ona simpatiyanızı göstərin, ona müdafiə və anonimliyini təmin edəcəyinizi deyin.

Əgər adam düşməncəsinə münasibət göstərir, ya söhbət etmək istəmirsə, normal diskussiya atmosferi yaratmağa çalışın, çalışın ki, ona müsahibə verdiyini unutdurasınız, onun pozisiyasını məntiqlə müdafiə etməyə çalışın. Yalan bəyanatları faktlarla, əsəbsiz, sakit tonla - düzəldin (burada sizin söhbət öncə hazırlığın böyük əhəmiyyəti var).

Dəqiq məlumatların axtarılması, müxtəlif qaynaqlardan üzə çıxarılması jurnalist araşdırmasının ən çətin hissəsidi. Burada insanı istəmədiyi halda belə onu özünlə ünsiyyətə vadar edib, lazım olan bilgiləri ondan almaq bacarığı çox vacibdi. Hüquqi baxımdan, jurnalist söhbət aparmaq üçün

KİV haqqında qanundan başqa, heç bir şeyə dayanmır. Bunun üçün də siz hər şeydən öncə sualları düzgün verməyi öyrənməli, qarşınızdakının doğru, ya yalan danışdığını təyin edə bilməlisiniz.

Söhbətə hazırlaşarkən müsahibdən nəyi eşitmək istədiyinizi özünüz üçün aydınlaşdırın. Hansısa problematika ilə ilk dəfə üzləşirsinizsə, kolleqalarınızla məsləhətləşin. Məsələ ilə bağlı digər yazıları oxuyun. Özgə təcrübəsindən yararlanaraq irəli gedin.

Hüquqşünasların jurnalistlər üçün də faydalı olacaq sualları çeşidləmə sistemi var - əsas, əlavə, başlanğıc, aralıq, dəqiqləşdirici, konkretləşdirici, yada salan, konkretləşdirən, yoxlama (ÖRNƏK 1). Təsəvvür edin ki, siz hansısa bir Cənub şəhərinin meri ilə şəhərin tarixi mərkəzi haqqında müsahibə aparırsınız.

ÖRNƏK 1

Əsas sual *Əlavə sual*	*Cənab mer, İçəri Şəhər niyə məhv olur?* *Şəhərin tarixi mərkəzində təzə tikilileri necə izah edirsiniz?*
Başlanğıc sual *Aralıq sual*	*Son dəfə İçəri Şəhərdə nə vaxt olmusunuz?* *Nə üçün İçəri Şəhəri belə sevirsiniz?*
Dəqiqləşdirici sual	*Dediniz ki, İçəri Şəhərin bərpasına ... manat pul ayrılıb?*

Konkretləşdirici sual	*Periferiyada tikilən bir yeni yaşayış binası təqribən bu miqdar pula başa gəlir, deyilmi?*
Yada salan sual *Konkretləşdirən sual* *Yoxlama sualı*	*Gəncliyinizin İçəri Şəhərini necə xatırlayırsınız?* *Gəncliyiniz Bakıda keçib?* *Cənub şəhərindən başqa, dünya şəhərlərindən hansının meri olmaq istərdiniz?*

Çalışın ki, apardığınız söhbətdə bu sual tiplərinin hamısı olsun. Belə mürəkkəb konstruksiyalı suallar həmsöhbətinizə mövzudan yayınmağa imkan verməyəcək.

Amerikalı araşdırmaçı Ceyms Barnett müsahibəni məqsədlərinə görə, iki yerə ayırır:

1. İnformasiya almaq;
2. Araşdırma obyektiniz olan şəxsin pozisiyasını öyrənmək.

YADDAŞ: **Araşdırma öncəsi hazırlığın mərhələləri**

1. Elektron baza faktlarına baxmalı.
2. Sənədlərlə tanış olmalı və olayları xronoloji ardıcıllıqla düzməli. Özünüz üçün nəyin və nə vaxt baş verdiyini aydınlaşdırmalı.
3. Araşdırma predmeti ilə bağlı qanun və normativ sənədləri gözdən keçirməli.

Araşdırmada müsahibələr

Araşdırmada müsahiblər iki yerə bölünür:

1. Mərkəzi (əsas) müsahib. Araşdırmanın obyektindən götürülür.
2. Yardımçı müsahiblər.

Özünüz üçün belə bir qayda müəyyənləşdirin; müsahibiniz araşdırma obyektinə birmənalı antipatiya ilə yanaşırsa, ondan obyektin yaxşı tərəfləri barədə danışmağı xahiş edin. Və əksinə, araşdırma obyektinə tərəf olan müsahibdən obyektin mənfi tərəflərini soruşun. Bu halda balanslaşdırılmış qiymət öz-özünə üzə çıxır, hüquqi baxımdan isə pis məramınız olmadığını təsdiqləyirsiniz. Bu qaydanın bir üstün tərəfi də var: müsahibinizin obyektivliyini qiymətləndirmək şansı qazanırsınız, yaxud onun araşdırma obyektinə ən radikal pozisiyada durduğunu görürsünüz. Radikal baxış bucaqlarına çox inanmayın. Adətən həqiqət kənar baxış bucaqlarında deyil, haradasa ortada olur.

Əsas araşdırma obyektinizlə bağlı müsahiblə söhbətə iki “dəst” suallarla gedin: biri tam proqramla, ikincisi hər ehtimala qarşı qısaldılmış variantla.

Suallarınızı dəqiq, aydın, konkret və anlaşıqlı formalaşdırın. Ən yaxşısı sadə suallardı (Örnək 2).

ÖRNƏK 2

- *Bir nəfər ruhi xəstənin müalicəsinə dövlət nə qədər pul ayırır?*
- *İstehlak səbətinin tutumu nəyə əsasən hesablanır?*
- *Özəl qurumlarda vətəndaşlarım əmək şəraitinə nəzarət neçə həyata keçirilir?*
- *Ali məktəblərdə test imtahanlarının şəffaflığı necə təmin olunur?*
- *Səhərdə qara qarğa populyasiyasının artmasını ornitoloqlar necə izah edirlər?*

Bilin ki, sualın qoyuluşunda belə müəyyən informasiya var. **Öncədən müsahibinizə söhbətin predmetindən nə dərəcədə bilgili olduğunuzu göstərəcəyinizi də nəzərə alın.**

Bəzən elə olur ki, respondent müəyyən səbəblərdən, ya sizdən xoşu gəlmir, ya qəzetinizi sevmir, ya qorxur, heç vəchlə malik olduğu informasiyanı sizinlə bölüşmək istəmir. Müsahibinizə araşdırma mövzusunun sosial əhəmiyyətini izah edin. Onu hansısa bildiyiniz informasiya ilə şirniklendirin. Elə faktı xatırladın ki, müsahib onun yanından laqeyd keçə bilməsin.

Bəzən, ola bilsin ki, müsahib kömək etmək istəyir, lakin sizi maraqlandıran olaylar onun yadından çıxıb. Bu halda müsahibinizdə assosiasiyalar oyatmağa çalışın. Sizin üçün vacib epizodu onunla birgə səsləndirin. Özünüz də yada salın, həmin gün hava necə idi, qəzetlər nədən yazırdılar, televizorda hansı veriliş gedirdi və s. Səhər evdən çıxanda həmsöhbətiniz kimə rast gəldi. Səhər nə yeyib və s. Bu faktlar zənciri onu sizə lazım olan faktlara gətirib çıxaracaq.

Hökmən müsahibinizin temperamentini nəzərə alın. Psixoloji tipindən asılı olaraq söhbətdə adamlara müxtəlif cür təsir etmək olar. Xolerik, melanxolik və fleqmatiklər olayın detallarını yadda saxlamırlar. Onlarla ünsiyyətdə səbrli, həssas, nəzakətli olmaq gərəkdi. Sanqviniklərə isə tələbkarlıq, ciddilik daha çox təsir edir.

Söhbətin ilk frazaları, tonallığı çox vacibdi. Özünüzü tanıdandan sonra müsahibinizin adını, soyadını, vəzifəsini qeyd edin. Ola bilər ki, sonra sizin buna sadəcə imkanınız olmasın.

Müsahibinizdən xoşunuz gəlmirsə, bunu heç cür üzə vurmayın. Əgər əvvəlcədən konfliktə getsəniz, söhbətiniz alınmayacaq. Eyni zamanda da müsahibin qarşısında kobud ifadəyə görə üzr istəyirəm, dondurma kimi "əriməyin". Müsahib belə nəticəyə gələ bilər ki, o verəcəyi informasiyada siz çox maraqlısınız. Ona görə də böyük emosional hazırlıq nümayiş etdirməyin.

Yaddaş:

Siz bu qaydalara əməl etməməklə kiminsə xətrinə dəyə bilərsiniz

- Davranışınızla bağlı sizə qarşı neqativ münasibət doğuracaq heç bir hərəkət etməyin. Xoşgörünümlü, səliqəli olun, öz peşənizin əhəmiyyəti ilə öyünməyin.
- İlk dəfə gördüyünüz müsahibin gözlərinə uzun-uzadı baxmayasınız. Bəzi tip adamları bu qorxuda bilər, onlar sizin aqressiv olduğunuzu düşünə bilərlər.
- ***Yaşlılarla söhbət*** vaxtı onların üzünə baxmayın. Bizim düşünüşümüzə, mentallığımıza əsasən bu nəzakətsizlik, qabalıq kimi qəbul olunur yaşlılar tərəfindən. Ən yaxşısı, onlarla yanaşı addımlayaraq, yaşlı müsahibin baxdığı istiqamətə baxasınız.
- ***Cavanlarla söhbət*** zamanı əksinə, onların üzünə baxın. Jestikulyasiya arzuolunandı. Onlar sizi "özününkü" kimi qəbul edəcəklər.
- Sizi maraqlandıran şəxsin *"yaşam ortamına"* öncədən köklənin. Prezentasiya, yaxud iri bir şirkətin ofisinə gedirsinizsə, etiket tələb etdiyi kimi geyinin.
- Sizin azad peşəniz özgələrin qaydalarını pozmağa haqq vermir.

Eynilə də, kasıb ortamda, mitinq edənlərin, etiraz aksiyaları keçirənlərin arasında öz eksklüziv ayaqqabılarınız, yaxud böyük qazancınızla öyünməyin. Həm təkəbbürlülük, həm də primitivlik sizin nüfuzunuzu eyni dərəcədə aşağı sala bilər.

Söhbət əsnasında müsahibinizin yaxşı keyfiyyətlərini qabardın. Göstərin ki, siz bu keyfiyyətlərdən xəbərdarsınız, onları yüksək qiymətləndirirsiniz.

O saat diktofonu çıxarıb stolun üstünə qoymayın. Onu bir azdan söhbətin əsas hissəsinə çatanda üzə çıxarın. Deyin ki, diktofonu yalnız söhbətdə heç nəyi unutmamaq üçün gətirmisiniz, yaddaşınız zəifdi. Əgər bu arqumentlər müsahibi inandırmadısa, diktofonu yığışdırmalı olacaqsınız. Gizli audioyazı aparmaq qorxuludu. Texnika xarab ola bilər. Sizi ifşa edə bilərlər.

Tərs, informasiya ilə bölüşmək istəməyən müsahiblərlə bu texniki priyomlardan faydalanın.

- Pauza- sual verdiniz, cavab aldınız. Tələsik növbəti suala keçməyin. "Təzə başlayan jurnalisti pauzalardan qorxmağından tanıyırsan.[42] Növbəti sualı verməkdənsə gözləyin. Çox vaxt müsahib elə bilir ki, o sizə dolğun cavab vermədi. İstədiyindən daha artıq danışmağa başlayır. Serqey Muratov kitabında belə bir hadisəni təsvir edir.

MARAQLIDI

Lazım olandan artıq informasiya verməməyi qərarlaşdırmış sağ siyasətçi Miki Runi teleefirdədi. Jurnalist ona bir sual verir, ikincisini, üçüncüsünü və ... susur. Balıq kimi, sfinks kimi. Üzündə nəzakətli gözləyiş. Runi özlüyündə qərara alır ki, cavabı deyəsən dolğun deyil. Pauza qorxuncluqla artır, böyüyür. Efir vaxtı axır. Runi yenə nəsə əlavə edir, yenə də, yenə də.... özü demək istəmədiyi şeyləri danışmağa başlayır. Səhv buraxır, özü öz səhvini düzəltməyə çalışır, hər şey daha da qarışır. Sonda dialoq olası şey Runinin özünüifşa monoloquna çevrilir. Sonradan jurnalisti məhkəməyə vermək istəyən

[42] S.A Muratov .Televizionnoye obşenye v kadre u za kadrom. səh.58

Runiyə gülürlər- jurnalisti susmaqda günahlandıracaqsan? Runi susqu ilə imtahana dözmədi.

Pauza sizə müsahibdən almaq istədiyiniz informasiyanı aça bilər. Yeri gəlmişkən, treninq keçirdiyim auditoriyalardan birində bu metodu tələbələrin öz üzərində nümayiş etdirdim. Eksperiment üçün qrupda ən narahat və talantlı tələbəni seçdim. İki sualdan sonra susdum. Respondent düz 13 dəqiqə danışdı. Uşaqlara bu texnikanı açanda ... valeh oldular. Siz də sınayın. Dostunuz, rəfiqəniz, tanışınızla.

- Maraq oyadın. Söhbətdə araşdırma boyu üzə çıxardığınız bir-neçə kiçik faktı ötəri xatırladın. Bu faktlara qarşı müsahibiniz laqeyd olmamalıdı. O daha çox bilmək istəyir, sizdə daha hansı faktlar var, siz nə dərəcədə informasiyalısınız. Güman ki, müsahib ifşa olunacağından çəkinib sizə düzünü deyəcək.
- Ən yaxşı metod - tez-tez "Nə üçün?" sualını verin. Sadə sual hər şeydən yaxşıdı. Situasiyanı mürəkkəbləşdirməyin. Özü də müsahiblərinizin belə sadə tipli suallardan qaçmaq şansları çox azdı.
- Suallarınıza konkret forma verin. Belə suala birbaşa cavab almaq ehtimalı da böyükdü. Bir jurnalistimizin stilistikasında "Təbiətin bu oyanan, gül açan, çılğınlaşan vaxtında, saatın bu xoş məqamında, taleyin bu parlaq cilvəsində üzünüzü dərgaha tutaraq tanrıdan əfv diləməyə təşnə bəndələrə nə arzu edərdiniz, deyilmi?" tipli suallardan qaçın.

Sonrakı addımlarınız

Oxuduqlarınızdan belə nəticəyə gələ bilərsiniz ki, araşdırma bir-necə məlumatlı qaynaqla şirin-şirin “mırt vurub”, tələsik bir material üzə çıxarmaqdı? Heç deyil. Müsahibələr yalnız aysberqin görünən hissəsidi. Müsahibələrə qədər və sonra siz ciddi jurnalist işi aparmalısınız. Praktik və elmi ədəbiyyatda bununla bağlı minlərlə maraqlı məsləhətlər, bölüşmələr var. Başlanğıc üçün - hipoteziniz olmalıdı (Örnək 3). Hipotezinizin gerçəkliyini üç mərhələdə yoxlayırsınız.

Birincisi, iş yerinizdə. Fikirlərinizlə bölüşün: kolleqalarınızla, redaktorunuzla. Bu sizə problemə kənar baxış verəcək.

İkincisi, təxminlərinizi başqa, şəxslərin rəyləri ilə müqayisə edin. Yazınıza neqativ, yaxud ümumiyyətlə münasibəti çapdan öncə bilmək daha faydalıdı.

Üçüncüsü, hipotezi ya təsdiqləyən, ya rədd edən sənədlər axtarın.

Dediklərimi illüstrasiya etmək üçün örnəyə baxaq.

ÖRNƏK 3

HİPOTEZ

Şəhərimizə gətirilən minik avtomobillərinin çox hissəsi atmosferə insan sağlamlığı üçün təhlükəli birləşmələr buraxır.Bu maşınlar öz vətənlərində yararsız hala gətirildikdən sonra “üçüncü” ölkələrə satılır.

Sizin addımlarınız

BİRİNCİ ADDIM: BÖLÜŞÜN

Kolleqanız Əhmədov Məmməd üç ay öncə “MERSEDES- BENS” markalı on il sürülən avtomobil alıb. Sənədlərə əsasən, onun maşını ekoloji baxımdan tam təhlikəsizdi. O avtomobili alarkən texniki nəzarətdən keçib. Avtomobilin tam təhlükəsiz olduğunu təsdiqləyən möhür texniki baxış sənədlərində durur. Amma kolleqanız texniki baxış prosedurunun tam formal şey olduğunu da sizə deyir. Proses sadəcə müəyyən məbləğ rüsumun ödənilməsi ilə bitib.

İKİNCİ ADDIM: KƏNAR RƏYLƏR ÖYRƏNİN

Yaxşı tanışınız, əməkdaşlıq etdiyiniz ekspert ekoloq Əliyev Alı söhbətdə xatırladır ki, üç həftə boyu axşam saat 6-da “Sahil ” metrosu rayonunda aparılan ekoloji monitorinq və ölçmələr haqqında nazirlikdə müzakirə keçirilib. Nəticələr “ölünü qoy dirini ağladı”. Havada ağır metalların miqdarı normadan on dəfə artıqdı.

ÜÇÜNCÜ ADDIM: SƏNƏD AXTARIN

“Qaynaqlar” bölümündə verilən qaydada ekologiya ilə məşğul olan uyğun dövlət orqanına (bizim halda Ekologiya və Təbii Sərvətlər Nazirliyi) yazılı sorğu hazırlayın. Bu açıq tipli informasiya olduğundan, güman ki, sorğunuza cavab veriləcək. Aldığınız cavab sizin əlinizdə sənəddir. O sizin hipotezi ya təsdiqləyəçək, ya rədd edəcək. Fərz edək ki, cavab almadınız. Bu halda siz ekologiya problemləri ilə məşğul olan elmi institutlara, qeyri-hökumət təşkilatlarına (QHT) müraciət edərək öz təxmininizin gerçək olub-olmadığı haqqında sənəd tapın. Həmən ərazidə on ildən artıq yaşayan sakinlərin siyahısını götürün. Bunun üçün AR-də və bütövlükdə bütün postsovet məkanında çox hörmətli Mənzil İstismar İdarəsinə yanaşın. Həmən rayona xidmət edən poliklinikalara baş vurun. O ərazidə yaşamış

adamların ölüm səbəblərini toplayın, nəticələri kompüterə salın və təhlil edin. Təhsil Nazirliyində həmən ərazidə neçə məktəb, bağça olduğunu öyrənin. Ümümdünya Səhiyyə Təşkilatinin rəsmi saytlarından havada ağır metal və qurğuşun birləşmələrinin olması insan orqanizmində hansı dəyişikliklərə, hansı ağırlaşmalara gətirdiyini öyrənin. Topladığınız faktları müqayisə edin.

Yazını necə yazmalı

Jurnalist araşdırması, əslində, çap mediası üçün **"yüksək pilotaj**" sayılır. Bu formatda işləyən jurnalistlər jurnalistikada "önəmli bir işlə məşğuluq" deyə bilərlər. Janrın yaxşı tədqiqatçısı sayılan Ullmen araşdırma haqqında belə yazır: "*Ən yaxşı analitik materialların hazırlanması alimin işindən az fərqlənir. Hipotez, güman qurulur, mövzu ilə bağlı çap olunmuş materiallardan ibarət məlumat bazası nəzərdən keçirilir, müsahibələr aparılır, qaynaqlar öyrənilir, hipotezin mənfi və müsbət tərəfləri müqayisə edilir, nəticələrə gəlinir və bu nəticələr dərc edilir*".

Reportyor topladığı materialı elə qurmalıdı ki, oxucuya zərbənin istiqamətini, araşdırmanın mahiyyətini göstərsin. Əsas olayı jurnalistin necə göstərəcəyini süjet müəyyənləşdir. Süjeti qurdurduqdan sonra olayın məntiqi düzümündə uyğunsuzluqlar, boşluqlar üzə çıxır. Bu boşluqları doldurmaq üçün əlavə araşdırmalar, yeni müsahibələr, sənədlər tələb olunacaq. Daha sonrası reportyor ağlının, reportyor fantaziyasının işidi.

Yanlış olaraq yazını sonda, faktlar tam yığıb qurtarandan sonra yazmağa başlamayın. "Jurnalistikanın mahiyyəti, əslində, fikirləri sözlərlə ifadə etməkdi, bu prosesi uzatmaq düz deyil" (Ullmen). Araşdırma boyu

paralel olaraq yazını da yazın. Onda siz ehtiyac duyulan detalları, məntiqi "zəncirdə" hansı halqanın çatmadığını asanlıqla üzə çıxaracaqsınız. Amerikalı jurnalist-praktiklər araşdırmanı böyük bir "pazzl" (kiçik, bölünmüş fraqmentlərdən böyük şəklin yığılması ilə bağlı uşaq oyunu) yığırmış kimi aparırlar. Ayrı-ayrı, ilk baxışdan az əlaqəsi olan müxtəlif olaylar, faktlar, rəylər toplanır, pazlldakı kimi tutuşdurulur, sonucda böyük bir mənzərə alırlar. Nəzərə alın ki, Amerikada informasiya infrastrukturu çox inkişaf edib. Bizim təsəvvür edə biləcəyimizdən də çox.

Araşdırma jurnalistikasında çətinliklər

İnformasiya qaynaqlarına çıxış imkanları sizi məlumatlandıracaq qaynaqları tapmaq kifayət qədər problematikdi. Hansısa yazılı sənədləri əldə etməksə ondan da çətindi. Bir faktın, yaxud pozuntunun sübutunu almaq üçün bəzən aylarla gözləməli olacaqsan.

Yeni üsullara yiyələnməli. Jurnalistlər üçün haçansa cah-cəlal sayılan bəzi üsullar araşdırma, analitik jurnalistikası üçün adi iş standartlarıdı. Kompüter texnologiyalarını bilməyən, böyük sənədlər, bilgilər massivi ilə işləməyi bacarmayan jurnalistdən çətin ki, yaxşı araşdırmaçı çıxsın.

Araşdırma predmetini bilməmək. İşə başlarkən biz adətən araşdıracağımız predmetdən, əsas iştirakçılardan, qəbul olunmuş normalardan, bu normaların pozulma üsullarından çox az bilgilərimiz olur. Bəzən biz süjetin araşdırmaya layiq olub-olmadığını belə özümüz üçün müəyyənləşdirə bilmirik.

Təzyiq. Adətən jurnalistə iki istiqamətdə təzyiq edilir. Ya araşdırmanı kəsmək, ya da onu tez qurtarmaq tələbi ilə. Jurnalist araşdırmasının hədəfində saxlanılan şəxslər və təşkilatlar adətən redaktorlara, naşirlərə,

rəhbərlərə şikayətlər edirlər. Jurnalist-araşdırmaçılar dəfələrlə belə təzyiqlərlə rastlaşırlar.

Zaman. Zaman istənilən ciddi jurnalist işinin düşmənidi. Redaksiyaya materialları vermək vaxtından əlavə, digər rəqib nəşrlərin də oxşar materialı çap etmək ehtimalı olur. Jurnalist materiallarından vaxtındalıq və eksklüzivlik tələb olunur.

Hüquqi problemlər. Araşdırma aparan jurnalistlər daim qarayaxma, özəl həyata müdaxilə və s. üçün məhkəməyə cəlb olunacaqları təhlükəsi altındadırlar. Yadda saxlayın ki, hər dəfə məhkəmədə uduzub, qəzetinizin səhifələrində üzrxahlıq çap etdirməyiniz sizə və həmkarlarınıza oxucu inamını bir az qırır.

Çalışmalar:

1. *Yaşadığınız zonada çörək satılan mağazaların çörəyi hansı sexlərdən aldığını, onun hansı şəraitdə bişirildiyini araşdırın.*
2. *Azərbaycanda informasiya azadlığı ilə bağlı hüquqi sənədləri, qanunları araşdırın. Media azadlığı haqqında araşdırma materialı hazırlayın.*
3. *Bölümdəki ÖRNƏK 3 əsasında avtomobil yollarının keyfiyyəti haqqında hipotez hazırlayın və onun gerçəkliyini sübut etməyə çalışın.*
4. *ÖRNƏK 1-ə əsasən, yol departamentinin çinovnikinə bir il ərzində baş vermiş yol- qəza hadisələrinin statistikası haqqında suallar hazırlayın.*

Ədəbiyyat:

1. Уллмен Дж. Журналистские расследования: современные методы и техника. М., 2001. s. 68-74.
2. Константинов А. Журналистское расследование. История метода и современная практика. М., «Олма-Пресс», 2003. s. 31-35.
3. С.А. Муратов Телевизионное общение в кадре и за кадром. М., «Аспект Пресс», 1999. s. 62-63.
4. Рэндалл Д. Универсальный журналист. М., ProMedia, 1996. s. 39-47.
5. Gun işığı qaçılmazdır. Media hüququ institutu. Bakı, 2005. s. 24-27.

İZAHLI SÖZLÜK

Azərbaycanca	İngiliscə	İzah
Araşdırma	**İnvestigation**	**Az öyrənilmiş, qapalı, gizlədilən mvzunun hərtərəfli və bütün detalları ilə öyrənilməsdir**
Balanslılıq	*Balance*	Peşəkarcasına yazılmış yazılara xas xüsusiyyətdir. Reportyor fikir plüralizminə nail olmaq üçün olay barədə hakim baxışla yanaşı, eyni zamanda əks, fərqli və tamamlayıcı baxışları təqdim edir, beləliklə, çoxsəslilik, baxış bolluğu yaradır. Ənənəvi jurnalistikada obyektivlik (objectivity) kimi təsnif olunur.
Redaksiya yazısı	*Editorial*	Cəmiyyət üçün önəmli hadisə barədə redaksiyanın öz mövqeyini bildirdiyi yazıya deyilir. Redaksiya yazısını adətən baş redaktor, icraçı redaktor, aparıcı şöbənin rəhbəri və ya peşəkar jurnalist yazır.
Çevrilmiş piramida	*İnverted pyramid*	İsti xəbərin yazılma üsullarından biridir. Bu üsula əsasən, xəbərin canı, cövhəri yazının əvvəlində - liddə verilir. Sonrakı cümlə lidi dəstəkləyərək onu gücləndirir. Daha

		sonra informasiya önəmlilik dərəcəsinə görə (önəmlidən daha önəmsizə doğru) düzülür.
Yoxlama	*Verification*	Reportyorun mənbənin verdiyi informasiyanın düzgünlüyünü yoxlamaq üçün atdığı addımlardır. Bu addımlar müşahidə, mənbələrlə söhbət və sənədlərlə iş ola bilər.
Gövdə, əsas hissə	*Body*	Yazının ən geniş hissəsidir. Bu hissədə mövzu incələnir, detallara, sitatlara yer verilir.
İnsan marağı	Human interest	Oxucunun hisslərini ehtizaza gətirən hadisə və ya situasiya.
İstinad	*Attribution*	Sitatın və ya informasiyanın qaynağının göstərilmə üsulu.
İsti xəbər	*Hard news,*	Baş vermiş olay barədə oxucuya operativ çatdırılmalı olan xəbər.
Keçid abzası	*Nut paragraph*	Soyuq xəbərin lidini yazının gövdəsi ilə birləşdirən abzas.
Kontekst	*Context*	Yazıda söhbət açılan olayın ümumi durumu barədə informasiya. Oxucuya hadisəni daha yaxşı anlamağa kömək edir.
Qaynar xəbər	*Breaking news*	İndicə baş vermiş, hələ bitməyən, dolğun açıqlanma imkanı olmayan oxucuya təcili çatdırılmalı olan xəbər.

Qərəzsizlik	*İmpartiality*	Jurnalistin rəğbət və nifrəti üzərindəki nəzarətidir. Müəllif özünün rəyini və yaşantılarını yazıdan ayırır, oxucuya yalnız faktları çatdırır.
Lid **Birbaşa lid** **Dolayı lid**	*Lead* Direct lead İndirect lead	Xəbərin başlanğıcı, qısa xülasəsidir. Birbaşa liddə olayın ən önəmli məqamı ləngidilmədən oxucuya xəbərlənir. İsti xəbərin lidi birbaşa liddir. Dolayı liddə müəllif mövzuya birbaşa keçmir, oxucunun diqqətini çəkmək üçün yazını hər hansı bir əhvalatın nəqli və ya səhnənin təsviri ilə başlayır. Soyuq xəbərin lidi adətən dolayı lid olur.
Soyuq xəbər	*Soft news, Feature*	İnsan marağına hesablanan, informativ və ya əyləncə səpkili, xüsusi araşdırma tələb edən yazı. Post-faktum xarakterli olur.
Ön tarixçə, qaynaq informasiya	*Background*	Olay barədə keçmişdə baş vermiş, onunla birbaşa bağlılığı olan informasiya. Oxucunun hadisəni daha yaxşı anlamasına xidmət edir.
Rakurs, baxış bucağı	*Angle*	Yazını qələmə almaq üçün müəllifin seçdiyi fərqli bir baxış bucağı, yanaşma tərzi. İstənilən mövzunun

		müxtəlif aspektləri ola bilər. Jurnalist bunlardan yalnız birini seçərək, mövzuya həmin aspektdən yanaşır və yazının fokusunu müəyyənləşdirir.
Vicdanlılıq	*Fairness*	Yalan və uydurmaya yol verməmək deməkdir.

1. Civə ilə Alovun şəkilləri. “Tələbələrə” mətninin altında. Şəkilaltı: “Mən Civəyəm” , “Mənsə Alov”, “Biz xəbərçilərik”.
2. Civə 2. Xəbərin öz arşını var. (Fəsil 1. Xəbərin digər elementləri)
3. Civə 3. İnadkarlıq iki ayağı bir başmağa soxmaq deyil (Fəsil 2. Reportyor kimdir)
4. Civə 4. Bu qədər də informasiya olar? Lap başımdan tüstü çıxır (Fəsil 3)
5. Alov 7. Sənədlər altında qalan, görəsən, Civədir, ya Alov? (Fəsil 5)
6. Civə 5. Kaş piramidaları çevirə biləydim... (Fəsil 6)
7. Civə 6. Xəbəri də qızdırmaq olur... (Fəsil 7)
8. Alov 8. Bu ləpir o ləpirdən deyil (Fəsil 9)